ƏLİ NAĞIYEV, VAHİD NOVRUZOV,
HƏSƏN ALLAHVERDİYEV, ƏLİ ƏLİRZAYEV

# HEYDƏR ƏLİYEV

## və

# AZƏRBAYCAN İQTİSADİYYATI

AZƏRBAYCAN DÖVLƏT NƏŞRİYYATI
BAKI–1998

BBK 33s
N 12

Rəyçi
Azərbaycan EA müxbir üzvü
*Ağasəlim Ələsgərov*

Buraxılışına məsul
*Vasif Kərimov*

Ə. Nağıyev, V. Novruzov, H. Allahverdiyev, Ə. Əlirzayev.
N 12 Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı – Bakı, «Azərnəşr» – 1998. səh. 388.

Kitabda 1969–1997-ci illərdə Azərbaycan Respublikasınd iqtisadiyyatın inkişafında, bazar münasibətlərinin formalaşmasında, islahatların həyata keçirilməsində, xarici iqtisadi əlaqələrin geniş vüsət almasında Azərbaycan Respublikasının Prezidenti, dünya şöhrətli siyasətçi və müdrik dövlət xadimi Heydər Əliyevin böyük rolu, təşkilatçılıq məharəti, peşəkar idarəçilik səriştəsi və zəngin iş təcrübəsi, onun yeritdiyi düzgün və səmərəli sosial-iqtisadi siyasət konkret faktlar, materiallar və rəsmi sənədlər əsasında tədqiq edilir.

Kitab mütəxəssislər, iqtisadi problemlərlə maraqlananlar, habelə geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

N $\frac{0605010407}{M\text{–}651(07)\text{–}98}$

BBK 33s
© Ə. Nağıyev və b.

# ÖN SÖZ

Milli müstəqilliyimizin və dövlət suverenliyimizin qorunması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi, iqtisadiyyatımızın yeni münasibətlər zəminində qurulması baxımından son illər respublikamızın ictimai-siyasi və iqtisadi həyatında xüsusi əhəmiyyət kəsb edən dövr olmuşdur. Keçmiş Sovetlər İttifaqı dağıldıqdan sonra Azərbaycan Respublikası keçid dövrünün siyasi və sosial-iqtisadi böhranlar girdabına düşərək öz inkişafının ən mürəkkəb və ziddiyyətli dövrünü yaşamışdır. Artıq öz tabeliyindəki respublikaları ınzibati-iqtisadi metodlarla idarə etməklə iqtisadi səmərə qazana bilməyən SSRİ dövləti "yenidənqurma" adlandırdığı bir siyasətlə respublikalara müəyyən sərbəstliklər verməklə vəziyyəti sabitləşdirməyə çalışmış, nəticədə bu prosesi nəzarət dairəsində saxlaya bilməmişdir.

Bu gün iftixarla deyə bilərik ki, Azərbaycan xalqı həmin dövrün demokratikləşmə yolunun fəal iştirakçısı olmuş və onun adı tarixdə Sovetlər İttifaqının boyunduruğundan azad olan ilk respublikalar arasında çəkilir.

Azərbaycan Respublikasının keçmiş Sovetlər İttifaqında və bütün dünyada gedən tarixi proseslərin təbii nəticəsi olaraq əldə etdiyi dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir. Bu müstəqillik Azərbaycan dövləti, onun bütün vətəndaşları qarşısında demokratik və hüquqi dövlətin formalaşdırılması, respublikanın ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsi, onun tez bir zamanda

müharibə vəziyyətindən çıxarılması, Qarabağ probleminin həlli, öz vətəndaşlarına firavan həyat şəraiti yaradılması kimi çox məsul, şərəfli və eləcə də mürəkkəb vəzifələr qoymuşdur.

Azərbaycanda müstəqilliyin möhkəmləndirilməsi, demokratik, hüquqi, sivilizasiyalı dövlət yaradılması hərtərəfli iş aparılmasını, respublikanın bütün ictimai-siyasi qüvvələrindən, sosial-iqtisadi və intellektual potensialından istifadə olunmasını zəruri etmişdir.

Sosializm quruluşu "hər kəsdən qabiliyyətinə görə, hər kəsə əməyinə görə" prinsipini özünün ali sosial ədalət prinsipi elan etsə də, əslində bu gözəl fikir həyatda öz əksini tam mənada tapa bilməmiş, əksinə, çox eybəcər şəkildə hamının maddi rifahı "minimum" səviyyədə bərabərləşdirilmiş və bu, öz iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında quran dünya dövlətlərində olduğundan xeyli aşağı səviyyədə təzahür etmişdir.

Müstəqilliyinin ilk illərində Azərbaycan Respublikası çox ağır siyasi, iqtisadi, sosial və mənəvi böhran dövrünü yaşamışdır. Keçid dövrü nə qədər çətin olsa da, sakitliyin, əmin-amanlığın qorunması, Azərbaycanın müstəqil demokratik dövlət kimi inkişaf etməsi naminə yaranmış vəziyyətdən çıxmaq üçün dövlətin xarici və daxili siyasətində qəti tədbirlər görülməsi tələb olunurdu.

Lakin Azərbaycan Respublikası Rusiyanın liberal-monetarist doktrina əsasında həyata keçirdiyi "şok terapiyası" iqtisadi islahatlarının təsirinə məruz qaldı. Həmin dövrdə iqtisadi uğursuzluqlar zəncirvari proses kimi iqtisadiyyatın

bütün sahələrinə yayılmış və ona sağalmaz yaralar vurmuşdu. Nəticədə, hələ keçmiş Sovetlər İttifaqının tərkibində dotasiya almayan Azərbaycan Respublikası xarici yardımlardan asılı vəziyyətə düşmüşdü. Moskva isə müstəqilliyə doğru addım atmış Azərbaycan xalqına qarşı onun istiqlaliyyətinə mane olan, hətta onu məhv etməyə çalışan qüvvələrə istinad etdi.

Müstəqil Azərbaycan dövlətçiliyini təsəvvürünə belə gətirə bilməyən, Azərbaycanın SSRİ-dən kənarda mövcudluğuna şübhə ilə yanaşan və öz qərarlarında, fikirlərində heç vaxt müstəqil olmayan, Moskvadan təyin edilən rəhbərlər nə müstəqil dövlət yaratmaq,nə də onun ideologiyasını, prinsiplərini düşünmək iqtidarında idilər.

Müstəqilliyinin ilk illərində Azərbaycan xalqına "açarı Moskvanın əlində olan mexaniki oyuncaq rəhbərlərin" həyata keçirdikləri diktatura və terror miras qalmışdı.

SSRİ-nin dağılmağa başladığı dövrdən Heydər Əliyevin Azərbaycana rəhbərlik etməyə başladığı dövrə qədərki müddətdə respublikaya rəhbərlik edənlər tarixi məsuliyyətlərini dərk etmədiklərindən, milli hisslərdən, milli ideologiyadan uzaq olduqlarından, zəruri bilik, savad və səriştəyə, dövlətçilik təcrübəsinə malik olmadıqlarından Azərbaycan xalqını müsibətlərə düçar qoydular: torpaqların 20 faizi işğal olundu, 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkünə çevrildi, işğal olunmuş ərazilərdə 300 minədək iş yeri itirildi, işğal nəticəsində ölkəyə 40 milyard ABŞ dolları həcmində ziyan vuruldu.

Bu dövrdə Azərbaycan xalqının başına gələn bəlalardan, müstəqillik uğrunda verdiyi qurbanlardan, ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı mübarizədə həlak olmuş mərd oğullardan, erməni işğalçıları tərəfindən zəbt edilən ərazilərdə girov götürülənlərdən, erməni faşizminin qurbanı olmuş körpələrdən, müstəqillik və milli ideologiyanın nə olduğunu dərk etməyərək terror əməllərinə cəlb edilənlərdən və bütün bunlara təbii baxan, fəaliyyətsizliyinin məntiqi nəticəsi kimi, yaranmış vəziyyətdən baş çıxarmayaraq aradan çıxan üzdəniraq keçmiş dövlət rəhbərlərindən çox danışmaq və misallar gətirmək olar. Həmin illərdə "yaman günün ömrü az olar" kəlməsini dilində əzbər edərək özünə təskinlik verən, lakin uzun müddət yaman günlərə qalmış Azərbaycan xalqının bəxtində müdrik şəxsiyyət, müdrik rəhbər - Heydər Əliyev qisməti varmış.

Heydər Əliyevin rəhbərliyə qayıdışı ilə Azərbaycan xalqı müsibətlərdən yaxa qurtarmağa başladı, müharibə dayandırıldı, Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli istiqamətində inamlı addımlar atıldı, nizami ordunun yaradılması və ölkənin müdafiə qüdrətinin yüksəldilməsi sahəsində mühüm işlər görüldü, hərc-mərcliyin qarşısı alınaraq siyasi sabitlik şəraiti yaradıldı, müstəqil Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu işlərinə başlanıldı.

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasının Heydər Əliyev tərəfindən düzgün seçildiyini artıq 1996-cı ildə aydın müşahidə olunan iqtisadi sabitləşmə və 1997-ci ildə sosial-iqtisadi inkişafın müsbət nəticələri sübut

edir. Qeyd etməliyik ki, iqtisadi dirçəlişə belə qısa vaxtda nail olunmasında iqtisadi amillərin rolu varsa da, şəxsiyyət amilinin - Heydər Əliyev uzaqgörənliyinin, Heydər Əliyev zəkasının və müdrikliyinin, Heydər Əliyev rəhbərliyinin əhəmiyyəti həlledici olmuşdur.

Heç şübhəsiz ki, cəmiyyətin demokratik inkişaf yolu ilə irəliləməsi, dövlətimizin beynəlxalq aləmdə tanınması, azad bazar iqtisadiyyatı prinsiplərinin tətbiqi və bir sıra ölkədaxili iqtisadi islahatların keçirilməsi, o cümlədən, özəlləşdirmənin geniş vüsət alması, aqrar islahatların aparılması, xarici investisiyaların iqtisadiyyatımıza sürətli axınının başlanması və Azərbaycanın dünyanın neft mərkəzlərindən birinə çevrilməsi, ən nəhayət, müstəqil dövlətimizin demokratik Konstitusiyasının qəbul olunması Azərbaycan Prezidentinin hakimiyyətə qayıdışından sonrakı dörd ildə apardığı məqsədyönlü siyasətin, müdrik fəaliyyətin məntiqi nəticəsidir. Heydər Əliyevin Türkiyənin "Nərgiz TV" televiziya kanalının keçirdiyi rəy sorğusunda qalib gələrək "Dünyada ilin adamı" fəxri adına layiq görülməsi də onun bu xidmətlərinin dünya miqyasında etiraf edilməsinin parlaq nümunəsidir.

Heydər Əliyev islahatlarının dünya təcrübəsində müşahidə edilən digər iqtisadi proqramlardan başlıca fərqi ondan ibarətdir ki, onun ardıcıl olaraq apardığı iqtisadi və siyasi islahatlar ölkəni müharibə və sarsıntılardan xilas etdi, Azərbaycanı 1993-cü ildəki fəlakətlərdən 1997-ci ildəki iqtisadi nəticələrə gətirib çıxardı.

Hələ 1993-cü ildə ölkədə sosial-iqtisadi vəziyyətin ağır

olmasına baxmayaraq, Prezident tərəfindən nəticəsi indi-indi bəlli olan müəyyən tədbirlər görülmüşdür. Həmin il iqtisadiyyata investisiya qoyuluşunun azalma sürəti zəiflədi (40,3 faizdən 39,1 faizədək). İnvestisiya qoyuluşunun azalma sürəti səngisə də, hələlik ümumi daxili məhsulun artım sürətinə təsir edəcək qüvvədə deyildi.

Tənəzzülün sürətini azaltmaq sahəsində Prezident çox böyük səy göstərmiş, nəticədə ölkə iqtisadiyyatına 1994-cü ildə əvvəlki ildəkinə nisbətən 1,89 dəfə çox investisiya cəlb olunmuşdur ki, bunun da 48 faizini xarici investisiyalar təşkil etmişdir. 1995-ci ildə kapital qoyuluşu ancaq daxili imkanlar hesabına olsa da, 1994-cü ilin xarici investisiyası öz işini görürdü. 1995-ci ildə ümumi məhsulun azalma sürəti kəskin surətdə aşağı düşdü və əvvəlki ildəkinə nisbətən 12 faiz oldu (1994-cü ildə azalma 19,7 faiz idi). 1996-cı ildə bütün maliyyə mənbələri hesabına Azərbaycan iqtisadiyyatının inkişafına 2,6 trilyon manat məbləğində kapital qoyulmuşdur ki, bu da 1995-ci illə müqayisədə 74 faiz çoxdur. Beləliklə, tənəzzülün qarşısı alındı və investisiyanın həcmi 2,11 dəfə artırıldı ki, bunun da 45 faizini xarici investisiya təşkil edirdi. Artıq 1996-1997-ci illərin yekunları göstərdi ki, ölkə rəhbərliyinin iqtisadi inkişaf konsepsiyası real imkanlara əsaslanaraq işlənmişdir.

Pul-kredit siyasətinin ardıcıl həyata keçirilməsi ölkədə makroiqtisadi sabitliyə və inflyasiyanın tam dayanmasına gətirib çıxardı. İnflyasiya səviyyəsi 1997-ci ildə 4 faiz həddində olmuşdur ki, bu da Baltikyanı və MDB dövlətləri arasında ən yaxşı göstəricilərdən biridir. 1997-ci ilin yanvar-

oktyabr aylarında 1996-cı ilin müvafiq dövrünə nisbətən ixracın 30,1 faiz artımı və idxalın 20,2 faiz azalması nəticəsində ölkədə ilk dəfə təkrar ixracın əsas rolu olmadan müsbət ticarət balansı əldə edilmişdir.

Həyata keçirilən islahatların sistemliyi qiymət sahəsində də hiss olunmaqdadır. Belə ki, ilk dəfə olaraq istehlak qiymətlərinin indeksi əvvəlki dövrdəkinə nisbətən azalan sürətlə - 5,4 faiz artmışdır. Bu da keçən ilin artım sürətindən xeyli aşağıdır. İlk dəfə olaraq əhalinin pul gəliri artım sürətini üstələmişdir. Pərakəndə satış dövriyyəsinin artımı isə əhalinin alıcılıq qabiliyyətinin yüksəldiyini sübut edir.

Beləliklə, son dövrdə Azərbaycan Respublikasında aparılan iqtisadi islahatların müsbət nəticələri ardıcıl həyata keçirilən aşağıdakı sistemli iqtisadi addımların bəhrəsidir: 1994-cü ildə bazar mexanizmləri ünsürlərinin milli iqtisadiyyata daxil edilməsi və mövcud investisiya həcminin artırılması; 1995-ci ildə tənəzzülün dayandırılması üçün aparıcı bazar infrastrukturlarının yaradılması və işə salınması; 1996-cı ildə özəlləşdirmənin ilkin mərhələsinin başlanması və ölkə iqtisadiyyatına investisiya qoyuluşunun artırılması; atılmış addımların məntiqi nəticəsi kimi 1997-ci ildə magistral inkişaf xəttinə keçilməsi.

Böyük dəyişikliklər və islahatlar dövrünü yaşayan, bazar münasibətlərinə keçən və dünya iqtisadi sisteminə inteqrasiya olunan Azərbaycan iqtisadiyyatının müasir durumu və əldə edilmiş uğurlar Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dünya azərbaycanlılarına 1997-ci il 25 dekabr tarixli müraciətində öz dərin və hərtərəfli şərhini tapmışdır.

Mülkiyyət münasibətlərinin təkmilləşdirilməsi, aqrar islahatların və özəlləşdirmənin geniş vüsət alması, xarici iqtisadi əlaqələrin güclənməsi və istehsalın yenidən qurulması ölkə iqtisadiyyatında artıq bütün dünyada etiraf edilən köklü dəyişikliklərə gətirib çıxarmışdır.

Son illərdə Heydər Əliyev tərəfindən aparılan məqsədyönlü siyasət nəticəsində ölkənin iqtisadi həyatında qazanılmış ən mühüm nailiyyətlərdən biri kimi dünyanın inkişaf etmiş nüfuzlu şirkətləri ilə bağlanmış neft müqavilələrinin işləməyə başlaması və ilkin neftin 1997-ci ildə Qərb bazarlarına nəql olunması Azərbaycan iqtisadiyyatının gələcək inkişafı üçün geniş perspektivlər açmışdır.

Azərbaycan iqtisadiyyatında həyata keçirilən köklü dəyişikliklər ölkədə makroiqtisadi sabitliyi təmin etməklə bərabər, əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq üçün möhkəm zəmin yaradır.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu kitab faktik materialların və rəsmi dövlət sənədlərinin təhlili əsasında yazılmışdır. Kitabda 1969-1997-ci illərdə Heydər Əliyevin Azərbaycanın dövlət quruculuğunda, iqtisadiyyatının idarə olunmasında, təsərrüfatçılıqda məqsədyönlü, zəngin və çoxcəhətli əməli iş təcrübəsi ümumiləşdirilərək şərh edilir. Bununla yanaşı, həmin dövrdə sosial-iqtisadi inkişaf sahəsində əldə edilmiş böyük nailiyyətlərin geniş təhlili verilir, habelə gələcəkdə respublikanın sosial-iqtisadi irəliləyişinin əsas istiqamətlərindən ətraflı bəhs olunur.

*I FƏSİL*

# AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

## 1.1. 70-ci illərin əvvəllərində Azərbaycanda sosial-iqtisadi durum

Cəmiyyətin bütün tarixi inkişaf mərhələlərində ən başlıca problem iqtisadiyyatın səmərəli təşkili və idarə edilməsi əsasında insanların maddi və mədəni həyat səviyyəsinin getdikcə yüksəldilməsi olmuş və olmaqda davam edir. Bu mühüm həyati problemin həllində hər bir tarixi dövrdə müəyyən tədbirlər görülsə də, 70-ci illərin əvvəllərinədək Azərbaycanın iqtisadi və sosial inkişafında lazımi dönüş yaradılmamışdır. Respublika əhalisi qeyd edilən problemlə daha kəskin şəkildə qarşılaşaraq, bir çox sosial-iqtisadi çətinliklərə məruz qalmış və onun doğurduğu ağır nəticələri çəkməyə məcbur olmuşdur.

Təhlil göstərir ki, həmin dövrə kimi Azərbaycanın mövcud iqtisadi potensialından heç də tam və səmərəli istifadə edilməmişdir. Odur ki, bütövlükdə xalq təsərrüfatının inkişafında mühüm irəliləyiş olmamış, sənayedə əsaslı struktur dəyişiklikləri demək olar ki, həyata keçirilməmişdir. Bu da istər-istəməz respublika iqtisadiyyatının ümumi inkişaf səviyyəsinə mənfi təsir göstərmişdir.

Qeyd etmək lazımdır ki, səkkizinci beşillikdə məcmu ictimai məhsul orta hesabla 35 faiz, milli gəlir 34 faiz,

kənd təsərrüfatı məhsulları istehsalı 27 faiz artmışdır. Lakin əldə edilən nailiyyətlər respublikanın real potensialı, xüsusilə onun əlverişli təbii-iqlim şəraiti baxımından heç də qənaətləndirici deyildir.

Belə ki, o dövrün rəhbərliyi idarəetmə üslubunda, ümumiyyətlə xalq təsərrüfatına rəhbərlikdə ciddi qüsurlara, hətta subyektivliyə yol verdiyinə, respublikanın əmək, material və maliyyə resurslarından lazımınca istifadə olunmasını təşkil edə bilmədiyinə görə Azərbaycanın iqtisadi və sosial inkişafı xeyli ləngiməklə, məhsuldar qüvvələrin inkişafına və səmərəli yerləşdirilməsinə şərait yaradılmamışdır. Yeni iş yerlərinin sayı əmək qabiliyyətli adamların sayına nisbətən son dərəcə aşağı idi, az-çox yaradılan sənaye obyektləri isə başlıca olaraq Bakı və Sumqayıt şəhərlərində yerləşdirilirdi. Kiçik və orta şəhərlərdə sənaye obyektləri çox az, onların istehsal gücü isə olduqca aşağı idi. Respublika rəhbərliyi tərəfindən təşəbbüskarlığın zəif olması nəticəsində sənaye məhsulları istehsalı əsasən Abşeron təbii-iqtisadi zonasında cəmləşdirilmişdi ki, bu da kənd yerlərindən, xüsusən kiçik və orta şəhərlərdən işçi qüvvəsinin Bakı şəhərinə axınına səbəb olmuşdu. Bu isə öz növbəsində respublikanın bölgələrində iqtisadi və sosial inkişafın qeyri-bərabərliyini dərinləşdirmişdi.

Azərbaycanda sənayenin əsas sahələri olan neft sənayesi, neftayırma, kimya, maşınqayırma və digər sənaye sahələrinin müəyyən inkişafına baxmayaraq, səkkizinci beşillikdə xalq təsərrüfatı üzrə ümumi plan tapşırıqları, o cümlədən sənayenin aparıcı sahəsi hesab edilən neft sənayesi üzrə plan tapşırığı yerinə yetirilməmişdir.

Elektrotexnika, dəqiq cihazqayırma və s. katalizator sənaye sahələri zəif inkişaf etdirilirdi. Nəticədə beşilliyin plan tapşırıqları xeyli kəsirdə qalmışdır. Belə ki, sənaye istehsalının ümumi artımı nəzərdə tutulan 1,6 dəfə əvəzinə, 1,37 dəfə, orta illik artım sürəti isə əvvəlki beşillikdən xeyli aşağı olmuşdur.

Yeyinti sənayesi, yüngül sənaye sahələrinin istehsal gücündən tam və səmərəli istifadə edilmirdi. Ən başlıcası isə ondan ibarətdir ki, respublikada, xüsusən Abşeron bölgəsində güclü istehsal potensialına uyğun sosial infrastruktur yaradılmamışdı. Abşeron bölgəsində respublika əhalisinin əksəriyyəti cəmləşdiyi halda, əhalinin içməli suya, mənzil sahəsinə tələbatı əsla ödənilmirdi və bu sosial problem getdikcə dərinləşirdi. İri sənaye mərkəzlərində - Bakıda, Sumqayıtda, Gəncədə və b. şəhərlərdə əhalinin məşğulluğu gərgin vəziyyətdə idi. Mərkəzləşdirilmiş əsaslı vəsait qoyuluşundan tam və səmərəli istifadə edilmədiyindən onun iqtisadi səmərəsi də aşağı səviyyədə qalırdı. Sosial yönümlü tikintiyə lazımınca fikir verilmədiyindən ümumtəhsil məktəblərində şagird yerləri çatışmırdı. Şəhərlərdə və xüsusən kənd yerlərində səhiyyə ocaqları şəbəkəsinin çatışmaması kəskin surətdə özünü göstərirdi.

Beləliklə, ölkənin inkişafında əsl böhran başlanmış və bu böhran getdikcə dərinləşirdi. Belə bir ağır iqtisadi və sosial şəraitdə rəhbərliyə gələn Heydər Əliyev mövcud vəziyyəti düzgün qiymətləndirmiş, siyasətdə, iqtisadiyyatda, sosial və mənəvi sahələrdə əsaslı dəyişikliklər həyata keçirilməsini, iqtisadiyyatın təşkili və inkişafı sahəsində dönüş

yaradılmasını bir vəzifə kimi qarşıya qoymuşdur. Qarşıda iqtisadiyyatı dirçəltmək və yenidən qurmaq üçün böyük və son dərəcə mürəkkəb işlər dururdu.

Təhlil göstərir ki, 1970-ci ilədək olan dövrlərdə iqtisadiyyat ləng inkişaf etmiş, onun artım sürəti nəzərə çarpacaq dərəcədə azalmışdı. Sənayedə fondverimi sürətlə aşağı düşürdü. İqtisadi durğunluq müvafiq sosial tədbirlərin həyata keçirilməsinə imkan vermirdi.

Səkkizinci beşillikdə sənaye istehsalında səmərəli və qabaqcıl texnologiyanın tətbiqi planı 68 faiz, əməyin mexanikləşdirilməsi və istehsal proseslərinin avtomatlaşdırılması planları 75 faiz yerinə yetirilmişdi. Müəssisələrdə boşdayanma, işçi qüvvəsi axıcılığı geniş miqyas almışdı. Məhsulun keyfiyyətinin yaxşılaşdırılması sahəsində demək olar ki, heç bir əsaslı tədbir görülmürdü. Odur ki, respublikada istehsal edilən sənaye məhsullarından heç biri dövlət keyfiyyət nişanı almamışdı. Kadrların seçilməsində və yerləşdirilməsində ciddi nöqsanlar vardı.

İqtisadi və sosial inkişafda xüsusi yeri olan kənd təsərrüfatı sahələrində də əldə edilən nəticələr səkkizinci beşillik planda nəzərdə tutulan göstəricilərdən xeyli geridə qalırdı. Kənd təsərrüfatı məhsullarının artım sürəti 1965-1970-ci illərdə nəzərdə tutulduğundan aşağı idi.

Səkkizinci beşilliyin plan göstəricilərinin təhlili göstərir ki, bütün kənd təsərrüfatı məhsulları üzrə beşillik plan tapşırıqları yerinə yetirilməmişdir. Həmin beşillikdə ümumi kənd təsərrüfatı məhsulu istehsalının artımı nəzərdə tutulan

29 faiz əvəzinə 23 faiz təşkil etmişdi. Mühüm strateji məhsul-pambıq istehsalı xeyli aşağı düşmüşdü. İctimai heyvandarlıqda mövcud olan ənənəvi gerilik davam edirdi. Mövcud torpaq fondundan səmərəli istifadə olunmurdu. Torpaqlarda meliorasiya-irriqasiya işləri bərbad vəziyyətə düşmüşdü. Buna görə də Azərbaycan kənd təsərrüfatı bitkilərinin və xüsusən heyvandarlığın məhsuldarlığı üzrə keçmiş müttəfiq respublikalar arasında sonuncu yeri tuturdu.

Kəndin sosial inkişafı, xüsusən məişət xidmətləri, mədəni quruculuq işləri acınacaqlı vəziyyət almışdı. Kənd yerlərində kənd təsərrüfatı məhsullarını emal edən sənaye obyektləri yox idi. Kənd təsərrüfatında əmək şəraiti dözülməz olduğundan gənclərin böyük əksəriyyəti şəhərlərə üz tuturdu. Bu cəhətdən vəziyyət dağ və dağətəyi rayonlarda daha gərgin olmuşdur.

Kənd yerlərində məktəbəqədər tərbiyə ocaqları yararsız binalarda yerləşirdi, tərbiyəçi-müəllimlər demək olar ki, yox idi. Ümumtəhsil məktəblərində müəllim çatışmırdı. Səhiyyə sahəsində də vəziyyət təxminən belə idi. Kəndin sosial cəhətdən yenidən qurulması qarşıda bir problem olaraq dururdu.

Məhz buna görə də respublikada iqtisadi və sosial tənəzzülün qarşısını almaq məqsədi ilə Azərbaycan Respublikasının rəhbərliyində mühüm dəyişiklik edildi - 1969-cu ilin iyul ayında Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi seçildi.

Respublikanı qısa müddətdə ağır iqtisadi və sosial və-

ziyyətdən çıxarmaq üçün son dərəcə gərgin və məqsədyönlü iş aparmaq tələb olunurdu. Bunun üçün Azərbaycanda hökm sürən iqtisadi və sosial geriliyin səbəblərini dərindən və hərtərəfli araşdırmaq yolunu əsas və başlıca vəzifə hesab edən Heydər Əliyev Azərbaycan KP MK-nın 1969-cu ilin avqust ayında keçirilən plenumunda son dərəcə prinsipial mövqedən bütövlükdə xalq təsərrüfatında, xüsusən onun ayrı-ayrı sahələrində vəziyyətin dərin və hərtərəfli təhlilini vermişdir. Respublika rəhbəri Azərbaycan iqtisadiyyatında baş vermiş obyektiv və subyektiv hallara öz münasibətini bildirməklə yanaşı, mövcud iqtisadi və sosial vəziyyətə düzgün siyasi qiymət vermişdir. Yaranmış son dərəcə ağır iqtisadi və sosial vəziyyətdən tezliklə xilas olmaq və yaxın gələcəkdə bu sahədə əsaslı dönüş yaratmaq üçün konkret tədbirlər planı avqust plenumu iştirakçılarına, habelə respublika əhalisinə çatdırılaraq, ölkədə səfərbərlik elan edildi.

Beləliklə, 1969-cu il iyul və avqust plenumları respublikanın sosial-iqtisadi inkişafını dərindən və hərtərəfli təhlil etdi, real vəziyyəti açıq-aydın xalqa çatdırdı, xalq təsərrüfatına rəhbərlikdəki ciddi və bağışlanmaz nöqsanlara qarşı mübarizənin gücləndirilməsinə, tənəzzülün aradan qaldırılmasına dair cari və perspektiv xarakterli təxirəsalınmaz tədbirlər kompleksi işləyib hazırladı və ardıcıl olaraq onların həyata keçirilməsinə başlandı. Geriliklə əlaqədar mövcud problemlərin vaxtında, düzgün və səmərəli həlli üçün 1970-ci il iyulun 25-də Sov.İKP Mərkəzi Komitəsi və SSRİ Nazirlər Soveti "Azərbaycan SSR-in xalq təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında" və "Azərbaycan

SSR-in kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında" mühüm qərarlar qəbul etdilər; həmin qərarlar respublikanın iqtisadi və sosial inkişafında həlledici rol oynadı. Göstərilən qərarlarla əlaqədar respublikada müvəffəqiyyətlə həyata keçirilən məqsədyönlü sosial-iqtisadi quruculuq işlərinin nəticələrinə görə Azərbaycan 1970-ci ildə Ümumittifaq sosializm yarışının qalibi oldu və keçici Qırmızı bayraqla, Oktyabr İnqilabı ordeni ilə təltif edildi.

Bütün bu müvəffəqiyyətlər və bununla bağlı Azərbaycanda 1970-1982-ci illərdə baş vermiş sosial-iqtisadi sıçrayışa nail olmağın real səbəbləri və inkişaf meylləri növbəti paraqrafda təhlil edilir.

## 1.2. 1970-1982-ci illərdə Azərbaycanda sosial-iqtisadi inkişaf meylləri və dinamikası

### 1.2.1. İqtisadi artım və dinamik yüksəliş

Respublika iqtisadiyyatında ənənəvi geriliyin qısa müddətdə aradan qaldırılması, iqtisadiyyatın sabitləşdirilməsi və bunun əsasında onun dinamik inkişafının təmin edilməsi son dərəcə gərgin işin, düzgün və səmərəli idarəetmənin nəticəsi kimi qiymətləndirilməlidir. Apardığımız araşdırmalar göstərir ki, maddi istehsalın bütün sahələrində, xüsusən sənaye və kənd təsərrüfatı sahələrində dərin struktur-keyfiyyət dəyişiklikləri baş vermişdir. Belə ki, müdrik respub-

lika rəhbəri xalq təsərrüfatının başlıca sahələrində - sənayedə, kənd təsərrüfatında, tikintidə və s. sahələrdə ciddi keyfiyyət dəyişiklikləri siyasətini nəinki doqquzuncu, həm də sonrakı beşilliklərdə əsas strateji xətt kimi qəbul etmiş, sənaye istehsalı sahələrinin yerləşdirilməsində mühüm addımlar atılmaqla, bütövlükdə iqtisadi və sosial sahədə yüksək inkişaf sürəti təmin edilmişdir.

Aşağıdakı cədvəl Azərbaycan Respublikasının iqtisadi və sosial inkişafında baş vermiş irəliləyişləri əks etdirir (bax: 1-ci cədvəl).

Cədvəldən göründüyü kimi, ölkəmizin iqtisadi və sosial inkişafında yüksək artım sürəti hər il üçün səciyyəvidir. Daha doğrusu, iqtisadi və sosial inkişafda sabit və dinamik inkişaf təmin edilmişdir. Belə ki, 1965-ci ilə nisbətən səkkizinci beşilliyin son 1970-ci ilində məcmu ictimai məhsul 34 faiz, milli gəlir istehsalı 33 faiz, sənaye məhsulları istehsalı 37 faiz, kənd təsərrüfatı məhsulları istehsalı 27 faiz, əsaslı vəsait qoyuluşu 43 faiz, xalq təsərrüfatının bütün sahələri üzrə əsas istehsal fondları 34 faiz artmışdır.

Xarakterik cəhətlərdən biri ondan ibarətdir ki, bütövlükdə hər bir iqtisadi və sosial inkişaf göstəricisi nəinki sabit, həm də ardıcıl surətdə yüksək inkişaf sürətinə malik olmuşdur.

Heydər Əliyevin müdrik rəhbərliyi sayəsində respublikada aparılan məqsədyönlü təşkilatçılıq işi və səmərəli idarəetmə, düzgün kadr siyasətinin həyata keçirilməsi əldə edilmiş naliyyətlərin başlıca amili olmuşdur. Belə ki, ardıcıl həyata keçirilən düzgün iqtisadi və sosial siyasət nəticəsində

*1-ci cədvəl*

Azərbaycan Respublikasının 1965-1982-ci illərdə sosial-iqtisadi inkişaf sürəti (faizlə)

| Göstəricilər | 1965=100 | 1969=100 | | 1970=100 | |
|---|---|---|---|---|---|
| | 1970 | 1970 | 1975 | 1980 | 1982 |
| Məcmu ictimai məhsul | 134 | 109 | 144 | 209 | 232 |
| Milli gəlir istehsalı | 133 | 109 | 139 | 204 | 230 |
| Xalq təsərrüfatının bütün sahələri üzrə əsas istehsal fondları | 134 | 108 | 136 | 191 | 220 |
| Bütün sənaye məhsulları | 137 | 109 | 150 | 220 | 247 |
| Ümumi kənd təsərrüfatı məhsulu | 127 | 118 | 134 | 205 | 225 |
| Bitkiçilik məhsulları | 129 | 121 | 142 | 243 | 266 |
| Heyvandarlıq məhsulları | 123 | 114 | 121 | 148 | 162 |
| Əsaslı vəsait qoyuluşu | 143 | 111 | 133 | 169 | 186 |
| İctimai əmək məhsuldarlığı | 128 | 108 | 124 | 161 | 173 |
| Əmək məhsuldarlığı: sənayedə | 127 | 108 | 134 | 172 | 188 |
| kənd təsərrüfatında | 124 | 117 | 119 | 172 | 188 |
| tikintidə | 118 | 108 | 126 | 148 | 158 |
| Xalq təsərrüfatı üzrə mənfəət (müqayisəli qiymətlərlə) | – | – | 158 | 244 | 274 |
| Adambaşına real gəlir | 129 | 109 | 117 | 142 | 151 |
| Fəhlə və qulluqçuların orta aylıq əmək haqqı | 121 | 105 | 114 | 135 | 141 |

uzunmüddətli geriliyə son qoyulmuş, xalq təsərrüfatının bütün sahələrində sabit və yüksək sürətli, dinamik artım əldə edilmişdir. Ölkədə bu və ya digər iş sahələrində adamların məsuliyyəti getdikcə artmış, əmək kollektivlərində möhkəm və sabit dövlət intizamı, son dərəcə işgüzar, sağlam mənəvi-psixoloji şərait yaradılmışdır.

Heydər Əliyev doqquzuncu və onuncu beşilliklərdə respublikamızda baş verən əsaslı irəliləyişlərdən bəhs edərkən göstərmişdir ki, bu illər quruculuq işlərinin vüsətinə görə respublikanın salnaməsində görkəmli yer tutur. Bu dövr iqtisadiyyatın bütün sahələrinin yüksək və sabit inkişaf sürəti ilə, onun bütün bölmələrinin inkişaf etmiş sosializm mövqelərində bərqərar olması ilə əlamətdardır. Bu dövrdə sənaye və kənd təsərrüfatı məhsulu istehsalı ildən-ilə çoxalmış, planlar və sosialist öhdəlikləri ardıcıllıqla və artıqlaması ilə yerinə yetirilmiş, xalq təsərrüfatının bütün sahələrində keyfiyyət göstəriciləri xeyli yaxşılaşmış, Ümumittifaq vəzifələrinin həyata keçirilməsinə respublikanın köməyi artmışdır. Belə bir cəhətin xüsusilə böyük əhəmiyyəti vardır ki, bu dövr geniş kütlələrin siyasi mədəniyyətinin artması, onların tükənməz təşəbbüskarlığı və yaradıcılığı ilə əlamətdardır[1].

Beləliklə, respublikada iqtisadi və sosial inkişafda əsaslı dönüşün başlanğıcını Azərbaycan KP MK-nın iyul və avqust (1969-cu il) plenumları qoymuşdur. Həmin plenumlarda irəli

---

[1] *H. Ə. Əliyev.* «Azərbaycan SSR-in və Azərbaycan Kommunist Partiyasının 60 illiyi». Bakı, Azərnəşr, 1980, səh. 22.

sürülən təxirəsalınmaz məsələlərin həllində mövcud resurslardan tam və səmərəli istifadə edilməsi vəzifəsinə birinci dərəcəli əhəmiyyət verilərək, xalq təsərrüfatının bütün sahələrində yenidənqurma işlərinə başlanmışdır.

Problemin miqyası ilə bağlı olaraq 1971-ci ildə Azərbaycan Kommunist Partiyasının XXVIII qurultayı çağırıldı. Qurultay respublikanın iqtisadi və sosial inkişafında yaranmış qeyri-normal vəziyyətə son qoymaq, iqtisadiyyatın sabit və dinamik inkişafını təmin etmək üçün yeni, daha əsaslı tədbirlər müəyyənləşdirdi.

Belə ki, qurultay bütün təsərrüfatçılıq sistemini yeniləşdirməyin strateji proqramını hazırladı. Bu proqramda iqtisadi və sosial inkişafın idarəetmə strukturunun yaradılması qarşıya qoyuldu. Odur ki, qurultayda nəzərdə tutulan məsələlərin həlli doqquzuncu beşillik planının işlənib hazırlanmasında, sosial-iqtisadi vəzifələrin müəyyən edilməsində əsas götürüldü.

Başlıca və həlledici amillərdən biri qəbul edilmiş qərar və qətnamələrin vaxtında, qüsursuz yerinə yetirilməsi olmuşdur. Apardığımız kompleks araşdırmalar göstərir ki, qəbul edilmiş bütün qərar və qətnamələrin icrasına Heydər Əliyev son dərəcə tələbkarlıqla yanaşmış və bəzi hallarda bu sahədə qəti və həlledici tədbirlər həyata keçirmişdir. İqtisadiyyatda hüquq qaydalarını möhkəmləndirməkdən ötrü təsərrüfat rəhbərləri üçün müntəzəm surətdə seminar-müşavirələr təşkil edilir, onlar lazımi təlimat, metodiki göstəriş və qaydalarla təmin olunurdu. Həyata keçirilən kompleks

tədbirlər sistemi özünün ən parlaq ifadəsini iqtisadi artım sürətində tapır ki, bu da ictimai istehsalın hərtərəfli intensivləşdirilməsindən xəbər verir. Bu barədə geniş təsəvvürə malik olmaqdan ötrü Azərbaycan Respublikasında beşilliklər üzrə iqtisadi artım sürətinə dair 2-ci cədvələ nəzər salmaq lazımdır.

*2-ci cədvəl*

Azərbaycan Respublikasında beşilliklər üzrə iqtisadi inkişaf sürəti (faizlə) (orta hesabla bir ildə)

| Göstəricilər | IX beşillik (1971-1975) | X beşillik (1976-1980) | XI beşilliyin iki ili (1981-1982) |
|---|---|---|---|
| Məcmu ictimai məhsul | 10,3 | 15,1 | 19,1 |
| Milli gəlir istehsalı | 4,5 | 6,6 | 8,5 |
| Ümumi sənaye məhsulu | 5,9 | 8,9 | 11,4 |
| Əsas istehsal vasitələri istehsalı | 4,5 | 6,7 | 8,6 |
| Xalq istehlakı malları istehsalı | 1,4 | 2,2 | 2,8 |
| Ümumi kənd təsərrüfatı məhsulu | 1,4 | 2,0 | 2,0 |
| Əsaslı vəsait qoyuluşu | 1,3 | 1,8 | 2,3 |
| Əsas istehsal fondları işə salınmışdır | 1,1 | 1,6 | 1,9 |

Cədvəlin rəqəmlərindən göründüyü kimi, beşilliklərdə bütün göstəricilər üzrə yüksək artım sürəti əldə edilmişdir. Belə ki, məcmu ictimai məhsul istehsalının orta illik artımı doqquzuncu beşillikdəki 10,3 faizdən onuncu beşillikdə 15,1

faizə çatmış və yaxud 4,7 faiz artmışdır. On birinci beşilliyin iki ilində bu mühüm sintetik göstərici 19,1 faiz olmuş və yaxud doqquzuncu beşilliyə nisbətən 8,8 faiz çoxalmışdır.

Məcmu ictimai məhsulla yanaşı, ölkənin milli gəliri də dinamik, yüksək sürətlə artmışdır. Belə ki, doqquzuncu beşillikdə milli gəlirin orta illik artım sürəti 4,5 faiz olmuşdusa, onuncu beşillikdə bu mühüm göstərici 6,6 faiz, on birinci beşilliyin iki ilində isə 8,5 faiz təşkil etməklə, doqquzuncu beşilliyə nisbətən 1,9 faiz artmışdır. Rəqəmlərdən göründüyü kimi, ümumi sənaye və kənd təsərrüfatı məhsulları istehsalı da dinamik artım sürətinə malikdir. İstər doqquzuncu, istərsə də onuncu beşillikdə əsas istehsal vasitələri istehsalı, xalq istehlakı malları istehsalı əsaslı surətdə çoxalmışdır. Əsas istehsal fondlarının işə salınması da xeyli sürətlənmişdir. Respublikanın iqtisadi yüksəlişinin dinamikasında dönüş hesab edilən doqquzuncu beşilliyin plan tapşırıqları vaxtından qabaq, artıqlaması ilə ödənilmişdir. Sənaye istehsalının ümumi həcminə görə doqquzuncu beşillik plan 1975-ci il sentyabrın 10-da yerinə yetirilmişdir.

Beləliklə, doqquzuncu beşillikdə məcmu ictimai məhsul 44 faiz, milli gəlir 39 faiz, sənaye məhsulları istehsalı planda nəzərdə tutulan 43 faiz əvəzinə 50 faiz, kənd təsərrüfatı məhsulları istehsalı səkkizinci beşilliyə nisbətən 34 faiz çoxalmışdır. Doqquzuncu beşillikdə xalq təsərrüfatının inkişafına 6,56 milyard manat, yaxud səkkizinci beşillikdəkindən 29,4 faiz çox vəsait qoyulmuşdur. Xalq təsərrüfatında əsas istehsal fondları 36 faiz artırılmışdır.

Təhlil göstərir ki, ümumi sənaye məhsulu istehsalı artımının 76 faizi əmək məhsuldarlığının yüksəldilməsi hesabına olmuşdur. Təkcə doqquzuncu beşillikdə respublikada 64 iri dövlət sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Onlardan Bakı məişət kondisionerləri, Sumqayıt kompressor zavodları, üst trikotaj fabriki, Salyan plastik kütlə emalı zavodu, Stepanakert ayaqqabı fabriki, Bakıda tikiş və ayaqqabı hissələri fabrikləri, bulka-maya kombinatı, Gəncədə ət kombinatı və qənnadı fabriki, Lənkəranda və Xudatda konserv müəssisələri və başqalarını göstərmək olar.

Bu yüksək nailiyyətlər xalq təsərrüfatında texniki tərəqqinin sürətləndirilməsi və bununla yanaşı, mühəndis-texnik işçilərin, fəhlələrin ixtisasının yüksəldilməsi, yeni, daha səmərəli texnologiyanın tətbiqi və əlbəttə, ciddi və prinsipial rəhbərlik nəticəsində mümkün olmuşdur.

Təhlil göstərir ki, sənaye istehsalında yeni texniki siyasətin ardıcıl həyata keçirilməsi nəticəsində yüksək səmərə qazanılmışdır. Belə ki, istehsalatda yeni texnikanın tətbiqi nəticəsində 1970-ci ildə 30,9 milyon manat illik iqtisadi səmərə əldə edilmişdisə, 1975-ci ildə 48,6 milyon manat, 1980-ci ildə 67,6 milyon manat, 1982-ci ildə isə 70 milyon manat iqtisadi səmərə əldə edilmişdir. Bu barədə aşağıdakı cədvəl daha dolğun təsəvvür yaradır (bax: 3-cü cədvəl).

Cədvəldən göründüyü kimi, bütün beşilliklər üzrə yeni tipli maşın-avadanlıqların yaradılması və xüsusən onların istehsalata tətbiqi dinamik surətdə artmışdır. Sənaye müəssisələrində istehsal dəzgahlarının modernləşdirilməsi daha

sürətlə həyata keçirilmişdir. Əgər doqquzuncu beşillikdə cəmi 10334 dəzgah modernləşdirilmişdisə, onuncu beşillikdə bu mühüm göstərici 12493 təşkil etmişdir, yaxud 2159 ədəd çoxalmışdır.

*3-cü cədvəl*

Yeni texnikanın yaradılması və istehsala tətbiqi

| Göstəricilər | 1971-1975 | | 1976-1980 | | 1981-1982 |
|---|---|---|---|---|---|
| | Cəmi | Orta hesabla bir ildə | Cəmi | Orta hesabla bir ildə | Ortp hesabla bir ildə |
| Yeni tipli nümunəvi maşın, dəzgah, aparat, cihazlar, materiallar yaradılmışdır | 167 | 33 | 222 | 44 | 39 |
| Əsas maşınqayırma məhsulları növlərinin öyrənilməsi və seriya ilə buraxılışına başlanması | 354 | 71 | 384 | 77 | 65 |
| Sənaye müəssisələrində istehsal dəzgahlarının modernləşdirilməsi (ədədlə) | 10334 | 2067 | 12493 | 2499 | 2375 |

İstehsalın maddi-texniki bazasının getdikcə gücləndirilməsi nəticəsində dövlət keyfiyyət nişanı alan məmulatların

sayı sürətlə artmışdır. 1970-ci ildə dövlət keyfiyyət nişanına layiq görülmüş məmulatların ümumi sayı 9 idisə, 1975-ci ildə 103, 1980-ci ildə 680 və 1982-ci ildə 808 olmuşdur.

Araşdırmalar göstərir ki, sənayenin strukturunda ciddi keyfiyyət dəyişiklikləri baş verməklə, yeni maşınqayırma sahələri - elektron sənayesi, yüngül və yeyinti sənaye maşınqayırması yaradıldı. Doqquzuncu beşillikdə Azərbaycan Respublikasının neft maşınqayırma sənayesi SSRİ neft-mədən avadanlığının 1/3-dən çoxunu, neftçıxarma texnikasının 70 faizdən çoxunu verirdi. Xəzər dənizində neft yataqlarının kəşfiyyatı və istifadəsi işi müvəffəqiyyətlə davam etdirilirdi. Belə ki, 1971-ci il martın 28-də Azərbaycanda bir milyard ton neft çıxarılması təntənə ilə qeyd edildi. Neft emalı və neft-kimya, kimya sənayesi, əlvan və qara metallurgiya sürətlə inkişaf etdirilir, neftayırma sənayesinin yenidən qurulmasına və modernləşdirilməsinə dair geniş iş aparılırdı. Doqquzuncu beşillikdə 77 müəssisənin, 782 sahənin və sexin kompleks mexanikləşdirilməsi və avtomatlaşdırılması başa çatdırıldı.

Həmin beşillikdə kənd təsərrüfatının inkişafında misilsiz nailiyyətlər əldə olundu. Ən başlıcası, əkinçilik və heyvandarlıqda uzun sürən geriliyə son qoyuldu. 1975-ci il iyulun 9-da Sov.İKP MK və SSRİ Nazirlər Soveti "Azərbaycan SSR-də kənd təsərrüfatının daha da intensivləşdirilməsi tədbirləri haqqında" qərar qəbul etdilər. Həmin tarixi qərara uyğun olaraq respublikada son dərəcə səmərəli və sürətli yenidənqurma işləri həyata keçirildi. Kənd təsərrüfatının istehsal fondları 62 faizdən çox artırıldı. Məqsəd-

yönlü işin nəticəsi olaraq səkkizinci beşilliyə (1966-1970) nisbətən ümumi kənd təsərrüfatı məhsulu istehsalı sürətlə artmışdır. Kənd təsərrüfatı məhsullarının orta illik artım sürəti aşağıdakı cədvəldən daha aydın görünür.

*4-cü cədvəl*

Ümumi kənd təsərrüfatı məhsulu istehsalının orta illik artım sürəti *(bütün təsərrüfat kateqoriyaları üzrə)*, 1966-1970-ci illərə nisbətən *(faizlə)*

| Göstəricilər | IX beşillik (1971-1975) | X beşillik (1976-1980) | XI beşilliyin iki ili (1981-1982) |
|---|---|---|---|
| Ümumi kənd təsərrüfatı məhsulu | 134 | 196 | 251 |
| Bitkiçilik məhsulları | 145 | 232 | 310 |
| Heyvandarlıq məhsulları | 119 | 146 | 169 |

Göründüyü kimi, ümumi kənd təsərrüfatı məhsulu istehsalı səkkizinci beşilliyə nisbətən dinamik surətdə artmışdır.

Bitkiçilik və heyvandarlıq məhsulları istehsalı da səkkizinci beşilliyə nisbətən doqquzuncu, onuncu beşilliklərdə və on birinci beşilliyin iki ili ərzində yüksək artım sürətinə malik olmuşdur. Beləliklə, doqquzuncu beşillikdə kənd təsərrüfatının əsas sahələrindən pambıqçılıq, üzümçülük, tərəvəzçilik, tütünçülük, çayçılıq rentabelli sahələrə çevril-

mişdir. Həmin beşillikdə dövlətə tərəvəz satışı 60 faiz artırılmaqla, Azərbaycan Respublikası ölkənin tərəvəzçilik bazasına çevrilmişdir.

Faktik materialların təhlili göstərir ki, onuncu beşillikdə daha yüksək nəticələr əldə edilmişdir. Belə ki, onuncu beşillikdə əvvəlki beşilliyə nisbətən məcmu ictimai məhsul 46 faiz, milli gəlirin istehlak və yığım üçün istifadə olunan hissəsi 46,6 faiz çoxalmışdır. Onuncu beşillik ərzində əsas istehsal fondları 40 faiz artırılaraq, ümumilikdə 32 faiz təzələnmişdir. Həmin illərdə Azərbaycanda 60-dan çox iri dövlət sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Sənayedə əmək məhsuldarlığı 28 faiz, kənd təsərrüfatında 44 faiz yüksəlmişdir.

Təhlil göstərir ki, onuncu beşillikdə respublikanın iqtisadiyyatında dinamik və proporsional inkişaf təmin edilərək, ictimai istehsalın iqtisadi səmərəliliyi daha da yüksəlmişdir. Belə ki, bu illər ərzində istehsal edilən milli gəlirin həcmi səkkizinci və doqquzuncu beşilliklərdə yaradılan milli gəlir qədər olmuşdur.

Göstərilən yüksək iqtisadi nailiyyətlər respublika rəhbərliyinin məqsədyönlü işi nəticəsində qazanılmışdır. Aparılan araşdırmalar göstərir ki, müttəfiq respublikalar arasında Azərbaycan onuncu beşilliyin plan tapşırıqlarını birinci yerinə yetirmişdir. Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin "1976-1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan Kommunist Partiyası MK-nın təkliflərinin nəzərdən keçirilməsi

nəticələri haqqında" 1976-cı il 27 iyul tarixi qərarı böyük rol oynamışdır. Həmin illərdə neft-qaz sənayesinə 2 milyard manat vəsait qoyulmuşdur. Bunun nəticəsi olaraq 17 yeni neft və qaz yatağı açılmışdır.

Doqquzuncu beşilliyə nisbətən onuncu beşillikdə neft-ayırma sənayesinin yenidən qurulmasına 2 dəfə çox vəsait xərclənmiş, maşınqayırmanın artım sürəti 205 faiz təşkil etmişdir. Respublikada qara və əlvan metallurgiya sənayesi 47 faiz, kimya və neft-kimya sənayesi 46 faiz, yüngül sənaye və yeyinti sənayesi ayrılıqda 37 faiz artmışdır. Əldə edilən yüksək iqtisadi göstəricilər, sənayedə ciddi struktur irəliləyişləri elmi-texniki tərəqqinin tətbiqi nəticəsində mümkün olmuşdur. Sənayedə yenidənqurma işlərinin genişləndirilməsi ilə bərabər, çoxlu yeni sənaye obyektləri tikilib istifadəyə verilmişdir. Bakı neftayırma zavodunda iki nəhəng qurğu, Əli Bayramlıda məişət cihazları zavodu, Ələtdə ağac emalı kombinatı, Gəncədə əlvan metallar emalı zavodu, Bakıda və Mingəçevirdə iripanelli evtikmə zavodları, Naxçıvanda şüşə qablar zavodu, Gəncədə, Tovuzda və Naxçıvanda mətbəələr, Bakıda ayaqqabı fabriki, şampan şərabı zavodu, Xırdalanda ət-süd kombinatı, Kəlbəcərdə "İsti su" mineral zavodu, Astara və Lənkəranda çay fabrikləri, Şəki və Göyçayda çörək zavodları, Sumqayıtda iri əyirmə, Yevlaxda yunun ilkin emalı fabrikləri və digər müəssisələr tikilib işə salınmışdır.

Sənaye sahələrinin coşğun inkişafı ilə yanaşı kənd təsərrüfatı istehsalında da yüksək nailiyyətlər qazanılmışdır. Hər şeydən əvvəl, kənd təsərrüfatı məhsulları istehsalı üzrə

onuncu beşilliyin plan tapşırıqları 1978-ci ildə vaxtından 2 il əvvəl yerinə yetirilmişdir. Ümumi kənd təsərrüfatı məhsulu istehsalı 47 faiz artmışdır.

Doqquzuncu beşilliyə nisbətən onuncu beşillikdə dənli bitkilər istehsalı 38,6 faiz, pambıq istehsalı 48,3 faiz, tərəvəz istehsalı 57,5 faiz, üzüm istehsalı 2,2 dəfə, çay istehsalı 54 faiz çoxalmışdır.

Respublikada ilk dəfə olaraq 1979-cu ildə bir milyon tondan çox üzüm istehsal edilmiş və Azərbaycan İttifaqda birinci yerə çıxmışdır.

Heyvandarlıq məhsulları istehsalı da xeyli artmışdır. Ət tədarükü 21 faiz, süd istehsalı 21 faiz, yumurta istehsalı 25 faiz çoxalmışdır.

Beləliklə, Azərbaycan onuncu beşilliyin plan tapşırıqlarının yerinə yetirilməsi üzrə Ümumittifaq sosializm yarışında qalib çıxaraq keçici Qırmızı bayrağa layiq görülmüş, 1980-ci ildə Lenin ordeni ilə təltif edilmişdir. Şübhəsiz ki, əldə edilmiş bu yüksək iqtisadi nəticələr mövcud ehtiyatlardan səmərəli istifadənin nəticəsidir. Tarixən çox qısa bir müddətdə respublika rəhbərliyinin yüksək təşkilatçılıq qabiliyyəti, idarəetmə səriştəsi və bacarığı sayəsində sənaye və kənd təsərrüfatı məhsulları istehsalı üç dəfədən çox artmış və Azərbaycan Respublikası keçmiş İttifaq respublikaları arasında 12 dəfə dalbadal sosializm yarışının qalibi olmuşdur.

Ətraflı araşdırmalar göstərir ki, onuncu beşillikdə həyata keçirilmiş səmərəli, düzgün sosial-iqtisadi siyasət nəticəsində respublika xalq təsərrüfatında bütövlükdə dinamik in-

kişafa nail olmuşdur. Bu isə on birinci beşilliyin iki ili (1981-1982-ci illər) ərzində respublikada daha yüksək iqtisadi nailiyyətlər əldə edilməsinə zəmin yaratmışdır. Belə ki, onuncu beşilliyə nisbətən on birinci beşilliyin iki ilində (1981-1982-ci illər) ümumi ictimai məhsul 44 faiz, milli gəlir istehsalı 33,2 faiz, sənaye məhsulları istehsalı 32,5 faiz artmışdır.

Ümumiyyətlə, 13 il (1969-1982-ci illər) ərzində Azərbaycanda güclü sənaye potensialı yaradılmışdır. Əgər 1970-ci ilədək respublikada 233 iri və orta sənaye müəssisəsi fəaliyyət göstərmişdisə, təkcə 1970-1982-ci illər ərzində 300-ə yaxın iri və orta sənaye müəssisəsi işə başlamışdır. Respublikada xalq təsərrüfatı sahələrinin maddi-texniki bazası getdikcə güclənmişdir. İqtisadiyyatda dinamik və proporsional inkişafı təmin etmək üçün maddi istehsal sahələrində əsas istehsal fondlarının yeniləşdirilməsi və yenidən qurulması sürətləndirilmiş, istehsal texnologiyası əsaslı surətdə yaxşılaşdırılmışdır. İctimai istehsalın rentabellik səviyyəsi 1970-ci ilə nisbətən 1982-ci ildə 57 faiz artmışdır. Məqsədyönlü iqtisadi siyasət nəticəsində respublikada əhalinin sosial vəziyyəti də xeyli yaxşılaşmışdır. Həmin problemin ətraflı şərhi və təhlili növbəti paraqrafda verilmişdir.

## 1.2.2. Sosial inkişaf meylləri

Hər cür istehsalın və onunla bağlı həyata keçirilən tədbirlərin ən yüksək məqsədi xalqın artmaqda olan maddi

və mənəvi tələbatının daha dolğun ödənilməsindən ibarətdir. Sosial inkişafın əsasını iqtisadi inkişaf təşkil edir. Bu baxımdan 1970-1982-ci illərdə, qeyd etdiyimiz kimi, Azərbaycanın sosial-iqtisadi inkişafında əsl sıçrayış baş vermişdir. İqtisadi inkişafın və xalqın rifahının yüksəldilməsinin mənbəyi olan milli gəlir istehsalının həcmi doqquzuncu beşilliyə nisbətən onuncu beşillikdə 42 faiz artmışdır. Milli gəlirin böyük hissəsi (dörddə üç hissəsi) əhalinin şəxsi istehlakına yönəldilmişdir. Əhalinin həyat səviyyəsinin yüksəldilməsinin ən mühüm sosial-iqtisadi problemi kimi, insanların fiziki, mənəvi və sosial tələbatının ödənilməsində milli gəlir müstəsna rol oynayır. K.Marks əhalinin ənənəvi yaşayış tərzini təhlil edərək, göstərmişdir ki, bu, təkcə həyati tələbatın ödənilməsini deyil, habelə adamların yaşadığı və tərbiyə olunduğu şəraiti də əhatə edir. Buradan aydın olur ki, əhalinin həyat səviyyəsi, ümumiyyətlə, cəmiyyətin sosial tələbatı üçün zəruri olan nemət və xidmətlərin kəmiyyət və keyfiyyəti ilə, habelə onları doğuran şəraitlə müəyyən edilir. Deməli, həyat səviyyəsi, istehlakın və xidmətlərin həcmi, strukturu, əhalinin real gəlirinin artması, əmək, mənzil-kommunal şəraitinin yaxşılaşması, təhsil, mədəniyyət, səhiyyə, idman və s. sosial sahələrin inkişafı ilə səciyyələnir.

70-ci illərdə şəxsən Heydər Əliyevin məqsədyönlü siyasəti və böyük təşkilatçılıq qabiliyyəti nəticəsində Azərbaycanda yüksək sosial-iqtisadi nəticələr əldə edilmişdir. Doqquzuncu beşillikdə və xüsusilə onuncu beşillik ərzində milli gəlirin artım sürəti orta İttifaq səviyyəsindən

yüksək olmuşdur. Beləliklə, adambaşına milli gəlirin artım sürəti 1971-1982-ci illərdə 1961-1970-ci illərdəkinə nisbətən 2,7 dəfə artmışdır. On birinci beşilliyin iki ilində bu müsbət meyl daha da güclənmişdir. Milli gəlirin artım sürətinin dinamik xarakter alması nəticəsində fəhlə və qulluqçuların aylıq orta əmək haqqı 1970-ci ildəkinə nisbətən 1,3 dəfə, kolxozçuların əmək haqqı isə 1,9 dəfə çoxalmışdır.

Ümumilikdə sosial inkişafın ən başlıca və ümumiləşdirici göstəricisi əhalinin real gəlirinin artmasıdır. Bu mühüm problemin həlli son nəticədə milli gəlirin bölgüsü və yenidən bölgüsü ilə tamamlanır. Real gəlir dedikdə, əhalinin faktik istehlakı, xidmətlərin həcmi və səviyyəsi başa düşülür. Çoxillik faktik materialların təhlili göstərir ki, əhalinin real gəliri ictimai istehlak fondlarından aldığı imtiyaz və güzəştlərlə, xüsusilə milli gəlirin yığım fonduna nisbətən istehlak fondunun daha sürətlə artırılması ilə səciyyələnmişdir (bax: 5-ci cədvəl).

Cədvəldən göründüyü kimi, istehlak üçün istifadə edilən milli gəlirin artım sürəti yığıma ayrılan milli gəlirin artım sürətinə nisbətən daha yüksək olmaqla, dinamik üstünlüyə də malikdir. Əhalinin ictimai istehlak fondlarından ödənc və güzəştləri də 1970-ci ilə nisbətən 1975, 1980 və 1982-ci illərdə daha sürətlə artmışdır. Adambaşına real gəlir 1970-ci ildəkinə nisbətən getdikcə yüksəlmişdir. Belə ki, əgər əhalinin real gəliri 1975-ci ildə 1970-ci ildəkinə nisbətən 17 faiz artmışdısa, bu mühüm göstərici 1980-ci ildə 42 faizi, 1982-ci ildə isə 51 faizi təşkil etmişdir.

*5-ci cədvəl*

Əhalinin real gəlirinin artması *(adambaşına faizlə)*
1970=100

| Göstəricilər | 1975 | 1980 | 1981 | 1982 |
|---|---|---|---|---|
| İstehlak və yığım üçün istifadə olunan milli gəlir | 128,5 | 181,0 | 195,8 | 200,2 |
| o cümlədən: istehlak | 130,5 | 178,3 | 189,2 | 188,0 |
| yığım və s. xərclər | 123,0 | 187,2 | 214,0 | 234,2 |
| İstehsal olunan milli gəlir artımı | 139,0 | 204,0 | 221,0 | 230,0 |
| Real gəlir | 117,0 | 142,0 | 151,0 | 151,0 |
| Ödənc və güzəştlər | 149,3 | 186,8 | 196,0 | 205,5 |
| Sosial sığorta və sosial təminat | 173,5 | 208,0 | 219,0 | 230,0 |

Sosial sığorta və sosial təminat da sürətlə artmışdır. Bu, 1970-ci ildəkinə nisbətən 1982-ci ildə 2 dəfədən çox olmuşdur.

Bütün bunlarla yanaşı, respublikanın sosial strukturunda da əsaslı keyfiyyət dəyişiklikləri baş vermişdir. İki sinif olan fəhlə və kolxozçuların, xüsusilə sosial qrupların həyat səviyyəsinin bir-birinə daha da yaxınlaşmasında ciddi irəliləyiş olmuşdur. Aşağıdakı cədvələ nəzər salaq.

*6-cı cədvəl*

Xalq təsərrüfatında çalışan fəhlə və qulluqçuların orta aylıq əmək haqqının artım sürəti
1970=100 faiz

| Göstəricilər | 1975 | 1980 | 1981 | 1982 |
|---|---|---|---|---|
| Fəhlə və qulluqçuların orta aylıq əmək haqqı | 114 | 135 | 139 | 140 |
| Kolxozçuların orta aylıq əmək haqqı | 118 | 206 | 240 | 240 |
| Əhalinin ictimai istehlak fondundan aldığı ödənc və güzəştlərin cəmi | 149 | 187 | 196 | 206 |
| Adambaşına orta hesabla | 137 | 157 | 162 | 167 |
| Adambaşına real gəlir | 117 | 142 | 151 | 151 |
| Əhaliyə məişət xidmətinin həcmi | 157 | 242 | 277 | 290 |
| Pərakəndə ticarət dövriyyəsi | 135 | 174 | 185 | 179 |

Cədvəldən göründüyü kimi, əhalinin orta aylıq əmək haqqı ilbəil yüksək sürətlə artmışdır. Fəhlə və qulluqçulara nisbətən kolxozçuların ictimai təsərrüfatda orta aylıq əmək haqqının artım sürəti daha yüksək olmuşdur, bu da hər iki sinfin ümumilikdə həyat səviyyəsini bir-birinə yaxınlaşdırmaq üçün son dərəcə böyük sosial-iqtisadi əhəmiyyətə malikdir. Ən başlıcası isə bütün əsas sosial göstəricilərdə son dərəcə gözəçarpan artım sürətindəki dinamikadır.

Əmək haqqı yüksəldikcə əhalinin ictimai istehlak fondundan aldığı ödənc və güzəştlərin 1970-ci ilə nisbətən artım sürəti də yüksək olmuşdur. Bu mühüm göstərici adambaşına xeyli artmışdır. Əmək haqqının və digər gəlirlərin artması ilə əlaqədar adambaşına real gəlirin də sürəti yüksək olmuşdur. Bütün bu irəliləyişlər nəticəsində əhaliyə məişət xidmətinin həcmi xeyli çoxalmaqla, onun strukturunda pullu xidmətlərin payı daha sürətlə artmışdır. Bu müsbət irəliləyişlər öz real əksini pərakəndə ticarət dövriyyəsinin artım sürətindədə tapmışdır. Pərakəndə ticarət dövriyyəsi 1970-ci ildəkinə nisbətən 1982-ci ildə 79 faiz çoxalmışdır. Araşdırmalar göstərir ki, pərakəndə ticarət dövriyyəsi strukturunda uzunmüddətli istifadə mallarının xüsusi çəkisi daha sürətlə artmışdır.

Doqquzuncu və onuncu beşilliklərdə respublika əhalisinin əmək haqqının artırılması istiqamətində mühüm tədbirlər işlənib həyata keçirilmişdir, bunun da nəticəsində demək olar ki, bütün əməkçilərin marağı əhatə edilmişdir. Xüsusilə həkimlərin, müəllimlərin, məktəbəqədər uşaq tərbiyə müəssisələri tərbiyəçilərinin, elmi dərəcəsi olmayan ali məktəb müəllimlərinin əmək haqqı xeyli artırılmışdır.

Maddi istehsal sahələrində çalışan fəhlə və qulluqçuların 70 manatadək olan aylıq əmək haqqından vergi tutulması ləğv edilmiş, 90 manatadək olan aylıq əmək haqqından tutulan vergi dərəcələri aşağı salınmışdır. Bu tədbirlərin həyata keçirilməsi nəticəsində əhalinin alıcılıq qabiliyyəti xeyli yüksəlmişdir.

İstər doqquzuncu və istərsə də onuncu beşilliklərdə xalq təsərrüfatında çalışanların sayı dinamik surətdə artmışdır. Onların artımı doqquzuncu beşillikdə orta hesabla 18,3 faiz olmuşdusa, bu mühüm sosial göstərici onuncu beşillikdə 20,2 faizi təşkil etmişdir. Kənd təsərrüfatında kolxozçuların mütləq sayı artmış, respublikanın sosial strukturunda kəndlilərin xüsusi çəkisi müəyyən qədər azalmışdır. Təhlil göstərir ki, istehsalda çalışan ziyalıların üçdə iki hissəsi öz sosial mənşəyinə görə fəhlələr və kəndlilər içərisindən yetişmişdir. Ali və orta ixtisas təhsilli mütəxəssislərin 50 faizdən çoxu öz əmək yoluna fəhlə və kolxozçu kimi başlamışdır.

Onuncu beşillikdə qeyri-istehsal sahələrində, xüsusilə maarif, səhiyyə, elm, mənzil-kommunal təsərrüfatı sahələrində və digər sosial sahələrdə çalışanların sayı 85 min nəfər, yaxud 17,6 faiz artmışdır, bu da xalq təsərrüfatında işləyən fəhlə və qulluqçuların ümumi sayının 31,3 faizini təşkil etmişdir. Sosial infrastrukturun tərkib hissəsi olan elm, təhsil, mədəniyyət və səhiyyə sahəsində gözəçarpan nailiyyətlər qazanılmışdır.

Dövlət büdcəsindən elmin inkişafına sərf edilən məsrəflər getdikcə artırılmışdır. Belə ki, əgər doqquzuncu beşillikdə cəmi 159,6 milyon manat vəsait xərclənmişdisə, onuncu beşillikdə bu məbləğ 174,9 milyon manat təşkil etmiş, yaxud 15,3 milyon manat artmışdır. Beləliklə, əgər doqquzuncu beşillikdə elmin inkişafına orta hesabla ildə 31,9 milyon manat vəsait xərclənmişdisə, bu rəqəm onuncu beşillikdə 35 milyon manat, on birinci beşilliyin iki ilində -

1981-ci ildə 36,7 milyon manat, 1982-ci ildə isə 37,7 milyon manat olmuşdur.

70-ci illərdən başlayaraq respublikada xalq maarifinin, səhiyyənin, mədəni-maarif sahələrinin və xüsusən mənzil-kommunal təsərrüfatının inkişafında yüksək nailiyyətlər əldə edilmişdir. Hər şeydən əvvəl, doqquzuncu beşillikdə düzgün və səmərəli xəttin müəyyənləşdirilməsi və ən başlıcası, onuncu beşillik ərzində də həmin xəttə dönmədən əməl edilməsi böyük dönüş və irəliləyişlərə səbəb olmuşdur.

Qeyd etmək lazımdır ki, xalq maarifinin bütün göstəricilərinə dair xalq təsərrüfatı planlarının respublika üzrə uzun illərdən bəri ilk dəfə yerinə yetirilməsinə nail olunmuşdur. Bu illər ərzində bütün maliyyələşdirmə mənbələri üzrə 182 min şagird yeri olan məktəblər tikilib istifadəyə verilmişdir ki, bu da səkkizinci beşillikdəkindən xeyli çoxdur. Respublikada mühüm sosial sahələrin inkişafı barədə geniş təsəvvürə malik olmaq üçün aşağıdakı cədvəli nəzərdən keçirmək yerinə düşərdi (bax: 7-ci cədvəl).

Göründüyü kimi, respublikada faydalı mənzil sahəsi getdikcə artmış, ən yüksək göstəricilərə 1981-ci ildə nail olunmuşdur. Şəhər yerlərində mənzil tikintisi daha sürətlə inkişaf etdirilmişdir. Belə ki, ümumi şəhər mənzil fondu 1970-ci ildəkinə nisbətən 1982-ci ildə 13,4 milyon kvadratmetr artmaqla, 39,4 milyon kvadratmetr təşkil etmişdir. Mənzil fondu nisbətən sabit qalmış, yalnız onuncu beşillik ərzində ümumi sahəsi 6,9 milyon kvadratmetr olan mənzil istifadəyə verilmişdir. Hesablamalar göstərir ki, təqribən

*7-ci cədvəl*

Azərbaycan Respublikasında sosial inkişaf səviyyəsi

| Göstəricilər | 1970 | 1975 | 1980 | 1981 | 1982 |
|---|---|---|---|---|---|
| Ümumi faydalı mənzil sahəsi istifadəyə verilmişdir (min kv.m) | 1518 | 1503 | 1348 | 1605 | 1335 |
| o cümlədən: şəhər faydalı mənzil fondu (ilin axırına), (milyon kv.m) | 27,0 | 31,4 | 35,9 | 38,3 | 39,4 |
| Orta hesabla şəhər əhalisinin hər nəfərinə düşən mənzil sahəsi (kv.m) | 10,4 | 10,5 | 10,8 | 11,3 | 11,5 |
| Bütün ixtisaslar üzrə həkimlərin sayı (min nəfər) | 13,1 | 16,5 | 20,7 | 21,4 | 22,4 |
| Əhalinin hər 10 min nəfərinə düşən həkimlərin sayı | 25,0 | 28,7 | 33,4 | 33,9 | 35,0 |
| Əhalinin hər 10 min nəfərinə düşən çarpayıların sayı | 93,4 | 95,6 | 96,8 | 97,1 | 97,2 |
| Əhalinin hər 1000 nəfərinə (10 yaş və yuxarı) düşən ali və orta (tam və natamam) təhsillilərin sayı | 471 | 652 | 665 | 687 | 782 |

800 min adam və ya respublika əhalisinin hər 7 nəfərindən biri öz mənzil şəraitini yaxşılaşdırmışdır. Təqribən 14 min adam baraklardan və zirzəmilərdən yeni, abad mənzillərə köçürülmüşdür. Ümumiyyətlə, 1971-1980-ci illərdə 1 milyon 700 min adamın mənzil şərati yaxşılaşdırılmışdır. Kənd yerlərində son on ildə ümumi sahəsi 4,8 milyon kvadratmetr olan yaşayış evləri, çoxlu məktəb, məktəbəqədər uşaq tərbiyə müəssisəsi tikilib istifadəyə verilmişdir.

Kənd yaşayış məntəqələrinə qaz çəkilişi həyata keçirilmişdir. Kənd yerlərində qaz çəkilmiş mənzillərin ümumi sayı 8 dəfədən çox artmış, qaz çəkilişinin ümumi faizi 1970-ci ildəki 15 faizdən 85 faizə çatdırılmışdır. Yevlax-Stepanakert-Naxçıvan qaz kəmərinin çəkilib istifadəyə verilməsi böyük sosial və ictimai-siyasi əhəmiyyətə malik hadisə olmuşdur. İlk dəfə olaraq Sabirabad, Ucar, Xaçmaz və digər rayonlarda ümumi uzunluğu 460 kilometrə bərabər su kəmərləri çəkilib işə salınmışdır.

7-ci cədvəldən göründüyü kimi, respublikada həkimlərin ümumi sayı 1982-ci ildə 1970-ci ildəkinə nisbətən təxminən iki dəfəyə yaxın artmışdır. Həmin müddətdə əhalinin hər 1000 nəfərinə düşən ali və orta (tam və natamam) təhsillilərin sayı da iki dəfəyə yaxın çoxalmışdır. 1982-ci ildə məktəbəqədər uşaq tərbiyə müəssisələrinin sayı 1970-ci ildəkinə nisbətən iki dəfə artmışdır. Respublikada pioner düşərgələrinin sayı sürətlə çoxalmış, düşərgələrdə dincələn uşaqların sayı 1970-ci ildəki 89,2 min nəfərdən 1982-ci ildə 179 min nəfərə çatmış və yaxud iki dəfədən çox artmışdır.

Kənd yerlərində telefonlaşdırma və elektrikləşdirmə başa çatdırılmışdır. Respublikada pərakəndə mal dövriyyəsi 1970-ci ildən başlayaraq getdikcə daha yüksək sürətlə inkişaf etmişdir. Bunu aşağıdakı cədvəldən aydın görmək olar.

*8-ci cədvəl*

Pərakəndə mal dövriyyəsinin artım sürəti
1970=100 faiz

| Göstəricilər | 1975 | 1980 | 1981 | 1982 |
|---|---|---|---|---|
| Ümumi pərakəndə mal dövriyyəsi | 135 | 174 | 185 | 179 |
| ondan: ərzaq məhsulları | 129 | 158 | 162 | 165 |
| qeyri-ərzaq məhsulları | 141 | 192 | 211 | 197 |
| İctimai iaşədə mal dövriyyəsi | 130 | 161 | 170 | 179 |
| İstehlak kooperasiyasında mal dövriyyəsi | 140 | 186 | 201 | 202 |

Buradan aydındır ki, 1970-ci ilə nisbətən ümumi pərakəndə mal dövriyyəsinin həcmi 1982-ci ildə 79 faiz, o cümlədən ərzaq məhsulları üzrə - 65 faiz, qeyri-ərzaq məhsulları üzrə - 97 faiz, ictimai iaşə üzrə - 79 faiz artmışdır. 1982-ci ildə istehlak kooperasiyasında mal dövriyyəsinin həcmi daha sürətlə artaraq, 2 dəfədən çox olmuşdur.

Təhlil göstərir ki, mal dövriyyəsinin sürətli artımı onun strukturunda da mühüm müsbət keyfiyyət dəyişikliklərinə səbəb olmuşdur. Belə ki, 1970-ci ildə ümumi mal dövriyyəsi strukturunda ərzaq mallarının xüsusi çəkisi 52 faiz,

qeyri-ərzaq mallarının xüsusi çəkisi isə 48 faiz olduğu halda, 1982-ci ildə müvafiq olaraq 47 faiz və 53 faiz təşkil etmişdir. Daha doğrusu, pərakəndə mal dövriyyəsi strukturunda qeyri-ərzaq uzunmüddətli istifadə mallarının xüsusi çəkisi xeyli yüksəlmişdir. Əgər 1970-ci ildə ümumi mal dövriyyəsi strukturunda qeyri-ərzaq məhsullarının xüsusi çəkisi 48 faizi təşkil edirdisə, 1975-ci ildə 49 faiz, 1982-ci ildə 53 faiz olmuşdur. Araşdırmalardan məlum olur ki, 1970-1982-ci illərdə adambaşına mal dövriyyəsi orta hesabla 25,5 faiz, o cümlədən ərzaq məhsulları üzrə - 16 faiz, qeyri-ərzaq malları üzrə isə 35 faiz artmışdır.

Respublikada həyata keçirilən məqsədyönlü təşkilatçılıq işi nəticəsində kənd yerlərində pərakəndə ticarətin mal dövriyyəsinin həcmi 1970-ci ildəkinə nisbətən 1982-ci ildə 2 dəfə artaraq, ümumi mal dövriyyəsində onun xüsusi çəkisi yüksəlmişdir.

Respublikada ümumi ticarət sahəsi də 1970-ci ildəkinə nisbətən 1982-ci ildə 2 dəfə genişlənmişdir. Əgər 1970-ci ildə orta hesabla bir mağazanın ticarət sahəsi 54,8 kvadratmetr olmuşdusa, bu göstərici 1982-ci ildə 79,2 kvadratmetr təşkil etmişdir və yaxud 24,4 kvadratmetr genişlənmişdir. Hər bir ictimai iaşə müəssisəsində olan yerlərin sayı 1970-ci ildəki 35,2-dən 1982-ci ildə 40 yerə çatdırılmışdır.

Məlum olduğu kimi, əhaliyə ticarət xidməti məişət xidməti ilə də bağlıdır. Xidmət müəssisələri 1970-ci ildən çoxalmağa başlamış və 1982-ci ildə onların ümumi sayı 9855 olmuşdur. Kənd yerlərində də xidmət müəssisələrinin

sayı çoxalmışdır. Əhaliyə göstərilən xidmətlərin həcmi sürətlə artmışdır. Əgər 1975-ci ildə respublika əhalisinə cəmi 72,2 milyon manatlıq xidmət göstərilmişdisə, 1982-ci ildə bu göstərici 133,3 milyon manatı təşkil etmiş və yaxud onun həcmi 61,1 milyon manat çoxalmışdır. Bununla yanaşı, əhaliyə xidmət növləri xeyli genişlənmiş, keyfiyyət göstəriciləri isə yaxşılaşmışdır. Beləliklə, adambaşına pullu xidmətlərin həcmi xeyli artmışdır.

Mühüm cəhətlərdən biri ondan ibarətdir ki, kənd yerlərində əhaliyə məişət xidmətinin həcmi daha sürətlə artmışdır. Əhaliyə məişət xidməti barədə geniş təsəvvürə malik olmaqdan ötrü aşağıdakı cədvələ nəzər salmaq kifayətdir.

*9-cu cədvəl*

Azərbaycan Respublikasında əhaliyə məişət xidməti müəssisələrinin inkişaf dinamikası

| Göstəricilər | 1970 | 1975 | 1980 | 1981 | 1982 |
|---|---|---|---|---|---|
| Müəssisələrin sayı (ilin axırına) | 6,4 | 7,9 | 9,2 | 9,5 | 9,9 |
| o cümlədən kənd yerlərində | 1,9 | 2,5 | 3,3 | 3,4 | 3,5 |
| İşçilərin sayı (min nəfər) | 26,5 | 32,8 | 42,1 | 43,3 | 44,8 |
| o cümlədən kənd yerlərində | 3,3 | 5,3 | 7,6 | 7,6 | 8,0 |

Cədvəlin statistik məlumatlarından məlum olduğu kimi, respublikada məişət xidməti müəssisələrinin sayı 1970-ci ildəkinə nisbətən 1982-ci ildə 3,5 min vahid artmışdır.

Bununla bərabər, məişət xidməti sahələrində çalışan işçilərin sayı da 1970-ci ildəkinə nisbətən 1982-ci ildə 18,3 min nəfər çoxalmışdır. Diqqəti cəlb edən cəhətlərdən biri də ondan ibarətdir ki, kənd yerlərində məişət xidməti müəssisələrində çalışan işçilərin sayı 1970-ci ildəki 3,3 min nəfərdən 1982-ci ildə 8 min nəfərə çatmış və yaxud 4,7 min nəfər artmışdır.

Araşdırmalar göstərir ki, 70-ci illərdən başlayaraq əhaliyə tibbi xidmətin əsaslı surətdə təkmilləşdirilməsi üzrə ən yüksək göstəricilər əldə edilmişdir. Respublikada, xüsusilə kənd yerlərində müalicə- profilaktika müəssisələrinin sayı artırılmaqla, xəstəxanalarda çarpayıların və həkimlərin sayı xeyli çoxalmışdır. Belə ki, bütün ixtisaslar üzrə həkimlərin ümumi sayı 1970-ci ildəki 13,1 min nəfərdən 1982-ci ildə 22,4 min nəfərə çatdırılmış və yaxud 9,3 min nəfər artmışdır. Əgər 1970-ci ildə əhalinin hər 10 min nəfərinə 25 həkim düşürdüsə, 1982-ci ildə 35 hakim düşmüşdür. Respublikada xəstəxana çarpayılarının ümumi sayı 1970-ci ildəki 48,8 min ədəddən 1982-ci ildə 62,2 min ədədə çatdırılmış və yaxud 13,4 min ədəd çoxalmışdır. Hesablamalar göstərir ki, əhalinin hər 10 min nəfərinə 1970-ci ildə 93,4 çarpayı, 1982-ci ildə isə 97,2 çarpayı düşmüşdür. Bu dinamik sosial irəliləyişlərlə yanaşı, əhaliyə tibbi xidmətin keyfiyyəti də xeyli yüksəldilmişdir. Tibbi kadrların seçilməsində və xüsusən yerləşdirilməsində əsaslı dəyişikliklər edilməklə, bu sahədə ciddi qayda yaradılmış və ona hər yerdə əməl olunması təşkil edilmişdir.

1970-1982-ci illərdə respublikada yüksək ixtisaslı ali və

orta təhsilli mütəxəssislər hazırlanmasına yüksək tələbkarlıq və qayğıkeş münasibət formalaşdırılmış və onun geniş vüsət almasına hər cür şərait yaradılmışdır. Hər şeydən əvvəl, xalq təsərrüfatının kadrlara tələbatı nəzərə alınmaqla, keçmiş İttifaqın böyük şəhərlərinin ən mötəbər ali məktəblərinə müntəzəm olaraq hər il yüksək qabiliyyətli minlərlə gənc göndərilməklə, onların böyük dövlət qayğısı altında təhsil alması təmin edilmişdir. Moskvanın, Leninqradın və ölkənin digər iri şəhərlərinin ali məktəblərində yüksək ixtisaslı kadrlar hazırlamaq təcrübəsi getdikcə daha da inkişaf etdirilmiş və təkcə onuncu beşillikdə 3863 oğlan və qız Azərbaycandan kənarda təhsil almışdır, bu isə doqquzuncu beşillikdəkinə nisbətən 2,5 dəfə çoxdur. Onuncu beşillikdə respublikanın texniki peşə məktəbləri 256 min ixtisaslı fəhlə hazırlamışlar ki, bu da doqquzuncu beşillikdə olduğundan 40 faiz artıqdır. Orta texniki peşə məktəblərinin sayı 2 dəfə, texniki məktəblərin sayı 4 dəfə artmışdır. Bakı məişət kondisionerləri zavodundan 300 nəfər gənc mütəxəssis ixtisaslaşmaq üçün Yaponiyaya göndərilmişdir.

Beləliklə, düzgün və səmərəli sosial siyasətin həyata keçirilməsi nəticəsində əhalinin rifahının və mədəni səviyyəsinin yüksəldilməsində, adamların maddi və mənəvi tələbatının ödənilməsində sanballı müvəffəqiyyətlər qazanılmışdır.

Əldə edilmiş yüksək sosial-iqtisadi nailiyyətlərin əsası 70-ci illərdə qoyulmuşdur. Məhz buna görə də bundan sonrakı paraqrafda 70-ci illərdə Azərbaycanda milli iqtisadiyyatın formalaşması konsepsiyası və metodologiyasının təhlili verilir.

## 1.3. 70-ci illərdə Azərbaycanın milli iqtisadiyyatının formalaşması və inkişafı

70-ci illər Azərbaycanın iqtisadi və sosial inkişafında əsl dönüş illəri olmaqla bərabər, bir sıra mühüm tarixi qərar və qətnamələrin qəbul edilməsi və müvəffəqiyyətlə həyata keçirilməsi ilə səciyyələnmişdir. Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin "Azərbaycan SSR-in xalq təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında" və "Azərbaycan SSR-in kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında" 1970-ci il, "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında" 1975-ci il, "1976-1980-ci illərdə respublikada sənayenin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP MK-nın təkliflərinin nəzərdən keçirilməsi nəticələri barəsində" 1976-cı il, "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" 1979-cu il qərarları iqtisadiyyatın inkişafında misilsiz rol oynamışdır.

Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin əməyi nəticəsində yuxarıda qeyd edilən mühüm tarixi qərarların müvəffəqiyyətlə yerinə yetirilməsi milli iqtisadiyyatın formalaşdırılmasının bünövrəsi hesab edilməlidir. 70-ci illərdə Azərbaycanın nail olduğu yüksək sosial-iqtisadi inkişaf səviyyəsi buna əyani misaldır. Ölkə başçısının hələ o illərdə apardığı məqsədyönlü sosial-iqtisadi siyasətdən danışarkən

şübhəsiz ki, 70-ci illərdə baş vermiş iqtisadi sıçrayışları xatırlamamaq, qısaca olsa da, onun real təhlilini verməmək mümkün deyil. Bu gün respublikada həyata keçirilən geniş miqyaslı, nəhəng işlərin bünövrəsi, təməl daşı sözün əsl mənasında, 70-ci illərdə qoyulmuşdur. Onu da unutmaq olmaz ki, 70-ci illərin əvvəllərində Azərbaycan iqtisadi və sosial parametrlərinə görə SSRİ-nin geridə qalmış respublikalarından sayılırdı. Adambaşına məcmu ictimai məhsula və milli gəlirə görə demək olar ki, axırıncı yerlərdən birini tuturdu. İctimai əmək məhsuldarlığına görə də diqqəti cəlbedəcək dərəcədə geridə qalırdı. Açığını söyləsək, illərdən bəri yığılıb qalmış sosial-iqtisadi problemlərin sayı-hesabı yox idi. Belə son dərəcə ağır vəziyyətdə gərgin işə başlayan Heydər Əliyev qısa müddətdə respublikanın iqtisadi və sosial inkişafında möcüzələr yaratdı. Düşünülmüş iqtisadi siyasətin qısa və uzun müddətli strategiyası hazırlanmaqla, mövcud təsərrüfat və idarəetmə sistemlərində köklü, məqsədyönlü dəyişikliklər edilməklə, iqtisadi inkişafın möhkəm bünövrəsi yaradılmaqla, coşğun inkişaf sürətinə nail olundu.

Belə ki, 1970-ci ildəkinə nisbətən 1980-ci ildə əsas istehsal fondları 83 faiz, o cümlədən istehsal təyinatlı fondlar 91 faiz artmışdır. Müqayisə edilən müddət ərzində respublikada milli gəlir istehsalı 2 dəfədən çox, adambaşına isə 72 faiz, real gəlir 42 faiz yüksəlmişdir. Ümumi sənaye məhsulu istehsalı 2,37 dəfə, ümumi kənd təsərrüfatı məhsulu istehsalı 2 dəfədən çox artmışdır. Əgər 1970-ci ildə ictimai istehlak fondundan güzəşt və imtiyazlar 188 manat

təşkil etmişdisə, 1980-ci ildə bu göstərici 295 manata çatmış və yaxud 57 faiz çoxalmışdır.

70-ci illərdə xalq təsərrüfatı sahələrinin mühüm istiqamətləri üzrə elmi-texniki tərəqqinin tətbiqinə, onun iqtisadi səmərəliliyinin yüksəldilməsinə xüsusi diqqət yetirilmişdir. 1970-ci ildə elmi işçilərin ümumi sayı 17082 nəfər olmuşdusa, 1980-ci ildə onların sayı 21993-ə çatmış, yaxud 4911 nəfər artmışdır. Elmi işçilərin strukturunda keyfiyyət dəyişikliyi daha sürətli olmuşdur. Əgər 1970-ci ildə respublikada cəmi 652 elmlər doktoru, 5346 elmlər namizədi vardısa, 1980-ci ildə onların sayı müvafiq surətdə 907-yə və 8186-ya çatmışdır. Yeni texnikanın istehsala tətbiqindən illik iqtisadi səmərə 1970-ci ildəki 31 milyon manatdan 1980-ci ildə 67,6 milyon manata çatmış, yaxud 2 dəfədən çox artmışdır. Yetmişinci illərdə istehsal dəzgahlarının modernləşdirilməsinə, yeniləşdirilməsinə böyük əhəmiyyət verilmişdir. Bu barədə geniş təsəvvürə malik olmaqdan ötrü aşağıdakı cədvələ nəzər salmaq kifayətdir (bax: 10-cu cədvəl).

Cədvəldən göründüyü kimi, modernləşdirilən istehsal dəzgahlarının ümumi sayı ilbəil artmışdır. Bu mühüm yeniləşdirmə prosesi sənayenin hər bir sahəsi üçün səciyyəvi olmuşdur. Həmin proses neft hasilatı, kimya, neft-kimya, maşınqayırma və metal emalı, tikinti materialları, yüngül sənaye və yeyinti məhsulları sənayesi sahələrində daha sürətlə getmişdir. Sənayenin bütün sahələrində istehsal dəzgahları dinamik, ardıcıl modernləşdirilmişdir. Məhz buna görə

də 70-ci illərdə sənaye istehsalında ən yüksək nailiyyətlər əldə edilmişdir.

*10-cu cədvəl*

Sənaye sahələrində istehsal dəzgahlarının modernləşdirilməsinin dinamik inkişafı (ədədlə)

| | 1971-1975 | | 1976-1980 | |
|---|---|---|---|---|
| | Cəmi | Orta hesabla bir ildə | Cəmi | Orta hesabla bir ildə |
| İstehsal dəzgahlarının modernləşdirilməsi, cəmi: | 10334 | 2667 | 12493 | 2499 |
| o cümlədən sənaye sahələri üzrə: Elektroenergetika | 257 | 51 | 514 | 103 |
| Neft hasilatı sənayesi | 176 | 35 | 398 | 80 |
| Qara metallurgiya sənayesi | 84 | 17 | 55 | 11 |
| Kimya və neft-kimya sənayesi | 561 | 112 | 617 | 123 |
| Maşınqayırma və metal emalı | 627 | 126 | 685 | 137 |
| Tikinti materialları sənayesi | 67 | 13 | 389 | 78 |
| Yüngül sənaye | 7440 | 1488 | 8838 | 1768 |
| Yeyinti məhsulları sənayesi | 293 | 59 | 616 | 123 |

1970-1982-ci illərdə xalq təsərrüfatı sahələrinin inkişafına 23,9 milyard manat kapital qoyulmuşdur. Təhlil göstərir ki, bu, 62 ildə, yəni 1920-1982-ci illərdə sərf edilən və-

saitin 58,4 faizini təşkil edir. 1970-1982-ci illərdə xalq təsərrüfatında fəhlə və qulluqçuların sayı 633 min nəfər artmış və çoxlu yeni iş yerləri açılmışdır. Araşdırmalar göstərir ki, həmin dövrdə milli gəlir istehsalı 2,7 dəfə, fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 1,4 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 2,2 dəfə, sənaye məhsulları istehsalı 3 dəfə, əsas istehsal fondlarının istismara verilməsi 1,8 dəfə artmışdır.

1970-ci ildən başlayaraq Azərbaycanda tikinti işləri geniş vüsət almış, çoxlu sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Yeni sənaye sahələrinin yaradılması, mövcud istehsal qurğularından tam istifadə edilməsi nəticəsində respublikada qısa müddətdə sənaye istehsalında yüksək inkişaf sürətinə nail olundu. Bu, aşağıdakı cədvəldən aydın görünür (bax: 11-ci cədvəl).

Burada göstərilən rəqəmlərdən məlumdur ki, sənaye məhsulları istehsalı illər üzrə dinamik artım sürətinə malik olmaqla, 1970-ci ildəkinə nisbətən 1980-ci ildə 2,2 dəfə artmışdır. Beləliklə, 1970-ci ildə bütün istehsal sahələrində möhkəm və sabit bünövrə qoyulmuşdur. Odur ki, sənaye məhsulları istehsalı 1975-ci ildəkinə nisbətən 1980-ci ildə 47 faiz çoxalmışdır.

1970-1982-ci illərdə respublikada 220-dən çox sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Bütün bunlar Azərbaycanda milli iqtisadiyyatın inkişaf bünövrəsi olmaqla bərabər, respublikanın tarixində görünməmiş bir sıçrayış, onun gələcək taleyini müəyyən edən baza idi. Təhlil göstərir ki,

*11-ci cədvəl*

Ümumi sənaye məhsulu istehsalının inkişaf sürəti *(faizlə)*

| İllər | 1970-100% | 1975-100% |
|---|---|---|
| 1975 | 150 | – |
| 1976 | 162 | 108 |
| 1977 | 174 | 116 |
| 1978 | 188 | 126 |
| 1979 | 204 | 136 |
| 1980 | 220 | 147 |

1970-ci ilədək 10 il ərzində Azərbaycanda adambaşına milli gəlir artımı vur-tut 130 manat, daha doğrusu, orta İttifaq göstəricisindən 3 dəfə aşağı olmuşdur. Azərbaycanda adambaşına milli gəlir istehsalı 1970-ci ildə 737 manat, yəni orta İttifaq səviyyəsindən 457 manat az idi. Həmin il respublikada adambaşına milli gəlirin həcmi orta İttifaq səviyyəsinin 61 faizini təşkil etmişdi. 1975-ci ildə bu mühüm göstərici 65 faizə, 1979-cu ildə isə 79 faizə çatmışdır. 1980-ci ildə respublikada adambaşına milli gəlir istehsalı 1380 manatdan çox olmuşdur ki, bu da orta İttifaq səviyyəsinin 80 faizinə bərabərdir.

Beləliklə, 1970-1980-ci illərdə Azərbaycanda iqtisadi inkişaf səviyyəsinin artım sürəti əvvəlki onillikdəkinə nisbətən 2,7 dəfə çox olmuşdur. Qeyd etmək lazımdır ki, res-

publikada 70-ci illərdə ictimai istehsalda əsaslı struktur dəyişikliklləri baş vermişdir. Belə ki, məcmu ictimai məhsulun və milli gəlirin tərkibində sənayenin payı artmışdır. Aydındır ki, 70-ci illərdə istehsal olunan məcmu ictimai məhsulun 65,5 faizi sənayenin payına düşür. 1960-1970-ci illərdə respublikada istehsal olunan məcmu ictimai məhsulun sahə strukturunda sənayenin xüsusi çəkisi cəmi bir faiz artdığı halda, 1970-1975-ci illərdə bu artım 1,6 faiz, 1975-1980-ci illərdə isə 1,3 faiz olmuşdur. Qeyd edilən mütərəqqi dəyişikliklər nəticəsində ölkənin milli gəlirinin istehsal - sahə strukturunda da əlverişli irəliləyişlər baş vermişdir. Aşağıdakı cədvələ nəzər salaq.

*12-ci cədvəl*

Azərbaycan Respublikasında istehsal olunmuş milli gəlirin sahə strukturu *(faizlə) (mövcud qiymətlərlə)*

| Göstəricilər | 1970 | 1975 | 1980 |
|---|---|---|---|
| Milli gəlirin ümumi həcmi | 100 | 100 | 100 |
| o cümlədən: | | | |
| Sənaye | 44,8 | 45,0 | 47,5 |
| Kənd təsərrüfatı | 24,9 | 25,1 | 26,5 |
| Tikinti | 12,4 | 11,8 | 8,9 |
| Maddi-texniki təchizat, ticarət, tədarük və s. | 12,5 | 12,8 | 13,6 |
| Nəqliyyat və rabitə | 5,4 | 5,3 | 3,5 |

Məcmu məhsulun strukturunda baş vermiş dəyişikliklər öz əksini milli gəlirin sahə strukturunda tapmışdır. İstehsal olunmuş milli gəlirin 47,5 faizi sənayenin, 26,5 faizi isə kənd təsərrüfatının payına düşmüşdür. Göstərilən hər iki mühüm sahənin milli gəlir istehsalındakı payı dinamik olaraq artmışdır. Milli gəlirin istehsal strukturunda baş vermiş irəliləyişlər bütövlükdə xalq təsərrüfatı sahələrinin səmərəli idarə edilməsindən xəbər verir.

Aparılan kompleks təhlillər göstərir ki, respublikanın xalq təsərrüfatında elmi-texniki tərəqqini müəyyənləşdirən sahələr daha sürətlə inkişaf etmişdir. Belə ki, sənayenin strukturunda onların xüsusi çəkisi 1975-ci ildəki 24,7 faizdən 1980-ci ildə 28,7 faizə çatmışdır. 1970-1980-ci illər ərzində maşınqayırmada və metal emalında məhsul istehsalı 3,4 dəfədən çox, kimya və neft-kimya sənayesində 2,5 dəfə artmışdır. Qeyd edilən iki mühüm sənaye sahəsinin ümumi sənaye istehsalındakı payı 1970-ci ildəki 18,2 faizdən 1980-ci ildə 25 faizə çatmışdır. Respublikada sənaye strukturunda baş verən irəliləyişlər öz real əksini aşağıdakı cədvəlin göstəricilərində tapır (bax: 13-cü cədvəl).

Statistik məlumatların təhlili göstərir ki, 70-ci illərdə istehsal vasitələri istehsalı ilə istehlak malları istehsalı arasında nisbətlər son dərəcə yaxşılaşmışdır. 1970-1980-ci illərdə istehsal vasitələri istehsalı 2,1 dəfə, istehlak malları istehsalı isə 2,4 dəfə artmışdır. Doqquzuncu beşillikdə "B" qrupu sahələrində məhsulun orta illik artım sürəti nəzərdə tutulan 8,7 faiz əvəzinə 10,1 faiz təşkil etmişdir. Respubli-

*13-cü cədvəl*

Respublika sənayesində baş vermiş struktur dəyişiklikləri *(faizlə)*
*(1975-ci ilin topdansatış qiymətləri ilə)*

| Sənaye sahələri | 1970 | 1975 | 1980 |
|---|---|---|---|
| Ümumi sənaye sahələri | 100 | 100 | 100 |
| o cümlədən: Elektroenergetika | 20,5 | 14,8 | 10,3 |
| Maşınqayırma və metal emalı | 11,0 | 12,7 | 16,3 |
| Kimya və neft-kimya sənayesi | 7,2 | 8,2 | 8,5 |
| Yanacaq sənayesi | 4,4 | 3,8 | 3,0 |
| Tikinti materialları sənayesi | 3,6 | 3,3 | 3,2 |
| Meşə, ağac emalı və sellüloz-kağız sənayesi | 1,7 | 1,8 | 1,6 |
| Yüngül sənaye | 22,2 | 22,2 | 23,1 |
| Yeyinti məhsulları sənayesi | 24,0 | 27,5 | 27,7 |

kada 1970-1980-ci illərdə "A" qrupu ilə "B" qrupu arasında optimal nisbət yaradılmasına nail olunmuşdur ki, bu da mövcud ehtiyatlardan daha səmərəli istifadə edilməsindən xəbər verir. Bütün bunlarla əlaqədar olaraq aşağıdakı cədvəldə istehsal vasitələri istehsalı ilə istehlak malları istehsalı arasındakı nisbətlərin inkişaf dinamikası verilir (bax: 14-cü cədvəl).

Buradan göründüyü kimi, "A" qrupu ilə "B" qrupu arasında proporsionallıq ardıcıl gözlənilir. Beləliklə, 70-ci illərdə xalq təsərrüfatında, o cümlədən onun əsas sahəsi olan sənayedə struktur irəliləyişləri baş verməklə yanaşı, sənaye sahələrinin istehsal qurğularından daha səmərəli istifadə

edilməsi yolu ilə səmərəlilik və keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasına nail olunmuşdur. Belə ki, doqquzuncu beşillikdə sənayedə əmək məhsuldarlığı planda nəzərdə tutulmuş 31 faiz əvəzinə 34 faiz artmışdır. Həmin beşillikdə əmək məhsuldarlığının artım sürətinə görə Azərbaycan müttəfiq respublikalar arasında axırıncı yerlərdən üçüncü yerə çıxa bilmişdir.

*14-cü cədvəl*

Sənaye məhsulu istehsalının ümumi həcmində istehsal vasitələri istehsalının və istehlak malları istehsalının xüsusi çəkisi *(faizlə)*

| Göstəricilər | 1975 | 1976 | 1977 | 1978 | 1979 | 1980 |
|---|---|---|---|---|---|---|
| Ümumi sənaye məhsulu | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| o cümlədən: istehsal vasitələri istehsalı ("A" qrupu) | 75,1 | 75,1 | 75,0 | 74,4 | 74,6 | 75,4 |
| istehlak malları istehsalı ("B"qrupu) | 24,9 | 24,9 | 25,0 | 25,6 | 25,4 | 24,6 |

70-ci illərdə yeyinti məhsulları sənayesinin istehsal qurğularından tam və səmərəli istifadə edilmişdir. 1970-1980-ci illərdə respublikada yeyinti məhsulları sənayesində məhsul istehsalı 2,6 dəfə artmışdır. Həmin illərdə yeni yeyinti məhsulları sənayesi obyektləri tikilib istifadəyə verilmiş, mövcud müəssisələrin yenidən qurulması və istehsal qurğularının daha da genişləndirilməsi işi başa çatdırılmışdır.

Həmin illərdə kənd təsərrüfatı xammalını emal edən

sahələr, xüsusilə şərabçılıq, konserv, ət, süd sənayesi daha sürətlə inkişaf etdirilmişdir.

Üzümçülüyün son dərəcə sürətli inkişafı nəticəsində onun ilkin və son emalı üçün kompleks tədbirlər sistemi həyata keçirilmişdir. Bu mühüm tədbirlər sistemində şərabçılığın inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilmişdir. Həmin sahənin məhsulunun orta illik artım sürəti 1970-1980-ci illərdə 15 faizdən artıq olmuşdur. Respublika rəhbəri Heydər Əliyev şərabçılığın inkişafı ilə bağlı sahələrin tərəqqisinə xüsusi fikir verməklə, onun həyata keçirilməsinə bilavasitə rəhbərlik etmişdir. "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" Sov. İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 1979-cu il 22 fevral tarixli qərarı ilə əlaqədar Azərbaycan KP MK-nın 1979-cu ilin noyabrında keçirilmiş plenumu Azərbaycanda şərabçılığın sürətli inkişafı ilə bağlı sahələrin tərəqqisinə diqqəti daha da artırmağı mühüm vəzifə kimi qarşıya qoymuşdur. Plenumda həmin vəzifələrin yerinə yetirilməsi sahəsində geniş tədbirlər hazırlanmış, bunların ardıcıl və sürətlə həyata keçirilməsi təmin edilmişdir.

70-ci illərdə respublikada neft-qaz, neft-kimya sənayesinin inkişafına böyük əhəmiyyət verilmiş və xüsusi diqqət yetirilmişdir. 1978-ci ilin noyabr ayında Azərbaycan KP MK-nın plenumunda neft hasilatının artırılması məqsədi ilə Bahar, Zağlı-Zeyvə, Muradxanlı, Bulla-dəniz sahələrindən daha səmərəli istifadə edilməsi, qazma işlərinin daha da genişləndirilməsi nəzərdə tutulmuş və qısa müddətdə yük-

sək nəticələr əldə edilmişdir. Belə ki, dənizdə neft hasilatı və qazçıxarma üçün yeni, mütərəqqi avadanlıq və texnika ilə təchizat sahəsində əhəmiyyətli, nəhəng işlər həyata keçirilmişdir. Bu mühüm sahənin inkişafı ilə əlaqədar respublika rəhbəri Heydər Əliyev çıxışında qeyd etmişdir: "Dörd il yarım ərzində həmin məqsədlərə 1,8 milyard manatdan artıq və ya əvvəlki altı il ərzindəki qədər vəsait yönəldilmişdir. Xəzər neftçilərinə dənizin 70 metrədək dərin olan sahələrində 6 kilometrlik quyular qazılması üçün yeni, çoxsəmərəli üzən qurğular, suyun altında neft və qaz kəmərləri çəkilməsi və geoloji-axtarış, mühəndis-axtarış işləri aparılması üçün ixtisaslaşdırılmış gəmilər, dənizin dərin sahələrində topa halında on quyu qazılması üçün sabit platformalar, 2,5 min ton yükgötürən nadir kranlı gəmi verilmişdir. Neft və qaz ehtiyatları xeyli artırılmış, neft hasilatı səviyyəsinin azalması sürəti zəifləmişdir".

Göründüyü kimi, ölkəmizin əsas sərvəti olan neft, qaz sənayesinin inkişafına və bütövlükdə milli iqtisadiyyatımızın başlıca mənbəyi olan sahələrin inkişafına Heydər Əliyev önəmli fikir verməklə, onun formalaşmasının bünövrəsini hələ 70-ci illərdə qoymuşdur. Məhz həmin illərdə qara və əlvan metallurgiya sənayesində yüksək iqtisadi göstəricilər əldə edilmişdir. 1970-1980-ci illərdə bu mühüm sahədə əmək məhsuldarlığı 71 faiz yüksəlmişdir.

Araşdırmalar göstərir ki, 70-ci illərdə bütün sənaye sahələrində geniş yenidənqurma işləri aparılmışdır ki, bunun da nəticəsində ümumilikdə sənaye üzrə əmək məhsuldarlığı 1970-ci ildəkinə nisbətən 1975-ci ildə 34 faiz, 1980-ci

ildə 72 faiz artmışdır. Bu mühüm iqtisadi göstərici haqqında daha geniş təsəvvürə malik olmaqdan ötrü aşağıdakı cədvəli nəzərdən keçirək.

*15-ci cədvəl*

Sənaye sahələri üzrə əmək məhsuldarlığının inkişaf sürəti
1970 = 100 faiz

| Sənaye sahələri | 1975 | 1980 |
|---|---|---|
| Bütövlükdə sənaye üzrə | 134 | 172 |
| o cümlədən: Yanacaq sənayesi | 124 | 123 |
| Qara və əlvan metallurgiya | 142 | 171 |
| Kimya və neft-kimya sənayesi | 153 | 218 |
| Maşınqayırma və metal emalı | 143 | 220 |
| Meşə,ağac emalı və sellüloz-kağız sənayesi | 141 | 178 |
| Tikinti materialları sənayesi | 128 | 152 |
| Yüngül sənaye | 135 | 190 |
| Yeyinti məhsulları sənayesi | 151 | 213 |

Bütün sənaye sahələri üzrə əmək məhsuldarlığı yüksək artım sürətinə malikdir. 1970-1980-ci illərdə maşınqayırma və metal emalı sahəsində əmək məhsuldarlığının artımı ümumiyyətlə sənaye üzrə olan göstəricini 1,7 dəfə, 1976-1980-ci illərdə isə 1,9 dəfə ötüb keçmişdir. Şübhə yoxdur ki, 70-ci illərdə bu yüksək iqtisadi göstəricilərə nail olmaqdan ötrü respublikanın rəhbəri Heydər Əliyev sənayenin aparıcı sahəsi kimi maşınqayırmanı əsaslı surətdə yenidən qurmaqla, onun istehsal qurğularının daha da artırılmasına

nail olmuşdur. Xalq təsərrüfatında elmi-texniki tərəqqinin sürətləndirilməsində mühüm yeri olan maşınqayırmada əmək məhsuldarlığının üstün artması ümumilikdə ölkə sənayesinin inkişafına son dərəcə müsbət təsir göstərmişdir. Eyni zamanda Azərbaycan KP MK 1978-ci ilin iyun ayında sənayedə əmək məhsuldarlığının daha da yüksəldilməsinə dair qərar qəbul etmişdir. Həmin qərarda bu mühüm göstərici üzrə tapşırıqların yerinə yetirilməsi sahəsində konkret tədbirlər sistemi müəyyən edilmişdir. Odur ki, 1980-ci ilin fevral ayında, yəni 2 il sonra Azərbaycan KP MK-nın plenumunda ictimai əmək məhsuldarlığının səviyyəsini müəyyən edən bütün göstəricilərin, o cümlədən maddi istehsal sahələrində əmək məhsuldarlığının yüksəldilməsinə dair ciddi təkliflər irəli sürülərək, onların tezliklə həyata keçirilməsi təmin edilmişdir.

Təhlil göstərir ki, 1976-1980-ci illərdə respublika sənayesində əməyin istehsal fondları ilə təchiz edilməsi 16,2 faiz, əmək məhsuldarlığı isə 28 faiz yüksəlmişdir. Beləliklə, sənaye istehsalı artımının üçdə iki hissəsi əmək məhsuldarlığının yüksəldilməsi hesabına təmin edilmişdir.

Sənayedə əmək məhsuldarlığının yüksək sürətlə artırılmasının mühüm səbəblərindən biri də istehsalın texniki təchizatının yaxşılaşdırılması olmuşdur. Belə ki, 1979-cu ildə sənaye müəssisələrində mexanikləşdirilmiş və avtomatlaşdırılmış axın xətlərinin artırılması əmək məhsuldarlığının yüksəldilməsinə əsaslı təsir göstərmişdir. Statistik məlumatların təhlili göstərir ki, sənaye müəssisələrində mexanikləşdirilmiş axın xətlərinin sayı 1971-ci ildə 799

vahid təşkil etdiyi halda, 1979-cu ildə 1590 vahidə çatmaqla 791 vahid çoxalmışdır. 1971-1980-ci illərdə əsas istehsal prosesləri kompleks mexanikləşdirilmiş və avtomatlaşdırılmış müəssisələrin sayı 2 dəfədən çox artırılmışdır.

60-cı illərdə sənaye istehsalı 94 faiz, kənd təsərrüfatı istehsalı 30 faiz artmışdısa, 1970-1980-ci illərdə müvafiq surətdə 2,2 dəfə və 2,1 dəfə artmışdır.

Respublikanın xalq təsərrüfatı sahələrində kənd təsərrüfatı mühüm yerlərdən birini tutur. Milli gəlir istehsalında bu sahənin payı getdikcə artmışdır. Əgər 1970-ci ildə respublikada maddi istehsal sahələrindən əldə edilən milli gəlirin strukturunda kənd təsərrüfatının payı 24,9 faiz olmuşdusa, 1980-ci ildə bu göstərici 26,5 faizi təşkil etmişdir. 70-ci illərdə respublikada kənd təsərrüfatı məhsulları istehsalının yüksək sürətlə artımı cədvəldən aydın görünür.

*16-cı cədvəl*

Ümumi kənd təsərrüfatı məhsulları istehsalının artım sürəti *(faizlə)* *(Bütün təsərrüfat kateqoriyaları daxil olmaqla)* 1970=100 faiz

| İllər | Ümumi kənd təsərrüfatı məhsulu | Bitkiçilik məhsulları | Heyvandarlıq məhsulları |
|---|---|---|---|
| 1975 | 134 | 142 | 121 |
| 1976 | 152 | 171 | 123 |
| 1977 | 157 | 173 | 132 |
| 1978 | 170 | 189 | 141 |
| 1979 | 183 | 209 | 142 |
| 1980 | 205 | 243 | 148 |

Göründüyü kimi, 1970-ci ildəkinə nisbətən ümumi kənd təsərrüfatı məhsulu istehsalı hər il ardıcıl, dinamik artım sürətinə malik olmuşdur. Bitkiçilik və heyvandarlıq məhsulları istehsalında hər il yüksək artım sürəti əldə edilmişdir. Ümumi kənd təsərrüfatı məhsulunun artımı əsasən bitkiçilik və heyvandarlığın məhsuldarlığı hesabına başa gəlmişdir. Bunu aşağıdakı cədvəl daha açıq-aydın əks etdirir.

*17-ci cədvəl*

Əsas kənd təsərrüfatı bitkilərinin və heyvandarlığın məhsuldarlığı
*(hektar-sentnerlə)*

| | 1970 | 1975 | 1980 | 1970-ci ilə nisbətən 1980-ci ildə artım, % |
|---|---|---|---|---|
| Dənli bitkilər | 11,6 | 14,6 | 23,2 | 2 dəfə |
| Pambıq | 17,4 | 21,3 | 35,4 | 2 dəfə |
| Üzüm | 46,8 | 65,1 | 35,3 | 2 dəfə |
| Tərəvəz | 125 | 156 | 199 | 151 |
| Çay yarpağı | 16,9 | 26,9 | 46,9 | 276 |
| Bostan bitkiləri | 52 | 77 | 91 | 177 |
| Meyvə və giləmeyvə | 21,3 | 19,2 | 31,3 | 147 |
| Hər inək və camışdan orta illik süd, kq | 860 | 1311 | 1666 | 192 |
| Hər qoyundan orta illik yun (fiziki çəkidə, kq) | 2,4 | 2,2 | 2,6 | 108 |
| Yumurta, toyuqların orta illik məhsuldarlığı, ədəd | 97 | 116 | 121 | 136 |

Əsas kənd təsərrüfatı bitkilərinin və heyvandarlığın məhsuldarlığı 1970-ci ildəkinə nisbətən 1980-ci ildə dəfələrlə yüksəlmişdir. Məhsuldarlığın belə kəskin yüksəlməsi ümumi bitkiçilik və heyvandarlıq məhsulları istehsalının sürətli artımına səbəb olmuşdur.

Belə ki, respublikada bütün təsərrüfat kateqoriyaları üzrə taxıl istehsalı 1970-ci ildəki 723,4 min tondan 1980-ci ildə 893,3 min tona, pambıq istehsalı 335,6 min tondan 883,7 min tona, tərəvəz istehsalı 409,9 min tondan 824,2 min tona, üzüm istehsalı 351,7 min tondan 1381 min tona çatdırılmışdır. Rəqəmlərdən göründüyü kimi, əsas bitkiçilik məhsulları istehsalının ümumi həcmi 1970-ci ildəkinə nisbətən 1980-ci ildə bir neçə dəfə artırılmışdır. Bitkiçilik məhsullarının kəskin artması sözsüz ki, heyvandarlıq məhsulları istehsalının artmasına da zəmin yaratmışdır. Açığını desək, 1970-ci ilədək kənd təsərrüfatında vəziyyət son dərəcə acınacaqlı idi, respublikamız bitkiçilik və heyvandarlığın məhsuldarlığına görə keçmiş İttifaqın bütün respublikaları arasında sonuncu yerdə gedirdi.

1969-cu ildən bütün xalq təsərrüfatı sahələrində, o cümlədən onun mühüm sahəsi olan kənd təsərrüfatında, sözün əsl mənasında köklü dəyişikliklər baş vermişdir ki, bu da Heydər Əliyevin yeritdiyi düzgün və səmərəli aqrar siyasətin nəticəsi kimi başa düşülməlidir. Kənd təsərrüfatında artım sürətinin mühüm səbəblərindən biri də aqrar sahələrə kapital qoyuluşundan məqsədyönlü istifadə edilməsi olmuşdur. Belə ki, 1970-1980-ci illərdə respublikada geniş meliorasiya və irriqasiya işləri həyata keçirilmişdir.

Araşdırmalardan məlum olmuşdur ki, heyvandarlıq məhsulları istehsalı da xeyli artmışdır. Yəni, bütün təsərrüfat kateqoriyaları daxil olmaqla, ət istehsalı (kəsilmiş çəkidə) 1970-ci ildəki 93,9 min tondan 1980-ci ildə 138,9 min tona, süd istehsalı 478,1 min tondan 796,1 min tona, yumurta istehsalı 412,5 milyon ədəddən 722 milyon ədədə, yun istehsalı 7,6 min tondan 10,7 min tona çatdırılmışdır.

1970-1982-ci illərdə Heydər Əliyev heyvandarlığın mühüm sahəsi olan sənaye quşçuluğunun inkişafına da xüsusi fikir vermişdir. 70-ci illərin sonu və 80-ci illərin əvvəlləri Azərbaycanda quşçuluq sənayesinin intensiv inkişaf dövrü olmuşdur. Onun göstərişi və qayğısı ilə qısa müddətdə xarici ölkələrdən onlarca müasir qabaqcıl texnologiyaya əsaslanan iri quşçuluq kompleksləri gətirilib quraşdırıldı və quşçuluq sənaye təməli üzərində sürətlə inkişaf etdirildi. Qısa müddətdə Dəvəçi, Siyəzən, Yeni Bakı broyler, Abşeron damazlıq fabrikləri və bütövlükdə respublika üzrə 30-a qədər quşçuluq fabriki tikilib istifadəyə verildi. Belə bir sıçrayış hesabına istehsal ildən-ilə artdı. 1980-ci ildə respublikada 35,7 min ton quş əti, 278,4 milyon ədəd yumurta istehsal olunmuşdur ki, bu da 1970-ci ildəkindən dəfələrlə çoxdur.

Apardığımız tədqiqatlar göstərir ki, Azərbaycanda meliorasiya və irriqasiya sistemləri tikintisinin əsl vüsət alması Heydər Əliyevin 70-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrlərlə bağlıdır.

Statistik məlumatların araşdırılması göstərir ki, 1970-

1980-ci illərdə meliorasiya və irriqasiya sistemlərinin tikintisinə respublikada 4,1 milyard rubl kapital qoyulmuşdur ki, bunun da nəticəsində 3,5 milyard rubl (1984-cü ilin qiymətləri ilə) dəyərində əsas fondlar, 270 min hektar yeni suvarılan sahələr istifadəyə verilmiş, 550 min hektar sahədə kompleks meliorasiya işləri həyata keçirilmişdir. 70-ci ildən başlayaraq texniki cəhətdən zəngin meliorasiya və irriqasiya sistemləri yaradılmışdır. Çoxlu dəryaça, hidrotexniki qurğu, nasos stansiyası tikilib istifadəyə verilmişdir. Ağstafaçay, Tərtərçay, Xanbulançay dəryaçaları kimi mühüm əhəmiyyətli tikinti obyektləri istifadəyə verilmişdir ki, bütün bunların nəticəsində suvarılan torpaq sahəsi 1450 min hektara çatdırılmışdır. Respublikada suvarma əkinçiliyinə böyük əhəmiyyət verən Heydər Əliyev 80-ci illərin əvvəllərində daxili çaylardan 1 milyard 400 milyon kubmetr həcmində su ehtiyatları yığılmasına imkan verəcək 24 dəryaça tikilməsi üçün layihə-smeta sənədləri hazırlanmasını təmin etmişdir. Təəssüf ki, Heydər Əliyev Moskvada yüksək dövlət vəzifəsinə irəli çəkildikdən sonra bu mühüm problem axıra çatdırılmamışdır. Ondan sonra səriştəsiz, siyasi və iqtisadi cəhətdən naşı rəhbərlər bir-birini əvəz etdikcə, yaradılmış sosial-iqtisadi potensialı daha da inkişaf etdirmək əvəzinə, onun sökülüb dağıdılmasına gətirib çıxarmış, respublikada hərc-mərclik getdikcə dərinləşmişdir.

Qeyd etmək lazımdır ki, 1970-1982-ci illərdə iqtisadi inkişafla bərabər, sosial inkişafın - elmin, təhsilin, mədəniyyətin, incəsənətin hərtərəfli inkişafına da böyük qayğı göstərilmişdir. Həmin dövrdə Bakıda və respublikanın digər

şəhərlərində yeni ali məktəblər, elmi tədqiqat institutları, laboratoriyalar yaradılmış, elm və təhsil ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi fikir verilmişdir.

1970-1982-ci illərdə "Azərbaycan", "Abşeron", "Moskva" kimi nəhəng mehmanxanalar, Respublika sarayı, Prezident iqamətgahı, Respublika İdman-Konsert Kompleksi, Gülüstan sarayı, "Moskva" univermağı, Bakı kondinsionerləri, şampan şərabları, dərin özüllər zavodları, dəniz vağzalı kompleksi, onlarla memarlıq abidəsi və sənaye müəssisəsi inşa edilmişdir. Bütün bu nəhəng işlər tarixən çox qısa müddətdə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında həyata keçirilmişdir. Ümumiyyətlə, 1970-1982-ci illər Azərbaycanda, xüsusilə onun iri sənaye mərkəzlərində geniş tikinti-quraşdırma illəri kimi xatırlanmalıdır.

Heydər Əliyev həmin dövrdə sosial-mədəni obyektlərin tikintisinə xüsusi fikir verirdi. O, 1970-ci ilin əvvəllərində Azərbaycanda gənclərin təlim-tərbiyəsini gücləndirmək, onların idmana, mədəniyyətə olan həvəsini yüksək səviyyədə təmin etmək üçün geniş profilli idman-konsert sarayı tikilməsi qənaətinə gəlmişdir. O vaxtlar Sovetlər İttifaqının tərkibində olan Azərbaycanda tikintisi böyük vəsait tələb edən belə bir sarayın inşasına başlamaq üçün Heydər Əliyev çox gərgin əmək sərf etmişdir. O, özü bu barədə 1998-ci il fevralın 18-də Respublika İdman-Konsert Kompleksində Yeni Azərbaycan Partiyası Gənclər Birliyi nümayəndələrinin ümumrespublika toplantısındakı nitqində belə demişdir: "...o illər sovet hökuməti siyasətini belə qururdu ki, guya

bu cür böyük sarayların tikilməsinə vəsait çatmır, ona görə də onlara ehtiyac yoxdur. Mən isə sübut edirdim ki, Azərbaycan üçün, Azərbaycanın paytaxtı üçün belə bir saray mütləq lazımdır. Nəhayət, bunun tikilməsi, yaranması üçün qərar qəbul edilməsinə nail olduq. Onun layihəsinin hazırlanması da yaxşı xatirimdədir. Biz həmin layihələrə bir neçə dəfə baxdıq, fikirlərimizi dedik, təkliflərimizi, mülahizələrimizi bildirdik...

Mən xoşbəxtəm ki, bu sarayın tikilməsinin təşəbbüskarıyam. Xoşbəxtəm ki, bu sarayın təməl daşını qoymuşam, həmin təməl daşında mənim əsrlər boyu yaşayacaq imzam vardır. Nəhayət, xoşbəxtəm ki, bu gün ilk dəfə ağzınadək dolu olan bu saraya Azərbaycan gəncləri toplaşmışdır"[1].

Heydər Əliyev bütün mühüm obyektlərin tikintisində olduğu kimi, İdman-Konsert Kompleksinin də tikinti meydanına dəfələrlə gəlmiş, tikintinin aparılması işləri ilə yaxından maraqlanmış, qarşıya çıxan maneələri aradan qaldırmışdır. Belə maneələr isə həm daxildən, həm də xaricdən törədilirdi. Heydər Əliyev həmin günləri belə xatırlayır: "O zaman işin qızğın bir vaxtında sarayın tikintisinə Moskvadan vəsait ayrılmasını kəsdilər. Mən Sovet İttifaqı Nazirlər Sovetinin sədrinə müraciət etməli oldum. Bu məsələ ilə əlaqədar xüsusi olaraq Moskvaya getdim, ondan xahiş etdim və vəsait ayrılmasının davam etdirilməsinə nail oldum.

Eyni zamanda, təəssüf edirəm ki, sonrakı illərdə bu

---

[1] «Azərbaycan» qəzeti, 22 fevral 1998-ci il.

sarayın tikilməsi çox ləngidilibdir. O, bizim nəzərdə tutduğumuz vaxtda tikilib qurtarmayıbdır. Bilirsiniz ki, 1982-ci ilin sonunda mən Azərbaycandan getdim. Bundan sonra bu sarayın tikintisinə diqqət azalmışdı. Mən Azərbaycana yenidən gələndə bu işlə maraqlandım. Bu sarayın tikilib qurtarması haqqında yalnız 1990-cı ildə arayış verilibdir. Təəssüflər olsun ki, ondan sonra da, indiyədək bu saraydan nəzərdə tutulmuş məqsədlər üçün istifadə olunmayıbdır"[1].

1971-1983-cü illərdə respublikada 18 milyon 293 min kvadratmetr mənzil sahəsi inşa edilmişdir ki, bu da 1920-1983-cü illərdə, yəni 63 ildə tikilən mənzil fondunun 33 faizini təşkil edir. 70-ci illər Bakıda, Gəncədə, Sumqayıtda yeni mikrorayonların və sənaye obyektlərinin salınması salnaməsi ilə səciyyələnmişdir.

1970-ci ildən başlayaraq respublikamızda tarixi abidələrimizin qorunub saxlanması və bərpası üzrə geniş kompleks işlər həyata keçirilmişdir. Əzəmətli tarixi binalar qısa müddətdə öz əvvəlki vəziyyətinə qaytarıldı. Bakıda və digər şəhərlərdə sosial-mədəni obyektlər, abidələr, görkəmli şəxsiyyətlərin heykəlləri ucaldıldı.

70-ci illərdə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında Azərbaycanda başdan-başa meşə zolaqlarının salınması işinə başlandı. Xüsusilə iri sənaye şəhərlərində, o cümlədən Bakı şəhərində və onun ətrafında yaşıllıq zonası genişləndirildi. 1971-ci ildə yaşıllaşdırma haqqında xüsusi tədbirlər görülməklə, hər adamın iki ağac əkməsi nəzərdə

[1] «Azərbaycan» qəzeti, 22 fevral 1998-ci il.

tutuldu və bu nəcib iş geniş vüsət aldı. Əgər 1970-ci ildə Bakı şəhərində adambaşına 5 kvadratmetr yaşıllıq düşürdüsə, 1981-ci ildə bu mühüm göstərici 23 kvadratmetrə çatmışdır.

Beləliklə, Heydər Əliyev respublikaya rəhbərlik etdiyi dövrdə Azərbaycanda möhkəm və sabit sosial-iqtisadi baza yaradılmış və yüksək sürətlə inkişaf etdirilmişdir ki, bu da milli iqtisadiyyatımızın formalaşmasının və inkişafının Heydər Əliyev konsepsiyası və metodologiyası adlandırılır.

*II FƏSİL*

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN MİLLİ MƏNAFEYİNİN MÜDAFİƏÇİSİDİR

## 2.1. Heydər Əliyev siyasi və mənəvi təzyiq illərində

1982-1987-ci illərdə SSRİ-nin ali rəhbərliyində fədakarlıqla çalışan Heydər Əliyev qısa bir müddətdə Moskvada böyük nüfuz qazanmaqla bərabər, son dərəcə prinsipial mövqe tutmuşdur. Heydər Əliyevin qətiyyətli, açıq-aşkar prinsipial mövqeyi Mixail Qorboçovun mənafeyinə uyğun gəlmədiyindən 1987-ci ildə onu öz vəzifəsindən istefa verməyə vadar etmişlər. Sov.İKP Mərkəzi Komitəsinin oktyabrın 21-də çağırılmış plenumunda o, Siyasi Büro üzvlüyündən azad edilmişdir ( səhhətinə görə, ərizəsinə əsasən).

Həmin ədalətsiz qərardan təxminən iki həftə sonra Qorboçovun iqtisadiyyat üzrə müşaviri A. Aqanbekyan Parisdə erməni lobbisi ilə görüşündə sərsəm bir fikir söyləmişdir; o, Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsinin "iqtisadi cəhətdən" sərfəli olduğunu və bu barədə Siyasi Büroya müvafiq təkliflər verildiyini açıqlamış, bununla da uzun illərdən bəri öz içində gizli qaynayan qazanın qapağını qaldırmışdır. Bununla kifayətlənməyən hay-küyçü Aqanbekyan "Humanite" qəzetinə müsahibə vermişdir. Bu müsahibə ilə Dağlıq Qarabağ Vilayət Sovetinin 1988-ci il 20 fevral tarixli qərarının və Bakıda fövqəladə vəziyyətin tətbiqi haqqında 1990-cı il 19

yanvar tarixli fəmanın birbaşa əlaqəsini görməmək olmazdı.

Bütün bunlar Heydər Əliyevin planlı surətdə SSRİ-nin ali rəhbərliyindən uzaqlaşdırılmasından sonra mümkün olmuşdur. Şübhəsiz ki, əvvəlcədən düşünülmüş ssenari əsasında Heydər Əliyev vəzifədən kənarlaşdırıldıqdan sonra Moskvada güclü nəzarət altında olmaqla, demək olar ki, ev dustağı şəraitində yaşamışdır. Buna baxmayaraq Heydər Əliyev ona xas olan təmkinlə, yüksək diplomatik məharətlə öz prinsipial və ədalətli mövqeyini heç də zəifləmməmiş, ağır vəziyyətdə olsa da, ictimai-siyasi fəaliyyətini davam etdirmiş, öz doğma Vətənində - Azərbaycanda baş verən hadisələrə biganə qalmamış, əksinə, onları hər vasitə ilə dünya ictimaiyyətinə çatdırmaq üçün əlindən gələni əsirgəməmişdir. Lakin bu nəcib işdə o, bir sıra maneələrlə qarşılaşmışdır. Heydər Əliyevin Sovet İttifaqı Kommunist Partiyasının aprel (1989-cu il) plenumunda nitqi, Moskva jurnalisti A.Karaulovla, "Vaşinqton post" qəzetinin Moskva müxbiri Devid Remniklə söhbətləri, 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində jurnalistlər, ictimaiyyətin nümayəndələri qarşısında çıxışı baş verən hadisələrə münasibətdə onun mövqeyini açıqlayan sənədli sübutlardır.

"Vaşinqton post" qəzetinin Moskva müxbiri Devid Remnikin sualına Heydər Əliyev aşağıdakı cavabı vermişdir: "Siyasi Bürodan istefa verdikdən 15 gün sonra Qarabağ məsələsi ortaya çıxdı. Qorbaçovun ən yaxın adamı, iqtisadiyyat üzrə müşaviri, milliyyətcə erməni olan professor Aqanbekyan Parisdə keçirdiyi bir mətbuat konfransında

"Dağlıq Qarabağ Ermənistana verilməlidir"- demiş, bu məsələ ilə əlaqədar Qorbaçovu da qızışdırmışdır. Moskvanın Qarabağ əməliyyatı mənim Siyasi Bürodan getməyimdən 15 gün sonra həyata keçirilməyə başladı. Deməli, bu plan hələ əvvəlcədən hazırlanmış, lakin tətbiq olunmasında mən ciddi maneə imişəm. Azərbaycanın bu milli məsələsi ilə əlaqədar Qorbaçov, onunla mümkün olmasa Liqaçov, Viktor Çebrikov və DTK sədri, eyni zamanda Siyasi Büro üzvü Kryuçkovla danışmaq istəyirdim. "Əlimdə sənədlər, sübutlar var, Qarabağ Azərbaycanın öz torpağıdır"-deyirdim. Onların mənə cavabı isə bu idi: "Biz Qarabağdakı erməni-azərbaycanlı münaqişəsi ilə bağlı problemi özümüz həll edəcəyik".

Aprelin 25-də Sov.İKP MK plenumu olmuşdur. Sov.İKP MK-nın üzvü, fərdi pensiyaçı Heydər Əliyev plenumda çıxış etmişdir. Heydər Əliyevin çıxışı icmal şəklində "Pravda" qəzetinin 1989-cu il 27 aprel nömrəsində verilmişdir. Həmin çıxışdan bəzi məqamları xatırlatmaq yerinə düşərdi: "Muxtar vilayətdə və onun ətrafında mürəkkəb vəziyyət yaranmışdır və həmin vəziyyəti dərindən, düşünülmüş şəkildə, başlıcası isə obyektivcəsinə təhlil etmək lazımdır. Burada emosional münasibət yolverilməzdir. Mən Azərbaycandan 1982-ci ildən çıxmışam. Dağlıq Qarabağda hadisələr isə 1988-ci ildə başlamışdır. Mənim Azərbaycanda işlədiyim dövrdə Dağlıq Qarabağda vəziyyət normal idi, sabit idi. Millətlərarası münasibətlər zəminində heç bir mənfi hallar yox idi. Dağlıq Qarabağda tez-tez olur, xoş rəftarla qarşılaşırdım və qarşımda bu cür xarakterli heç bir məsələ qoyulmurdu. Azərbaycan KP MK-nın birinci katibi işlədiyim bütün dövr

ərzində Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarmaq barədə bircə məktub da, bircə ərizə də daxil olmamışdır. Yeri gəlmişkən, Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişaf səviyyəsinə dair göstəriciləri Azərbaycan və Ermənistan üzrə orta respublika göstəricilərindən yüksəkdir".

Aydındır ki, SSRİ rəhbərliyinin Konstitusiyaya zidd, antihumanist siyasətinə qarşı aşkar etirazlar Heydər Əliyevin Moskvada yaşamasını qeyri-mümkün etmişdi. Odur ki, o, 1990-cı il iyunun 19-da Bakıya qayıtmışdır. Lakin Azərbaycanın o vaxtkı səriştəsiz rəhbərliyi Heydər Əliyevin xalq tərəfindən sevilməsi və artmaqda olan nüfuzundan qorxaraq, onun Bakıda yaşamasına imkan verməmiş və Heydər Əliyev öz ata yurdu Naxçıvana yollanmağa məcbur olmuşdur.

1990-cı il iyulun 22-də Naxçıvan şəhərinin mərkəzi meydanında keçirilmiş mitinqdə Heydər Əliyevin həm Azərbaycan SSR-nin, həm də Naxçıvan Muxtar Respublikasının xalq deputatlığına namizədliyinin irəli sürülməsi üçün real imkan yarandı və az sonra o, hər iki parlamentin üzvü olmaqla, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi məsul vəzifədə işə başladı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Azərbaycan Respublikası Ali Sovetinin sessiyalarında müzakirə olunan məsələlərə Heydər Əliyevin fəal, düzgün münasibəti respublikanın o zamankı rəhbərliyi tərəfindən riyakarcasına qarşılanmışdır. Bütün bunlara baxmayaraq, müdrik və böyük şəxsiyyət Heydər Əliyev bir qrup deputat tərəfindən ədalətsiz tənqidlərə və hətta təqiblərə dözərək öz sözünü açıq-aydın söyləməyə nail olmuşdur.

Gərgin blokada vəziyyətində olan Naxçıvan Muxtar Respublikasında 350 min nəfərlik əhalinin gündəlik həyat problemlərinin həlli, xüsusilə Azərbaycanda gedən qeyri-sağlam ictimai-siyasi proseslər Heydər Əliyevi son dərəcə narahat edir və o, hər vasitə ilə xalqına, millətinə kömək arzusu ilə yaşayırdı. 1990-cı il noyabrın 29-da Heydər Əliyev Andrey Karaulova müsahibə verərkən dediyi aşağıdakı sözlər diqqəti cəlb edir: "Dağlıq Qarabağda millətlərarası münaqişələr məni dərindən həyacanlandırır, narahat edir. Hesab edirəm ki, bütün bunlarların qabağını vaxtında almaq olardı. Qəti ölçü götürmək lazım idi". Müxbirin sualına cavab olaraq Heydər Əliyev qeyd etmişdir ki, "Qarabağ məsələsinin baş verməsinə sosial-iqtisadi gərginliyin səbəb olması barədə çıxarılan nəticəni 1988-1995-ci illərdə Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafını sürətləndirmək sahəsində tədbirlər haqqında Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin qərarı təkzib edir. Bu qərar 1988-ci ilin martında, münaqişə baş qaldırandan dərhal sonra qəbul edilmişdir. Qərarda deyilir:"Sov.İKP MK və SSRİ Nazirlər Soveti qeyd edirlər ki, Sovet İttifaqının bütün xalqlarının qardaşlıq köməyi sayəsində Dağlıq Qarabağ Muxtar Vilayəti sosial-iqtisadi inkişafda böyük müvəffəqiyyətlər qazanmışdır. Xalq təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi təmin edilmişdir. Təkcə son üç beşillikdə sənaye istehsalının həcmi 3 dəfədən çox, kənd təsərrüfatı məhsulları istehsalı 1,5 dəfə artmışdır".

Sov.İKP MK-nın verdiyi qiymət belədir. DQMV sosial-iqtisadi inkişaf göstəricilərinə görə Azərbaycanın və Ermənistanın orta respublika göstəricilərini üstələmişdir. Vilayətin iqtisadiyyatı 70-80-ci illərdə daha dolğun inkişaf etmişdir.

Vilayət mərkəzinə dəmiryol xətti çəkilmiş, Stepanakertdə yaraşıqlı vağzal, yeni aeroport tikilmişdir. Vilayətdə iri müəssisələr - ayaqqabı fabriki, elektrotexnika zavodu, elektrik sənayesi kondensatorları zavodu, kənd təsərrüfatı maşınqayırma zavodu və s. işə salınmışdır. Elektrik stansiyası ilə birlikdə iri su anbarı tikdik, suvarma kanalları çəkdik, bunlar iki rayonun su təchizatını xeyli yaxşılaşdırdı.

Üzüm istehsalı 70-ci illərin əvvəllərindəki 50-60 min tondan 1980-ci ildə 120-130 min tonadək artdı. Heyvandarlıq məhsulları istehsalı təqribən 2 dəfə çoxaldı".

Vilayətin sosial-iqtisadi vəziyyəti ilə əlaqədar apardığımız dərin və ətraflı təhlil göstərir ki, 70-80-ci illərdə Heydər Əliyev Azərbaycan Respublikasının ayrılmaz hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin iqtisadi və sosial inkişafına xüsusi fikir vermişdir. Azərbaycan Respublikasının mərkəzi hissəsində yerləşən Dağlıq Qarabağ Muxtar Vilayəti 4,4 min kv.km əraziyə malik olmaqla, respublika ərazisinin 5 faizini təşkil edir. 1988-ci il yanvarın 1-nə vilayətin əhalisi 182 min nəfərdən ibarət olmaqla, onun 76 faizi ermənilər, 23 faizi azərbaycanlılar və 1 faizi ruslar idi. Vilayətdə məşğulluq problemi tam həll edilmişdi.

Təhlil göstərir ki, təkcə 1971-1983-cü illərdə Dağlıq

Qarabağın inkişafına 483 milyon manat kapital qoyulmuşdur ki, bu da əvvəlki 15 ildəkindən 2,8 dəfə çoxdur. 1981-1983-cü illərdə adambaşına kapital qoyuluşu orta hesabla 4 dəfə artmaqla, 226 manat təşkil etmişdir. 1961-1965-ci illərdə isə bu göstərici 59 manat olmuşdur. Kapital qoyuluşu nəticəsində sənaye məhsulları istehsalı doqquzuncu beşillikdə 53,1 faiz, onuncu beşillikdə isə 62,6 faiz təşkil etmişdir. Vilayətdə sənaye istehsalı ümumi respublika səviyyəsindən doqquzuncu beşillikdə 3,2 dəfə, onuncu beşillikdə isə 3 dəfə yüksək olmuşdur.

Bu barədə geniş təsəvvürə malik olmaqdan ötrü aşağıdakı cədvəlin müqayisəli göstəricilərinə nəzər salmaq yerinə düşərdi (bax: 18-ci cədvəl).

Ətraflı təhlil açıq-aşkar göstərir ki, Azərbaycanın ayrılmaz hissəsi Dağlıq Qarabağın sosial-iqtisadi inkişaf səviyyəsi əksər göstəricilərə görə bütövlükdə respublikadan, o cümlədən Naxçıvan Muxtar Respublikasından daha yüksək olmuşdur.

Bütün bunlara baxmayaraq, Qorbaçov hakimiyyəti Azərbaycana qarşı öz məkrli siyasətini getdikcə gücləndirərək, respublikada gərginliyi daha da artırmağa çalışır, süni Qarabağ problemini mürəkkəbləşdirir. Nəticədə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ Müdafiə Nazirliyinin, SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin və SSRİ Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya yeridilmiş, dinc əhaliyə qarşı misli görünməmiş cinayətkar hərəkətlər törədilmişdir. Bu faciəli hadisədən xəbər tutan Heydər Əli-

*18-ci cədvəl*

Sosial-iqtisadi inkişafın bəzi göstəriciləri

| Əsas göstəricilər | Azərbaycan Respublikası | | o cümlədən: Naxçıvan Muxtar Respublikası | | DQMV | |
|---|---|---|---|---|---|---|
| | 1965 | 1981 | 1965 | 1981 | 1965 | 1981 |
| Hər 10 min nəfər hesabı ilə sənayedə çalışanların sayı (nəfər) | 616 | 663 | – | 311 | – | 611 |
| Adambaşına pərakəndə mal dövriyyəsi (manatla) | 292 | 647 | 179 | 420 | 240 | 642 |
| Hər 10 min nəfər hesabı ilə pərakəndə ticarət müəssisələri (ədədlə) | 30 | 28 | 27 | 24 | 29 | 42 |
| Hər 10 min nəfər hesabı ilə mağazalarda ticarət sahəsi (kv. m) | 791 | 1127 | 1034 | 1319 | 1575 | 1743 |
| Adambaşına mənzil fondu (kv. m) | 8 | 10 | 7 | 9 | 11 | 4,1 |
| o cümlədən şəhər yerlərində | 8,8 | 11,5 | 9,2 | 10,7 | 8,4 | 14,6 |
| Hər 10 min nəfər hesabı ilə xəstəxana çarpayıları ilə təminat (ədədlə) | 85,7 | 97,1 | 83,5 | 99,6 | 94,7 | 10,2 |
| Məktəbəqədər təlim-tərbiyə ocaqları ilə təminat (faizlə) | 18 | 20 | 8 | 10 | 28 | 32 |

yev Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gedərək, orada keçirilən mitinqdə çıxış etmişdir. O, öz çıxışın-

da demişdir: "Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya, ən əvvəl, ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan Daimi Nümayəndəliyində böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verəm. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı daimi nümayəndəsi Söhrab İbrahimovdan xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm.

Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Azərbaycanda yaranmış mürəkkəb vəziyyətin bir sıra səbəbləri vardır... Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistana, eləcə də ölkənin ali siyasi partiya rəhbərliyinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq hər bir adamın ümumi federativ ittifaq olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün iki illik müddət kifayət idi. Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik

indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı. Bunlar üçün, ilk növbədə, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Faktiki olaraq Vəzirov respublikada baş vermiş hadisələrə qarşı təsirli tədbir görməmişdir. Bakı şəhərində çoxsaylı qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov respublikadan qaçmağa məcbur olmuşdur".

Hələ 1988-ci ilin sərt qış aylarında Ermənistandan - öz doğma ata-baba yurdlarından zorla, silah gücünə qovulan 200 mindən çox azərbaycanlının Dağlıq Qarabağda yerləşdirilməsini qəti qadağan edən Vəzirov soyuq və şaxtalı qışda onların Qazax rayonundan başlamış Şamaxı rayonunadək mərkəzi asfalt yolu ətraflarında aylarla aclıqdan əziyyət çəkmələrinə və hətta xeyli uşaq və qocaların ölümünə səbəb olmuşdur. Heydər Əliyev çıxışının sonunda qeyd etmişdir ki, respublika əhalisini ağır vəziyyətdə qoyub Moskvaya qaçan respublika rəhbərliyi öz xalqı qarşısında məsuliyyət daşımalıdır.

Moskvada xəstə olmasına baxmayaraq, Heydər Əliyev xalqına qarşı ədalətsizlik və haqsızlıqlara qarşı mərdliklə mübarizə aparmış, əlindən gələni əsirgəməmişdir. O, həmin hadisələrdən, 1990-cı ilin 20 yanvarında Azərbaycan xalqına qarşı törədilən qanlı faciədən danışarkən demişdir: "Mən Moskvada olarkən Azərbaycana qarşı edilən bu cinayətə etiraz səsimi qaldırdım, xalqımla, millətimlə həmrəy oldu-

ğumu bildirdim və orada olan imkanlarla Azərbaycan xalqının müdafiəsinə çalışdım. Orada eşitdim ki, naxçıvanlılar bu dəhşətli faciə ilə əlaqədar ayağa qalxıblar, hətta o vaxt cəsarətli bir qərar qəbul ediblər: Azərbaycana qarşı edilən cinayətə, təcavüzə görə Naxçıvan Muxtar Respublikasının Sovetlər İttifaqının tərkibindən çıxması haqqında qərar qəbul ediblər.

İndi Sovetlər İttifaqı dağılıb. O vaxtdan çox illər keçib, çox şeylər unudulub. Sovetlər İttifaqına mənsub olan ölkələr öz müstəqilliyini əldə ediblər. Ancaq naxçıvanlıların bu cəsarətli addımı o vaxt Sovet İttifaqında yeganə bir addım idi. Bu xəbər bütün dünyaya yayıldı ki, Naxçıvan Muxtar Respublikası Sovetlər İttifaqından çıxmaq barədə qərar qəbul edibdir. Bu, naxçıvanlıların nə qədər cəsarətli, qeyrətli, nə qədər azadlıqsevər və müstəqilliyə nə qədər bağlı olduqlarını dünyaya sübut etdi, nümayiş etdirdi.

O il Azərbaycan üçün ağır il idi. Ona görə də mən xalqımla, millətimlə, ölkəmlə bir yerdə olmaq üçün iyun ayında Azərbaycana qayıtmağı qərara aldım. Azərbaycana, Bakıya gəldim. Ancaq o vaxtkı mürtəce qüvvələr, Azərbaycan xalqının milli mənafeyinə zidd olan qüvvələr mənə Bakıda yaşamağa imkan vermədilər. Mən Naxçıvana gəldim.

Naxçıvan məni qucaqladı, bağrına basdı. Xatirimdədir, Naxçıvan Muxtar Respublikası əhalisinin əksər hissəsi o axşam buradan, Cavidin məzarından Azadlıq meydanınadək olan ərazidə toplaşmışdı. Dünya ölkələrinin mətbuatı o vaxt xəbər verirdi ki, Azadlıq meydanına 80-90 min adam top-

laşmışdır. Naxçıvanlılar mənimlə görüşə gəlmişdilər. Mən isə Naxçıvana demək olar ki, gizli gəldim. Heç kəsə xəbər vermədim. Gizli olaraq gəlib öz bacımın evində yerləşdim. Ancaq bir saatdan sonra naxçıvanlılar bunu bildilər, mənimlə görüşə gəldilər".

Heydər Əliyev Azərbaycan xalqının başına gələn faciə haqqında məlumatın bütün dünyada geniş yayılmasına çalışaraq ona nail ola bilmişdi. Onun "Vaşinqton post" qəzetinin Moskva müxbiri Devid Remnik ilə müsahibəsi xüsusilə diqqəti cəlb edir.

Müxbirin verdiyi suallara cavabında Heydər Əliyev qeyd etmişdir ki, mən həmişə demokratiyanın tərəfdarı olmuşam. DQMV barədə məsələ Azərbaycanın bütövlüyü çərçivəsində həll edilməlidir. Ermənistanda ayrı-ayrı millətçilik əhval-ruhiyyələri vardır, orada bəziləri belə planlar qururdular, lakin bunlar DQMV əhalisi tərəfindən dəstəklənməmişdi.

Bundan başqa, mərhum jurnalist Elmira Əhmədovanın Moskvada Heydər Əliyevdən aldığı müsahibəsində o demişdi: "Azərbaycanda bu iki ildə vəziyyətin son dərəcə mürəkkəbləşməsi məni çox narahat edir, incidir. Bu, mənim üçün əsl faciədir. Ancaq təəssüf ki, bəzi səbəblərə görə bu işlərə qarışmamışam. Yanvarda vəziyyətin daha böhranlı hala düşməsi mənə məlum idi. Böyük intizar və narahatlıq hissi ilə yaşayırdım. Ancaq yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycana sovet ordusunun böyük qoşun hissələrinin göndərilməsi və bunun ucbatından xalqımın böyük qurbanlar

verməsi, günahsız adamların qətlə yetirilməsi məni son dərəcə ağrıtdı. Yanvar hadisəsindən bir gün qabaq mənə İttifaq rəhbərliyindən belə bir təklif gəldi ki, Azərbaycanda vəziyyət çox pisləşib və mənim öz imkanlarımdan istifadə etməyimə böyük ehtiyac var ki, gərginlik aradan götürülsün. Yuxarıdan aldığım bu təklifdən sonra çox fikirləşdim, hətta Azərbaycan xalqına böyük bir məktub da yazdım. Gecəni isə yatmadım; demək, mənə müraciət ediblər, demək, mənim doğma respublikama, xalqıma köməyim dəyə bilər. Ancaq təəssüf ki, bu söhbət yanvarın 19-da olub, 20-də bildim ki, Bakıda böyük faciə baş verib. Belə bir halda heç bir tədbir görə bilməzdim. Mən özüm üçün onu borc bildim ki, bir azərbaycanlı kimi, bu hadisələrə öz fikrimi bəyan edim. O vaxt Moskvadan uzaqda sanatoriyada müalicə olunurdum. Onu da bilirdim ki, fikrimi bəyan etməyim mənə çox ağır oturacaq. Ancaq buna baxmayaraq, yanvarın 21-də Moskvada respublikanın səfarətxanasına gəldim, mətbuat konfransında çıxış etdim. Bəzi tarixi materiallardan bilirəm ki, 1948-ci ildə böyük bir qrup azərbaycanlı məcburən Ermənistandan Azərbaycana köçürülüb. Bu, səhv siyasət olub, təəssüf ki, həmin haqsızlığa o vaxtkı Azərbaycan rəhbərləri də razılıq veriblər və bunun nəticəsində Ermənistan ərazisində əsrlər boyu yaşamış adamlar yurdlarından qovulub Azərbaycanın əsasən səhra rayonlarında olduqca ağır iqlim və həyat şəraitində yaşamağa məcbur olmuşlar. 1948-1949-cu illərdə Ermənistan rəhbərliyi DQMV-nin Ermənistana verilməsi məsələsini də qoymuşdur, ancaq buna Azərbaycan rəhbərliyi lazımi cavab ver-

mişdir. Ədalətlə demək lazımdır ki, Moskvanın o zamankı siyasi rəhbərliyi də həmin iddianın ziyanlı və lüzumsuz olduğunu bildirmişdir. Məsələ bununla bitmişdir. 1960-cı ilin ortalarında Ermənistan KP MK-nın birinci katibi Koçinyan başda olmaqla bəzi millətçi ruhlu ziyalılar, yazıçılar bu məsələni yenidən qaldırmışdılar və bu dəfə də Moskvada qarşısı alınmışdı. Mən işlədiyim dövrdə bilirdim ki, DQMV-də millətçilik ruhu ilə yaşayan adamlar var və onlar Ermənistandakı həmfikirləri ilə sıx əlaqə saxlayır, DQMV-nin Ermənistana verilməsi haqda öz fikirlərini həyata keçirməyə cəhd göstərirlər. Əlbəttə, bunlar gizli aparılırdı.

Yaxşı yadımdadır, 1973-cü ildə DQMV-nin rəhbərliyini dəyişdik, yeni rəhbərlik seçdik. Qeyd etdim ki, DQMV-nin yeni rəhbərləri belə fikirlərin inkişafına yol vermirdilər. Birinci katib seçiləndən bir ay sonra, 1969-cu ilin sentyabr ayında Ermənistan KP MK-nın birinci katibi Anton Koçinyana zəng edib onunla görüşmək istədiyimi bildirdim. Görüşümüz Qazax rayonu ilə İcevan rayonunun sərhədində oldu. Mən məsələni qəti qoydum və Koçinyana təklif etdim ki, Ermənistandakı millətçi adamları öz ərazi iddialarından çəkindirmək üçün əməli, konkret işlər görsün. Zənnimcə, o görüşümüz səmərəli oldu, çünki sonrakı dövrlərdə respublikalarımız arasında bizi narahat edən hadisələr baş vermədi, 1975-ci ildə vilayət partiya komitəsinin plenumunda partiya komitəsinin katibi Kevorkov beynəlmiləlçilik tərbiyəsinə həsr etdiyi məruzəsində bəzi millətçi ruhlu adamların DQMV-də sabitliyi pozmağa çalışdıqlarına dair

konkret faktlar gətirmiş, indi hamı üçün öz çirkin əməlləri ilə məşhur olmuş Zori Balayanın adını çəkmiş, daşnak Andronikin xalq qəhrəmanı kimi təbliğ olunmasını tənqid etmişdi. Məhz buna görə də millətçi ünsürlər yenidən baş qaldırdı və ilk növbədə Kevorkovun, eləcə də DQMV partiya komitəsinin əleyhinə cürbəcür hərəkətlər başlandı. Moskvaya, başqa yerlərə teleqramlar vuruldu, vəziyyət gərginləşdi. 2 ay sonra Moskvada Dəmirçiyanla görüşüb 4 saat söhbət etdik. Ona bildirdim ki, DQMV-nin problemlərini vilayətin və Azərbaycanın öz rəhbərliyi həll etməlidir. Qarabağın işlərinə ayrı-ayrı şəxslərin qarışması ümumi münasibətimizə ancaq ziyan vurar və biz buna yol verə bilmərik".

Beləliklə, Heydər Əliyev Moskvada işləyərkən ermənilər bütün varlıqları ilə onun yüksək dövlət vəzifəsindən kənarlaşdırılması üçün hər cür alçaq hərəkətə əl ataraq şovinist Qorbaçovun vasitəsi ilə ona nail oldular. Heydər Əliyev həmin günləri xatırlayaraq deyir ki, o dövrü mən Moskvada yaşayarkən, demək olar cəmiyyətdən tamamilə təcrid edilmiş bir vəziyyətdə olduğum dövrdə Azərbaycanla, doğma xalqımla daim maraqlanırdım və onun qayğıları ilə yaşayırdım. Onun keçirdiyi çətin proseslər məni narahat edir, incidirdi. O vaxtkı şəraitə görə etdiyimdən artıq bir şey edə bilmirdim. Ancaq bəzi şeylər də edirdim.

Müxbirlərdən birinin sualına Heydər Əliyev belə cavab vermişdir: "Mən 1987-ci ilin may ayında xəstələndim, sağalandan sonra 1-2 ay işlədim. O dövrdə Ermənistandan bir məktub aldım.Müəllifi Qarabağ cəmiyyətinin rəhbərlə-

rindən olan İqor Muradyandır. Təəssüf, məktub yanımda deyil. Bu, həyasız bir adam tərəfindən yazılmış məktubdur. Məktubda mən təhqir olunuram, hədələnirəm. Məktub müəllifi bildirir ki, onlar mənimlə mübarizə aparacaqlar, çünki Qarabağın Ermənistana verilməsinə mane oluram. Məktubunda erməni terroristlərinin siyahısı göndərilib.O məktubu ailə üzvlərimdən başqa heç kəs görməyib. Bir neçə ay bundan qabaq Zori Balayanın Ermənistanda rus dilində çıxan "Kommunist" qəzetində "Bol i nadejda Artsaxa" adlı məqaləsi çap olunmuşdur. O da haqqımda çox hədyanlar yazır. Qarabağın Ermənistana verilməməsində məni günahlandırır. Məqalədə göstərir ki, o və S. Kaputikyan mənim barəmdə Moskvaya cürbəcür məktublar göndərib, İ.Muradyan isə mənim məhkəməyə cəlb olunmağımı tələb etmişdir. Sonralar bildim ki, Moskvada işləyərkən erməni millətçiləri Balayan, Kaputikyan, Muradyan mənim haqqımda cürbəcür məktublar göndərmişlər".

Göründüyü kimi, öz çirkin niyyətlərinə nail olmaq üçün ermənilər dəridən-qabıqdan çıxırdılar. Moskvaya hər gün saysız-hesabsız imzalı və imzasız şikayət məktubları axışırdı. Məqsəd isə aydın idi: necə olursa-olsun, böyük türk oğlunu Moskvanın yüksək kürsülərindən uzaqlaşdırmaq lazım idi. "Hələ ki, türklərin mollası iş başındadır, biz susmalıyıq" - deyə erməni azğınları öz planlarını gizlincə hazırlamaqda idilər.

Rəsmi sənədlərdən göründüyü kimi, Heydər Əliyevə qarşı erməni millətçiləri tərəfindən daim təzyiqlər olmasına baxmayaraq, o heç vaxt öz prinsipial mövqeyindən geri

çəkilməmiş, əksinə, xalqına, millətinə, doğma yurdu Azərbaycana öz qayğısını, nəzər-diqqətini zəiflətməmişdir.

Heydər Əliyev Moskvada yüksək dövlət vəzifəsindən və Siyasi Büro üzvlüyündən azad edildikdən sonra respublika və İttifaq mətbuatında onun əleyhinə ədalətsiz, qərəzli yazılar dərc edilməyə başlandı. Azərbaycan Xalq Cəbhəsinin yaranmasının "günahını" və hətta durğunluq illərində totalitar rejimin bütün faciəsini, bəlalarını da onda görməyə cəhd etdilər. Lakin "Vaşinqton post" qəzeti, "İnterkvadoro", "İnterfaks" agentlikləri, "Azadlıq" radiostansiyası, Moskvanın "Naçalo" qəzeti, "Teatralnaya jizn" jurnalı onun haqqında obyektiv yazılar verməyə başladı. Qeyd edilən nüfuzlu qəzet və jurnallarda Heydər Əliyevlə ədalətli və inandırıcı müsahibələr dərc olunaraq, o dövrdəki respublika rəhbərliyinin buraxdığı ciddi nöqsanlar açıq-aşkar, cəsarətlə tənqid edilmişdir.

Heydər Əliyev öz müsahibələrində qeyd etmişdir ki, keçmişdəki günahların, yanlışların ört-basdır edilməsinin heç vaxt tərəfdarı olmamışam. Dünənin səhvləri bu gün açılıb göstərilməzsə, bu gün iş başında olan səlahiyyətli şəxslər bəlkə də istənilən səviyyədə məsuliyyət daşımazlar, hər kəsin səhvi, cinayəti açılmalıdır, ancaq düzgün, obyektivcəsinə, fəaliyyəti ilə birgə.

Səriştəli şəxsiyyət və öz xalqına, millətinə qırılmaz tellərlə bağlı olan Heydər Əliyevi doğma Azərbaycanın milli mənafeyi, onun sosial-iqtisadi inkişaf problemləri Moskvada məsul dövlət işində olarkən və ondan sonra da son dərəcə maraqlandırmış və bu işdə o, əlindən gələni əsirgəməmişdir.

O, hələ Azərbaycan KP MK-nın birinci katibi işlədiyi

dövrdə Bakıdan Naxçıvana ən qısa avtomobil yolu çəkmək məqsədi ilə Ermənistan Respublikasının rəhbərliyi ilə əlaqəyə girmişdir. Bu barədə o, demişdir: "Bu yolun ən əlverişli yeri Zəngilan-Mehri-Ordubad səmti idi. Ermənistan Respublikasının rəhbərliyi bu yolun çəkilməsi haqqında qərar verdi. Zəngilandan Ermənistan sərhədlərinə qədər yol çəkildi, bu vaxt məni Moskvaya yeni qulluğa apardılar. Bir də məlum oldu ki, Ermənistan Respublikasının rəhbərliyi yolun çəkilməsinə maneçilik törədir. Mən o vaxt respublikamızın rəhbərliyi ilə əlaqəyə girib, xüsusilə MK-nın birinci katibi K.Bağırova, Nazirlər Sovetinin sədri H.Seyidova öz fikrimi bildirdim ki, bu məsələ ilə ciddi məşğul olmaq lazımdır və geri çəkilmək olmaz. Təəssüf ki, onların bu işdə fəaliyyətlərini görmədim. Ona görə də bu işə özüm müdaxilə etdim. Aydın oldu ki, Ermənistan rəhbərliyi bu qısa yolun əvəzinə üç dəfə məsafəni artırmaqla, onu uzaq dağlardan keçirməyi təklif edir. Heydər Əliyev bu mühüm problem barədə son dərəcə ətraflı araşdırmalar və xüsusilə o vaxtkı Ermənistan rəhbərliyi ilə bir sıra ciddi danışıqlar apardıqdan sonra vəziyyəti SSRİ Nazirlər Sovetinin sədri Tixonova çatdırır. O da məsələni SSRİ Nazirlər Sovetinin iclasına çıxarır. İclasda Dəmirçiyanın, Ermənistan Nazirlər Sovetinin sədri Sarkisyanın fikirləri dinlənildikdən sonra Yerevanın ortaya atdığı səbəblər əsassız hesab edilir. Bundan sonra yolun bir hissəsi çəkildi. Ermənistanla Azərbaycan arasında münaqişə başlanandan sonra Heydər Əliyev bu işlə bir daha maraqlanmış və məlum olmuşdur ki, artıq iş dayandırılıb.

Təcrübəli dövlət adamı, müdrik ictimai-siyasi xadim,

yalnız mənsub olduğu Azərbaycan xalqının deyil, bütün türk dünyasının fəxri Heydər Əliyev 80-ci illərdə Moskvada sovet dövləti rəhbərliyində işləyorkən türk xalqlarının dostluğu və əməkdaşlığı, onların milli mənafeyinin qorunması məsələlərində fəal mövqe tuturdu.

Parisdə çıxan "Liberasyon" qəzeti özünün 1988-ci il noyabr nömrələrindən birində Azərbaycan xalqının milli-mənəvi inkişafında, yalnız azərbaycanlıların deyil, bütün dünya türklərinin həyatının, maraq və mənafelərinin müdafiəsində keçmiş Azərbaycan KP MK-nın birinci katibi və keçmiş Sov.İKP MK Siyasi Bürosunun üzvü Heydər Əliyevin mühüm rolundan bəhs edərək yazırdı: "...azərbaycanlılar könüllü şəkildə SSRİ-dəki türk və müsəlman xalqlarının avanqardına çevrilirlər. H.Əliyev hətta Siyasi Büronun iclaslarında Bolqarıstandakı türklərin zorla bolqarlaşdırılması istiqamətində Todor Jivkovun yürütdüyü siyasətə öz etirazını bildirməkdən çəkinmirdi".

Heydər Əliyev hələ DTK orqanlarında çalışanda da, Azərbaycan KP MK-ya rəhbərlik edəndə də, Kremldə işləyəndə də, 1988-1990-cı illərin məcburi, lakin nisbi fəaliyyətsizlik dövründə də həmişə Azərbaycan xalqının maraq və mənafelərinin real təmsilçisi, fəal qurucusu olmuş, bütün qüvvə və enerjisini, zəngin təcrübəsini milli inkişafa, xalqımızın rifahının yüksəldilməsinə və ictimai tərəqqiyə sərf etmişdir.

Bütün bunlar Heydər Əliyevə daxili və xarici qüvvələr tərəfindən güclü siyasi və mənəvi təzyiqlər göstərildiyi

bir şəraitdə həyata keçirilmişdir. Lakin belə şər qüvvələr Heydər Əliyevin mətin iradəsini qıra bilməmiş və o, tarixin imtahanından üzüağ çıxmışdır.

Respublika İdman-Konsert Kompleksinin tikintisinə göstərilən münasibət buna əyani sübutdur. Bu barədə Heydər Əliyev 1998-ci il fevralın 18-də Respublika İdman-Konsert Kompleksində söylədiyi nitqində belə xatırlayır: "...o illər, xüsusən 1988-ci ildən başlayaraq, öz nailiyyətlərimizi ləkələmək, dağıtmaq, pozmaq istəyən qüvvələr, Azərbaycanın başıbəlalı bəzi rəhbərləri Moskvada oturan bir sıra rəhbərlərlə birlikdə belə sarayların tikilməsini guya ziyankar bir iş kimi tənqid edirdilər. Hesab edirdilər ki, guya biz dövlətin vəsaitindən vaxtilə düzgün istifadə etməmişik. Ancaq kimin nədən düzgün istifadə edib-etmədiyini indi həyat göstərdi.

Biz saray tikmişik, yaratmışıq, xalqımızın istifadəsinə vermişik. Bu saray əsrlər boyu yaşayacaqdır və gələcək nəsillərə xidmət edəcəkdir. O bədxah adamlar isə məhv olublar və məhv olacaqlar. İnsanlar heç vaxt yalana inanmayacaqlar. Belə yalan sözlərin ömrü çox qısa olur. Təəssüf ki, bu yalanlar, bu böhtanlar oldu, biz belə günləri yaşadıq. Xüsusən mən belə hallara dözdüm. Amma bu gün bir daha görürəm ki, xalq böhtançılara, yalançılara heç vaxt inanmayıbdır.

Bu gün mən xüsusən xoşbəxtəm ki, vaxtilə, təxminən 20 il bundan əvvəl təməlini qoyduğum böyük binanın için-

dəyəm. Xoşbəxtəm ki, belə bir saray yarada bilmişəm və biz bu gün ondan birlikdə istifadə edirik"[1].

## 2.2. Moskvada yüksək dövlət vəzifəsində işlədiyi dövrdə Heydər Əliyevin Azərbaycan iqtisadiyyatına qayğısı

Böyük iftixarla qeyd etmək lazımdır ki, Heydər Əliyev Moskvada işlədiyi illərdə də respublika iqtisadiyyatının inkişafı, onun təşəkkülü qayğısına qalmışdır. Araşdırmalar göstərir ki, Heydər Əliyev Azərbaycanda xalq təsərrüfatının inkişafı ilə əlaqədar problemlərin həllinə mərkəzdən həmişə kömək etmişdir. Təəssüf ki, 1969-1982-ci illərdə Heydər Əliyevin rəhbərliyi dövründə respublikada əldə edilmiş yüksək sosial-iqtisadi inkişaf səviyyəsini, xüsusilə onun artım sürətini nəinki saxlaya bilmədilər, hətta onun inkişafına böyük zərbə vurdular. Azərbaycanın əsas sosial-iqtisadi inkişaf göstəriciləri getdikcə aşağı düşdü, ölkədə tənəzzül başlandı. Aşağıdakı cədvəlin statistik məlumatları bunu aydın göstərir (bax: 19-cu cədvəl).

Cədvəldən aydın olur ki, əsas sosial-iqtisadi göstəricilərin orta illik artım sürəti haqqında ətraflı təhlilə ehtiyac duyulmur. 1986-1989-cu illərdə əsas iqtisadi göstəricilərin

[1] «Azərbaycan» qəzeti, 22 fevral 1998-ci il.

*19-cu cədvəl*

Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın orta illik artım sürəti *(faizlə)*

| Əsas göstəricilər | 1976-1980 | 1981-1985 | 1986-1989 |
|---|---|---|---|
| Məcmu ictimai məhsul | 7,8 | 4,7 | -0,1 |
| Milli gəlir istehsalı | 8,0 | 4,4 | 0,9 |
| Maddi istehsal müəssisələrinin xalis məhsul istehsalı | 7,5 | 4,7 | 1,0 |
| İstifadə olunan və yığıma ayrılan milli gəlir | 6,2 | 3,6 | -0,1 |
| Bütün xalq təsərrüfatı sahələrində əsas istehsal fondları | 7,0 | 7,4 | 3,8 |
| Sənaye məhsulları | 8,0 | 4,4 | 1,4 |
| Əsas istehsal vasitələri istehsalı ("A" qrupu) | 7,5 | 5,4 | 3,1 |
| İstehlak malları istehsalı ("B" qrupu) | 9,3 | 1,6 | -2,8 |

orta illik artım sürəti kəskin aşağı düşməklə, bir sıra mühüm göstəricilər üzrə orta illik artım son dərəcə azalmış, bir neçə göstərici isə mənfi olmuşdur. Onu da qeyd etmək lazımdır ki, ölkədə sosial-iqtisadi inkişaf göstəriciləri 1990-cı ildən daha sürətlə azalmışdır.

1990-cı ildə ümumi daxili məhsul istehsalı 11,7 faiz,

1993-cü ildə 23,1 faiz, ümumi ictimai məhsul müvafiq olaraq 10,5 faiz və 20,9 faiz azalmışdır.

Göründüyü kimi, Heydər Əliyevin 1982-ci ildə Moskvada yüksək dövlət vəzifəsinə irəli çəkildiyi dövrdən başlayaraq Azərbaycanda sosial-iqtisadi inkişafın artım sürəti getdikcə azalmış və nəticədə iqtisadiyyat görünməmiş böhran vəziyyətinə düşmüşdür. Bu tənəzzülü dayandırmaq, iqtisadiyyatı sabitləşdirmək qarşıda duran başlıca problemlər idi.

Heydər Əliyevin 14 illik rəhbərliyi dövründə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında köklü dəyişikliklər baş verməklə, tarixən qısa bir müddətdə xalq təsərrüfatının bütün sahələrində yüksək nailiyyətlər əldə edilmişdir. Buna respublikada son dərəcə gərgin, məqsədyönlü tədbirlər kompleksini həyata keçirməklə, ciddi tələbkarlıq şəraitində, düzgün sosial-iqtisadi siyasət yeritməklə nail olunmuşdur.

Böyük idarəetmə bacarığına və dərin zəkaya malik olan Heydər Əliyev 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş, Siyasi Büronun üzvü seçilmişdir. O, həmin dövrdən başlayaraq doğma Azərbaycanla müntəzəm əlaqə saxlayır, respublikanın həyatında baş verən hadisələri diqqətlə izləyir, çətinliklərə baxmayaraq, xalqına xidmət göstərməkdə davam edirdi. Onun təşəbbüsü və rəhbərliyi altında respublikada yaradılmış nəhəng sənaye potensialının getdikcə artırılmasında, xüsusilə sənayedə struktur dəyişikliklərinin başa çatdırılmasında, neftmaşınqayırma, neft-kimya sənayesi sahələrinin yenidən

qurulması kimi problem işlərin yerinə yetirilməsində əlindən gələni əsirgəmirdi.

Bu barədə onun müxbirlə müsahibəsini xatırlamaq yerinə düşərdi.

Müxbir: "Siz Sovetlər Birliyi baş nazirinin birinci müavini işləyərkən Azərbaycanın inkişafında mühüm rol oynamısınız. Neft sənayesinin, ölkənin sənayesinin inkişafı üçün, çoxlu fabrik və zavodların, müəssisələrin tikilməsi üçün çox böyük işlər görmüsünüz".

Cavab: "Bilirsiniz, mən 1969-cu ildə Mərkəzi Komitənin birinci katibi olanda 14 il Azərbaycanda çox böyük xidmətlər göstərmişəm. Zavodlar, fabriklər, yollar, elektrik stansiyaları, binalar, xəstəxanalar, mədəniyyət sarayları, ali məktəblər, universitetlər tikilib. Bakıda hansı binaya baxsan, deyəcəklər ki, bu, Heydər Əliyevin vaxtında tikilib. Bunun çoxunu mən burada işləyərkən etmişəm. Azərbaycanın rəhbəri olarkən Sovetlər Birliyinin vəsaitindən, imkanlarından çox faydalanıb respublikamızda, Bakıda, digər şəhərlərdə bu işləri gördüm.

Beş ildən artıq Moskvada işləyərkən orada yenə də Azərbaycana daha çox vəsait ayırmaqla, respublikamızın işlərini daha da irəliyə aparmaqla məşğul oldum. Mən üstüstə 20 il bu işləri gördüm. Ancaq 1987-ci ilin sonunda istefaya getdim. Vaxtı itirməmək üçün demək istəyirəm ki, 1990-cı ilədək Moskvada yaşadım. Mən Moskvada heç bir siyasi fəaliyyətlə məşğul olmadım".

Heydər Əliyev Azərbaycanda neft-qaz çıxarma sənayesini

sürətlə inkişaf etdirmək üçün respublikanın mərkəzi və qərb rayonlarında geoloji-kəşfiyyat və axtarış işlərini gücləndirmiş, dənizin dərin sahələrində quyular qazılması üçün özüllər zavodunun tikintisinin başa çatdırılmasında əlindən gələni etmişdir. Respublikada elektroenergetika və yanacaq sənayesinin inkişaf etdirilməsi, xüsusilə Şamxor SES-in işə salınması ilə bağlı olaraq yuxarıdan müvafiq kömək göstərmişdir.

SSRİ Nazirlər Sovetində işləyərkən respublikada kimya və neft-kimya sənayesinin, Sumqayıt sintetik kauçuk zavodunun əsaslı surətdə yenidən qurulması, qara və əlvan metallurgiyanın daha sürətlə inkişaf etdirilməsi kimi mühüm problemlərin həllində əvəzsiz rol oynamışdır.

Gəncədə alüminium zavodunun tam gücü ilə işə başlamasında onun böyük əməyi olmuşdur.

Maşınqayırmada mütərəqqi sahələrin - elektrotexnika, radiotexnika, elektron, cihazqayırma sahələrinin və digər sahələrin inkişafına üstünlük verilməsində respublika rəhbərliyinə lazımi göstərişlər və dəyərli məsləhətlər vermişdir. "İttifaqneftmaş", "Azərelektromaş", Azərelektroterm", "Azərelektroişıq" birlikləri zavodlarının yenidən qurulması, daha da genişləndirilməsi kimi mühüm problemlərin həyata keçirilməsində Heydər Əliyevin təsiri və əməyi az olmamışdır.

Azərbaycanda yüngül sənaye, yeyinti sənayesi sahələrində hələ 1980-ci illərdə nəzərdə tutulmuş kompleks tədbirlərin həyata keçirilməsində, xüsusilə regionlarda yerli sənayenin geniş vüsət almasında Heydər Əliyevin şəxsi

fikirləri və tövsiyələri son dərəcə səmərəli olmuşdur. Respublikanın kiçik və orta şəhərlərində yeni zavodların, müvafiq rayonlarda isə xalça fabriklərinin tikilməsi bilavasitə onun tövsiyələrinə əsasən həyata keçirilmişdir.

Ümumiyyətlə, Heydər Əliyev 14 il ərzində respublikada böyük istehsal, sosial potensialı yaratmışdır. Belə ki, ölkədə yeni zavodlar, fabriklər, yaraşıqlı binalar ucaldılmış, mikrorayonlar salınmışdır. Onun təşəbbüsü və rəhbərliyi ilə respublikada 80-ci illərdə başlanmış geniş miqyaslı tikinti işlərinin tezliklə başa çatdırılması üçün o, nəzərdə tutulmuş limitdən əlavə maliyyə, material təminatı sahəsində kömək edir və mühüm tikinti obyektlərinin keyfiyyətlə tikilib başa çatdırılmasına çalışırdı. Kənd təsərrüfatında həyata keçirilmiş işlər, yüksək ixtisaslı kadrların hazırlanması, elmin, təhsilin, mədəniyyətin, incəsənətin inkişafına göstərilən böyük qayğı sübut edir ki, Heydər Əliyev harada işləməsindən asılı olmayaraq, qəlbən daim xalqı ilə birgə olmuş, ölkənin sosial-iqtisadi inkişafına böyük qayğı və səy göstərmişdir.

O hələ mərkəzdə işləyərkən Moskvada, Leninqradda, Kiyevdə və digər şəhərlərdə təhsil alan azərbaycanlı tələbələrlə, aspirantlarla səmimi görüşlər keçirir, onların bütün qayğıları ilə maraqlanırdı.

Heydər Əliyev uzaqgörən siyasətçi kimi, keçmiş İttifaqın dağılacağını sanki hələ o vaxtlar, yəni 15-20 il bundan əvvəl görürdü və buna görə də müstəqil fəaliyyət göstərə biləcək iqtisadiyyatın yaradılmasına çalışaraq ona nail olmuşdur. Belə ki, müasir dövrdə MDB ölkələri arasında

Azərbaycan yeganə dövlətdir ki, müstəqil yaşamaq üçün böyük imkanlara malikdir. Heydər Əliyev Azərbaycanda milli iqtisadiyyatın formalaşdırılması və inkişaf etdirilməsi məqsədi ilə ölkədə son məhsul istehsalı barədə, xüsusilə, regionlarda kənd təsərrüfatı xammalının emalı üzrə sənaye sahələrinin yaradılması barədə fikrini hələ Azərbaycan KP MK-nın birinci katibi işlədiyi illərdə irəli sürmüş və əsasən də ona nail olmuşdur.

Bu mühüm həyati problemlə əlaqədar olaraq xarici mətbuat nümayəndələri ilə görüşündə respublika Prezidenti Heydər Əliyevin "Delovoy mir" qəzeti müxbirinin sualına verdiyi cavab son dərəcə səciyyəvidir: "Azərbaycanın iqtisadiyyatı çoxsahəlidir, vaxtilə Sovetlər İttifaqı çərçivəsində əsasən Rusiyanın ehtiyaclarına bənd edilmişdi. 70-ci illərdə Sovet hökumətinin təkidi ilə biz Azərbaycanda üzümçülüyü inkişaf etdirməyə başladıq ki, şərabçılıq məhsulu istehsal edək və onunla ilk növbədə Rusiyanı təchiz edək. Deməliyəm ki, 10 il ərzində biz üzüm istehsalını 10 dəfə artırdıq. Əgər 1970-ci ildə 200 min ton üzüm istehsal edirdiksə, 1980-ci ildə 2 milyon ton istehsal etmişdik. Üzümün ilkin emalından sonra alınan şərabın Rusiyanın müxtəlif regionlarına göndərildiyini, orada isə son məhsul kimi yüksək keyfiyyətli şərabların istehsal olunduğunu nəzərə alaraq, biz çoxlu ilkin şərab emalı zavodları tikdik. Yeri gəlmişkən, Sovetlər İttifaqının o vaxtkı rəhbərləri deyəndə ki, xalqı həddən artıq araq istehlak etməkdən xilas etmək üçün yüksək keyfiyyətli şərab lazımdır, zənnimcə, çox ağıllı mühakimə yürüdürdülər. Tədqiqatlar isə göstərdi ki, böyük

miqdarda üzüm və deməli, şərabçılıq məhsulu istehsal etmək üçün Azərbaycanda torpaq-iqlim şəraiti daha əlverişlidir.

Biz bunu etdik, üzüm plantasiyaları saldıq, çox böyük sayda ilkin şərab emalı zavodları yaratdıq, külli miqdarda pul xərclədik. Yenidənqurma deyilən dövrdə, alkoqolizmə qarşı fərsiz mübarizə genişləndə bu plantasiyaların bir hissəsi dağıdıldı. İnsanlara həddən artıq içməyi ağıllı şəkildə tərgitmək əvəzinə, şərabçılıq məhsulları istehsalını azaltmaq və insanlara içməyə imkan verməmək üçün Azərbaycanda üzüm plantasiyalarını qırmağa başladılar. Adamlar isə içmək üçün digər imkanlar tapırdılar.

Plantasiyaların bir hissəsi sıradan çıxdı, çünki bizdə bazar yoxdur. Məsələn, Rusiyanın əvvəlki kimi yenə də şərabçılıq məhsuluna ehtiyacı var. Yeri gəlmişkən, Azərbaycan ərazisində 5 şərab zavodu var, lakin indi elə iqtisadi maneələr qoyulmuşdur ki, biz şərabçılıq məhsullarını Rusiyaya ixrac edə bilmirik.

Bundan Rusiya da, biz də zərər çəkirik. Hazırda biz 2 milyon ton deyil, 250-300 min ton üzüm istehsal edirik, ilkin şərab emalı zavodlarının əksəriyyəti işləmir.

Mən həmin sahədən başladım, göstərmək istəyirdim ki, o illərdə mövcud olmuş inteqrasiya bu gün bərpa edilə bilərdi və Rusiyaya da, Azərbaycana da qarşılıqlı surətdə fayda gətirərdi.

Bununla bərabər, Azərbaycan hər halda sənaye ölkəsidir. Sənaye kompleksimiz də Rusiyada sənaye məhsulları

istehsalına yönəldilmişdi. Özü də bütün bunlar elə qurulmuşdu ki, Azərbaycanda yarımfabrikatlar istehsal edilirdi, son məhsul isə Rusiyanın bir çox zavodlarında buraxılırdı. Bu zavodlar indiyədək qalmışdır. Ancaq inteqrasiya əlaqələri kəsilmişdir və bundan həm Rusiya sənayesi, həm də Azərbaycan sənayesi ziyan çəkir.

Söhbət neft maşınqayırmasından da gedir. Halbuki bir vaxtlar Sovet İttifaqının bütün neft sənayesi, - onun əsas hissəsi Rusiyada: Sibirdə, Tatarıstanda, Başqırdıstanda və başqa bölgələrdə yerləşir, - üçün neft-mədən avadanlığının 70 faizini Azərbaycan göndərirdi. Bizdə çox böyük miqdarda neft maşınqayırma zavodları var. Onlar ya boş dayanır, ya da öz güclərinin 20-30 faizi həddində işləyir.

Bizdə böyük kimya sənayesi var. O da Rusiya sənayesinin müvafiq sahələri ilə inteqrasiya edilmişdir. Bu əlaqələr də itirilmişdir. Bizdə digər sahələr də çoxdur.

İndi ən çox hansı sahəyə kapital qoymağa səy göstərildiyindən danışmalı olsaq, deməliyəm ki, bu neft sənayesidir. Bizim neft sənayesi böyük imkanlara malikdir. Siz bilirsiniz ki, Azərbaycan dünyanın ən iri neft şirkətləri ilə bir sıra müqavilələr bağlamışdır. Bu müqavilələrdən bəzilərində Rusiyanın "LUKoyl" kimi iri neft şirkəti də iştirak edir. Rusiyanın daha iki neft şirkətindən - "YUKAS"dan və digər iri neft şirkətindən təkliflər alınmışdır. Bu barədə Viktor Stepanoviç Çernomırdin mənə məktub göndərmişdir. Şübhə yoxdur ki, gələcək layihələrimizdə biz onlara müqavilə-

lərimizin iştirakçıları olmağa imkan verəcəyik. Yəni bizim neft sənayesi dünya neft şirkətlərini getdikcə daha çox cəlb edir. Yaxşı ki, "LUKoyl" Şirkətinin ardınca Rusiyanın daha iki şirkəti də bizə müraciət etmişdir.

Biz neft, kimya sənayesi, maşınqayırma, kənd təsərrüfatı məhsullarının emalı, şərabçılıq, konserv sənayesi kimi sahələrdə Rusiya ilə əməkdaşlıq etmək istəyirik. Axı bir vaxtlar Azərbaycan, o zaman deyildiyi kimi, "Ümumittifaq bostanı" idi, Rusiyaya faraş tərəvəz göndərirdi. İndi biz həmin torpaqlardan taxıl əkmək üçün istifadə edirik. Əvvəllər isə faraş tərəvəz yetişdirir və təxminən aprel ayında Rusiyanın mərkəzi hissəsinə təzə tərəvəz göndərirdik. Amma indi Rusiya bunu istəmir. Buna görə də biz həmin torpaqlarda taxıl əkirik ki, özümüzü çörəklə təmin edək.

Bir sözlə, böyük imkanlar var. Mən Rusiyanın iş adamlarını buraya dəvət edirəm, qoy gəlib əməkdaşlığımızın sahələrini müəyyənləşdirsinlər"[1].

Araşdırmalar və rəsmi materialların təhlili göstərir ki, Heydər Əliyev Moskvada rəhbər vəzifədə işlədiyi illərdə Azərbaycanda xalq təsərrüfatı sahələrinin, xüsusilə onun aparıcı sahələrinin sürətli inkişafını təmin etmək əsasında əslində milli iqtisadiyyatımızın bünövrəsini qoymuş və onun inkişafı üçün bütün imkanlardan düzgün, səmərəli istifadə edilməsinə böyük məharət və cəsarətlə nail olmuşdur.

---

[1] «Azərbaycan» qəzeti, 2 may 1997-ci il.

## 2.3. Heydər Əliyevin Naxçıvan fəaliyyəti: Azərbaycanın sosial-iqtisadi tənəzzülü qarşısında ilk sipər

Naxçıvan Muxtar Respublikasının iqtisadi və sosial inkişaf göstəriciləri 1970-1982-ci illərdə Azərbaycan iqtisadiyyatı üçün səciyyəvi olan yüksək artım sürətinə və dinamik inkişaf meyllərinə malik olmuşdur.

Lakin bir məsələ unudulmamalıdır ki, istər 1970-ci ilə qədər, istərsə də 1983-cü ildən 90-cı illərin əvvəllərinədək, yəni Heydər Əliyev Naxçıvana qayıdana qədərki dövrdə Azərbaycan rəhbərliyi Naxçıvana ögey münasibət göstəribdir. Bu barədə 1998-ci il yanvarın 14-də Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında Azərbaycan Prezidenti demişdir: "Naxçıvana ögey münasibət olubdur. Ona görə də, açıq danışım, Naxçıvanda əsas quruculuq işi, sənayenin, kənd təsərrüfatının inkişafı - bunların hamısı 1970-ci illərdən başlayaraq gedibdir. Gedin Naxçıvana, sayın, - əgər keçmiş xanların tikdikləri binaları, yaxud da tarixi abidələri istisna etsək, 1970-ci ilə qədər və 1970-ci ildən sonra Naxçıvanda nə tikilib, nə yaradılıbdır. Bu, təkcə Naxçıvanda belə deyil, bunu Azərbaycanın hər yerinə aid etmək olar"[1].

80-ci illərin ortalarından Naxçıvan Muxtar Respublikasının iqtisadi və sosial inkişaf göstəricilərinin artım sürəti azalmağa başlamışdır.

---

[1] «Azərbaycan» qəzeti, 17 yanvar 1998-ci il.

Həmin dövrdən Naxçıvanın iqtisadi həyatı böhran mərhələsinə qədəm qoymuşdur. Muxtar Respublikanın iqtisadiyyatının mühüm sahələri olan əlvan metallurgiyada, tikinti materialları sənayesində, yüngül sənayedə, yeyinti sənayesində və digər sahələrdə inkişaf sürəti aşağı düşmüş, istehsalın həcmi azalmağa başlamışdır.

1985-1991-ci illər ərzində sənaye istehsalı 26,6 faiz, sənayedə əmək məhsuldarlığı 36,2 faiz, fondverimi 51,7 faiz aşağı düşmüşdür.

Həmin dövrdə ictimai kənd təsərrüfatı bölməsində məcmu məhsul 25,5 faiz, heyvandarlıqda isə daha çox - 34 faiz azalmışdır. Qaramalın sayı 10,9 min baş, davarın sayı 31,1 min baş, quşların sayı 372,2 min baş azalmışdır. Aqrar sahədə əmək məhsuldarlığı 33,9 faiz aşağı enmişdir.

Bütün bunlar istehsal olunan (1 nəfər işləyənə düşən) milli gəlirin kəskin surətdə aşağı düşməsinə gətirib çıxarmışdır. Belə ki, əgər Azərbaycan üzrə ümumilikdə həmin göstərici keçmiş SSRİ səviyyəsindən 2,5 dəfə az idisə, bu gerilik Naxçıvan Muxtar Respublikasında özünü daha çox büruzə verirdi (5 dəfə az idi).

Əhalinin hər nəfərinə görə fərq isə daha çox olmuşdur (müvafiq olaraq 2,4 və 6 dəfə).

1988-ci ildən başlayaraq Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təxribatlar və sonradan respublikamızın cəlb olunduğu müharibə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına xüsusilə ağır zərbə vurmuşdur. Onun iqtisadi əlaqələri demək olar ki, tamamilə pozulmuşdur. Naxçıvanla

Azərbaycanın paytaxtı Bakı şəhəri və digər rayonlar ilə əlaqə və Rusiya şəhərlərinə çıxmaq üçün hava yolları kəsilmiş, yeganə dəmir yolu isə erməni təcavüzkarları tərəfindən blokadaya məruz qalmışdı. Belə ki, Culfa-Bakı dəmir yolunun Ermənistanın Mehri rayonundan keçməsi və vaqonlara erməni təcavüzü bu yeganə nəqliyyat vasitəsinin işinin ahəngdarlığını pozmuş, Naxçıvan Muxtar Respublikasına yüklərin gətirilməsinə, onun ərazisində olan hazır məhsulların daşınmasına əngəl yaratmışdı.

Daim qorxu içərisində yaşayan, dəfələrlə köçürülmək təhlükəsi ilə üzləşən, ancaq son damla qanına qədər torpağını, evini qoruyan Naxçıvan əhalisi 1990-cı ilin iyul ayında Heydər Əliyev Naxçıvan torpağına ayaq basan gündən öz xilaskarını tapdığı üçün daha da mətinləşir. Bu qayıdış Azərbaycanı xilas etmək, onu parçalanmadan qurtarmaq üçün görüləcək tarixi işlərin başlanğıcı idi.

Bu mənada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun 1998-ci il yanvarın 14-də Prezident sarayında keçirilən yığıncaqda dediyi sözləri xatırlamaq yerinə düşərdi: "Hörmətli Prezident, məhz bu dövrdə - 1990-1993-cü illərdə Sizin böyük dövlətçilik təcrübənizə, dönməz iradənizə, ən başlıcası isə sarsılmazlığınıza və mübarizliyinizə görə Naxçıvan çox böyük fəlakətlərdən qurtardı"[1].

Ümumiyyətlə, Naxçıvanın düşdüyü ağır vəziyyətdən çıxmasının əsas yollarını 1992-1993-cü illərdə Heydər Əliyev

[1] «Azərbaycan» qəzeti, 16 yanvar 1998-ci il.

müəyyən etmişdir. Əslində isə o, Naxçıvan Muxtar Respublikasının 30 illik inkişaf proqramını işləyib hazırlamışdır.

Siyasi sabitlik, müstəqillik və iqtisadi təhlükəsizlik konsepsiyasının hazırlanması və mərhələ-mərhələ həyata keçirilməsinin dahi Heydər Əliyev modelinin tarixi də həmin dövrdən başladı. Heydər Əliyevin uzun müddət keçmiş SSRİ məkanında, planlı, mərkəzləşdirilmiş idarəetmə sistemində apardığı iqtisadi siyasət startegiyasının yeni iqtisadi əsaslar və mexanizmlər bazasında həyata keçirilmə modeli məhz bu gəlişlə Naxçıvan iqtisadi sistemində reallaşmağa başladı. Lakin bu başlanğıc çox ağır sosial-ictimai və iqtisadi mühitlə rastlaşmışdı.

1990-ci il yanvar hadisələrindən sonra Naxçıvanın iqtisadi və sosial böhranı günbəgün dərinləşirdi. 1991-ci ilin əvvəllərindən yeganə gediş-gəliş yolu olan dəmir yolu nəqliyyatı ermənilərin təcavüzü nəticəsində dayandırıldı. Sərnişinlərin daşınmasında yeganə vasitə olaraq gündə 4-5 reys uça bilən "Yak-40" markalı təyyarələrdən istifadə olunurdu ki, bu da müharibə şəraitində qorxulu idi və həyat səviyyəsi aşağı olan Naxçıvan əhalisinin imkanlarına uyğun deyildi.

Mövcud siyasi durum Naxçıvanda xalqın ciddi narazılığına səbəb olmuş və əhali arasında Naxçıvanın vəziyyətini düzəldə biləcək yeganə şəxsiyyət kimi Heydər Əliyevə ümid və müraciətlər artmışdı.

Həmin dövrdə Azərbaycana rəhbərlik edən A.Mütəllibov və onun tərəfdarları Heydər Əliyevə olan xalq məhəbbə-

tindən qorxub, öz adamları vasitəsilə onun Naxçıvandakı həyat tərzinə və fəaliyyətinə maneçilik törədirdilər. Amma xalqın əksəriyyətinin ona məhəbbəti və mənəvi dayaq olması Heydər Əliyevin əzmini daha da artırdı.

Heydər Əliyevin həyat səviyyəsi adi naxçıvanlıların həyat səviyyəsi kimi idi. O da Naxçıvanın qazsız, işıqsız mühitində hamı ilə birlikdə bütün zəlalətlərə dözüb, Naxçıvanın iqtisadi və siyasi təhlükəsizliyi üçün yollar axtarırdı.

Bütün bunları xatırlayaraq ölkə Prezidenti 1996-cı il oktyabrın 30-da Naxçıvanda Muxtar Respublika ictimaiyyətinin nümayəndələri ilə görüşdəki nitqində demişdir: "Bəli, günlər vardı ki, biz həftələrlə elektrik enerjisindən məhrum olurduq. Gecə saat ikiyə-üçə qədər iş otağımda az işıq verən neft lampası ilə oturub işləyirdim, bunu hamı bilirdi. Evlərə elektrik, istilik vermək üçün heç bir imkan yox idi. İnsanlar həqiqətən donurdular. Bizim bir çox müşavirələrimiz, hətta Ali Məclisin sessiyaları qış vaxtı keçiriləndə insanlar paltoda, papaqda otururdular, çünki vəziyyət həqiqətən çox ağır idi. Amma, yenə də deyirəm, naxçıvanlıların dözümlülüyü hamımızı bu vəziyyətdən çıxardı"[1].

Xalq anlayırdı ki, Heydər Əliyev ideyalarının reallaşması üçün yeganə yol onun səlahiyyətli orqanlarda mövqeyinin möhkəmləndirilməsidir. Bu niyyətlə naxçıvanlılar bütün elliklə ona müraciət edib, 1990-cı ildə onu Azərbaycanın və Naxçıvanın xalq deputatı seçdilər. Elə həmin vaxtdan

[1] «Azərbaycan» qəzeti, 2 noyabr 1996-cı il.

da Heydər Əliyevin siyasi və ictimai fəaliyyətində dönüş mərhələsi başlandı. Heydər Əliyev strategiyasının ilk tezisləri 1990-cı il avqustun 29-da Bakıda öz işinə başlamış on birinci çağırış Azərbaycan SSR Ali Sovetinin on beşinci sessiyasında onun tərəfindən böyük mətnliklə bəyan edildi və respublikada siyasi vəziyyət haqqında məsələnin müzakirəsinin vacibliyi qeyd olundu.

Heydər Əliyevin siyasi fəallığı, onun təcrübəsi və Vətənə bağlılığı xalqın ona məhəbbətində əks olundu - xalqın təkidi ilə o, 1991-ci ilin sentyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Ali Məclisin sədri seçildi. O, həmin vəzifəyə seçildikdən sonra sessiya Muxtar Respublikanın xalq təsərrüfatında yaranmış gərgin vəziyyətin, onu normallaşdırmaq və böhran vəziyyətindən çıxarmaq tədbirlərinin müzakirəsinə başladı. Ali Məclis Naxçıvan iqtisadiyyatının mövcud vəziyyətini təhlil edərək, onun potensialını qiymətləndirərək, əlverişli coğrafi, psixoloji amilləri səfərbərliyə alaraq yollar axtarmağa fəaliyyətinin ilk günlərindən başladı.

O zamanlar Naxçıvan Muxtar Respublikasında iqtisadi vəziyyəti Heydər Əliyev aşağıdakı kimi təhlil edirdi: "Naxçıvan Muxtar Respublikası özünün coğrafi, təbii və tarixi şəraitinə uyğun olaraq bütövlükdə Azərbaycanın iqtisadi, mənəvi və kadr potensialının formalaşmasında özünə məxsus xüsusiyyətlər kəsb etmişdir. Azərbaycanın müstəqillik və bazar iqtisadiyyatı şəraitində fəaliyyətinin ilkin zəminində olan çətinliklər Naxçıvanda daha ciddidir. Naxçıvan iqtisadi blokada şəraitində yaşayır, onun bir ildir ki,

Azərbaycanın başqa rayonları və Bakı ilə iqtisadi və təsərrüfat əlaqələri kəsilmişdir. Bunun nəticəsində Naxçıvanda sənaye müəssisələri dayanmış, kənd təsərrüfatında istehsal həcmi yarıbayarı azalmışdır. Naxçıvanda 1991-1992-ci ilin qışının daha sərt olması, respublikaya daş kömür, ağ neft, benzin və digər yanacağın daxil olmaması nəticəsində 20-30, bəzən 50 ildən artıq yaşı olan ağaclar kəsilib yanacaq kimi istifadə olunmuşdur. Naxçıvanda 50-60 min işsiz vardır. Kənd təsərrüfatında işləyənlərin əmək haqqının orta aylıq səviyyəsi və onun artımı müasir inflyasiyanın artımına uyğun gəlmirdi.

İqtisadi islahatlar illəri olan bu üç ildə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında olan bütün qanunauyğunluqlar pozuldu, bu da öz növbəsində, əhalinin həyat səviyyəsinin və sosial inkişafının ağır vəziyyətinə səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikasında büdcə təşkilatlarından başqa, bütün müəssisələrdə iş dayanmışdır. Respublikanın ərazisində yanacaq olmadığından bütün maşınlar və mexanizmlər işləmir. Kolxoz və sovxozlarda olan maşın parkı işləmədiyi üçün kənd təsərrüfatı məhsullarının yığılması, daşınması mümkün olmamışdır".

Bütün bunların nəticəsində Muxtar Respublikada istehsal azalmaqda davam edirdi. 1992-ci ildə yerli istehsal hesabına adambaşına taxıl, kartof, tərəvəz və bostan məhsulları, meyvə və üzüm, ət istehsalı 1991-ci ilə nisbətən 50-60 faiz azalmışdır. Beləliklə, yerli istehsal ən vacib məhsullar

üzrə tələbatın 10-15 faizini təşkil etmişdir. Əgər Muxtar Respublikaya idxal ətin 10 faizini, süd və süd məhsullarının 40 faizini, balığın 33 faizini, kartofun 95 faizini, taxılın 90 faizini təşkil edirdisə, blokada və iqtisadi əlaqələrin kəsilməsi ucbatından həmin dövrdə respublikaya ənənəvi mənbələrdən məhsul gətirilməsi tamamilə kəsilmişdi. Ərzaq məhsullarına tələbat yerli istehsal, habelə Türkiyə və İrandan alınan məhsullar hesabına ödənilirdi. Təkcə bu faktı göstərmək yerinə düşər ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin şəxsi nüfuzu və səyi nəticəsində Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasında bağlanan müqavilədə Naxçıvanın iqtisadi və sosial inkişafına ayrılan 100 mln. dollar kreditin 10 mln. dollarından 1992-ci ildə ərzaq alınmasına istifadə edilməsi Muxtar Respublikanı aclıqdan çıxarmışdır.

Lakin sosial-iqtisadi vəziyyətin böhrandan çıxarılmasından danışmaq hələ tez idi. Neçə il əvvəl başlamış iqtisadi tənəzzül nəticəsində əhalinin tələbatının ödənilməsində yerli istehsalın rolu daha aşağı düşmüşdü.

Belə ki, Naxçıvanda adambaşına 96 kq taxıl, 36 kq kartof, 57 kq tərəvəz və bostan məhsulları, 360 kq meyvə və üzüm, 22 kq ət, 109 kq süd, 166 ədəd yumurta istehsal olunurdu ki, bu da uyğun istehlak normativləri ilə müqayisədə taxıl üzrə 10 faiz, kartof üzrə 6 faiz, tərəvəz və bostan məhsulları üzrə 28 faiz, ət məhsulları üzrə 30 faiz, yumurta üzrə 20 faiz təşkil edirdi. Adambaşına kənd təsərrüfatı məhsullarının istehlakı respublika əhalisinin adambaşına düşən istehlakdan ət məhsulları üzrə 10 kq,

süd məhsulları üzrə 118 kq, balıq üzrə 1 kq, kartof üzrə 25 kq, tərəvəz üzrə 18 kq aşağı idi.

Belə bir fakt da diqqəti cəlb edir ki, 90-cı illərin əvvəllərində Naxçıvanda adambaşına düşən mal dövriyyəsi orta respublika göstəricisinin 74,8 faizini təşkil edirdi.

90-cı illərin əvvəllərinə Naxçıvanda əsas iqtisadi və sosial inkişaf göstəricisi kimi istehsal olunmuş milli gəlir və onun istifadəsi Muxtar Respublikanın iqtisadiyyatında baş verən prosesləri aydın səciyyələndirir. Milli gəlirin sahə strukturu aşağıdakı göstəricilərlə səciyyələnir.

*20-ci cədvəl*

Naxçıvan Muxtar Respublikasında istehsal olunan milli gəlirin sahə strukturu *(faizlə)*

| Sahələr | ÜDM | | Milli gəlir | |
|---|---|---|---|---|
| | 1988 | 1990 | 1988 | 1990 |
| Bütövlükdə iqtisadiyyat üzrə | 100 | 100 | 100 | 100 |
| o cümlədən: | | | | |
| Sənaye | 47,8 | 51 | 33 | 34,5 |
| Kənd təsərrüfatı | 22,0 | 23,3 | 323 | 42,6 |
| Tikinti | 18,2 | 14,0 | 16,9 | 5,9 |
| Nəqliyyat və rabitə | 11,8 | 11,7 | 18,8 | 17 |

Cədvəldən göründüyü kimi, həmin dövrdə Naxçıvan Muxtar Respublikasının sənaye potensialı iqtisadi əlaqələrin

kəsilməsi nəticəsində ciddi böhran keçirirdi. Heydər Əliyev Naxçıvana rəhbərlik etdiyi ilk dövrlərdə yanacaq problemini həll etmək üçün qonşu İran və Türkiyə ilə müştərək müəssisələrə investisiya qoyuluşu, humanitar kömək, mədəni əlaqələrin inkişafı üçün tədbirlər proqramı hazırladı.

Onun ən çox diqqət yetirdiyi məsələlərdən biri Muxtar Respublikada iqtisadiyyatın əhalinin gündəlik həyatı ilə bağlı sahələrində xüsusi mülkiyyətin tezliklə bərqərar olmasını təmin etmək idi. Bu isə heç də təsadüfi deyildi. Həmin tədbirlər nəticəsində artıq 1992-ci ildə Naxçıvan Muxtar Respublikasında ərzaq məhsullarına tələbatın üçdə ikisi şəxsi yardımçı təsərrüfat hesabına ödənilirdi. Ət istehsalının 70 faizi, süd istehsalının 50 faizdən çoxu, yumurta istehsalının 60 faizi, yun istehsalının 55 faizi şəxsi yardımçı təsərrüfat hesabına formalaşırdı. Əhalinin sərəncamında olan mal-qara Muxtar Respublikada olan bütün mal-qaranın 30 faizini, davar isə bütün davarın 50 faizini təşkil edirdi. Beləliklə, bu rəqəmlər şəxsi və xüsusi təsərrüfatların faydalılığını sübut edir və bazar iqtisadiyyatı şəraitində bu xüsusiyyətlərin nəzərə alınmasını zəruriləşdirirdi.

Ümumiyyətlə, Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişaf strategiyasının əsas məqsədi və reallaşma mexanizmi minimum və maksimum kimi iki əsas hissədən ibarətdir. Minimum proqramın yerinə yetirilməsində nəzarət və dövlətin tənzimləyici rolunun gücləndirilməsi, iqtisadi tənzimlənmə mexanizmlərindən istifadə olunması əsas götürülmüşdür. Yeri gəldikdə, inzibati ida-

rəetmənin iqtisadi yollarından daha geniş istifadə olunmalıdır. İkinci, maksimum mərhələ isə iqtisadi islahatların aparılması və bazar iqtisadiyyatının fəaliyyətinin əsas prinsiplərinin reallaşdırılmasıdır.

Bu prinsiplər Azərbaycan iqtisadiyyatının uzunmüddətli inkişaf dinamikası, qanunauyğunluqları və Naxçıvan Muxtar Respublikasının bazar iqtisadi təcrübəsində nəzəri və əməli cəhətdən reallaşan Heydər Əliyev iqtisadi idarəetmə və təşkilati mexanizmlərinin perspektivləri əsasında formalaşır.

Naxçıvanın iqtisadi və sosial inkişaf proqramının əsasını Heydər Əliyevin iqtisadi və sosial inkişaf konsepsiyası təşkil edir. Həmin konsepsiyanın işlənmə metodologiyası, reallaşma mexanizmi bir-birinə zidd olan iki iqtisadi sistemin təşkili və idarə olunmasında aparıcı şəxsiyyət olan Heydər Əliyevin nəzəri, elmi və praktik görüşlərinin dahi uzaqgörənliklə məcmu şəkildə formalaşmasına və inkişaf etdirilməsinə əsaslanır.

Bu metodologiya tarixilik, varislik, nəzəri və praktik inkişaf meyllərini fəal surətdə dəyişmək ideologiyasına əsaslanır və Naxçıvan iqtisadiyyatının 1970-1980-ci illərdə formalaşdırılmış potensialının qiymətləndirilməsinə, onun 1988-1993-cü illərdə böhran vəziyyətinin dərin təhlilinə, 2000-ci ildə və XXI əsrdə inkişaf yollarının, mənbələrinin və istiqamətlərinin müəyyən edilməsinə yönəlmişdir.

Heydər Əliyevin iqtisadi konsepsiyası keyfiyyətcə yeni, zamanca perspektiv və uzunmüddətli, mahiyyətcə sosial yönümlü, xaraktercə demokratik, dinamik və dünyəvi kon-

sepsiyadır. Onun əhatə dairəsi kompleks, sistemli olub, proqram xarakteri daşıyır.

Əhalinin həyat səviyyəsini yüksəltmək, ölkənin və Naxçıvanın iqtisadi təhlükəsizliyini təmin etmək və dünya iqtisadi sistemində inteqrasiyaya daxil olmaq Heydər Əliyevin iqtisadi inkişaf konsepsiyasının əsas meyarlarıdır. Bu meyarların reallaşması yolları, resurs təminatı və onlardan istifadə mexanizmləri onun iqtisadi baxışlarında öz real həllini tapmışdır.

O, dəfələrlə bizim iqtisadi inkişaf yolumuzun bazar iqtisadiyyatı, sahibkarlıq, sərbəst iqtisadiyyat, təşəbbüskarlıq olduğunu bütün beynəlxalq və daxili dövlət sənədlərində əsaslandırıb.

Heydər Əliyev bir iqtisadi sistemdən digər iqtisadi sistemə keçərkən formalaşmış strukturun dağıdılması yolunu tutmamış, onun yeni əsaslarla işlənməsi yollarını əsaslandırmışdır.

Onun Naxçıvan iqtisadi modeli öz yaranma, tətbiq və inkişaf xüsusiyyətlərinə görə dünya iqtisadiyyatında heç bir analoqu olmayan dərin təfəkkürə əsaslanır.

Heydər Əliyev konsepsiyasının nəzəri-metodoloji müddəaları blokada şəraitində Naxçıvan Muxtar Respublikasının iqtisadi potensialının istifadəsi, kənd təsərrüfatı, sənaye və əhalinin məşğuliyyətinin təşkili üçün tədbirlər sistemi hazırlayıb həyata keçirməyə zəmin yaratdı.

Onun regional iqtisadi inkişaf konsepsiyasının əsasını tənzimlənən bazar iqtisadiyyatı təşkil edir.

Tənzimlənən bazar iqtisadiyyatının Naxçıvanda reallaşması həyati əhəmiyyət kəsb edən ən zəruri problemlərin - kredit və investisiya problemlərinin həlli ilə həyata keçirilməli idi. Heydər Əliyev əmin idi ki, iqtisadiyyata sərmayə qoyulursa, onun etibarlı gələcəyi olur. Əks halda iqtisadiyyat zəifləyərək sıradan çıxmağa başlayır. Buna görə də, o, Naxçıvan Muxtar Respublikasında investisiya prosesinin aktivləşməsi üçün şərait yaradılmasına çalışırdı.

Naxçıvanda özünəməxsus tənzimləmə mexanizmi işlədildi. O dövrdə inflyasiyanın səviyyəsi gündə 2-3 faiz olduğu halda, Naxçıvan Muxtar Respublikasında əhalinin ən vacib ehtiyaclarını ödəmək üçün çörək və çörək məmulatının qiyməti sabit saxlanıldı. Çörəyə gündəlik tələbatın ödənilməsi Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevin diqqət mərkəzində idi.

Heydər Əliyev Naxçıvan iqtisadiyyatının böhrandan çıxarılması problemini aşağıdakı istiqamətlərdə həll edirdi:

1) Naxçıvan iqtisadiyyatının təşkili və idarə olunması sahəsində iqtisadi idarəetmə strukturlarının işindəki nöqsanların ləğv edilməsi, dövlət tənzimlənməsinin və nizam-intizamın möhkəmləndirilməsi;

2) Naxçıvanın iqtisadi strukturlarında islahatlar və bazar iqtisadiyyatı mexanizmlərin yaradılması və istifadəsi;

3) xarici iqtisadi əlaqələrin və xarici investisiyaların Muxtar Respublikaya axınının təşkili.

Naxçıvanın böhrandan çıxarılması tədbirlərinin ilkin bəh-

rolori - siyasi sabitlik, sərhəd rayonlarında atəşkəsə nail olunması, Naxçıvanın iqtisadi potensialından səmərəli istifadə yollarının tapılması və xarici ölkələrlə ticarət əməkdaşlığının və yardım əlaqələrinin gücləndirilməsi idi.

Heydər Əliyevin şəxsi nüfuzu, qətiyyəti, qərar qəbul etməkdə prinsipiallığı və praqmatik fikirləri qonşu Ermənistanın Naxçıvana təcavüzünün dayandırılması üçün əsas meyar oldu. İlk günlərdə əhalinin ərzaq məhsulları ilə təminatı aparıcı iqtisadi tədbir olaraq həyata keçirilirdi. Naxçıvan əhalisinin ərzağa, enerji və istiliyə olan tələbatının ödənilməsi, Bakı və digər şəhərlərə gediş-gəlişi intensivləşdirmək, Sədərək-Türkiyə yolunun açılması iqtisadi proqram kimi qarşıya qoyuldu. Naxçıvan Muxtar Respublikasının ərzaq tələbatının daxili imkanlar, habelə Türkiyə və İrandan gətirilən mallar hesabına ödənilməsi əsas istiqamət olaraq müəyyən edilmişdi.

1992-1993-cü illərdə Naxçıvan iqtisadiyyatının formalaşması xüsusiyyətlərinin vacib cəhətlərindən biri nisbətən azad ticarətin və xarici ticarət əlaqələrinin əhalinin məşğuliyyətində, həyat səviyyəsinin formalaşmasında və respublikada əmtəə-pul miqrasiyasının canlanmasında rolundan ibarətdir.

Xarici investisiyanın Muxtar Respublikaya geniş cəlb edilməsi zəruriliyi Heydər Əliyev tərəfindən dəfələrlə vurğulanmışdı.

İstehsal olmadan, yalnız ticarət əlaqələrinin inkişafı ilə iqtisadiyyatı dirçəltməyi qeyri-mümkün sayan Heydər Əliyev xarici kapitalın respublikaya axınına tam şərait yaratmağı

və qanuni hədlər çərçivəsində idarə etməyi ön plana çəkirdi.

Naxçıvanın təbii resurslarından mineral sular, duz istehsalı, kənd təsərrüfatı məhsullarının emalı sahəsində xarici kapitalın cəlb edilməsi istiqamətində sözdən əməli işə keçilməsinə məhz Heydər Əliyevin Naxçıvana rəhbərlik etdiyi illərdə başlandı.

İran İslam Respublikası ilə müqavilələr bağlanaraq, əhalinin gediş-gəlişini asanlaşdırmaq və bəzi ərzaq məhsullarının gətirilməsinə qoyulan məhdudiyyətləri götürmək üçün tədbirlər hazırlandı. Muxtar Respublikanın enerji tələbatını ödəmək üçün Araz gölü üstündə beynəlxalq su-elektrik stansiyasının İran İslam Respublikasına mənsub olan turbininin istehsal etdiyi enerjinin bir hissəsinin Naxçıvana verilməsi haqqında saziş bağlandı.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı resurslarından səmərəli istifadə olunması, bazarların tapılması və hazır məhsulun satışı üçün Türkiyə Cümhuriyyəti ilə bağlanan müqavilələr mühüm əhəmiyyət kəsb edirdi. Belə sahələrdən biri 3-4 il bundan əvvəl yığılıb qalmış tütün məhsulunun, şərab məmulatının emal və satışının təşkili idi. Bu məqsədlə Muxtar Respublika ilə Türkiyə arasında müqavilələr bağlandı.

Heydər Əliyevin idarəetmədə nəzəri və əməli nəticələri iqtisadi idarəetmə elmi və təcrübəsi üçün böyük əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikasının hər bir strateji məh-

suluna və resursuna aid xüsusi tədbirlər hazırlanmışdır, o cümlədən Naxçıvan torpaqları üçün əlverişli olan şəkər çuğunduru istehsalının artırılmasının məqsədli proqram metodları istifadə olunurdu. Muxtar Respublikada istehsal edilən şəkər çuğundurunun Türkiyədən alınan şəkərlə mübadiləsinin iqtisadi əsasları və müqavilə şərtləri, həmçinin Naxçıvanda istehsal olunan meyvə-tərəvəz, gön-dəri və mineral suların Türkiyə bazarlarına və emal müəssisələrinə verilməsi proqramları hazırlanmışdır. Mineral sular, şəkər istehsalı, üzüm və digər məhsulların emalı üçün Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikasının müştərək müəssisələrinin tikilməsi perspektivləri işlənib hazırlanmışdır.

1992-ci ildə Naxçıvan Muxtar Respublikasında ilk müştərək müəssisə yaradılmışdır. Bu müəssisə ayda 40-45 ton duz istehsal edirdi. "Naxçıvan-İqdır" birgə müəssisəsi, 500 kanallıq rabitə şəbəkəsi və başqaları da Muxtar Respublikanın iqtisadi həyatında mühüm rol oynayır.

Heydər Əliyev tam əmin idi ki, Naxçıvan Muxtar Respublikasının xarici iqtisadi əlaqələri daha da genişlənməli və inkişaf etdirilməlidir.

Naxçıvanın resurslarından səmərəli istifadə üçün digər xarici ölkələrin investisiyalarını da cəlb etmək vəzifəsi qarşıda dururdu. Bu məqsədlə Ali Məclisin sədri dünya ölkələri ilə danışıqlara gedib, xarici sərmayə qoyuluşu üçün mənbəələr axtarırdı. Blokada şəraitində olan Muxtar Respublikada islahatların və demokratik prinsiplərin həyata ke-

çirilməsini qiymətləndirən Amerika, İngiltərə və Fransa dövlətlərinin səfirliklərinin nümayəndələri humanitar yardım yolu ilə Muxtar Respublikanı 1993-cü ilin martında ağır vəziyyətdən çıxartdılar.

Heydər Əliyevin xarici iqtisadi siyasət strategiyası yerli resurslara əsaslanaraq, səmərəli ticarət əlaqələri, müştərək müəssisə və kapital axını yolu ilə Muxtar Respublikanın mənafeyini təmin etmək siyasəti idi. Bu sahədə İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında birgə iş və qarşılıqlı yardım sazişləri müstəsna rol oynamışdır. 1992-ci il martın 17-də İran İslam Respublikasının prezidenti Əli-Əkbər Haşimi Rəfsəncani Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevi qəbul etdi. Heydər Əliyevin İran İslam Respublikasının rəhbərləri ilə görüşlərində İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin bütün sahələrdə inkişaf etdirilməsi tədbirləri hazırlandı.

Naxçıvan Muxtar Respublikasına İran İslam Respublikasından ərzaq məhsulları, xüsusən un və buğda, yanacaq göndərilməsi, elektrik enerjisinin müntəzəm verilməsi barədə müvafiq icra orqanlarına göstəriş verildi. Naxçıvan Muxtar Respublikasına 40 meqavata qədər enerji verilməsi razılaşdırıldı.

Bakı ilə Naxçıvan arasında gediş-gəlişi asanlaşdırmaq üçün Arazboyu qısa məsafədə İran ərazisindən keçən yolun inşası başa çatdırıldı. Naxçıvanda kənd təsərrüfatı istehsalı üçün lazım olan toxumluq taxıl və kartof alındı.

Naxçıvanla İran arasında 1992-ci il avqustun 24-də bağlanan müqaviləyə görə ildə 60 milyon ədədə qədər kərpic istehsal edə bilən zavod tikilmiş və Naxçıvan şəhərində plastik kütlədən qablar sexi, Naxçıvan alt trikotaj fabriki və xalçaçılıq kombinatı üçün lazımi vəsait ayrılmışdır.

Beləliklə, xarici ölkələrin səfirlikləri və prezidentləri ilə birbaşa əlaqə saxlamaqla, humanitar köməyin təşkilində misilsiz rolu olan Heydər Əliyev ən ağır iqtisadi və sosial məqamda Naxçıvan Muxtar Respublikasını qoruyub saxladı.

1992-ci ilin oktyabr ayında Araz üzərində Türkiyə ilə Naxçıvan əlaqələrini intensivləşdirən müştərək Ümid körpüsünün açılması onun əhalisinin Türkiyə ilə ticarət əlaqələrini gücləndirdi. Həmçinin başqa respublikalardan tranzit kimi yüklərin məhz Naxçıvan ərazisindən keçirilməsi əhalinin məşğulluğuna, Naxçıvanda gömrük işinin intensiv inkişafına təsir etmişdir. Sərhədyanı ticarətin təşkili İran və Türkiyə sərhədlərində əmtəə mübadiləsinin həcmini artırmış, Azərbaycanın başqa rayonlarına, Bakı, Gəncə şəhərlərinə və Rusiya bazarına Naxçıvan vasitəsilə əmtəə axınının artmasına gətirib çıxarmışdır. Naxçıvan əhalisinin ticarət, xırda biznes ilə məşğul olan hissəsi xeyli artmışdır. Bu da əhalinin tələbatının ödənilməsində güclü rol oynamışdır.

Doğrudur, ilk vaxtlar İran və Türkiyə ilə gediş-gəliş artmış olsa da, heç də gizli deyil ki, bu gediş-gəlişin əsas məqsədini ticarət əlaqələri təşkil edirdi. Həm də bu ticarət əlaqələrində bir nizam yox idi. Muxtar Respublikadan aparılan resurslar ən vacib istehlak şeyləri olduğu halda,

respublikaya gətirilən məhsullar respublikadan kənarda satıla bilən məhsullar idi. Beləliklə, onların respublikadan aparılması onsuz da çatışmayan malların qıtlığını daha da artırır, istehsal strukturu ilə pul tədavülü arasında tarazlığı pozurdu. Həmin malları əldə etmək üçün əhali başqa şəhərlərə gedib onları baha qiymətə almalı olurdu.

Naxçıvanın intensiv inkişafında təbii resurslardan tam və kompleks istifadə edilməsi Heydər Əliyevin daim diqqət mərkəzində durmuşdur. Təbii resursların və xammal ehtiyatlarının son məhsula qədər emalının Muxtar Respublika ərazisində həyata keçirilməsi doğrudan da böyük iqtisadi maraq doğurur. Hesablamalar göstərir ki, Naxçıvan məhsulunun son məhsula qədər emalı onun dəyərini 3-4 dəfə artırır.

Heydər Əliyevin Naxçıvan iqtisadi modelində aqrar sahə öncül mövqedə durur. Naxçıvan kənd təsərrüfatı quruluşunda struktur dəyişikliyi zərurətini o, təxirəsalınmaz vəzifə kimi qarşıya qoymuşdu. Heydər Əliyev tövsiyə edirdi ki, struktur siyasəti əhalinin tələbatına uyğun olaraq aparılmalıdır. Hər şeydən əvvəl, üzüm istehsalı sabitləşməli, taxıl, meyvə, kartof, şəkər çuğunduru, qarğıdalı, vələmir, çovdar, qarabaşaq istehsalı intensiv artmalıdır.

Naxçıvanda heyvandarlığın inkişafı üçün növbəli əkin sistemini artırmaq lazımdır. Taxıl zəmiləri biçiləndən sonra qarğıdalı əkilməsi, yem istehsalının artırılması, əhalinin ət məhsullarına tələbatını ödəmək üçün quşçuluğun, dovşan və keçi saxlanmasının genişləndirilməsi tövsiyə olunurdu.

Heyvandarlıq üçün yağlı yem istehsalını artırmaq lazım idi. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda birinci olaraq Naxçıvan Muxtar Respublikasında aparılan islahatlar buna zəmin yaratdı.

Ümumiyyətlə, Heydər Əliyev Naxçıvanda kənd təsərrüfatı istehsalının yüksəldilməsinin, intensiv inkişafının eyni vaxtda iki əsas yolu olduğunu göstərdi. Birincisi, kənd təsərrüfatı tam xüsusiləşdirilməlidir. İkincisi, kənd təsərrüfatı istehsalı və torpaqdan maksimum istifadə stimullaşdırılmalıdır.

Buna nail olmaq üçün Naxçıvanda özəlləşdirmənin daha radikal və tez bir zamanda yerinə yetirilməsi üçün onun təkidi və rəhbərliyi ilə torpaq islahatının əsasnaməsi işlənib hazırlanmışdır. Qeyd etmək lazımdır ki, Azərbaycanda ilk torpaq islahatı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin o zamankı sədri Heydər Əliyevin fərmanı ilə başlanmışdır. Həmin dövrdə Azərbaycana rəhbərlik edənlərin maneələrinə baxmayaraq, Heydər Əliyev islahatlardan üz döndərmədi və bu işi daha da genişləndirdi. Onun göstərişi ilə kolxoz və sovxozlardakı heyvanlar əhaliyə paylandı. Bu da öz növbəsində, bir tərəfdən, Muxtar Respublikada ət, süd problemini birdəfəlik həll etməyə zəmin yaratdı, digər tərəfdən isə kənd təsərrüfatı heyvanlarının sayının nəzərə çarpacaq dərəcədə artmasına gətirib çıxardı. Belə ki, Heydər Əliyev tərəfindən 1992-ci ildə müvafiq qərar qəbul edildiyi vaxtdan 1997-ci ilin ortalarına kimi qaramalın sayı 63 faiz, davarın sayı isə daha çox -71 faiz artmışdır.

Torpaq islahatının əsas istiqamətləri aşağıdakılar idi:

a) rentabelsiz kolxoz və sovxozların ləğvi və onların mülkiyyətinin əhali arasında bölüşdürülməsi;

b) kəndin sosial inkişafı üçün sosial infrastrukturun perspektiv istifadə mexanizminin hazırlanması;

c) bütün ərazidə mal-qaranın əhali arasında bölüşdürülməsi və heyvandarlıqda xüsusi mülkiyyət formasının bərqərar olması;

ç) xarici iqtisadi əlaqələrdə yerli resurslardan istifadə nəticəsində əldə olunmuş kənd təsərrüfatı məhsullarının ixracının liberallaşdırılması;

d) kənd təsərrüfatı resurslarından istifadə üçün kapital qoyuluşu və investisiya axınının stimullaşdırılması;

e) kənd təsərrüfatı məhsullarının təkrar emalı müəssisələrinin özəlləşdirilməsi.

Torpaq islahatı haqqında əsasnamənin ideyası Heydər Əliyevin bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat və Naxçıvan resurslarından istifadə mexanizmləri metodikasına uyğunlaşdırılmışdır. Kolxoz və sovxozların mülkiyyətində pay bölgüsü, vergi siyasəti, investisiya problemi, marketinq kimi əsas cəhətlər torpaq islahatında öz əksini tapmışdır. Naxçıvanda torpaq islahatı və digər islahatlar, özəlləşdirmə təcrübəsi sonralar ərazi üzrə kiçik olan bir region çərçivəsindən respublika çərçivəsinə keçdi. Sonrakı illərdə Azərbaycan Respublikası keçmiş SSRİ məkanında ən radikal aqrar islahatlar məkanı olan səviyyəyə yüksəldi.

Naxçıvan Muxtar Respublikasında özəlləşdirmə, torpaq islahatı, dağ rayonlarında torpaqların kənd əhalisinə verilməsi 1992-ci ildən başlayıb. Respublikada islahatların həyata keçirilməsi üçün işçi qrupu yaradıldı, torpaq islahatı haqqında əsasnamə hazırlandı və yerli islahat komissiyaları təşkil edildi. İslahatın keçirilməsi ədalət, bərabərlik, iqtisadi səmərəlilik, torpağa varislik, sərbəst alğı-satqı prinsipləri üzərində qurulmuşdur. Muxtar Respublikanın iqtisadi islahatlarda öncül olması məhz Heydər Əliyevin Ali Məclisin sədri işlədiyi zaman hazırladığı nəzəri və əməli tövsiyələrin nəticəsi kimi qiymətləndirilə bilər. Nisbətən dağ rayonları olan Culfa, Babək və Ordubadda özəlləşdirmə daha tez başa çatdırıldı. Torpaq islahatının keçirilməsində əsas məqsəd torpaqdan istifadəni intensivləşdirmək və kənd təsərrüfatı məhsullarına olan tələbatı yerli imkanlar hesabına ödəməkdən ibarət idi. Bu məqsədlə torpağın qiymətləndirilməsi, ondan istifadə nəticəsində alınan effekt, səmərəli iqtisadi mexanizmlərin hazırlanması əsas istiqamətlər kimi qəbul edilirdi. Kolxoz və sovxozların ləğvi və onların əmlakının özəlləşdirilməsində istifadə olunan metodlar Naxçıvanda artıq öz səmərəsini vermişdir.

Torpağın özəlləşdirilməsi ilə yanaşı, mal-qaranın əhaliyə bazar qiymətlərinə uyğun satılması onlardan istifadəni daha da stimullaşdırmış və xüsusi mülkiyyət formasının inkişafına səbəb olmuşdur. Mal-qaranın satışından əldə olunan vəsait kənd təsərrüfatı işçilərinin əmək haqqı borclarının verilməsinə, maliyyə orqanlarına kredit və borcların qaytarılmasına şərait yaratmışdır. Naxçıvan Muxtar Respublikasında

əhalinin ət, süd məhsullarına tələbatı artıq özəl bölmənin hesabına ödənilir. Kənd təsərrüfatı məhsulları bazarı daxili resurslar hesabına formalaşır və bir sıra məhsullar: tütün, şəkər çuğunduru, ərik, qoz məhsulları ixrac olunur.

Naxçıvan Muxtar Respublikasında iqtisadi islahatlar bazar iqtisadiyyatı tələblərinə uyğun olaraq mərhələ-mərhələ və yerli psixoloji amillər, resurslar nəzərə alınaraq aparılırdı.

Heydər Əliyevin hazırladığı, Naxçıvanın sosial-iqtisadi həyatı üçün zəruri müddəaları özündə əks etdirən sistemli inkişaf proqramı öz real nəticələrini getdikcə daha aydın göstərməkdədir. Həmin proqrama uyğun olaraq Naxçıvan-Təbriz qatarı işə düşmüşdür, Naxçıvan-Məşhəd dəmiryolunun açılması üzrə işlər isə davam etdirilir.

Naxçıvanın Türkiyə ilə nəqliyyat əlaqələrinin əsasını da Heydər Əliyev qoymuşdur. Hazırda Naxçıvanla İstanbul, Ankara, Ərzurum və İqdır şəhərlərinə rahat avtobuslar işləyir.

Muxtar Respublikanın əsas sərvəti olan torpaqların özəlləşdirilməsindən sonra istifadəsi problemlərinin həlli yolları proqnozlaşdırılmışdır. Burada özəl təsərrüfat bazarın tələbatına uyğun ixtisaslaşma istiqamətində inkişaf etdirilmiş, yerli bazarın və İran, Türkiyə bazarlarının tələbatına uyğun ixrac məhsulunun stimullaşdırılması tədbirləri həyata keçirilmişdir.

Sərbəst zona kimi fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikasına kapital axını üçün yaxşı şərait yaradılmışdır İnvestisiya qoyuluşu üçün əlavə ödəmələr ləğv olunmuş, müştərək məhsulların bölgüsündə risk dərəcəsini artıran

bölgü və mənafelər sistemi tətbiq olunmuşdur. Sahibkarlıq hüquqları saxlanmaqla, Muxtar Respublikanın istehsal və sosial infrastrukturları, o cümlədən sosial infrastruktur sahələri - ticarət, məişət xidməti, mehmanxana təsərrüfatı xarici ölkələrin iş adamlarına icarəyə verilmişdir.

Heydər Əliyevin Naxçıvan iqtisadi islahatlar modelinin real nəticəsidir ki, ilk dəfə Naxçıvan Muxtar Respublikasında mal və xidmət təklifi ilə əhalinin alıcılıq qabiliyyəti uzlaşdı, çörək və çörək məhsulları respublika səviyyəsi ilə müqayisədə 30 faiz, xalq istehlakı mallarının pərakəndə satış qiyməti 20 faiz ucuzlaşdı.

Bir daha xüsusi vurğulanmalıdır ki, bütün bu nailiyyətlər müharibə və blokada şəraitində əldə olunmuşdur.

Naxçıvan Muxtar Respublikasının Ermənistan ilə sərhədləri həmişə təhlükə altında olduğu üçün həmin ərazilərdən istifadə əmsalı çox aşağı idi, o cümlədən Şahbuz, Sədərək və Culfa rayonlarının dağları və meşə zolaqları heyvandarlığın inkişafı üçün mühüm otlaq sahəsi olduğuna baxmayaraq, onlardan istifadə təhlükəli idi.

Naxçıvanın Azərbaycan paytaxtı ilə nəqliyyat əlaqəsi ancaq İran ərazisi və hava yolu həyata keçirildiyinə görə Naxçıvanda aeroportun genişləndirilməsi, onun buraxılış qabiliyyətinin yüksəldilməsi həmişə Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Hələ 1992-ci ildə hava limanının genişləndirilməsi üçün görülən tədbirlər, vəsait qoyuluşu, resurs təminatı və təyyarə ilə təchizat məsələlərinin həlli indi artıq öz bəhrəsini vermişdir.

Heydər Əliyevin Naxçıvan iqtisadi inkişaf modelinin mühüm tərkib hissələrindən biri də azad iqtisadi zona yaradılması problemidir. Onun rəhbərliyi altında bu istiqamətdə bir sıra konkret təkliflər işlənib hazırlanmışdır və onların həyata keçirilməsi Muxtar Respublikanın təbii, sənaye və əmək resurslarından istifadə səviyyəsini yüksəltmişdir.

Azad iqtisadi zonaların mahiyyəti, vəzifələri, yaradılması prinsipləri müəyyənləşdirilmişdir. Belə zonaların dünya təcrübəsi ümumləşdirilib Naxçıvan iqtisadiyyatında öz əksini tapmışdır.

Azad iqtisadi zonaların yaradılmasının iqtisadi - təşkilati problemləri, onların təsərrüfat mexanizmi, səmərəlilik göstəriciləri və bu göstəriciləri yüksəltməyin mənbəyi və mexanizmləri Heydər Əliyevin region iqtisadi idarəetmə modelidir.

Azad iqtisadi zonaların təşkilinin iqtisadi problemləri və konseptual inkişaf istiqamətləri Heydər Əliyevin Ali Məclisin sessiyalarındakı çıxışlarında geniş şərh olunmuşdur.

Azad iqtisadi zona şəraitində iqtisadi və sosial inkişaf problemlərinə aid bu nəzəri və əməli tövsiyələr belə zonaların Azərbaycanın digər bölgələrində də təşkilinə zəmin yaratdı.

Naxçıvan Muxtar Respublikasının iqtisadi və sosial inkişafında Heydər Əliyev mərhələsinin əsas amillərindən biri də sosial təminat və mənəvi-psixoloji faktorlarda şəxsiyyətin roludur. Göstərildiyi kimi, 90-cı illərin əvvəllərində burada istehlak strukturunda ciddi uyğunsuzluqlar meydana gəlmişdi. Benzin qıtlığı, yanacağın olmaması və elektrik enerjisinə tələbatın ancaq 20-30 faiz ödənilməsi qənaət

rejiminin və psixoloji amilin daha üstün artmasını tələb edirdi. Bu şəraitdə azad bazar iqtisadiyyatının ünsürləri geniş inkişaf etdirilirdi.

İqtisadi və sosial inkişafın idarə edilməsi təcrübəsi ərazicə kiçik olan Muxtar Respublikada yeni şəraitə uyğun olaraq daha da zənginləşmiş, sonra bu təcrübə Azərbaycan Respublikasının miqyasında idarəetmə təcrübəsinə çevrilmişdir. Heydər Əliyev demokratik prinsiplər zəminində iqtisadi islahatlar proqramını və yeni təsərrüfat formalarını əsaslandırdı.

Onun iqtisadi idarəetmə təcrübəsi bazar iqtisadi idarəetmə regionu olan Naxçıvan Muxtar Respublikasında yeni şəraitdə yeniləşdi.

Öz rəhbərliyi altında Naxçıvan Muxtar Respublikasında aparılmış iqtisadi islahatların nəticələri barədə Heydər Əliyevin aşağıdakı sözləri görülmüş işləri aydın göstərir: "Azərbaycanda bu məsələlər, necə deyərlər, hələ baxılmamış vəziyyətdə olduğu halda, biz 1992-ci ildə burada özəlləşdirmə haqqında qanun qəbul etdik. Kolxozlarda, sovxozlarda olan mal-qaranın əhaliyə satılması, torpaqların əhaliyə verilməsi haqqında qanunlar qəbul etdik. Artıq onlar öz nəticələrini veribdir"[1].

Naxçıvan Muxtar Respublikası həm erməni təcavüzü qarşısında sipər kimi dayandı, həm daxili qruplaşmalar arasındakı ziddiyyətləri həll etdi və son nəticədə, qədim Azərbaycanın milli dəyərlərini, onun ərazi bütövlüyünü, sosial-iqtisadi potensialını qoruyub saxladı.

---

[1] «Azərbaycan» qəzeti, 2 noyabr 1996-cı il.

*III FƏSİL*

# HEYDƏR ƏLİYEVİN İQTİSADİ İNKİŞAF KONSEPSİYASI

## 3.1. Azərbaycanda sosial-iqtisadi böhran, onun xüsusiyyətləri və nəticələri

70-ci illərdə və 80-ci illərin əvvəllərində - Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkə iqtisadiyyatında əldə edilən yüksək mövqelər 80-ci illərin ikinci yarısından başlayaraq tədricən itirilmiş, 1989-cu ildən isə illik istehsal həcmi aşağı düşməyə başlamışdır. Nəticədə öz müstəqilliyini qazanmış Azərbaycan Respublikası sosial-iqtisadi və siyasi böhrana düçar olmuş və onun acı nəticələrini görmüşdür.

Dövlət müstəqilliyini əldə etdiyi gündən respublikamızın həyatında baş verən ictimai-siyasi proseslər, ölkə iqtisadiyyatında idarəetmə və istehsal intizamının pozulması, Azərbaycanın məcburi cəlb olunduğu müharibə və bunun nəticəsində torpaqlarımızın 20 faizinin Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən zəbt edilməsi, bir milyon vətəndaşın öz Vətənində qaçqın vəziyyətinə düşməsi, ayrı-ayrı silahlı qrupların hakimiyyət uğrunda mübarizəsi, dövlət çevrilişləri cəhdləri ölkədə iqtisadiyyatın inkişafına ciddi zərbə vurmuş, məhsul istehsalını kəskin surətdə azaltmış, əhalinin rifahının pisləşməsinə səbəb olmuşdur.

Bu dövrdə ölkə iqtisadiyyatı üçün ən kəskin tənəzzül 1992-ci ildə baş vermiş, iqtisadi fəallıq, istehsal və investisiya qoyuluşu arzuolunmaz bir vəziyyətə gəlib çatmışdır.

Respublikanın iqtisadi blokadası, müxtəlif siyasi-mafioz qruplaşmaların pozucu və dağıdıcı fəaliyyəti ilə yanaşı, böhranın əsas səbəblərindən biri də 1992-ci "liberallaşma" ilinə respublika rəhbərliyinin hazırlıqsız qədəm qoyması olmuşdur. Bu ildən başlayaraq konkret iqtisadi proqramı olmayan Azərbaycan Respublikası Rusiyanın liberal-monetarist doktrina əsasında həyata keçirdiyi "şok terapiyası" iqtisadi islahatlarının təsirinə məruz qaldı.

Bir faktı göstərmək olar ki, 1993-cü ildə ÜDM-in həcmi həmin göstəricinin 1988-ci ildəki səviyyəsinin cəmi 60 faizini təşkil etmişdir.

1992-1994-cü illər ərzində real daxili məcmu məhsul (DMM) ildə orta hesabla 20 faiz azalmış və bu proses nisbətən aşağı səviyyədə (13,2 faiz) olsa da, 1995-ci ildə davam etmişdir.

İqtisadi uğursuzluqlarımız zəncirvari proses kimi iqtisadiyyatın bütün sahələrinə yayılmış və ona sağalmaz yaralar vurmuşdur.

1988-1993-cü illər ərzində xalis maddi məhsulun tərkibində kənd təsərrüfatı bölməsinin payı 30 faizdən 17 faizə qədər azalmışdır. Bu bölmənin daxilində bir sıra sahələrdə vəziyyət daha pis olmuşdur. Bunlara ilk növbədə pambıqçılıq və üzümçülük kimi sahələri aid etmək lazımdır. Əgər 1991-ci ildəki kənd təsərrüfatı istehsalı tərkibində pambıqçılığın payı 42 faiz təşkil edirdisə, bu göstərici 1992-ci ildə 38 faizə, 1993-cü ildə isə 13 faizə enmişdir. Üzüm istehsalı 1992-ci ildə 50 faiz, 1993-cü ildə isə daha 33 faiz azalmışdır. Digər mühüm

kənd təsərrüfatı məhsulları üzrə də nəzərəçarpacaq azalma baş vermişdir.

*21-ci cədvəl*

Mühüm növ kənd təsərrüfatı bitkilərinin istehsalı və məhsuldarlığı

| | 1988 | 1989 | 1990 | 1991 | 1992 | 1993 |
|---|---|---|---|---|---|---|
| İstehsal *(min ton)* | | | | | | |
| Taxıl | 1417 | 861 | 1414 | 1346 | 1337 | 1143 |
| Pambıq | 616 | 581 | 543 | 540 | 336 | 283 |
| Tütün | 57 | 50 | 53 | 58 | 52 | 47 |
| Üzüm | 1254 | 1057 | 1196 | 1126 | 607 | 410 |
| Çay | 35 | 33 | 31 | 27 | 23 | 24 |
| *(fərq, faizlə)* | | | | | | |
| Taxıl | 26,9 | -39,2 | 64,2 | -4,7 | -0,7 | -14,5 |
| Pambıq | -11,6 | -5,7 | -6,5 | -0,6 | -37,8 | 15,8 |
| Tütün | -12,3 | -12,3 | 6,0 | 9,4 | -10,3 | -9,6 |
| Üzüm | -13,5 | -15,7 | 13,2 | -5,9 | -46,1 | -32,4 |
| Çay | 2,9 | -5,7 | -6,1 | -12,9 | -14,8 | 4,3 |
| Məhsuldarlıq *(1 hektardan sentnerlə)* | | | | | | |
| Taxıl | 26,3 | 21,9 | 24,2 | 20,8 | 21,1 | 16,2 |
| Pambıq | 20,6 | 20,8 | 20,6 | 22,0 | 14,4 | 12,7 |
| Tütün | 34,7 | 33,7 | 35,8 | 36,2 | 32,3 | 29,6 |
| Üzüm | 73,7 | 65,1 | 76,5 | 77,2 | 45,8 | 30,9 |
| Çay | 50,4 | 44,3 | 39,0 | 33,9 | 26,6 | 28,2 |
| *(fərq, faizlə)* | | | | | | |
| Taxıl | 8,7 | -16,7 | 10,5 | -14,0 | 1,4 | -23,2 |
| Pambıq | -10,4 | 1,0 | -1,0 | 6,8 | -34,5 | -11,8 |
| Tütün | -9,2 | -2,9 | 6,2 | 1,1 | -10,8 | -8,4 |
| Üzüm | -10,8 | -11,7 | 17,5 | 0,9 | -40,7 | -32,5 |
| Çay | 5,7 | -12,1 | -12,0 | -13,1 | -21,5 | 23,0 |

Heyvandarlıqda vəziyyət pisləşməkdə davam edirdi. 1992-ci ildə ət istehsalı 26 faiz, süd və yumurta istehsalı 20 faizə qədər, 1993-cü ildə isə ət və süd istehsalı daha 30 faiz, yumurta istehsalı isə 56 faiz azalmışdır.

Sənayedə də vəziyyət acınacaqlı hala düşmüşdü. MDB ölkələri ilə əvvəllər mövcud olmuş sıx əlaqələrin qırılması, idarəetmədə yol verilən naşılıq və məsuliyyətsizlik, sahədaxili zəruri struktur dəyişikliklərinin aparılmaması, cəlb olunduğumuz müharibənin ağır nəticələri sənayenin inkişafına mənfi təsir göstərmişdi. Bu və ya digər amillərin təsiri nəticəsində sənaye istehsalının həcmi 1988-1993-cü illərdə nəzərəçarpacaq dərəcədə azalmışdır.

*22-ci cədvəl*

Bəzi sənaye məhsullarının istehsalı

| | 1988 | 1989 | 1990 | 1991 | 1992 | 1993 | 1993-cü ildə 1988-ci ilə nisbətən (faizlə) |
|---|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| *Metallurgiya* | | | | | | | |
| Polad (min ton) | 726 | 696 | 501 | 462 | 413 | 236 | 32,5 |
| Polad borular (min ton) | 604 | 584 | 493 | 411 | 260 | 146 | 24,2 |
| *Maşınqayırma* | | | | | | | |
| Neftçıxarma avadanlığı (min ədəd) | 6,2 | 5,4 | 5,2 | 4,1 | 2,9 | 1,9 | 30,6 |
| Nasos qurğuları (min ədəd) | 465 | 494 | 527 | 462 | 393 | 161 | 21,6 |

| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|---|
| Elektrik motorları (min ədəd) | 7105 | 6496 | 4860 | 3774 | 1837 | 1355 | 19,1 |
| Transformatorlar (min kva) | 2082 | 2410 | 1996 | 16,6 | 651 | 229 | 11 |
| *Tikinti materialları* Dəmir-beton (min kubm) | 1912 | 1688 | 1312 | 1190 | 989 | 574 | 30 |
| Kərpic (milyon ədəd) | 1465 | 1454 | 1317 | 1447 | 1062 | 738 | 50,4 |
| Kirəmid (milyon ədəd) | 92 | 85 | 66 | 78 | 70 | 51 | 55,4 |
| *Kimya sənayesi* Gübrə (min ton) | 320 | 275 | 212 | 188 | 81 | 32 | 10 |
| Kükürd turşusu (min ton) | 846 | 768 | 603 | 552 | 269 | 141 | 16,7 |
| Kaustik soda (min ton) | 236 | 219 | 160 | 171 | 92 | 49 | 20,8 |
| Sulfanol (min ton) | 141 | 136 | 130 | 118 | 62 | 23 | 16,3 |
| *Məişət məmulatları* Metal məmulatları (min ədəd) | 1893 | 1195 | 1948 | 724 | 355 | 557 | 29,4 |
| Kondisionerlər (min ədəd) | 421 | 401 | 309 | 295 | 268 | 179 | 42,5 |
| Ventilyatorlar (min ədəd) | 148 | 159 | 134 | 93 | 41 | 37 | 25 |
| Yuyucu vasitələr (min ton) | 84 | 85 | 82 | 76 | 52 | 40 | 47,6 |
| Sabun (min ton) | 38 | 41 | 43 | 25 | 17 | 10 | 26,3 |
| Emal üçün yararlı ağac (min kubm) | 211 | 157 | 126 | 87 | 47 | 17 | 8,1 |

Məlum olur ki, həmin dövrdə kimya və neft emalı sənayesində, tikinti materialları istehsalında, neft maşınqayırma sənayesində və digər sahələrdə istehsal həcmi kəskin aşağı düşmüşdür.

Ümumiyyətlə, 90-cı illərin əvvəlləri Azərbaycanda iqtisadi tənəzzülün sürətlənməsi ilə səciyyələnir. Hesablamalar göstərir ki, 1992-1994-cü illərdə milli gəlir 50 faiz azalmış, xalq təsərrüfatında makroiqtisadi uyğunsuzluqlar kəskin hal almışdır. İstehsal həcminin azalması və inflyasiya sürətinin yüksək olması iqtisadi böhranın, səbatsız maliyyə siyasətinin "bəhrələri" kimi, cəmiyyətdə sosial, iqtisadi və siyasi gərginliyin şiddətlənməsinə zəmin yaradırdı. 1991-ci ildən başlayaraq hər il dövlət büdcəsi böyük kəsirlə formalaşdığından, yalnız Milli Bankın yeni kreditləri hesabına maliyyələşdirilirdi.

İstehsalın böhranı dövlət büdcəsində ciddi uyğunsuzluqların əmələ gəlməsinə və iqtisadi qanunlara tamamilə əks olan nəticələrə gətirib çıxarmışdı. 1993-cü ildə büdcə kəsiri 23,8 mln. manat təşkil etmişdir ki, bu da ÜDM-in 14,4 faizinə bərabərdir.

Vergilərin toplanması işində yol verilən nöqsanlar, vergi normalarının inflyasiya nəticəsində eroziyaya məruz qalması və digər səbəblər ucbatından dövlət büdcəsinin gəliri kəskin azalmışdı.

Dövlət müəssisələrinə və kənd təsərrüfatına böyük məbləğdə kredit verilməsi və bu vəsaitdən səmərəsiz və nəzarətsiz istifadə edilməsi və ya kommersiya strukturlarına




Prezident Heydər Əliyev və Türkiyənin prezidenti Süleyman Dəmirəl.



Prezident Heydər Əliyev və ABŞ-ın prezidenti Bill Klinton



Prezident Heydər Əliyev və İngiltərənin Baş naziri Con Meycor.



Prezident Heydər Əliyev və Fransanın prezidenti Jak Şirak.



Prezıdent Heydər Əliyev və Çın Xalq Respublikasının sədri Szyan Szemin.



Prezident Heydər Əliyev və Yaponiyanın baş nazırı Ryutaro Haşimoto.



Prezident Heydər Əliyev və Rusiyanın prezidenti Boris Yeltsin.



Prezident Heydər Əliyev və Ukrayna Respublikasının prezindenti Leonid Kuçma.

axıdılıb inflyasiyaya qurban verilməsi iqtisadi vəziyyəti daha da gərginləşdirirdi.

Bununla yanaşı, Azərbaycanın xarici ticarətinin göstəriciləri getdikcə pisləşir və tədiyə balansında arzuolunmaz uyğunsuzluqlar açıq-aşkar güclənirdi. Əvvəlki iqtidarların iqtidarsızlığı üzündən təkcə 1993-cü ildə idxal və ixracın həcmi 50 faizdən çox azalmışdı.

Yanacaq-energetika sahəsində yol verilən nöqsanlar nəticəsində Azərbaycan enerji daşıyıcılarını idxal edən ölkəyə çevrilmişdi ki, bu da Azərbaycanın xarici ticarət göstəricilərinin pisləşməsinə şərait yaratmışdı.

1993-cü il üzrə tədiyə balansında ümumi saldo mənfi olmaqla 23 mln. dollar kəsirlə səciyyələnirdi. Bunun əsas səbəblərindən biri də ölkədən kapital axınının kütləvi hal alması olmuşdu.

Azərbaycanda baş verən iqtisadi böhranın acı nəticələrindən biri milli valyuta olan manatın ağlagəlməz sürətlə qiymətdən düşməsi idi. Hesablaşma hesablarında olan vəsaitlərin nağdlaşdırılması və ya əmtəəyə çevrilməsi nağd manatla həyata keçirilən əməliyyatlardan qat-qat ucuz reallaşdırılırdı.

İqtisadi böhran, istehsalın kəskin surətdə azalması və məhsuldarlığın aşağı düşməsi əmtəə təklifinin azalmasına və qiymətlərin artmasına gətirib çıxarmışdı.

Respublikada əhalinin pul gəlirlərinin artım sürətinin qiymətlərin artım sürətindən aşağı olması real istehsalın həc-

mini artırmadan onun strukturunda daha ucuz qiymətli mallara olan xərclərin artmasına səbəb olmuşdu. Əgər 1970-1990-cı illərdə Azərbaycan əhalisinin istehlakında 30 faizə qədər xidmət istehsalı təşkil edirdisə, son 1988-1993-cü illərdə bu xərclər ancaq nəqliyyat xərclərindən ibarət olmuşdur.

Pul-kredit siyasətində yol verilən ciddi nöqsanlar da iqtisadi böhranın dərinləşməsinə zəmin yaradan əsas amillərdən biri kimi qiymətləndirilməlidir. Əslində 1993-cü ilə qədərki dövrdə bu sahədə aparılan işləri heç pul-kredit siyasəti adlandırmaq da düzgün olmazdı. Bu, daha çox bank rəhbərlərinin arzu və istəyi naminə həyata keçirilən və heç kim tərəfindən ciddi nəzarət edilməyən, "kredit alverinə" və "şapkaya" şərait yaradan inzibati və pərakəndə tədbirlər toplusundan ibarət idi.

İqtisadi tənəzzül və vergi sistemindəki çatışmazlıqlar ÜDM-də dövlət büdcəsi gəlirinin xüsusi çəkisinin 1992-ci ildəki 32 faizdən 1993-cü ildə 23 faizə qədər azalmasına gətirib çıxardı. Bu müddətdə əlavə dəyər vergisinin ÜDM-ə nisbəti 10 faizdən 7 faizə enmişdir.

Maliyyə-vergi və pul-kredit siyasətində yol verilən ciddi nöqsanlar, uzun müddət səmərəsiz kredit siyasəti yeridilməsi, təyinatsız və nəzarətsiz kreditin istifadəsi son nəticədə kredit resurslarının qiymətdən düşməsinə, inflyasiyanın artmasına və pulun emissiyasına səbəb olmuşdu. Respublikada bölgü sistemində olan hərc-mərclik maliyyə-valyuta hesablarının pozulmasına və əhalinin yığım vəsaitinin dağılmasına gətirib çıxarmışdı.

Bütün bunlar bir də ona görə mümkün olmuşdur ki, bazar iqtisadiyyatına keçid əvvəlki iqtidarlar tərəfindən tənzimlənməmiş və nəticədə bazar münasibətləri istehsal münasibətləri prinsipləri əsasında qurulmamış, tədavül vasitəsi ilə həyata keçirilmişdi ki, bu da ölkədə ağır maliyyə vəziyyəti yaratmışdı.

Son illər, xüsusən 1988-1989-cu illərdən sonra Azərbaycan iqtisadiyyatında tənəzzülün digər səbəblərindən biri də o idi ki, idarəetmə səviyyəsi aşağı düşmüşdü, respublikada nizam-intizam pozulmuşdu, özbaşınalıq idi, buna görə də böyük sənaye potensialı, kənd təsərrüfatı potensialı, inşaat potensialı inkişaf etmək əvəzinə, tənəzzülə uğramağa başlamışdı.

1991-1993-cü illəri hamımız xatırlayırıq; əslində heç bir idarəetmə yox idi, iqtisadiyyatda hərc-mərclik hökm sürür, bir-birinə zidd qərarlar qəbul edilməsi xalqın sərvətinin dağıdılmasına və israfçılığa əlverişli şərait yaradırdı. Həmin illərdə bazar münasibətlərinə keçilməsinin zəruriliyinə baxmayaraq heç bir iqtisadi islahat aparılmırdı.

Nəticədə ÜDM-in real həcmi 1990-cı illə müqayisədə iki dəfə azalmış, sənaye istehsalı 63 faiz, kənd təsərrüfatı istehsalı 47 faiz aşağı düşmüş, sürətli inflyasiya prosesi nəticəsində əhalinin həyat səviyyəsi 3,6 dəfə aşağı enmişdi.

Bunlarla yanaşı, mövcud imkanlardan lazımınca istifadə edilmədiyinə görə iqtisadiyyatda irəliləyiş əvəzinə, aybaay geriləmə müşahidə olunurdu.

1994-cü il avqustun 11-də Prezident sarayında respublika

iqtisadiyyatının vəziyyətinə həsr olunmuş geniş müşavirədə Heydər Əliyev idarəetmədəki nöqsanlardan danışarkən demişdir: "Həyatımızda, iqtisadiyyatda davam edən dəyişikliklər prosesi şübhəsiz ki, iqtisadiyyatın yeni formalarının tətbiq olunmasını tələb edir və biz bu yolla gedirik. İqtisadiyyatımızın əksər hissəsində hələ ki, iqtisadi münasibətlər, idarəetmə formaları əvvəlki kimi qalmaqdadır. Hələ ki, keçmiş metodlardan, üsullardan istifadə edirik..."[1].

1993-cü ilin ikinci yarısından başlayaraq həyata keçirilən ardıcıl tədbirlər nəticəsində Azərbaycan Respublikasında vətəndaş müharibəsi və ölkənin parçalanması təhlükəsinin qarşısı alınmış, Ermənistanın Azərbaycan Respublikasına hərbi təcavüzü ilə əlaqədar gedən döyüşlərin dayandırılması haqqında 1994-cü ilin may ayında saziş imzalanmış, 1994-cü və 1995-ci illərdə dövlət çevrilişinə və terror aktlarına cəhdlər zərərsizləşdirilmişdir. Bu tədbirlər Azərbaycanın ictimai-siyasi həyatında sabitlik yaratmağa imkan vermişdir.

Eyni zamanda, fəal həyata keçirilən xarici siyasət beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun yüksəlməsinə, bir çox dövlətlərlə yüksək səviyyədə əlaqələrin qurulmasına, ölkənin siyasi imicinin dəyişməsinə səbəb olmuş və onun xarici iqtisadi əlaqələrinin genişlənməsinə, iqtisadiyyata güclü investisiya axınının cəlb olunmasına zəmin yaratmışdır. Bazar iqtisadiyyatı istiqamətində atılan addımlar Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrini möhkəmləndirmiş, onların ölkəmizə maliyyə maraqlarını artırmışdır.

---

[1] *Heydər Əliyev* «Müstəqilliyimiz əbədidir», c. 2, səh. 112.

Ölkədə bazar münasibətlərinin təşəkkülü və səmərəli təsərrüfat sistemini formalaşdırmaq üçün vacib qanunların və digər normativ sənədlərin qəbul olunması, qiymətlərin, xarici ticarətin, valyuta ehtiyatlarından istifadənin liberallaşdırılması sahəsində atılan radikal addımlar inflyasiyanın səviyyəsini əhəmiyyətli dərəcədə aşağı salmış, büdcə kəsirini minimuma endirmişdir. Qeyd olunan amillərin təsiri nəticəsində tənəzzülün dərinləşməsi dayandırılmış və müəyyən sabitlik əldə edilmişdir.

Bağlanmış neft sazişləri artıq özünün müsbət nəticələrini verməkdədir. Azərbaycana xarici investisiya axını, iqtisadiyyatın müxtəlif sahələrində birgə fəaliyyət göstərmək istəyən firmaların sayı gündən-günə artmaqdadır.

"Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı"nın, "Aqrar islahatın əsasları haqqında" və "Sovxoz və kolxozların islahatı haqqında" Azərbaycan Respublikası qanunlarının həyata keçirilməsi prosesinə başlanması ölkədə iqtisadi islahatların dərinləşdirilməsinə və yeni təsərrüfat münasibətlərinin formalaşmasına təkan vermişdir.

"Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ölkədə mülkiyyət islahatları aparmaq imkanlarını xeyli genişləndirmiş, adamların torpağa bağlılığının güclənməsinə, ondan səmərəli istifadə olunmasına şərait yaratmışdır.

Heydər Əliyevin rəhbərliyi altında ölkədə aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində 90-cı illərin əvvəllə-

rində iqtisadiyyatda xroniki hal almış geriləmə prosesinin qarşısı alınmış, Azərbaycanın iqtisadi inkişafında yeni mərhələnin möhkəm təməli qoyulmuşdur.

Bütün bunlar isə 1997-ci ilin Azərbaycan üçün iqtisadi dirçəliş ili olmasına zəmin yaratmışdır.

## 3.2. Heydər Əliyevin dövlət quruculuğu strategiyası və iqtisadi inkişaf konsepsiyası

1993-cü ilin səksəkəli yayında Heydər Əliyevin Vətəni sevən hər bir azərbaycanlının ürəyində ümid çırağı yandıran "biz Azərbaycanı bu vəziyyətdən çıxarmağa qadirik"[1] sözlərini bütün xalq bir çağırış kimi qəbul etdi.

Öz xalqından güc alan və eyni zamanda xalqında onun gələcəyinə inam yaradan Heydər Əliyev bütün qüvvəsini Azərbaycanı ağır vəziyyətdən çıxarmağa və sabitlik yaratmağa sərf edəcəyi barədə 1993-cü il avqustun 23-də Bakıda ümumrespublika müşavirəsində etdiyi çıxışın və onun real nəticələrinin müstəqil Azərbaycan Respublikası üçün əhəmiyyətini nəinki hər bir qeyrətli vətəndaşımız, dostlarımız qiymətləndirdi, hətta açıq və gizli düşmənlərimiz belə bunu etiraf etməyə məcbur oldu.

Heydər Əliyevin dövlət quruculuğu strategiyasının ana

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 115-116.

xəttini təşkil edən cəmiyyətin demokratikləşdirilməsi artıq müstəqil Azərbaycan Respublikasını bütün dünyada tanıtmış və ölkəmizin dünya birliyində öz layiqli yerini tutması üçün möhkəm zəmin yaratmışdır.

Hələ dörd il bundan öncə, 1994-cü il iyunun 21-də Prezident sarayında respublika iqtisadiyyatının və həyatının digər sahələrinin cari məsələlərinə həsr olunmuş müşavirədə Heydər Əliyev öz yekun sözündə demişdi: "Biz respublikamızda hüquqi-demokratik dövlət qurmaq yolu ilə gedirik. Bu, dövlət quruculuğunda, siyasi sahədə strateji yolumuzdur. Bununla çox sıx əlaqədə ikinci sahə iqtisadiyyatın demokratik yollarla idarə edilməsidir, yəni iqtisadiyatda demokratik islahatlar aparılması, bazar iqtisadiyyatı yoludur. Bütün bunlar kompleks şəkildə respublikamızı gələcəyə aparan yollar, istiqamətlərdir"[1].

Az bir müddət içərisində Azərbaycanda demokratik prinsiplərin bərqərar olması, qayda-qanunun daha etibarlı qorunması təmin edilməklə hərc - mərcliyə və özbaşnalığa son qoyulması bütün dünyanı heyrətə salmışdır.

Belə bir cəhət də xüsusi qeyd olunmalıdır ki, respublikamızın dövlət quruculuğunda demokratik prinsiplərin məntiqi tətbiqi nəinki ictimai-siyasi mühiti saflaşdırmış, həm də iqtisadi sabitlik yaradılmasına gətirib çıxarmışdır.

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasının Heydər Əliyev tərəfindən düzgün seçildiyini

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 2, səh. 29.

artıq 1996-cı ildə müşahidə olunan iqtisadi sabitlik və 1997-ci ilin birinci yarısında sosial-iqtisadi inkişafın yekunlarının müsbət nəticələri sübut edir. İqtisadi dirçəlişə belə qısa müddətdə nail olmaqda iqtisadi amillərin rolu olsa da, subyektiv amilin təsiri daha böyükdür. Beləliklə, "iqtisadi inkişaf şəxslərdən asılı olmamalıdır" tezisi heç də həmişə özünü doğrultmur.

Azərbaycanın sərbəst iqtisadiyyat yolunu tutmasını dünyaya bəyan edən Heydər Əliyevin böyüklüyü ondadır ki, o, bu yolda obyektiv çətinliklər olacağını bilsə də, müstəqilliyi həmişə uca tutur, hər hansı bir dövlətin tərkibində, himayəsi altında yaşamağı və ya formal müstəqilliyi rədd edir.

Müstəqil Azərbaycan dövlətçiliyi üçün çətin sınaq dövrü olan 1994-cü ilin payızında BMT Baş Məclisinin 49-cu sessiyasında çıxış edən Prezident bütün dünyaya bəyan etdi ki,ölkəmizdə demokratik islahatlara, bazar islahatlarına yönəldilmiş strategiya həyata keçirilir və heç kəs Azərbaycan xalqını tutduğu yoldan geri çəkilməyə məcbur edə bilməz!

Heydər Əliyev iqtisadi platformasında iqtisadi islahatlar dedikdə, Azərbaycan iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə aparmaq, özəl bölmənin fəaliyyətini genişləndirmək və özəlləşdirməni həyata keçirmək, sahibkarlığa, təşəbbüskarlığa geniş imkanlar yaratmaq, ölkə iqtisadiyyatını dünyanın inkişaf etmiş ölkələrinin iqtisadi sistemi əsasında qurmaq və dünya iqtisadiyyatına inteqrasiya nəzərdə tutulur.

Heydər Əliyevin iqtisadi islahatlara olan münasibətinin

dəyişməzliyini onun ayrı-ayrı vaxtlarda dediyi iki sitatla göstərmək olar: "Bizim xalq təsərrüfatının dirçəlişini mən bazar münasibətlərində görürəm"[1] (Yazıçı Aleksandr Proxanovla "Azərbaycan" qəzetinin 1993-cü il 12 avqust tarixli nömrəsində dərc olunmuş müsahibə) və "Prezident kimi bəyan edirəm ki, mən iqtisadi islahatların keçirilməsinin, özəlləşdirmə aparılmasının, sahibkarlığın inkişaf etdirilməsinin təminatçısı kimi çıxış edirəm"[2] (Prezident sarayında respublikanın kənd təsərrüfatında aparılan islahatların vəziyyətinə həsr olunmuş 1994-cü il 5 noyabr tarixli müşavirədə yekun sözü).

İqtisadi islahatların zəruriliyindən bəhs edən Heydər Əliyev tarixi faktlara əsaslanmaqla öz qəti fikrini belə əsaslandırır: "...sosializm quruluşunun ən yüksək bəhrələrini görmüşük. Onun verdiyi bəhrələri heç kəs, heç vaxt inkar edə bilməz. Xüsusən bizim respublikamızda. Lakin o quruluş, iqtisadi sistem özünün son həddinə gəlib çatmışdı. Buna görə də onun sonrakı inkişafı mümkün olmadı, iqtisadiyyat, ümumiyyətlə inkişaf dayandı və geriləmə prosesi başlandı. Təsadüfi deyildi ki, 1980-1985-ci illərdə yeni yollar axtarmağa başladılar. Bu da yeganə bir yola gətirib çıxardı: iqtisadi islahatlar aparmalı, bazar iqtisadiyyatı yolu ilə getməli, bazar iqtisadiyyatı prinsiplərini tətbiq etməli"[3].

Heydər Əliyev idarəetmənin sosialist inzibati-amirlik sistemindən, sosialist iqtisadiyyatından bazar münasibətlə-

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 61.
[2] Yenə orada, c. 2, səh. 500.
[3] Yenə orada, c. 2, səh. 115.

rinə, inkişafın bazar qanunlarına, azad sahibkarlığa əsaslanan iqtisadiyyata keçməyin nə demək olduğunu dərindən dərk edir. Ancaq bütün bu mürəkkəbliklərinə, çətinliklərinə baxmayaraq, dünya üçün təbii proses olduğuna görə, bu yolun labüdlüyünü daim aşılayır. O qeyd edir ki, bu yol xalqımızın da, dövlətimizin də mənafeyinə və istəyinə tamamilə uyğundur. Yəni müstəqil dövlət kimi, Azərbaycan gələcəkdə də bərabər hüquqlu, qarşılıqlı surətdə faydalı iqtisadi və siyasi münasibətlər əsasında dünya birliyinin fəal iştirakçısı olmağı nəzərdə tutaraq, öz müstəqilliyini daha da möhkəmləndirmək və inkişaf etdirmək yolu ilə gedir. Eyni zamanda xarici investorların, dünya maliyyə mərkəzlərinin, transmilli korporasiyaların, xarici şirkətlərin imkanlarından istifadə edilməklə iqtisadiyyatı bazar prinsipləri zəminində yenidən quraraq, iqtisadi yüksəlişə böyük təkan vermək üçün tədbirlər görülür.

İqtisadi islahatlarda Heydər Əliyevin dönməz mövqeyini onun 1997-ci il iyulun 19-da keçirilmiş respublika müşavirəsində söylədiyi fikir çox bariz nümayiş etdirir: "...bazar iqtisadiyyatı sistemi ilə gedərkən keçmiş sosialist iqtisadiyyatının ünsürlərini yanaşı aparmaq olmaz. Müəyyən müddət bunlar yan-yana gedə bilərlər. Müəyyən müddət. Ancaq bu müəyyən keçid dövrü ola bilər. Əgər biz istəyiriksə artıq irəliyə gedək, bu olmaz"[1].

Bazar iqtisadiyyatına keçiddə itkilər və çətinliklər ola biləcəyini, bu yolun hamar olmamasını daim göstərən

---

[1] «Azərbaycan» qəzeti, 23 iyul 1997-ci il.

Heydər Əliyev bu sahədə ayrı-ayrı şəxslər tərəfindən irəli sürülən cürbəcür bəhanələri qətiyyətlə rədd edir.

Məlumdur ki, iqtisadi islahatların hazırlanması, keçirilməsi sahəsində də respublikada müxtəlif fikirlər olmuşdur. Bəziləri çox mühafizəkar mövqedə idilər ki, müharibə gedən ölkədə, bir milyona qədər qaçqın olan ölkədə heç bir islahat keçirmək olmaz, biz gərək müharibəni qurtaraq, işğal edilmiş torpaqları azad edək, ondan sonra islahatlar keçirək. Digərləri isə hesab edirdilər ki, hər şeyi dağıtmaq, hər şeyi pozmaq lazımdır, onda bu islahatları keçirmək olar. Şübhəsiz ki, bu fikirlərin heç biri Azərbaycanın mənafeyinə uyğun deyildi.

Bu barədə Heydər Əliyev 1997-ci ilin aprelində ölkəmizdə iqtisadi islahatların gedişinə həsr olunmuş müşavirədə daha ətraflı danışaraq demişdir:

"Keçən illərdə bəziləri hesab edirdilər ki, Ermənistanla hərbi münaqişə mövcud olduğu, ölkəmizin ərazisinin bir qismi işğal altında olduğu, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan didərgin düşüb köçgün vəziyyətində, ağır şəraitdə yaşadığı bir halda respublikamızda islahatlar keçirilməsi mümkün deyil, yaxud ümumiyyətlə, lazım deyil. Digərləri isə çox böyük "qəhrəmanlıqlar" göstərmək istəyirdilər. Onlar deyirdilər ki, nəyin bahasına, necə olur-olsun, islahatları tezliklə keçirmək, indiyədək dağılmayanları da dağıtmaq lazımdır, hər şey dağılmalıdır. Onlar belə hesab edirdilər ki, həmin dağılanların yerində guya, yeni bir möcüzə əmələ gələcəkdir...

...Biz isə nə o cür, nə də başqa cür mənfi fikirlərin təsiri altına düşmədik. İşimizi planlı, təmkinli, düşüncəli aparmaqla

məşğul olduq. Qanunlar da qəbul etdik, fərmanlar da, sərəncamlar da verildi, başqa hüquqi sənədlər də yarandı. İndi onlar əməli surətdə həyata keçirilir. Bunlar onu göstərir ki, bizim strateji yolumuz düzdür, doğrudur. Yəni respublikanın iqtisadiyyatı bazar iqtisadiyyatı yolu ilə inkişaf etməlidir, xüsusi mülkiyyət yaranmalıdır. Bunun üçün iqtisadi islahatlar ardıcıl surətdə həyata keçirilməlidir, sahibkarlıq, təşəbbüskarlıq yaranmalıdır və inkişaf etməlidir.

Bu gün tam qətiyyətlə demək olar ki, biz bundan sonra da bu yolla gedəcəyik...

Keçmiş zamanlarda da qanundan, yaxud məntiqdən kənar fikirlər, - ona ifratçılıq deyirlər, - zərər veribdir. Bunlara indi də yol vermək olmaz. Hər işi təmkinlə, ağıllı görmək lazımdır. Respublikanın mövcud sərvətlərini qoruyub saxlamaq, dağıntının qarşısını almaq, dağıntıya yol verməmək, ölkənin mülkiyyətini qoruyub saxlamaq yolu ilə islahatları həyata keçirib, dövlət mülkiyyətini xalqın, vətəndaşların mülkiyyətinə çevirmək lazımdır. Bu prosesdə dağıntının, özbaşınalığın qarşısı alınmalıdır.

İndiyədək çox dağılıbdır. Xüsusən 1990-cı ildən bəri respublikamızda hərə bir tərəfdən dağıdıbdır. Bu dağıntıların, qanunsuzluqların, özbaşınalığın, hərc-mərcliyin nəticəsində bəziləri həddindən artıq zənginləşib, bəziləri isə həddindən artıq kasıblaşıb, müflisləşib və respublikanın iqtisadiyyatına böyük zərbələr vurulubdur"[1].

---

[1] «Azərbaycan» qəzeti, 18 aprel 1997-ci il.

Bazar iqtisadiyyatına keçilməsinə və bütövlükdə iqtisadi islahatların aparılmasına dair mövcud yanlış fikirlərə və bunların doğurduğu nəticələrə qarşı barışmazlıq Heydər Əliyevin iqtisadi baxışlarında mühüm yer tutur.

O hələ 1994-cü il mayın 20-də keçirdiyi müşavirədəki yekun sözündə demişdir: "Bazar iqtisadiyyatı nədir? Məsələn, indi deyirlər ki, Azərbaycanda firmalar, assosiasiyalar, banklar, daha nə bilim nələr var. Bəli, var. Amma bunların əksəriyyəti, təkrar edirəm, əksəriyyəti Azərbaycanın iqtisadiyyatına heç bir xeyir verməyibdir. Mən bunu tam cəsarətlə deyirəm. Bunların əksəriyyəti ayrı-ayrı adamların varlanmasına gətirib çıxarmışdır. Əgər onların iqtisadiyyata xeyri dəysəydi, bu müddətdə yeni-yeni müəssisələr tikilərdi. Bəlkə də bir neçəsi olub. Amma bazar iqtisadiyyatı yolu ilə son illərdə Azərbaycanda kapital qoyuluşu olmayıb, olubsa da, təəssüf ki, çox az miqdarda olub"[1].

Təəssüf ki, islahatların həyata keçirilməsinə cavabdeh olan şəxslər Prezidentin tamamilə düzgün və qətiyyətli xəttini heç də həmişə müdafiə etməmiş, əksinə, müxtəlif bəhanələrlə islahatları ləngitməyə, ölkədəki ictimai-siyasi mühiti pisləşdirməyə can atmışlar. Bu mənada, o, "Delovoy mir" qəzetinin müxbirinə verdiyi, qəzetin 1994-cü il 20 sentyabr tarixli nömrəsində dərc olunmuş müsahibədə sabiq baş nazir Surət Hüseynovun islahatlara münasibətindən bəhs edərək demişdi: "O, islahatların keçirilməsi mövqeyində dayanmır. Bundan əlavə, o, daha çox komanda-inzibatçılıq

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 574.

sisteminin təsdiqi mövqeyində durur. Əslində o, islahatların həyata keçirilməsinin əleyhinədir"[1]. Halbuki hələ bundan xeyli əvvəl ölkə Prezidenti bəyan etmişdi: "Dəfələrlə qeyd etdiyimiz kimi, müstəqil Azərbaycan dövlətinin iqtisadiyyat sahəsində strateji yolu, strateji xətti bundan ibarətdir ki, bizdə mülkiyyət forması tədricən dəyişdirilməli, iqtisadiyyatımız bazar iqtisadiyyatı əsasında qurulmalı, təşəbbüskarlığa geniş meydan verilməlidir. Məhz bu, iqtisadiyyatımızın strateji yoludur. Mən dəfələrlə demişəm, bu gün bir daha deməyə məcburam, ona görə ki, bəzən orda-burda danışırlar ki, yox, biz bu yolla getməyəcəyik, guya biz inzibati-amirlik yolu ilə gedəcəyik, dövlət müəssisələrinin dövlətin tabeliyində qalmasını təmin edəcəyik və beləliklə də iqtisadiyyatı inkişaf etdirəcəyik"[2].

Eyni zamanda Heydər Əliyev yalançı islahat tərəfdarlarını da iqtisadiyyat üçün zərərli ünsürlər hesab edərək, onlara qarşı barışmaz olmuş, öz güc və imkanlarını dövlət müəssisələri nəzdində yaradılan kiçik müəssisələrin fəaliyyətinə yönəldərək dövlət müəssisələrinin özlərinə diqqətsizlik göstərən rəhbərləri dəfələrlə tənqid etmişdir.

Heydər Əliyev belə bir fikri daim aşılamışdır ki, iqtisadi islahat keçirilməsi şüarçılıqla bir araya sığmır.

1997-ci il iyulun 19-da keçirilən müşavirədəki yekun nitqində Prezident demişdir: "... kollektivləşmə zamanı - 20-ci illərin sonunda, 30-cu illərin əvvəllərində böyük

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 2, səh. 206.

[2] Yenə orada, səh. 115.

səhvlər, böyük cinayətlər etmişdilər. Həm insanlara çox böyük zərbələr vurulmuşdu, həm də iqtisadiyyata zərbələr dəymişdi. 30-cu illərin o aclıqları, insanların qırılması - hamısı onun nəticəsi olmuşdur ki, o vaxtlar kənd təsərrüfatını zorla kollektivləşdirmək istəmişdilər. Şübhəsiz ki, əsrlər boyu mövcud olan istehsal sistemi pozulmuşdu, şəxsi mülkiyyət pozulmuşdu, adamların bir qismi buna etiraz etmiş, bir qismi çəkilmiş, bir qismi bu yeni formalara alışmamışdı. Buna görə də o vaxtlar Sovet İttifaqı, o cümlədən Azərbaycan da nə qədər ağır bir dövr yaşadı. Bunların hamısını biz tarixdən bilə-bilə, indi bir ilin içərisində , yarım ilin içərisində vur-dağıt kolxozları ki, kim nəyi aparır-aparsın, nə eləyir-eləsin, - olarmı bu? Qətiyyən olmaz"[1].

İqtisadi islahatların keçirilməsi müddətinə real münasibət Heydər Əliyevin aşağıdakı sözləri ilə təsdiqlənir: "Aydındır, bunu sübut etməyə ehtiyac yoxdur ki, iqtisadi islahatların həyata keçirilməsi asan məsələ deyildir. Kim isə hesab edir ki, iqtisadi islahatları bir günə, iki günə, bir aya, iki aya, üç aya həyata keçirmək, ondan istədiyimiz nəticəni əldə etmək olar. Şübhəsiz ki, bu səhv fikirdir. İqtisadi islahatlar keçirmiş ölkələrin təcrübəsi də bunu sübut edir. Əvvələn, bu təcrübə iqtisadi islahatların həyata keçirilməsinin necə çətin olduğunu, ikincisi, onun nə qədər vaxt tələb etdiyini göstərir. Üçüncüsü isə bu islahatların aparılması dövründə müsbət nəticə alana qədər nə qədər yeni çətinliklərin meydana çıxdığını göstərir. Biz bunların hamı-

---

[1] «Azərbaycan» qəzeti, 23 iyul 1997-ci il.

sını nəzərə almalıyıq. İllüziya yaratmalı deyilik ki, guya iqtisadi islahatlar keçirən kimi hər bir şeyə nail olacağıq. Ancaq eyni zamanda bu çətinliklər bizi qorxutmamalıdır. Çünki nə qədər qorxsaq, o qədər də yerimizdə dayanacağıq, quyunun o qədər də dərinliyinə düşəcəyik"[1].

Heydər Əliyev islahatın islahat xatirinə aparılmasının həmişə əleyhinə olub. İslahatlar keçirildiyi bir dövrdə mövcud iqtisadi strukturların və inzibati-amirlik metodlarının olduğu kimi saxlanması Heydər Əliyevin iqtisadi baxışında yolverilməz hesab edilir.

Əksinə, o, iqtisadi islahatlar həyata keçirilərkən iqtisadi qanunların və dünya təcrübəsinin əsas götürülməsini, islahatların sistemli, kompleks aparılmasını və sosial yönümlü olmasını zəruri hesab edir.

Məlumdur ki, dünya iqtisadiyyatında bazar iqtisadiyyatına keçidin 2 əsas yolu mövcuddur: liberal-monetarist və sosial təmayüllü modellər.

Liberal-monetarist doktrinasına əsaslanan keçid modelində xüsusi mülkiyyətin şəriksiz, mütləq hökmranlığı, işgüzarlığın tam azadlığı, keçid dövründə əhalinin minimal sosial təminatı nəzərdə tutulur.

İkinci variant isə bazar mexanizmlərinə əsaslanan qarışıq, səmərəli iqtisadiyyata keçilməsini nəzərdə tutur. Dövlətin keçid dövründə güclü tənzimləmə roluna üstünlük verilir, mülkiyyət formaları - xüsusi və dövlət mülkiyyəti formaları

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 2, səh. 489

bir-birini tamamlayır, onların hüquqlarının bərabərliyi qəbul edilir. Dövlət əhalinin gəlirləri, məşğuliyyət, səhiyyə, təhsil, mədəniyyət və iqtisadiyyatın sosial müdafiəsi zəif olan digər sahələrində güclü sosial təminat siyasətini yeridir.

Milli iqtisadiyyatımızın mövcud vəziyyəti və potensial imkanları, respublikadakı sosial-ictimai durum, əhalinin həyat səviyyəsi göstərir ki, sosial təmayüllü bazar iqtisadiyyatına keçid daha məqsədəuyğundur. Plan iqtisadiyyatının uzun illər fəaliyyəti nəticəsində formalaşmış, rəqabəti inkar edən inhisarçı strukturlu istehsal sistemi, xammal bazarından asılı olan, getdikcə istehsalı tənəzzülə uğrayan, acınacaqlı həyat şəraiti, müharibə və qaçqınlar problemini həll edən respublikada liberal model müvəffəqiyyət qazana bilməz.

Heydər Əliyevin iqtisadi konsepsiyasına əsasən islahatların üç mərhələdə həyata keçirilməsi daha məqsədəuyğundur; birinci mərhələdə güclü dövlət tənzimlənməsi ilə böhrandan çıxmaq, ikinci mərhələdə iqtisadiyyatın sabitliyini təmin etmək, üçüncü mərhələdə isə iqtisadiyyatın dirçəlişinə və yüksək xətlə inkişafına nail olmaq lazımdır.

Hər bir mərhələyə uyğun olaraq son illərdə məqsədli kompleks proqramlar işlənmiş, onların həyata keçirilmə müddətləri müəyyən edilmişdir. Kompleks proqramların məqsədi - minimum itkilərlə və sosial çaxnaşmalarsız böhrandan çıxmaq, cari tədbirlərdən perspektiv tədbirlərə keçməkdir. Birinci mərhələni, xalq üçün ağır olduğu üçün, mümkün qədər sürətlə həyata keçirmək nəzərdə tutulurdu.

Respublika Prezidentinin rəhbərliyi ilə reallaşdırılan

iqtisadiyyatda sosial təmayüllü bazar iqtisadiyyatına keçid dövlətin optimal tənzimləmə roluna əsaslanır.

Avropa dövlətlərinin iqtisadi tarixindən fərqli olaraq, Şərqdə iqtisadi quruculuq siyasətində dövlətin tənzimləyici roluna həmişə üstünlük verilmişdir. Avropa dövlətlərindən Fransa, İsveçrə və digər ölkələr Şərq üsulunu mənimsəyərək qabaqcıl iqtisadi sistem yarada bilmişlər.

Heydər Əliyev ərazi və sahələrarası baxımdan tarazlaşdırılmış iqtisadiyyatın yaradılmasını hələ 70-80-ci illərdə - milli iqtisadiyyatımızın yaradılması dövründə olduğu kimi, indi də mühüm sayır.

Onun fikrincə, vacib məsələlərdən biri nəyi prioritet hesab etməyimizdən, nələrə üstünlük verməyimizdən ibarətdir. Bu gün iqtisadiyyatın bütün sahələrinə dövlət himayəsi əslində mümkün deyil və bu məqsədəuyğun da deyildir. Dövlət müxtəlif mülkiyyət və təsərrüfat formalarına bərabər rəqabət mühiti formalaşdırmaqla yanaşı, respublikanın cari vəziyyəti və perspektivi üçün son dərəcə əhəmiyyətli olan iqtisadiyyatın üstün sahələrini müəyyənləşdirməli və onları himayə etməlidir. O, haqlı olaraq bu fikirdədir ki, üstün sahələrin düzgün müəyyən edilməsindən Azərbaycanın dövlətçiliyi, iqtisadi müstəqilliyi, suverenliyi çox asılıdır.

Mövcud iqtisadi və siyasi durum göstərir ki, eyni zamanda istehsalın aşağı düşməsinin qarşısını almaq və bütün sahələrin dirçəlişini təmin etmək qeyri-mümkündür. Burada elə sahələrə üstünlük verilməlidir ki, onların sonrakı tənəzzülü yolverilməzdir. Bu ilk növbədə elə sahələrdir ki, onlar

əhalinin inflyasiya nəticəsində pisləşmiş güzəranının bərpasına, inflyasiyanın təsirindən heçə endirilmiş gəlirlərin kompensasiyasına və inflyasiyanın azalmasına təsir göstərəcəkdir. Bu isə iqtisadiyyatın istehlak malları istehsal edən sahələridir. Digər öncül sahələr olaraq yanacaq-energetika, maşınqayırma və kənd təsərrüfatı komplekslərinə üstünlük verilməlidir. Beləliklə, sahələrin məhdudlaşdırılması maliyyə-kredit ehtiyatlarından qənaətlə istifadəyə, onlarla daha çevik manevrlər etməyə imkan verəcəkdir.

İqtisadi inkişaf sahəsində neft amilinin aparıcı rolu təmin olunmaqla, digər təbii ehtiyatlardan səmərəli istifadə edilməsi bir daha göstərir ki, ölkənin inkişafı üçün sistemli bir proqram mövcuddur. Buna görə Prezidentin ikinci sistemli addımı - neftlə birlikdə ölkənin digər təbii ehtiyatlarının iqtisadi inkişafa xidməti strategiyası həyata keçirildi: ölkənin qızıl, mis və gümüş ehtiyatlarının xarici investorlarla birlikdə istismarı haqqında qərar verildi. Beləliklə, makroiqtisadi sabitliyin dayanıqlığı üçün neftdən başqa, ölkənin digər qiymətli təbii sərvətlərindən səmərəli istifadə olunması zərurəti meydana gəldi.

Qeyd edək ki, iqtisadi inkişafın bu amillərinin Azərbaycanda çoxdan mövcud olmasına baxmayaraq, bəzi obyektiv və subyektiv səbəblərə görə onlardan •iqtisadi inkişaf üçün maksimum istifadə edilməsinə müəyyən məhdudiyyətlər qoyulurdu. Bu amillərdən ağıllı istifadə edərək ölkə iqtisadiyyatının inkişafına təkan verəcək şəxsiyyət yox idi. Siyasi aləmə Heydər Əliyevin gəlişi isə bu problemin həlli üçün böyük imkanlar açdı. Beləliklə, Azərbaycan

iqtisadiyyatının inkişafının əsas hərəkətverici qüvvəsi - Heydər Əliyev fenomeni bu amilləri səfərbər edib ölkəni iqtisadi tənəzzüldən çıxarmaq və iqtisadi inkişafa nail olmaq iqtidarındadır.

Azərbaycanda aparılan investisiya siyasəti spesefik xüsusiyyətlərə malikdir. Bunun mahiyyəti ondan ibarətdir ki, xarici investisiyaların cəlb olunmasında səmərəli iqtisadi mühitin yaradılmasından başqa, həm də Heydər Əliyevin dünya şöhrətinin böyük rolu olmuşdur. Belə yanaşma investisiyaların təkanverici qüvvəsini artırmaqla, onlardan iqtisadi səmərənin əldə olunması müddətini yaxınlaşdırır. Beləliklə, iqtisadiyyatda istifadə edilən multiplikator effekti belə investisiya siyasəti nəticəsində öz təsirini dəfələrlə artırmağa qadirdir. Bu multiplikator effektini Heydər Əliyev islahatlarının multiplikatoru adlandıraq.

Multiplikator aşağıdakı münasibəti əks etdirir:

$$M = \frac{Sosial - iqtisadi\ inkişafın\ artım\ sürəti - ÜDM}{İnvestisiyaların\ artım\ sürəti - Kapital} \times H$$

Burada $H$ - siyasi və iqtisadi intellektin sosial-iqtisadi inkişafa etdiyi təsir əmsalıdır və Heydər Əliyev iqtisadi islahatlarının multiplikator effektinə təsirini əks etdirir.

Beləliklə, Heydər Əliyev islahatları dünya təcrübəsində müşahidə etdiyimiz bütün proqramlardan əsas bir əlaməti ilə fərqlənir: onun islahatlar keçirdiyi ölkə dörd bir tərəfdən blokada, müharibə və sosial sarsıntılar (qaçqınlar problemi) içərisində olmasına baxmayaraq, Azərbaycanı 1993-cü ildən

1997-ci ilin iqtisadi artımına ardıcıl siyasi və iqtisadi addımlar həyata keçirməklə gətirmişdir.

Belə ki, 1993-cü ildə ölkədə sosial-siyasi vəziyyətin ağır olmasına baxmayaraq, Prezident tərəfindən nəticəsi sonra bilinəcək tədbirlər görülməyə başlandı. Həmin il iqtisadiyyata investisiya qoyuluşunun azalma sürətində dəyişikliklər yarandı (azalma 40,3 faizdən 39,1 faizə qədər endirildi). İnvestisiya qoyuluşunun azalma sürəti səngisə də, hələlik ÜDM-in artım sürətinə təsir edəcək qüvvədə deyildi. Digər tərəfdən, ÜDM-in azalma sürəti o qədər də çox olmamışdı və əvvəlki ildəki 22,6 faizə nisbətən həmin il 23,1 faiz azalma müşahidə olunmuşdur. İlk baxışda əhəmiyyətsiz görünən belə cüzi dəyişikliklər gələcək artımın rüşeymləri idi və bunu nə o zamankı baş nazir S.Hüseynov, nə də onun ətrafındakı digər nadanlar başa düşürdü.

Tənəzzülün sürətini aşağı salmaq üçün Prezident böyük səy göstərmiş və nəticədə ölkə iqtisadiyyatına 1994-cü ildə əvvəlki ildəkinə nisbətən 1,89 dəfə çox investisiya cəlb edilmişdir ki, bunun da 48 faizi xarici investisiyalar olmuşdur. Beləliklə, iqtisadi artıma səbəb ancaq 1996-cı ilin tədbirləri olmamışdır. Bu artımın yaranmasında 1994-cü ildəki tədbirlərin də özünəməxsus rolu var idi. O zamankı kapital qoyuluşunun səmərəsi ancaq 1996-cı ildə müşahidə olunmuş, 1997-ci ilin birinci yarısında isə güclənərək 5,2 faiz artıma gətirib çıxarmışdır. 1994-cü ilin tədbirləri nəticəsində iqtisadiyyatda multiplikator effektinin təsir mexanizmi dirçəldi və ÜDM-də artım üçün şərait

yaradıldı. 1995-ci ildə kapital qoyuluşu ancaq daxili imkanlar hesabına həyata keçirilsə də, 1994-cü ilin xarici investisiyaları öz işini gördü. 1995-ci ildə ÜDM-in azalma sürəti kəskin aşağı düşdü və əvvəlki ildəki 19,7 faizə nisbətən 12 faiz oldu. Beləliklə, tənəzzülün qarşısı alındı və artımı sürətləndirmək üçün 1996-cı ildə yenidən xarici investisiyalara müraciət olundu - investisiyaların həcmi 2,11 dəfə artırıldı ki, bunun da 45 faizini xarici investisiyalar təşkil edirdi. İnvestisiyaların artım sürətinin belə dəyişməsi iqtisadiyyatda multiplikator effektini işə saldı və artıq 1996-cı ildə ÜDM-in cüzi (1,3 faiz) də olsa, artımı əldə edildi. 1996-cı ilin yekunları göstərdi ki, ölkə rəhbərinin iqtisadi inkişaf haqqında proqnozları real imkanlara əsaslanaraq işlənmişdi. Bu, 1997-ci ilin birinci yarısında iqtisadi inkişafa dair göstəricilərdə bir daha özünü göstərdi.

İslahatların hər bir mərhələsinin reallaşma meyarı olmalıdır. Antiböhran mərhələsinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün meyar olaraq istehsalın aşağı düşməsinin dayandırılması, ona struktur xarakteri verilməsi,milli valyutanın dönərliliyi meyli, əhalinin həyat şəraitinin yaxşılaşmağa meyli və ən nəhayət, böhranın sosial məşəqqətlərinin azalmağa meyli götürülmüşdür.

İqtisadi islahatların son nəticədə nəyə xidmət etməsi məsələsi barədə Prezidentin çoxsaylı dərin fikirlərini ümumiləşdirərkən bu qənaətə gəlmək olar ki, islahatların nəticələri özünü daha çox respublikanın mövcud iri istehsal müəssisələrində zəruri struktur-profil dəyişiklikləri aparılmasında, daxili bazarın ən zəruri məhsullarla doldurulma-

sında və ixracat potensialının artırılmasına xidmət edən yeni istehsalatların yaradılmasında, müəssisələrin modernləşdirilməsində və yenidən qurulmasında büruzə verməlidir.

Heydər Əliyevin iqtisadi baxışlarında struktur siyasətinin aşağıdakı istiqamətlərdə həyata keçirilməsi nəzərdə tutulur:

- maddi və maliyyə ehtiyatlarının yığılması və yenidən bölgüsü ilə "inzibati" və "bazar" üsulları arasında dəqiq hədlərin, şərtlərin qoyulması;

- ölkənin strateji mənafelərini nəzərə almaqla ixrac-idxal əməliyyatlarının tənzimlənməsi;

- xarici investisiyaların struktur islahatlarında səmərəli fəaliyyətinin təmin olunması.

Struktur islahatlarında vacib məsələlərdən biri də son illər məlum hadisələr nəticəsində yaranmış qeyri-mütənasibliyin və itkilərin aradan qaldırılmasıdır.

İnvestisiyalara tələbatın artmasına təkan vermək üçün əsas fondların yenidən qiymətləndirilməsi, amortizasiyaların indeksləşdirilməsi vacib məsələlər kimi qarşıya qoyulmalıdır. Bu tədbirlər müəssisələrdə yenidənqurma və əsaslı təmir üçün vəsaitin yaranmasına xidmət edəcəkdir.

Azərbaycanın qeyri-bazar strukturlu, inhisarçı xarakterli, birtərəfli inkişaf etmiş iqtisadiyyatında əsaslı struktur islahatlarının müvəffəqiyyətlə həyata keçirilməsində xarici investisiyalar həlledici rol oynamalıdır.

Struktur islahatlarının hərəkətverici qüvvəsi olan xarici investisiyaların milli iqtisadiyyatımız üçün işlənməsini təmin

etməkdən ötrü beynəlxalq standartlara uyğun iqtisadi və hüquqi baza yaradılmışdır.

Optimal dövlət tənzimlənməsi ilə struktur investisiya siyasətinin həyata keçirilməsi bazar mexanizmlərinə əsaslanan sosial təmayüllü səmərəli iqtisadi sistemin yaradılmasını daha da sürətləndirəcəkdir.

Heydər Əliyev məntiqindəki "müstəqillik - iqtisadiyyat" dialektikası öz dərinliyi, yeniliyi və konkretliyi ilə diqqəti cəlb edir.

Ümumiyyətlə, Heydər Əliyevin iqtisadi baxışlarında bir-birini tamamlayan iki məqam nəzərə çarpır: 1) iqtisadiyyatın bütün sahələrində islahatlar aparmaq və bu islahatlar vasitəsi ilə ölkə iqtisadiyyatını inkişaf etdirmək; 2) mövcud iqtisadi potensialdan istifadənin səmərəsini təxirəsalmadan yüksəltmək, onun dağılmasına yol verməmək və bu potensialı bütün Azərbaycan xalqının sərvəti kimi respublikamızın vətəndaşlarının, əhalinin bütün təbəqələrinin həyat tərzinin yaxşılaşdırılmasına yönəltmək.

Belə ki, müstəqillik şəraitində, heç kimə ümid olmadan iqtisadiyyatımızı düzgün qorumağı, öz sərvətlərimizdən səmərəli istifadə etməklə dövlətçiliyimizi möhkəmləndirməyi, özü də təkcə siyasi-mənəvi deyil, həm də maddi nəticələr əldə etməklə insanların həyat səviyyəsini yaxşılaşdırmağı əsas şərt sayan Prezident deyir: "Müstəqillik ona görədir ki, biz öz taleyimizin sahibi olaq, öz sərvətlərimizin sahibi olaq və bu sərvətlərdən istifadə edərək xalqımız daha yaxşı yaşasın"[1].

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 2, səh. 495.

Azərbaycanın müstəqil dövlət kimi yaşaması və inkişaf etməsi üçün respublikanın iqtisadi potensialı əsas şərt sayılsa da (hətta Sovetlər İttifaqının dağılması prosesi zamanı o vaxtkı ən böyük iqtisadçılar dəfələrlə belə fikir söyləyirdilər ki, Sovetlər İttifaqına mənsub olan yalnız Rusiya və Azərbaycan iqtisadi cəhətdən müstəqil yaşamaq imkanına malikdir), bu potensialdan səmərəli istifadənin çox mühüm əhəmiyyət kəsb etdiyi, bunun isə öz növbəsində ancaq çox düşünülmüş, cəsarətli islahatlar yolu ilə reallaşdırılma imkanı ölkə başçısı tərəfindən dəfələrlə vurğulanmışdır.

Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, müasir şəraitdə dövlət müstəqilliyimiz üçün həyati əhəmiyyət kəsb edən mövcud iqtisadi potensialımızın böyük hissəsi Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 70-80-ci illərdə yaradılmışdır.

Mövcud iqtisadi potensialdan səmərəli istifadə etmək üçün hər gün, hər ay, hər rüb və hər il yorulmadan çalışmağı tövsiyə edən Azərbaycan Prezidenti bunu iqtisadiyyatın inkişafı, adamların işlə təmin edilməsi və nəticədə maliyyə vəziyyətimizin yaxşılaşdırılması, vətəndaşlarımızın həyat səviyyəsinin yüksəldilməsi və bütövlükdə iqtisadi böhrandan çıxış üçün əsas kimi qiymətləndirir.

1997-ci il iyulun 19-da keçirilmiş respublika müşavirəsindəki yekun nitqində Heydər Əliyev demişdir: "...əvvəlki illərdə mən demişdim, bu gün də deyirəm,- mövcud potensialdan istifadə etmək yolu ilə getmək lazımdır. Mövcud potensialı vurub-dağıtmaq olmaz... 943 milyard manat verginin

700 milyardını dövlət müəssisələrindən alıbdır. Əgər bunları işlətməsən, əgər bunları qorumasan, bunlardan səmərəli istifadə etməsən, elə vurub-dağıtsan, onda haradan vəsait gələcəkdir? Bu o demək deyil ki, biz bundan sonra da bu müəssisələri dövlət müəssisəsi kimi saxlayacağıq. Bir dövr var, bunlar hamısı get-gedə səhmdar cəmiyyətlərinə çevriləcəkdir, özəlləşdiriləcəkdir - bu, şübhəsizdir. Ancaq bu proses paralel getməlidir"[1].

İslahatlar aparılarkən xarici ölkələrin təcrübəsindən yaradıcılıqla bəhrələnməyi daim tövsiyə etməklə yanaşı, həmin işdə kor-koranə ehkamçılığa və tələsgənliyə qarşı çıxan Heydər Əliyev dəfələrlə qeyd etmişdir ki, "bu iş Azərbaycan Respublikasının iqtisadiyyatına, ənənələrinə uyğun olaraq təşkil edilməlidir"[2] və "yerli şərait, milli xüsusiyyətlər, milli ənənələr nəzərə alınmaqla"[3] həyata keçirilməlidir.

Keçid dövrünün mürəkkəb mexanizmləri, dünya təcrübəsində bu prosesin yeniliyi və digər amillər hər bir ölkə üçün iqtisadi transformasiyanın özünəməxsus yolunun seçilməsini zəruri edir. Şərqi Avropa ölkələrinin təcrübəsini keçmiş SSRİ respublikalarında tətbiq etmək istəyənlər bir şeyi yaddan çıxarırlar: 70 il "plan iqtisadiyyatı"nın qanunları mühitində yaşayanların ictimai şüuru ilə bu mühitdə qısa müddət yaşamış insanlar arasında böyük fərq olmalıdır. Belə ki, həmin ölkələrdə bazar mexanizmlərinin bəzi elementləri iqtisadiyyatın bir çox sahələrində hələ də fəaliyyət göstə-

---

1 «Azərbaycan» qəzeti, 23 iyul 1997-ci il.

2 *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 206.

3 Yenə orada, c. 2, səh. 205

rirdi. Məsələn, Polşanın aqrar sahəsində kooperativ mülkiyyəti forması fəaliyyət göstərirdi. Bolqarıstan, Macarıstan və keçmiş Yuqoslaviyada da iqtisadiyyatın müəyyən sahələrində özəl bölmələr səmərəli fəaliyyət göstərirdi. Digər tərəfdən, buna baxmayaraq, bu gün də həmin dövlətlər keçid mərhələsində böyük çətinliklərlə üzləşməli olurlar.

Keçid dövrünün Azərbaycan üçün xarakterik xüsusiyyətləri nəzərə alınmaqla iqtisadi islahatların aparılması onun müvəffəqiyyətini təmin etmişdir və burada Azərbaycan Prezidentinin əvəzolunmaz rolu vardır. Belə ki, ilk növbədə, Azərbaycan Prezidentinin fövqəladə zəhməti sayəsində bağlanan neft sazişləri iqtisadiyyatın bütün sahələrinin dirçəlməsində əhəmiyyətli rol oynadı.

Xarici təcrübənin öyrənilməsi zərurətindən danışarkən Heydər Əliyev deyir ki, 1995-ci ildə, 1996-cı ildə bu iqtisadi islahatların həyata keçirilməsi üçün biz respublikada daha əlverişli şərait yarada bildik və bu dövrdə çox işlər gördük. Amma eyni zamanda biz görürdük, - mən şəxsən özüm haqqında deyirəm, - mən görürdüm ki, respublikalar, xüsusən Müstəqil Dövlətlər Birliyinə mənsub olan respublikalar bu islahatların keçirilməsində nə kimi səhvlər buraxırlar, nə kimi çətinliklərlə üzləşirlər. Ona görə də onların təcrübəsini və buraxılan səhvləri, əldə etdikləri nəticələri öyrənmək lazım idi.

Biz bu işlə də çox ətraflı, ciddi məşğul olduq. Mən o illərdə də, xüsusən 1995-ci, 1996-cı illərdə tam əmin idim ki, biz bu yolla ardıcıl surətdə gedərək respublikanın

iqtisadiyyatını geniş iqtisadi islahatlar keçirilməsi vəziyyətinə gətirib çıxara biləcəyik. Amma bunun üçün həm təmkin lazım idi, həm təcrübədən səmərəli istifadə etmək lazım idi, həm də yaranmış iqtisadi potensialı qoruyub saxlamaq lazım idi.

Respublikamızda iqtisadi islahatlar ardıcıl surətdə həyata keçirilir və onlar öz müsbət nəticələrini verir. Bununla əlaqədar qətiyyətlə demək olar ki, bu sahədə böyük iş görülübdür. İslahatların hüquqi bazasının əsasını təşkil edən "Müəssisələr haqqında", "Səhmdar cəmiyyəti haqqında", "Torpaq islahatı haqqında", "Sovxoz və kolxozların islahatı haqqında", "Banklar və bank fəaliyyəti haqqında", "Müflisləşmə və iflas haqqında" və bir sıra digər qanunlar qəbul edilmiş, vergi qanunvericiliyinin beynəlxalq təcrübəyə uyğunlaşdırılması üzrə mühüm dəyişikliklər edilmiş, "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı" təsdiq olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin şəxsi göstərişi ilə müvafiq dövlət orqanları tərəfindən təcili olaraq hökumətin iqtisadi proqramı işlənib hazırlanmış və həyata keçirilməyə başlanmışdır. 1995-1996-cı illər ərzində makroiqtisadi sabitliyin təmin olunması və iqtisadiyyatda struktur dəyişikliklərinin aparılması tədbirlərini nəzərdə tutan iki hökumət proqramı müvəffəqiyyətlə həyata keçirilmişdir.

Çox böyük əhəmiyyəti olan beynəlxalq kontraktların

bağlanması, dünya ölkələri ilə iqtisadi əlaqələrin genişlənməsi, Azərbaycana investisiya axınının güclənməsi, iqtisadi inteqrasiyanın dərinləşməsi və s. məhz Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müdrik daxili və xarici siyasətinin məntiqi nəticəsidir. Bütün bunlar Azərbaycanın sabahına inam yaratmış, respublikamızın ümdə problemlərinin həllinə, əhalinin rifahının yüksələcəyinə böyük ümidlər doğurmuş, xalqın iqtisadi fəallığının artmasına təsir etmişdir.

Dünya təcrübəsi göstərir ki, islahatların müvəffəqiyyəti düşünülmüş, əsaslandırılmış strategiya və taktikadan başqa, bir çox sosial-siyasi və ideoloji amillərdən də asılıdır. Azərbaycandakı mövcud iqtisadi və siyasi durum, müxtəlif siyasi qüvvələr arasındakı ziddiyyətlər nəzərə alınmaqla islahatların müvəffəqiyyətlə həyata keçirilməsini aşağıdakı şərtlər mümkün etmişdir:

- sosial-iqtisadi proseslərin dağılmış idarəolunma mexanizmlərinin təkmilləşdirilmiş formada bərpası;

- mərkəzi idarəetmə aparatı ilə ərazi bölgələri arasındakı fəaliyyət mexanizminin təkmilləşdirilməsi;

- islahatların sosial bazasının genişləndirilməsi və onun tərəfdarlarının kütləviliyinin təmin olunması.

Heydər Əliyevin rəhbərliyi ilə 1994-1996-cı illər ərzində həyata keçirilən tədbirlərin, qəbul edilən qərarların müvəffəqiyyətlə yerinə yetirilməsi sayəsində 1996-cı ildə biz makroiqtisadi səviyyədə maliyyə sabitliyinin yaranmasına və ümumiyyətlə iqtisadi tənəzzülün dayandırılmasına nail

olmuşuq. Orta aylıq inflyasiya 0,5 faizədək aşağı düşmüş (1993-1994-cü illərdə ayda 22-25 faiz olmuşdur), büdcə kəsiri ümumi daxili məhsulun həcminə nisbətən 3 faizə qədər azalmış (1993-1994-cü illərdə 13-17 faiz olmuşdur), vergilərin yığılma səviyyəsi təqribən iki dəfə artmış, milli valyutanın - manatın ABŞ dollarına nisbətən məzənnəsi 7 faiz yüksəlmiş, 1989-cu ildən bəri ilk dəfə olaraq iqtisadiyyatda dirçəliş baş vermiş və əhalinin pul gəlirinin artım səviyyəsi qiymətlərin artım səviyyəsini üstələmişdir.

Xüsusi qeyd etmək lazımdır ki, Azərbaycanda yaranmış əlverişli siyasi, hüquqi və iqtisadi şərait iqtisadiyyatın sağlamlaşmasının mühüm göstəricisi olan investisiya prosesini xeyli fəallaşdırmışdır.

Təkcə 1996-cı ildə bütün maliyyələşdirmə mənbələri üzrə respublika iqtisadiyyatına 4 trilyon manat sərmayə qoyulmuşdur. Bu məbləğin üçdə iki hissəsi xarici investisiyaların payına düşür. Özü də qeyd etmək lazımdır ki, xarici investisiyalar təkcə neft sənayesinə deyil, iqtisadiyyatın digər sahələrinin də inkişafına yönəldilmişdir.

1996-cı ilin ortalarından dövlət mülkiyyətinin özəlləşdirilməsinin üçillik proqramının həyata keçirilməsinə başlanmışdır. Son dərəcə mürəkkəb olan bu prosesin hüquqi tənzimlənməsi Prezidentin fərmanlarına və sərəncamlarına ciddi surətdə əməl olunması sayəsində təmin edilir. Onun təşəbbüsü ilə keçən il qəbul etdiyimiz, MDB ölkələrinin analoji qanunlarından radikallığı ilə kəskin fərqlənən "Tor-

paq islahatı haqqında" qanun kənd təsərrüfatında keçirilən islahatların sürətləndirilməsini təmin etmişdir.

İqtisadiyyatın yenidən qurulması və sabitləşdirilməsi sahəsində 1995-1996-cı illərdə əldə olunmuş nailiyyətlər 1997-1999-cu illərdə struktur dəyişiklikləri və iqtisadi artım üzrə orta müddətli hökumət proqramının işlənib hazırlanması və həyata keçirilməsi üçün zəruri zəmin yaratmışdır. Bu proqram Beynəlxalq Valyuta Fondu və Dünya Bankı tərəfindən bəyənilmiş və onun həyata keçirilməsi üçün iki xətt üzrə güzəştli kreditlər ayrılmışdır.

1997-ci ildə Azərbaycanın sosial-iqtisadi inkişafının yekunları göstərir ki, qarşıya qoyulmuş məqsədlərə nail olunmuşdur.

Bunu aşağıdakı cədvəlin göstəriciləri əyani sübut edir.

*23-cü cədvəl*

Azərbaycan Respublikasının əsas iqtisadi inkişaf göstəriciləri

| | 1995 | 1996 | 1997 |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| Ümumi daxili məhsul | | | |
| - cəmi, milyard manat | 10669 | 13663 | 15352 |
| - əvvəlki ilə nisbətən (faizlə) | 88,0 | 101,3 | 105,8 |
| - adambaşına, min manat/ABŞ $ | 1420 | 1806 | 2017 |
| | 323 | 420 | 506 |
| - qeyri-dövlət bölməsinin xüsusi çəkisi (faizlə) | 34,0 | 38,0 | 46,0 |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| Sənaye məhsulu | | | |
| -həcmi, milyard manat | 8856 | 11315 | 12490 |
| - əvvəlki ilə nisbətən (faizlə) | 78,6 | 93,3 | 100,3 |
| - qeyri-dövlət bölməsinin xüsusi çəkisi (faizlə) | 5,5 | 7,5 | 14,7 |
| Kənd təsərrüfatı məhsulu | | | |
| -həcmi, milyard manat | 3567 | 4518 | 4122 |
| - əvvəlki ilə nisbətən (faizlə) | 93 | 103 | 93,1 |
| - qeyri-dövlət bölməsinin xüsusi çəkisi (faizlə) | 60,3 | 68,5 | 85,0 |
| Bütün maliyyə mənbələri hesabına investisiya qoyuluşu (xarici investisiyaları da nəzərə almaqla) | | | |
| -həcmi, milyard manat/mln. ABŞ $ | 2403<br>544 | 3939<br>917 | 6250<br>1568 |
| - əvvəlki ilə nisbətən (faizlə) | 190 | 165,7 | 158,7 |
| o cümlədən: | | | |
| xarici investisiyalar | | | |
| -həcmi, milyard manat/mln. ABŞ $ | 1657<br>375 | 2666<br>621 | 4878<br>1223 |
| Pərakəndə əmtəə dövriyyəsi | | | |
| - həcmi, milyard manat | 5293 | 7339 | 8481 |
| - əvvəlki ilə nisbətən (faizlə) | 102,3 | 114,1 | 117,3 |
| Əhaliyə pullu xidmətlər | | | |
| - həcmi, milyard manat | 583 | 965 | 1148 |
| - əvvəlki ilə nisbətən (faizlə) | 75,6 | 115,7 | 111,0 |
| İşçilərin orta aylıq nominal əmək haqqı | | | |
| - həcmi, min manat | 62,5 | 85,0 | 142 |
| - əvvəlki ilə nisbətən (faizlə) | 4,1 d | 1,4 d | 1,6 d |
| Əhalinin pul gəlirləri | | | |
| -həcmi, milyard manat | 6703 | 9526 | 12446 |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| - əvvəlki ilə nisbətən (faizlə) | 5,5 d | 142,1 | 130,7 |
| Əhalinin pul xərcləri və əmanətləri | | | |
| - həcmi, milyard manat | 6379 | 9265 | 12135 |
| - əvvəlki ilə nisbətən (faizlə) | 6,6 d | 145,2 | 131 |
| İstehlak qiymətlərinin il ərzində indeksi (inflyasiya) | | | |
| - əvvəlki ilə nisbətən (faizlə) | 511,8 | 119,9 | 103,7 |
| - əvvəlki ilin dekabrına nisbətən (faizlə) | 184,6 | 106,8 | 100,4 |
| Manatın 1 ABŞ dollarına orta illik məzənnəsi (manat) | 4417,5 | 4295,5 | 3987 |

1997-ci ilin yekunları Azərbaycanın sosial-iqtisadi inkişafında müsbət meyllərin ildən-ilə möhkəmləndiyinə bir daha əyani sübutdur. Belə ki, ölkədə 1996-cı ildə ümumi daxili məhsul istehsalı 1,3 faiz artdığı halda, 1997-ci ildə bu artım 5,8 faiz təşkil etmişdir. Halbuki, əvvəlki illərdə (1992-1995-ci illər) ümumi daxili məhsul istehsalında hər il orta hesabla 20-23 faiz azalma baş vermişdi.

Ölkənin sənaye istehsalında 1997-ci ilin əvvəlindən yaranmış sabitlik ilin sonunadək davam etmişdir. 1997-ci ildə ən mühüm 26 sənaye məhsulu növlərinin 19 növü üzrə nəzərəçarpacaq artım müşahidə edilmişdir. Neft emalı, metallurgiya, ağac emalı, şüşə və çini-saxsı məhsullar istehsalında artım daha yüksək olmuşdur. Digər istehsal sahələrində geriləmənin sürəti səngimişdir.

Hazırda ümumi daxili məhsulun tərkibində qeyri-dövlət bölməsinin payı 1996-cı ildəki 38 faizdən 46 faizədək artmışdır.

1989-cu ildən bəri ilk dəfə 1997-ci ilin ikinci rübündən başlayaraq sənaye istehsalının artımı təmin edilmişdir. 1997-ci ildə neft emalı sahəsində, metallurgiya sənayesində, meşə, ağac emalı və sellüloz-kağız, şüşə, çini-saxsı sənayesi müəssisələrində, habelə sənayenin qeyri-dövlət bölməsində istehsal edilmiş məhsulun həcmi 1996-cı ilin səviyyəsini üstələmişdir.

1996-cı illə müqayisədə xeyli çox hazır prokat, neft emalı məhsulları, polad boru, alüminium, gil-torpaq, alunit filizi, neft-mədən avadanlığı, sulfat turşusu, sulfanol, sement, dəmir-beton konstruksiyalar və digər məhsullar istehsal edilmişdir.

Görülən tədbirlər sayəsində 1997-ci ilin əvvəlindən bəri müəssisələrin anbarlarındakı hazır sənaye məhsulları qalığı nəzərəçarpacaq dərəcədə azalmışdır.

1997-ci ildə kənd təsərrüfatında müvəffəqiyyətli islahatlar aparılması nəticəsində kənddə istehsal münasibətləri köklü surətdə dəyişmişdir. 1997-ci il iyulun 1-nə kənd təsərrüfatında 30 minə qədər bazar strukturu, o cümlədən 20 minə yaxın fərdi fermer təsərrüfatı fəaliyyət göstərir.

Heyvandarlıq sahəsi demək olar ki, bütövlükdə özəl bölmədə cəmləşmişdir və bu, ət istehsalını 4,3 faiz, süd istehsalını 4,5 faiz, yumurta istehsalını 3,0 faiz, yun istehsalını 4,6 faiz artırmağa imkan vermişdir.

Bütövlükdə kənd təsərrüfatının ümumi istehsal həcmində qeyri-dövlət bölməsinin payı 1996-cı ildəki 68,5 faizdən 1997-ci ildə 85 faizədək yüksəlmişdir.

1997-ci il ölkənin kənd təsərrüfatı üçün köklü sosial-iqtisadi dəyişikliklər ili olmuşdur. Torpaq islahatının həyata keçirilməsi, torpağın xüsusi mülkiyyətə verilməsi, kolxoz və sovxozların mülkiyyətinin özəlləşdirilməsi üçün zəruri normativ-hüquqi bazanın yaradılması iqtisadiyyatın digər sahələrinə nisbətən kənd təsərrüfatında islahatların daha sürətlə aparılmasına imkan yaratmışdır. Nəticədə 1997-ci ildə kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə müəyyən irəliləyiş əldə edilmişdir. Belə ki, taxıl (109,8 faiz), kartof (104,1 faiz), meyvə (102,8 faiz), tütün (121,6 faiz), bostan məhsulları (109,7 faiz) istehsalında xeyli artım olmuşdur. Ötən ildə təbii fəlakət və əlverişsiz hava şəraiti, həmçinin kimyəvi preparat və mineral gübrələrin çatışmazlığı üzündən pambıq və üzüm istehsalı kəskin surətdə azalmışdır. Cəmi 124,7 min ton pambıq və 144 min ton üzüm istehsal olunmuşdur. Bitkiçiliklə müqayisədə heyvandarlıq sahəsində vəziyyət daha sabit olmuş və məhsul istehsalı 4 faiz artmışdır.

Beləliklə, Azərbaycanın aqrar bölməsində öz radikallığı ilə səciyyələnən islahatların nəticələri özünü artıq büruzə verir. Azərbaycan kəndlisinin öz əməyinin nəticəsinə marağının artması ölkədəki istehlak bazarının strukturunda yerli məhsulların nəzərəçarpacaq dərəcədə artmasına zəmin yaratmışdır.

1996-cı ildə başlanan investisiya fəallığı 1997-ci ildə də davam etmişdir. 1997-ci ildə ölkə iqtisadiyyatının inkişafına bütün maliyyə mənbələri hesabına 6,3 trilyon manat həcmində kapital qoyuluşu yönəldilmişdir ki, bunun da 70,9 faizini xarici investisiyalar təşkil edir. İstifadə edilmiş kapital qoyuluşunun 84,1 faizi istehsal təyinatlı obyektlərdə cəmlənmişdir. 1996-cı illə müqayisədə respublika iqtisadiyyatına yönəldilmiş investisiyaların həcmi 67 faiz, o cümlədən xarici investisiyaların həcmi 83 faiz çox olmuşdur.

Ümumilikdə isə, 1994-1997-ci illər ərzində Azərbaycan iqtisadiyyatının inkişafına 2,9 milyard dollar vəsait, o cümlədən 2 milyard dollar (ümumi kapital qoyuluşunun 69 faizi qədər) xarici investisiya qoyulmuşdur. Başqa sözlə, bu dövr ərzində ölkə iqtisadiyyatına əhalinin hər bir nəfəri hesabı ilə kapital qoyuluşu 387 dollar, o cümlədən xarici investisiyalar üzrə 267 dollar vəsait qoyulmuşdur ki, bu da Bolqarıstan və Rusiya ilə müqayisədə müvafiq olaraq 2,8 və 6,1 dəfə çoxdur.

İqtisadiyyata investisiya axını öz növbəsində tikinti kompleksinin dinamik inkişafına təsir göstərmişdir. 1997-ci ildə tikinti-quraşdırma işlərinin həcmi əvvəlki illə müqayisədə 73 faiz artmışdır. Özü də Azərbaycanın podrat təşkilatları xarici investorların maliyyələşdirdiyi layihələrin həyata keçirilməsində getdikcə daha fəal iştirak edirlər.

Ölkə iqtisadiyyatında gedən əsaslı islahatlar, investisiyaların həcminin kəskin surətdə artması, yeni nəqliyyat dəhlizinin açılması ümumilikdə nəqliyyat kompleksinin

canlanmasına da müsbət təsir göstərmişdir. 1997-ci ildə 1996-cı ilə nisbətən yükdaşımaların ümumi həcmi 14 faiz, o cümlədən dəmir yolu ilə daşımaların həcmi 13 faiz artmışdır.

Ölkədə xarici ticarətin liberallaşdırılması xarici ticarətdə mal dövriyyəsini xeyli artırmışdır. 1997-ci il ərzində onun ümumi həcmi 1575,6 milyon ABŞ dolları, o cümlədən idxal 794,3 milyon dollar, ixrac isə 781,3 milyon dollar təşkil etmişdir. 1997-ci ildə xarici ticarət sahəsində müsbət meyl ondan ibarətdir ki, 1996-cı illə müqayisədə idxal olunan malların həcmi 17,3 faiz azaldığı halda, ixrac olunan malların həcmi 23,8 faiz artmışdır. Nəticədə, mənfi saldonun həcmi 1996-cı ildəki 329,4 milyon ABŞ dollarından 1997-ci ildə 13 milyon ABŞ dollarınadək (25 dəfə) azalmışdır.

1997-ci ildə 1996-cı illə müqayisədə mal dövriyyəsinin həcmi 17,3 faiz, pullu xidmətlərin həcmi 11 faiz artmışdır ki, bu da əhalinin alıcılıq qabiliyyətinin yüksəldiyini göstərir. Eyni zamanda, istehlak qiymətləri indeksinin (inflyasiyanın) artımı 1996-cı ilin dekabr ayı ilə müqayisədə cəmi 3,7 faiz olmuşdur. 1997-ci ildə manatın məzənnəsi 3,0 faizədək artmış və beləliklə, 1995-ci ilin əvvəlindən başlayaraq Azərbaycan manatı ABŞ dollarına nisbətən 14 faizə qədər möhkəmlənmişdir.

Milli valyutanın 1 ABŞ dollarına orta məzənnəsi 1996-cı ildəki 4295,5 manatdan 1997-ci ildə 3987 manata qədər aşağı düşmüş, 100 rus rubluna görə 69 manat olmuşdur. 1997-ci ilin dekabr ayında həmin göstəricilər müvafiq olaraq 3893,1 və 66 manat təşkil etmişdir.

1997-ci ildə əhalinin real pul gəliri 11,6 trilyon manat təşkil etmişdir ki, bu da 1996-cı illə müqayisədə 25,1 faiz çoxdur. Həmin ildə iqtisadiyyatın bütün sahələri üzrə orta aylıq əmək haqqı 142,0 min manata çatmışdır ki, bu da əvvəlki ilə nisbətən 1,6 dəfə çoxdur. Eyni zamanda qeyri-dövlət bölməsində işləyənlərin orta əmək haqqı dövlət bölməsindəki əmək haqqı səviyyəsindən 3 dəfə çox olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə sosial sahə işçilərinin maaşlarının 1996-cı ilin əvvəlindən bir neçə dəfə artırılması nəticəsində orta əmək haqqı təhsil, səhiyyə və idman sahəsində təxminən 2 dəfə, mədəniyyətdə 68 faiz, elmdə 58 faiz yüksəlmişdir.

Xüsusi olaraq qeyd edilməlidir ki, büdcədən maliyyələşdirilən sahələrdə çalışanların əmək haqqı iqtisadiyyatımızın real imkanları nəzərə alınaraq artırılmışdır. Başqa sözlə, həmin məqsədlərə inflyasiyaya səbəb olmayan maliyyə resursları yönəldilmişdir ki, bu da hökumət proqramının əsas prinsiplərinə uyğun gəlir.

Beləliklə, Heydər Əliyev islahatları aşağıdakı sistemli addımların nəticəsidir:

1994-cü ildə bazar mexanizmləri ünsürlərinin milli iqtisadiyyata daxil edilməsi və əvvəlki ilə nisbətən investisiyaların 1,89 dəfə artırılması; 1995-ci ildə tənəzzülün dayandırılması üçün aparıcı bazar infrastrukturlarının yaradılması və işə salınması; multiplikator effektini gücləndirmək naminə 1996-cı ildə özəlləşdirmənin ilkin mərhələsinin işə salınması və ölkə iqtisadiyyatına investisiya qoyuluşunun

1995-ci ilə nisbətən 2,11 dəfə artırılması (ümumi kapital qoyuluşunda xüsusi çəkisi 45 faiz olan xarici investisiyalar hesabına), atılmış addımların məntiqi nəticəsi kimi 1997-ci ildə magistral inkişaf xəttinə keçilməsi.

Ümumiyyətlə, iqtisadiyyatın dinamik inkişafını təmin etmək üçün maliyyə vəsaitlərinin kənardan cəlb olunması ilə yanaşı, milli iqtisadiyyatda daxili yığım mexanizmlərinin işə düşməsi üçün tədbirlər həyata keçirilməlidir.

Son zamanlar bu sahədə müəyyən işlər görülmüş və daxili sərmayə qoyuluşu üçün şərait yaradılmaqdadır: sahibkarlıq fəaliyyətinin canlandırılması üçün hüquqi baza formalaşmış, faiz dərəcələri 1993-cü ildə 20 faizə endirilmişdir, vergi sahəsində radikal islahatlar üçün hazırlıq görülməkdədir (Vergi Məcəlləsinin layihəsi işlənilməkdədir). Ölkədə müvəffəqiyyətlə başlanmış özəlləşdirmə prosesi nəticəsində sahibkarlığın yeni növü - səhmdarlar ordusu yaranmaqdadır və bu prosesin sürəti gələcəkdə artmalıdır.

## 3.3. İqtisadi islahatların Heydər Əliyev metodologiyası

İqtisadi və sosial inkişaf strategiyası cəmiyyətin ali məqsədləri kompleksində mövcud imkanlardan səmərəli istifadə yollarını axtarmaq və onları əlaqələndirmək metodlarını əhatə edir. Bu nəzəri tələblər baxımından iqtisadi və sosial inkişafın ümumi qanunauyğunluqları formalaşır. Bu qanunauyğunluqların ümumi və spesifik cəhətləri vaxtı ilə regional iqtisadiyyatı idarəetmə təcrübəsində formalaşan və yeni bazar şəraitində

özünəməxsus aspektlər kəsb edən iqtisadi dünyagörüşünə əsaslanmalıdır. Ona görə də biz, bir iqtisadçı kimi, Azərbaycan iqtisadiyyatının 70-ci illərdən bəri formalaşmış meylləri və bazara keçid şəraitində onun transformasiyasının təşkili ilə öz nəzəri-praktiki töhfəsini verən Heydər Əliyev mərhələsini ayırmağı zəruri hesab edirik.

Azərbaycan islahatlara formalaşmış sosial-iqtisadi və mənəvi potensialla, onların meylləri və strukturu ilə daxil olur. Formalaşmış meylləri bazar iqtisadiyyatı şəraitinə uyğun olaraq dəyişdirmək metodlarının hazırlanması istiqamətində strateji və taktiki vəzifələrdə Heydər Əliyevin rolu böyükdür.1970-1980-ci illərdə Azərbaycan iqtisadiyyatının inkişafında iqtisadi artıma və həyat səviyyəsinin yüksəldilməsinə istiqamətlənmiş meyllər mövcud olmalı idi. Bu nöqteyi-nəzərdən Heydər Əliyev Azərbaycan iqtisadiyyatının potensial imkanlarını qiymətləndirərək, ümumi iqtisadi artım nəzəriyyəsinin region problemlərini qarşıya qoydu və onun həlli yolları üçün sistemli kompleks tədbirlər hazırladı. Strateji məqsəd olaraq milli məhsulun artırılması, milli gəlir, istehsal edilən və istifadə olunan milli gəlir arasında tarazlığın sabitləşməsi üçün mövcud imkanlardan istifadə məsələləri işləndi. Heydər Əliyevin iqtisadi baxışları makrosəviyyəli və əsas, aparıcı rol oynayan problemlər üzrə cəmləşib və dərinləşib. Onun fikrincə iqtisadi müstəqillik yolunda strateji məqsəd həmişə real imkanlar daxilində formalaşmalıdır və bu məsələlər aparıcı olmaqla yanaşı, daim mövcud imkanların dəyişməsini nəzərə alaraq təkmilləşməli və çevik siyasət baxımından tənzimlənməlidir.

Heydər Əliyev iqtisadiyyatın təhlilində sistem təhlili və məqsədli proqram üsulundan istifadə edir. O, 1970-ci ildən respublikanın istehsal imkanlarını nəzərə alaraq və resursların mövcudluğunu təhlil edərək ayrı-ayrı sahələrin kompleks proqramının hazırlanmasının zəruri metod olduğunu əsaslandırdı. Heydər Əliyev 1970-1982-ci illərdə sənayenin, üzümçülüyün, xalq istehlakı malları istehsalının, səhiyyənin, milli gəlirin təkrar istehsalının İttifaq səviyyəsində kompleks proqramlarının tərtibi və təsdiqinə nail olmuşdur. Planlı təsərrüfat sistemində, plan intizamı şəraitində, məhsulun istehsalı və reallaşmasında mərkəzləşdirilmiş qarant prinsipləri mövcud olduğu bir şəraitdə istehsal həcminin artırılmasına üstünlük vermək və strateji məhsulların istehsalını təşkil etmək düzgün və yeganə yol idi. Məhz bu məqsədlə respublikada pambıq, üzüm istehsalı, neft və neft maşınqayırması əsas, aparıcı sahələr kimi inkişaf etdirilirdi. İttifaq səviyyəsində iqtisadi əlaqələri, İttifaq bazarının tələblərini nəzərə alaraq və respublikada yerli resurslardan istifadənin səmərəli təşkili, işçi qüvvəsindən istifadə və həyat səviyyəsinin yüksəldilməsi məqsədi ilə 1970-1980-ci illərdə irəli sürülən ideyalar Heydər Əliyevin proqram iqtisadi görüşləri ilə bağlı idi. İttifaq əhəmiyyətli respublika proqramlarının reallaşması respublikaya mərkəzləşdirilmiş kapital axınına səbəb olub, resurslardan kompleks istifadə problemlərini həll etməyə imkan vermişdir.

Azərbaycan Respublikasında istehsal olunan milli gəlirlə istehlaka ayrılan milli gəlirin nisbətinin təhlili həmin dövrdə sosial yönlü tədbirlərin hazırlanmasının və sosial müəssisələrin inkişafının zəruriliyini tələb edirdi. Azərbaycan iqtisadiy-

yatının sosial yönlü olmasının və strateji məqsədin indiki bazar iqtisadiyyatı şəraitində də aparıcı olmasının təməli hələ o vaxtlar qoyulmuşdu.

Sosial yönlü iqtisadi siyasət Azərbaycan üçün obyektiv zərurət olub, proqram tədbirləri baxımından aparıcı rol oynayır. Azərbaycanda gedən demoqrafik proseslər, işsizlik problemi, əhalinin həyat səviyyəsinin 1960-cı illərdə aşağı olması, sosial inkişafın iqtisadi artıma təsiri baxımından Heydər Əliyev sosial siyasəti Azərbaycan üçün mümkün strateji xətt olaraq qəbul edir.

Bazar iqtisadiyyatı şəraitində sosial gərginliyin artması, işsizlik və əhalinin təminatı məsələlərində dövlət qarantı müasir dövrdə Prezidentin iqtisadi proqramının əsas vəzifəsidir. Planlı təsərrüfat sistemindən bazar münasibətlərinə keçid bir iqtisadi sistemin keyfiyyətcə yeni, başqa bir sistemə transformasiyası deməkdir. Bu tarixi missiya radikal prinsiplər, iqtisadi müddəalar və əməli surətdə tətbiq oluna bilən iqtisadi siyasət və idarəetmə mexanizmləri əsasında baş verə bilər. Bu baxımdan iqtisadi islahatların forması, məzmunu, xarakteri, intensivliyi mövcud real iqtisadi qanunauyğunluqları arzu olunan bazar münasibətlərinə çevirmək prizması üzərində qurulmalıdır.

Planlı təsərrüfat sistemi şəraitində iqtisadi islahatlar Heydər Əliyevin diqqət mərkəzində idi. O, həmişə keyfiyyətcə yeni iqtisadi sistemlərin, mexanizmlərin, proqramların yaradıcısı olmuşdur. Belə ki, İttifaq səviyyəsində əhalinin tələbatını ödəmək məqsədi ilə 1986-2000-ci illərdə xalq istehlakı malları istehsalı və xidmət sahəsinin inkişafı proqramının rəhbəri

Heydər Əliyev olmuşdur. Bu proqram 60-cı illərdən İttifaq səviyyəsində beşilliklər üzrə hazırlanırdı. 1982-ci ildə Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunan kimi bu proqramın işlənməsi və həyata keçirilməsinə nəzarət Siyasi Büro və Baş katib Y. Andropov tərəfindən ona tapşırılmışdı. Heydər Əliyev bu proqramın işlənməsində bütün SSRİ-nin elmi potensialının müxtəlif fikirlərini ümumiləşdirib, istiqamət verib, məqsəd və imkanları əlaqələndirib, o vaxtkı dövr üçün və indi də konseptual vəzifələri ilə əhəmiyyətli olan bir dövlət sənədi ortaya çıxarmışdı.

Proqramlar tərtibində və həyata keçirilməsində böyük səriştəsi olan Prezident Heydər Əliyevə Moskvadakı fəaliyyəti zamanı nəqliyyatın inkişaf konsepsiyasının və müəssisələr haqqında qanun layihəsinin işlənməsi həvalə edilmişdi. O, Moskvadakı fəaliyyətinin son gününə qədər müəssisələr haqqında qanunun yeni, 1987-ci il islahatları şəraitində işlənməsinə nail olmuşdur. Bu qanun sonrakı iqtisadi idarəetmə və müəssisələrin fəaliyyətini tənzimləmək üçün xüsusi əhəmiyyət kəsb etmişdir.

Təbiətcə islahatçı olan Heydər Əliyev bazar iqtisadiyyatının əhəmiyyətini, onun prisiplərini və Azərbaycan reallığı şəraitində formalaşma xüsusiyyətlərini, meyllərini və qanunauyğunluqlarını əsaslandırır. Respublikanın müstəqilliyi, onun bazar iqtisadiyyatı yolu ilə inkişafı yeni nəzəri-metodoloji və praktiki prinsiplərin işlənməsini tələb edir. Bu baxımdan hələ Naxçıvan Muxtar Respublikasında Ali Məclisin sədri işləyərkən Heydər Əliyev torpaq islahatının və özəlləşdirmənin əsas prinsipləri və reallaşma mexanizmini əhatə edən əsasnamə

layihəsini işləməyi öz qarşısına vəzifə qoymuş və 1992-ci ildə bu əsasnaməni Ali Məclisin müzakirəsinə çıxarmışdır. Əsasnamə layihəsinin müzakirəsi zamanı o, dəyərli fikirlər irəli sürmüş və tövsiyələr vermişdir. Həmin fikirlər torpaq islahatı haqqında indiki qanunda da ifadə olunmuşdur.

İqtisadi islahatların zəruriliyi Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilərkən andiçmə mərasimindəki çıxışında və proqram xarakterli başqa çıxışlarında, xarici öl-kələrə səfərlər zamanı söylədiyi fikirlərdə, iqtisadiyyata aid fərmanlarda öz əksini tapmışdır. Heydər Əliyev iqtisadi isla-hatların prinsiplərini, mərhələlərini və reallaşma mexanizmlərini öz idarəetmə təcrübəsi ilə respublikanın perspektiv inkişaf istiqamətlərinin vəhdətində axtarır. Ona görə də o, problem-lərin həllini tarixilik, sistemlik, varislik və radikal keyfiyyət dəyişmələrində görür. İqtisadi islahatlar öz məqsədi, amilləri və nəticələri etibarı ilə çoxsahəli, mürəkkəb və əhatəli olduğu üçün, Azərbaycanda bu problemlər Heydər Əliyevin iqtisadi islahatlar konsepsiyasında hər bir sahəyə və regiona fərdi yanaşılmasını tələb edir. Ona görə də respublika Prezidenti sənaye, kənd təsərrüfatı, qeyri-istehsal sahələrində, mədəni-maarif və sosial sahələrdə islahatların ümumi nəzəri prinsipləri ilə yanaşı, konkret yanaşmanı məsləhət görür. 1993-cü ilin iyun ayında respublika iqtisadiyyatında dağıntılar, tarazlığın pozulması, inflyasiya, sosial gərginlik və qeyri-müəyyənlik miras qalmışdı. 1982-1988-ci illərdə iqtisadi artım sürəti azal-mağa meyl etmiş, sahələrarası proporsiyalar pozulmuş və 1988-ci ildən sonra erməni təcavüzü və iqtisadiyyatın düzgün idarə edilməməsi nəticəsində onun böhranı dərinləşmişdi. 1988-

1993-cü illərdə respublikanın müstəqil iqtisadi inkişaf problemləri nəzəri və praktik aspektdə həll edilməmişdi.

O zamankı respublika rəhbərləri Azərbaycan iqtisadiyyatının inkişafını İttifaq müqavilələrində və inzibati idarəetmə metodlarında axtarırdılar. Onlar iqtisadi inkişafdan respublikanın mənafeyi baxımından yox, ayrı-ayrı adamların hakimiyyətinin əsası kimi istifadə edirdilər.

1993-cü ildən Azərbaycan iqtisadiyyatının yeni əsaslar üzrə inkişafı üçün ilkin şərtlər, qanun və sənədlər, islahatlar proqramı hazırlanmağa başlandı. İqtisadi islahatların hüquqi əsasları iqtisadiyyatın dövlət tənzimlənməsində əsas mexanizmdir. Bu baxımdan 1993-1996-cı illərdə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən bilavasitə Prezidentin təqdimatı ilə çoxlu iqtisadi qanunlar qəbul edilmişdir. Heydər Əliyev bu qanunların işlənməsinə xüsusi tələblər qoyur. Həmin qanunların labüdlüyü, məqsəd və nəticələri haqqında demokratik əsaslarla mütəxəssislərin, icra orqanlarının və elmi idarələrin fikirləri öyrənilir. Sonra bu qanunların işlənməsi üçün işçi qrupları və komissiyalar yaradılır. Aqrar islahatlar, özəlləşdirmə, sahibkarlıq haqqında qanunların nəzəri əsasları, prinsipləri və reallaşma istiqamətləri ilkin olaraq Prezident tərəfindən irəli sürülmüş və həyata keçirilməsi nəzərdə tutulmuşdur.

İqtisadi islahatlar, keyfiyyət dəyişiklikləri, şübhəsiz, yeni kapital qoyuluşu hesabına həyata keçirilməlidir. Respublikanın mövcud iqtisadi imkanlarından istifadə üçün yerli maliyyə resursları kifayət qədər olmadığından Prezident xarici kapital axınının yollarını axtarmaqla, gündəlik iqtisadi problemlərə nəzarət edir.

İqtisadi sabitlik, manatın alıcılıq qabiliyyətinin sabitləşməsi xarici kapital axınının intensiv artımına və onun strukturunun dəyişməsinə səbəb olmuşdur. Əlbəttə, iqtisadi sabitlik Prezident Heydər Əliyevin iqtisadiyyatın liberallaşdırılması, azad bazar münasibətləri, xarici iqtisadi əlaqələr istiqamətində atdığı konseptual addımlar, iqtisadi mexanizmlərin tətbiqi sayəsində yaradılır. Xarici iqtisadi əlaqələrin intensiv inkişafı idxal və ixrac siyasətinin formalaşdırılması və inkişafının yeni istiqamətlərini tələb edir. Bu məqsədlə gömrük siyasəti, vergi və kredit mexanizmlərinin əsas istiqamətləri Prezident tərəfindən müvafiq orqanlar qarşısında strateji vəzifə kimi qoyulmuşdur.

İqtisadi idarəetmə bütövlükdə respublikanın idarə edilməsinin tərkib hissəsi olub, əsas, aparıcı həlqədir. İqtisadi idarəetmə orqanlarının əsas vəzifə və səlahiyyətləri daim Prezidentin diqqət mərkəzindədir. Respublikada bazar iqtisadiyyatı şəraitində yeni sahələrin meydana gəlməsi, təsərrüfat əlaqələrinin dərinləşməsi yeni idarəetmə strukturlarının yaranmasına, bəzilərinin isə aradan çıxmasına gətirib çıxarır. Özəlləşdirmə prosesi bəzi nazirliklərin, idarə və təşkilatların lüzumsuz olduğunu göstərir. Məhz bu meyllərin sürətlə getməsi və inzibati-bürokratik idarəetmə strukturunun demokratik idarəetmə formaları ilə əvəz olunması üçün Prezident Nazirlər Kabinetinin işinin yenidən qurulması məsələsini qarşıya qoyur.

Respublika iqtisadiyyatı bir iqtisadi sistemdən digər iqtisadi sistemə keçid dövrünü yaşayır. Bu dövrün müddəti, səmərəliliyi və sosial-iqtisadi nəticələri dünya təcrübəsində sınaqdan çıxmış və respublikadaxili qanunauyğunluqlardan yaranan prinsiplər üzərində qurulur. Həmin prinsipləri Heydər Əliyev, fikrimizcə, aşağıdakılarda görür:

1. Sosial yönlü və sosial ədalət prinsipləri üzərində formalaşan və inkişaf edən iqtisadiyyat sosial ədalət prinsipləri, özəlləşdirmə prosesində milli məhsulun bölgüsündə və yenidən bölgüsündə istifadə olunan sosial mexanizmlər vasitəsilə həyata keçirilir. Belə ki, cəmiyyətdə yaşayan hər bir nəfər üçün torpaq payı, özəlləşdirmə payı, sosial yönlü sahələrə dövlət büdcəsi hesabına maliyyə ayırmaları, aztəminatlı ailələrin sosial təminatı məsələləri aparıcı siyasətdir. Sosial siyasət milli iqtisadiyyatın meyarı olaraq mövcud və perspektiv inkişaf istiqamətlərində öz əksini tapmışdır. Sosial ədalət prinsipləri öz fəallığı və Azərbaycan iqtisadiyyatı üçün zəruriliyi baxımından iqtisadi artımın əsas məntiqidir.

2. Səmərəlilik prinsipi Azərbaycan iqtisadiyyatının strukturunun, onun sahə, ərazi strukturunun və kapital qoyuluşu problemlərinin sosial-iqtisadi inkişafda və iqtisadi müstəqillik meyarında rolu ilə müəyyən edilir. Hər bir iqtisadi, sosial və təşkilati tədbir iqtisadi potensialın artımına təsiri baxımından qiymətləndirilir. İqtisadi resurslardan istifadə sosial səmərə baxımından qiymətləndirilir.

3. Tarazlılıq və uzlaşma prinsipi respublikadaxili sahə-ərazi proporsiyaları ilə xarici iqtisadi əlaqələrin inkişafı arasında resurslar, məqsədlər və mənafelər baxımından uzlaşmanı tələb edir.

4. Dövlətçilik prinsipi bazar iqtisadiyyatı şəraitində tənzimləmə siyasətini həyata keçirmək üçün idarəetmə funksiyalarını reallaşdıran və çoxluğun mənafeyini təmin edən iqtisadi və siyasi vasitələrin dövlət tərəfindən nizamlanmasını əhatə edir.

Dövlət strateji məqsəd üçün lazım olan istehsal strukturuna, idxal və ixraca, vergi və resurslardan istifadə üzərində nəzarətə və uçota rəhbərlik edir.

İqtisadi və sosial mühitin mövcud səviyyəsi, iqtisadi və sosial potensiallardan istifadə yolları və onların təkrar istehsalı iqtisadi konsepsiyanın metodoloji əsasını təşkil edir. Bu məqsədlə resursların perspektiv inkişaf istiqamətləri, onun mümkün istifadə variantları proqnozlaşdırılır. Resurs imkanları baxımından Azərbaycanın iqtisadi potensialının əsas istiqamətini kredit resursları, kənd təsərrüfatı istehsalı və xalq istehlakı malları istehsalı təşkil edir.

Azərbaycan iqtisadiyyatının açıq iqtisadiyyat xarakteri, kapital axını üçün ilkin resurs imkanları mövcuddur. Ona görə də "əsrin müqaviləsi" - neft yataqlarının işlənməsinə dair 30 illik proqram Azərbaycanda sosial inkişaf, struktur siyasəti və əhalinin məşğulluğu problemlərində həlledici rol oynayacaqdır. Son illər neft müqaviləsi ilə bağlı olaraq infrastrukturların inkişafının əsas istiqamətlərinə mühüm yer verilir. Beynəlxalq bank sisteminin, əmək birjalarının, valyuta bazarlarının və digər bazar strukturlarının yaradılması üçün Azərbaycan Prezidenti xarici dövlətlərlə əməli işlər aparır.

İqtisadi islahatların həyata keçirilməsi üçün Prezidentin fikirlərinin həyata keçirilməsi iqtisadçı kadrların peşəkarlığından və dövlətçiliyə sadiqliyindən xeyli asılıdır. İndi artıq şərhçi iqtisadçılar və passiv iqtisadi idarəedici rəhbərlər ancaq qarşıya qoyulan problemlərin həllini uzada bilərlər.

*IV FƏSİL*

# İQTİSADİ İSLAHATLARIN ÜSTÜN İSTİQAMƏTLƏRİ

## 4.1. Yeni mülkiyyət münasibətləri iqtisadi islahatların əsasıdır

Heydər Əliyevin iqtisadi siyasəti bazar islahatlarının ardıcıl və sistemli şəkildə aparılmasına əsaslanır. Həmin islahatların başlıca istiqamətləri arasında dövlət mülkiyyətinin özəlləşdirilməsi müstəsna yer tutur. Bu barədə Heydər Əliyev özü belə deyir: "İslahatların əsasını mülkiyyət formasının dəyişdirilməsi təşkil edir... Respublikada bazar iqtisadiyyatına, sərbəst iqtisadiyyata keçmək üçün mülkiyyət forması dəyişməlidir, özəlləşdirmə getməlidir"[1].

Dövlət mülkiyyətinin özəlləşdirilməsi sərbəst bazar rəqabəti prinsiplərinin, xüsusi mülkiyyətçiliyin bərqərar olması deməkdir, iqtisadiyyatımızın dünya iqtisadi sisteminə qovuşması, formasiya dəyişikliyi, insanların şüurunda, həyat tərzində, idarəetmədə çevriliş deməkdir. Heydər Əliyev anlamında özəlləşdirmənin sosial-iqtisadi məqsədi - hər bir vətəndaşın iqtisadi islahatlarda şəxsi marağını təmin etmək və əhalinin həyat səviyyəsini yüksəltmək, iqtisadi məqsədi isə sağlam rəqabətə əsaslanan istehsal üçün şərait yaratmaqdır.

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 2, səh. 492.

Bununla belə, Heydər Əliyev daim belə bir yanlış fikirə qarşı çıxmışdır ki, təkcə özəlləşdirmə aparmaqla bütün iqtisadiyyat sahəsində hər şeyi əldə edəcəyik. Halbuki həmin fikir bəzilərinə siyasi kapital toplamaq üçün, digərlərinə isə bu özəlləşdirmədən şəxsi məqsədlərindən ötrü istifadə etmək üçün lazım idi.

Heydər Əliyev özəlləşdirməni ağılla, kamalla, təmkinlə, ancaq gecikmədən, sürətlə həyata keçirməyi tövsiyə etməklə, bu prosesi iki əsas prinsip əsasında həyata keçirməyi məqsədəmüvafiq hesab edir: birincisi, dövlət əmlakının özəlləşdirilməsində sosial ədalətin qorunması; ikincisi, özəlləşdirmənin optimal müddətdə aparılması.

Qeyd etmək lazımdır ki, son dövrlərə qədər özəlləşdirmə sahəsində Azərbaycanda aparılan işlər qənaətedici deyildi.

1993-cü ilin yanvar ayında Azərbaycan Respublikasının Milli Məclisi dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında qanun qəbul etmişdir. Lakin mülkiyyət münasibətlərinin islahatı üçün hüquqi zəmin yaradan həmin qanun qəbul edildikdən sonra uzun müddət respublikada özəlləşdirmə sahəsində nəzərəçarpacaq heç bir konkret tədbir görülməmişdir. Dövlət Əmlak Komitəsi özəlləşdirməyə dair kompleks proqramın və onu həyata keçirmək üçün keyfiyyətli normativ sənədlərin hazırlanmasını təmin edə bilməmişdir. Komitənin təqdim etdiyi sənədlərdə özəlləşdirmənin lazımi miqyasda aparılması nəzərdə tutulmurdu, Azərbaycan Respublikasının Nazirlər Kabineti isə vəziyyəti

düzəltmək üçün nəinki zəruri tədbirlər görmür, hətta respublikada özəlləşdirmə prosesinin inkişafına mane olurdu.

Bunları nəzərə alaraq Heydər Əliyev 1995-ci il martın 8-də "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsi sahəsində əməli tədbirlər haqqında" fərman imzaladı. Həmin fərmanda respublikada mülkiyyət islahatını sürətləndirmək və onun mütəşəkkil getməsini təmin etmək məqsədi ilə özəlləşdirmə haqqında qanuna uyğun olaraq Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsinin kompleks və hərtərəfli proqramının hazırlanması və Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi proqramını hazırlamaq məqsədi ilə Dövlət Komissiyasının yaradılması zəruri hesab edildi.

Fərmanda nəzərdə tutulurdu ki, dövlət mülkiyyətinin özəlləşdirilməsi proqramında özəlləşdirmənin əsas istiqamətləri və müddətləri, mülkiyyətin qiymətləndirilməsi üsulları, özəlləşdirilən dövlət mülkiyyətindən respublika vətəndaşlarına çatacaq əvəzsiz payın miqdarı və onun bölüşdürülməsi qaydası müəyyən edilsin. Özəlləşdirmə prosesində əhalinin bütün təbəqələrinin sosial müdafiəsini təmin edən tədbirlərin həyata keçirilməsi nəzərdə tutulsun və xüsusən Vətəni qoruyarkən həlak olmuş şəhidlərin ailələrinin və qaçqınların sosial müdafiəsinin təmin olunmasına fikir verilsin.

Özəlləşdirmə ilə bağlı bütün çıxışlarında Heydər Əliyev dövlət əmlakının dağıdılmasına qarşı qətiyyətlə mübarizəyə səsləmiş, belə hallara son qoyulmasını tələb etmişdir. Bu

mənada respublika Nazirlər Kabinetinin 1996-cı il yanvarın 8-də keçirilən ilk iclasında onun söylədiyi fikirlər çox səciyyəvidir. O demişdir: "Mən hamını xəbərdar edirəm ki, heç kəs belə tədbirlərin keçirilməsi ilə bağlı, öz sərəncamlarında olan əmlakın, binaların, maddi vəsaitlərin dağıdılmasına yol verməsin. Bunları qorumaq hər bir şəxsin borcudur. Bu xəbərdarlığı xüsusən ona görə edirəm ki, son illərdə respublikamızda, təəssüf ki, belə dağıdıcı proses gedibdir. Ayrı-ayrı nazirliklərin, idarələrin, komitələrin rəhbərləri onların sərəncamında olan, məsələn, binanın, əmlakın bir hissəsini hansı şərtlərləsə kiməsə veriblər, başqa maddi vəsaitlərin bəzi hissəsini dağıdıblar. Bunlar da iqtisadiyyatımıza, respublikanın iqtisadi potensialına çox ağır zərbələr vurubdur.

Əgər bir kəs nazirdirsə, rəhbərlik etdiyi nazirlik onun şəxsi mülkiyyəti deyildir. Əgər bir kəs böyük müəssisənin rəhbəridirsə, o müəssisə onun şəxsi mülkiyyəti deyildir. Onun ixtiyarı yoxdur ki, müəssisənin bir hissəsini özbaşına götürüb hansısa bir kommersiya strukturuna və ya başqa birisinə versin. Biz indi özəlləşdirməyə gedirik. O müəssisələr ki, səhmdar cəmiyyəti tərəfindən idarə ediləcək, orada da heç kimin ixtiyarı olmayacaq ki, hətta özəlləşdiriləndən sonra da bu müəssisələrdən özbaşına istifadə etsin. Təəssüf ki, hələlik belə hallara çox rast gəlirik.

Keçmişdə respublikamızda İttifaq tabeliyində olan çoxlu layihə, elmi tədqiqat institutları, ayrı-ayrı təşkilatlar olubdur. İndi onlar öz funksiyalarını itiriblər, binalarının bir hissəsində başlarını girləyirlər, bir hissəsini də götürüb ona-

buna verirlər. Nə ixtiyarları var, kimin ixtiyarı var? Yoxdur! Ona görə belə olubdur ki, respublikanın rəhbərliyi tərəfindən bu işə nəzarət edilməyib, özbaşınalıq olubdur, kim nə istəsə edibdir. Buna yol vermək olmaz və buraxılan bütün səhvlər düzəldilməli və bundan sonra qarşısı çox qətiyyətlə alınmalıdır"[1].

Təəssüf ki, son illərə qədər respublikadakı sənaye, nəqliyyat müəssisələrində və başqa müəssisələrdə yararlı dəzgahlar, avadanlıq və başqa şeylər sökülür, dağılırdı. Bunları cürbəcür yollarla respublikadan çıxarır, xarici ölkələrə satırdılar və ayrı-ayrı adamlar bundan şəxsi mənfəət götürürdülər.

Aqrar bölmədə hökm sürən təsərrüfatsızlıq ölkə rəhbərini xüsusilə narahat edirdi. Onun dediyi aşağıdakı sözlər diqqəti cəlb edir: "Bu yaxınlarda mənə məlumat gəlmişdir ki, Füzuli, İsmayıllı rayonlarında şərab zavodlarının çənlərini, avadanlığını kəsirlər, götürürlər, yığırlar, aparıb xaricdə satırlar. Mən göstəriş vermişəm ki, bunları yoxlasınlar. Bu adamlar cəzalanacaqlar, özü də ən şiddətli cəza alacaqlar, siz onu bilməlisiniz. Ancaq bu işlə təkcə Prezident məşğul olmamalıdır. Axı, bu iynə deyil, əgər şərab zavodlarının çənlərini kəsib doğrayırlarsa, bu, insanların gözü qabağında olur. Verilən məlumatdan belə görünür ki, orada həm dövlət orqanları, həm də inzibati orqanlar iştirak edirlər. Mənə yazılan o məktubdan görünür ki, hətta hərbi hissədən olan adamlar da iştirak edirlər. Demək, yığışırlar, ümumi,

---

[1] «Azərbaycan» qəzeti, 10 yanvar 1996-cı il.

şəxsi mənafelərini bir yerə qoyurlar, dövlətin əmlakını dağıdırlar. Beləliklə, iqtisadiyyatımıza nə qədər zərbələr vururlar.

Bilirsiniz, burada bəzi adamlar özlərinə şirkətlər, firmalar yaradırlar. Firmanın məqsədi nədir? Guya onların məqsədi Azərbaycanda metal qırıntısı yığıb satmaqdır. Bu şirkətlərin də bəziləri bizim rəhbər vəzifəli şəxslərin himayəsi altındadır. Metal qırıntısı həmişə yığılıb, yığılmalıdır. Ancaq bu metal qırıntısı yığılıb dövlətə verilməlidir. Əgər gedib küçəyə, harayasa atılmış metalı yığırsa, gətirirsə, bu başqa məsələ. Ancaq gedib dövlətin zavodunu, fabrikini, digər istehsal, sənaye, nəqliyyat müəssisəsini söküb-dağıdırsa, bu, biabırçılıqdır, cinayətdir. Bunun qarşısı alınmalıdır"[1].

Elə həmin iclasda Heydər Əliyev Nazirlər Kabinetinə və baş nazirə qəti göstəriş vermişdir ki, bu məsələni xüsusi araşdırsınlar və bunların qarşısının alınması üçün tədbirlər görsünlər.

Son illər struktur dəyişiklikləri ilə bağlı ştat sayının mütəmadi ixtisarı ilə əlaqədar mərkəzi aparatların işçilərinin sayı bir neçə dəfə azalmış və nəticədə inzibati binalarda tələbatdan artıq sahələr yaranmışdır. Lakin təəssüf doğuran odur ki, bina və qurğuların böyük hissəsindən təyinatı üzrə istifadə olunmur.

Faktlara müraciət edək. "Azərtunelmetrotikinti" Dövlət

---

[1] «Azərbaycan» qəzeti, 8 yanvar 1996-cı il.

Şirkətinin 2037 kvadrat metr sahəsi olan inzibati binasının 837 kvadrat metri və ya 41,1 faizi tikinti trestinə və xarici firmalara icarəyə verilib. Nəinki mərkəzi idarəetmə orqanlarının, hətta müəssisə və təşkilatların inzibati bina və qurğularının çox hissəsi də icarəyə verilmişdir. Bakı şəhərində yerləşən "Azərsutikinti" Dövlət Konserninin 4 müəssisəsində ümumi sahəsi 4568 kvadrat metr olan inzibati binaların 1613 kvadrat metr sahəsi və ya 35,4 faizi müxtəlif kommersiya qurumlarına icarəyə verilmişdir.

Ən acınacaqlısı odur ki, bəzi icarəçilərin özlərini icarəyə götürdükləri binaların sahibləri kimi aparması, hətta icarə haqqının ödənilməsindən boyun qaçırması halları da mövcud olmuşdur. Məsələn, "Azərsutikinti" Dövlət Konserninin Bakı şəhərinin Yasamal rayonunda tikilmiş binasının birinci mərtəbəsinin 150 kvadratmetr sahəsi 1991-ci ildən "Borçalı" kiçik müəssisəsinə 5 illiyə icarəyə verilmişdir. Uzun müddət ərzində həmin kiçik müəssisə icarə haqqı ödəməmiş, üstəlik 1617 kvadrat metr sahəni də zəbt etmişdir.

Yaranmış belə vəziyyət mərkəzi idarəetmə orqanları rəhbərlərini qane etdiyinə görə onlar tabeliklərindəki müəssisə və təşkilatların özəlləşdirilməsinə bu və ya digər formada mane olurlar.

Dövlət Əmlak Komitəsi tərəfindən aparılan araşdırmalar zamanı aşkar edilmişdir ki, Bakı şəhəri, Azadlıq prospekti, 153 ünvanında yerləşən, sərhəd qoşunlarına məxsus 1260 kvadratmetrlik üçmərtəbəli internat binası əsassız olaraq 1992-ci ildə "Qaraqaya" Assosiasiyasına, Ceyhun Hacıbəyli

küçəsi, 26 ünvandakı keçmiş "Krasnaya Zvezda" qəzetinin 165 kvadratmetrlik mətbəə binası 300 min manat dəyəri ödənilməklə 1994-cü ildə qeyri-qanuni olaraq "Alfa" Səhmdar Kommersiya Bankına, Həzi Aslanov qəsəbəsində yerləşən keçmiş hərbi şəhərciyin 2 hektardan çox torpaq sahəsi ilə birlikdə, ümumi sahəsi 3290 kvadratmetr olan 15 bina 1991-ci ildə 197.800 rubla "Nika" firmasına, keçmiş Zaqafqaziya hərbi ticarət idarəsinə məxsus olan, Nərimanov prospekti, 80 ünvanda yerləşən 708 kvadratmetrlik mətbəxyeməkxana binası "Qamma" kooperativinə, hətta özəlləşdirilməsi dövlət proqramı ilə qadağan olunan "Almaz" yay kino-teatrı qanunsuz olaraq "Azərkooptikintiticarət" topdansatış universal bazasına satılmışdır. Beyləqan rayon yağ-pendir zavodunun 1 milyard 800 milyon manat dəyərində olan istehsal korpusunun, Bakı süd kombinatının 147 milyon manat dəyərində əsas vəsaitlərinin dağıdılması aşkar edilmişdir.

Bakı biskvit icarə müəssisəsində əsas vəsaitlərin uçotu,icarəyə verilməsi, səmərəli istifadə edilməsi, yenidən qiymətləndirilməsi yoxlanan zaman bir sıra ciddi nöqsanlar, çatışmazlıqlar və dövlət əmlakının dağıdılması halları müəyyən olunmuşdur. Belə ki, 2 nömrəli sexdə müxtəlif adda 16 ədəd əsas vəsaitin mühasibat qeydiyyatında göstərilmədiyi və ümumi balans dəyəri 20 milyon 365 min manat olan müxtəlif adda 5 ədəd avadanlığın naməlum səbəbdən olmadığı müəyyən edilmişdir. Eyni zamanda, "Azərsüdticarət" topdansatış bazasından dəyəri 1 milyard 432 milyon manat olan "Koxe Vatter" yağı alınmış, lakin

bu yağ biskvit icarə müəssisəsinin anbarına mədaxil edilməmiş və müəssisənin kreditor borclarının siyahısında əks etdirilməmişdir.

"Avtoərzaqnəqliyyat" İcarə Birliyinin baş təsərrüfatında əsas vəsaitlərin səmərəli istifadə olunması, yenidən qiymətləndirilməsi yoxlanan zaman bir sıra ciddi nöqsan və çatışmazlıqlar müəyyən olunmuşdur.

Bunları nəzərə alan ölkə başçısı Dövlət Əmlak Komitəsindən tələb etmişdir ki, respublikada dövlət əmlakının özəlləşdirilməsi sahəsində indiyədək olan faktları təhlil etsin, özəlləşdirmədə qanunvericiliyə zidd qərar və əqdlərin etibarsız sayılması üçün qanunla müəyyənləşdirilmiş tədbirlər görsün.

Heydər Əliyevin tələbi ondan ibarətdir ki, özəlləşdirmə qanun çərçivəsində, dövlət əmlakının, dövlətin varidatının qorunması yolu ilə getsin. Eyni zamanda adamlara şərait yaratmaq lazımdır ki, onlar özəlləşdirmədən səmərəli istifadə edib, təşəbbüskarlığı artıra bilsinlər, istehsal artırıla bilsin. Bunlar hamısı isə xalqın rifahının yaxşılaşdırılmasını təmin etməlidir.

Özəlləşdirmənin iqtisadi islahatlar üçün aktuallığını nəzərə alaraq Prezident 1996-cı il aprelin 8-də "Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsinin həyata keçirilməsinə nəzarətin təmin edilməsi haqqında" sərəncam imzalamışdır. Sərəncamda Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramının həyata keçirilməsini sürət-

ləndirmək, bu sahədə qanunçuluğun tələblərinə riayət olunması və dövlət mənafelərinin qorunması məqsədi ilə bir sıra mühüm tapşırıqlar verilmişdir. Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsinin həyata keçirilməsi, o cümlədən özəlləşdirilən dövlət mülkiyyətinin ilkin qiymətinin müəyyənləşdirilməsi və həmin mülkiyyətin satılması üçün hərracların və müsabiqələrin keçirilməsi sahələrində nəzarəti təmin etmək üçün Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Komissiyası yaradılmışdır.

Bir qədər sonra (1996-cı il mayın 3-də) Prezident bu məsələyə yenidən qayıtmış və "Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsinin həyata keçirilməsinə nəzarəti təmin edən Dövlət Komissiyasının yeni tərkibi haqqında" sərəncam imzalamışdır.

Son vaxtlar iqtisadiyyatımızın liberallaşmasına, özəl bölmənin inkişafına təkan verən, bütövlükdə isə sərbəst bazar iqtisadiyyatı yaradılmasının hüquqi bazası olan qanunlar və normativ sənədlər qəbul edilmişdir. Onların ən vaciblərindən biri də şübhəsiz ki, "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı"dır. Onu da qeyd etmək lazımdır ki, özəlləşdirməyə əməli olaraq başlanması sahəsində dönüş anı Nazirlər Kabinetinin 1996-cı il iyulun 18-19-da keçirilmiş iclası və həmin iclasda Heydər Əliyevin proqram xarakterli nitqi ilə bağlıdır. Bunun əyani sübutu olan bir neçə fakta müraciət edək.

Həmin iclasın keçirildiyi vaxtdan bəri Prezidentimiz iqtisadiyyatla bağlı 70-ə yaxın fərman və sərəncam imzalayıb. Onların bir çoxu bilavasitə özəlləşdirmə prosesini sürətləndirməyi təmin edən sənədlərdir. Halbuki Dövlət Əmlak Komitəsinin yarandığı vaxtdan 1996-cı ilin iyul ayınadək bu sahədə cəmi iki fərman imzalanmışdı.

Məhz ötən bir ildə qəbul edilmiş bu fərmanlar əməli işə keçməyin başlanğıcı oldu. Dövlət Əmlak Komitəsi təcili olaraq bir sıra tədbirlər gördü. Kiçik özəlləşdirmənin aparılmasını, səhmdar cəmiyyətlərinin, milli depozit sisteminin, çek auksionlarının fəaliyyətini tənzimləyəcək bir çox normativ sənədlər hazırlandı.

Maraqlıdır ki, Prezidentin də dəfələrlə söylədiyi kimi, Azərbaycanda özəlləşdirmənin bir qədər gec başlanmasının respublikamız üçün müsbət nəticəsi olmuşdur. Belə ki, bir sıra digər ölkələrdə aparılan özəlləşdirmə təcrübəsinə tənqidi yanaşmaqla, Azərbaycanda bu prosesin özünəməxsus modeli hazırlanmışdır. Məsələn, bir sıra ölkələrdə (Rusiya, Çexiya, Slovakiya, Baltikyanı dövlətlər) mülkiyyətin əhali arasında pulsuz bölüşdürülməsinə, yəni çek özəlləşdirməsinə, bəzi ölkələrdə isə (Polşa, Bolqarıstan, Macarıstan) mülkiyyətin satılması üsuluna üstünlük verilibdir. Azərbaycanda isə iki modelin uzlaşdırılması yolu seçilmişdir. Çek özəlləşdirməsinin nə qədər məsuliyyətli və həssas bir iş olduğunu göstərmək üçün qeyd etmək lazımdır ki, bir sıra dövlətlərdə, məsələn, Rusiyada çeklərin iki dəfə dövriyyəyə buraxılması halları olmuşdur. Azərbaycanda isə sifarişçinin gözü qarşısında, qəbul edilmiş çekin bir hissəsi ona qəbz

kimi verilir. Bu, çeklərin ikinci dəfə dövriyyəyə buraxılmasının qarşısını almaqla, həm də qiymətli kağızların saxlanması kimi problemin həlli zərurətini aradan qaldırır. Azərbaycanda mərkəzləşdirilmiş, yəni milli depozit sisteminin mövcudluğu imkan verir ki, məsələn, Rusiyada olduğu kimi səhmdarların müəssisə rəhbərlərindən asılı vəziyyətə düşməsinə yol verilməsin. Baltikyanı dövlətlərdə vətəndaşın ölkədə neçə il yaşamasından asılı olaraq məhdudlaşdırıcı üsul tətbiq edilirsə, bizdə özəlləşdirmə payları heç bir məhdudiyyət qoyulmadan Azərbaycan Respublikasının bütün vətəndaşlarına verilir. Rusiya, Gürcüstan və digər dövlətlərdən fərqli olaraq, Azərbaycanda səhmlər üçün veriləcək çeklərin minimum həddi tətbiq edilməyib.

Özəlləşdirmənin dinamikası göstərir ki, vətəndaşlarımız günü-gündən öz talelərini iqtisadi islahatlarla sıx bağlamağa, bu islahatlarda şəxsən iştirak etməyə çalışırlar. Bu da ilk növbədə, iqtisadiyyatda Heydər Əliyev siyasətinə olan inamın nəticəsidir. Həmin uğurun göstəriciləri isə aşağıdakılardır.

İqtisadi islahatların mühüm istiqaməti olan özəlləşdirmə prosesi 1997-ci ildə sürətlə davam etdirilmiş, kiçik özəlləşdirmə demək olar ki, başa çatdırılmışdır. 1998-ci ilin əvvəllərinə 13 mindən çox kiçik müəssisə özəlləşdirilərək xüsusi mülkiyyətə verilmişdir. 1997-ci ildə özəlləşdirmədə həlledici mərhələ olan böyük özəlləşdirməyə, yəni orta və iri dövlət müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi prosesinə başlanmışdır. 1997-ci ildə hər bir vətəndaşa verilən 4 çekdən ibarət özəlləşdirmə payı əhalinin

iqtisadi fəallığını, onun özəlləşdirmədə iştirakını xeyli artırmışdır. Bu tədbirin başlanması ilə hər bir vətəndaş islahatların bilavasitə fəal iştirakçısına çevrilmişdir. 1997-ci il ərzində 870 orta və iri dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsi haqqında qərar qəbul edilmişdir.

Müəssisələrin səhmlərinin satışına dair keçirilən 14 çek hərracından 409 və 13 pul hərracından 69 müəssisənin səhmlərinin 70 faizi satılmışdır. Bu hərraclarda Kənd Təsərrüfatı Nazirliyi sisteminə daxil olan 106 müəssisə, 54 taxıl məhsulları, 78 xidmət, 40 yeyinti, 18 mebel, 22 iri ticarət, 30 xalq üçün mallar müəssisəsi və başqaları özəlləşdirilmişdir.

Özəlləşdirmə prosesində Azərbaycan Respublikasının vətəndaşları ilə yanaşı, xarici vətəndaşlara da iştirak etmək hüququ verilmişdir.

1997-ci il ərzində özəlləşdirmədən dövlət büdcəsinə 150 milyard manata (35 milyon ABŞ dolları) yaxın vəsait daxil olmuşdur.

Ölkədə özəlləşdirmə tədbirlərinin həyata keçirilməsi, həmçinin azad sahibkarlığın və şəxsi təşəbbüskarlığın inkişafına şərait yaradılması nəticəsində 1997-ci ilin sonuna ümumi daxili məhsulda özəl bölmənin payı nəzərəçarpacaq dərəcədə artmışdır.

Sahibkarlığın inkişafını sürətləndirmək və onun dövlət tərəfindən tənzimlənməsinin səmərəli mexanizminin qurulmasını təmin etmək məqsədi ilə 1997-ci ilin iyun ayında Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi

proqramı (1997-2000-ci illər) təsdiq edilmişdir. Sahibkarlığın inkişafının dövlət tərəfindən hərtərəfli dəstəklənməsi, ona lazımi şərait yaradılması sahibkarlıqla məşğul olan şəxslərin sayının 1997-ci ildə artmasına imkan vermişdir.

Aydındır ki, islahatların dərinləşməsi və mülkiyyət formasının dəyişməsi iqtisadiyyatın idarəetmə strukturunun köklü surətdə dəyişməsini tələb edir. Bununla əlaqədar olaraq 1996-cı ildə başlanmış tədbirlər 1997-ci il ərzində də davam etdirilmişdir. Keçmiş Ticarət Nazirliyi və Xarici İqtisadi Əlaqələr Nazirliyinin bazasında yeni nazirlik yaradılmış, bir sıra dövlət konsernləri və şirkətləri ləğv edilmişdir. Heydər Əliyevin dəfələrlə qeyd etdiyi kimi, bu sahədə həyata keçirilən tədbirlərin əsas məzmunu ondan ibarətdir ki, mərkəzi icra hakimiyyəti orqanları (nazirliklər və komitələr) təsərrüfat fəaliyyətindən azad edilməli, onlar yalnız dövlət tənzimlənməsi funksiyalarını həyata keçirməlidir. Təsərrüfat fəaliyyəti ilə məşğul olan dövlət şirkətləri isə dövlət tənzimlənməsi funksiyalarından azad edilməlidir.

Ölkə iqtisadiyyatına güclü kapital axını başlandığı indiki dövrdə böyük kapital qoyuluşunu mənimsəyə və gerçəkləşdirə bilən çevik və rəqabət qabiliyyətli yerli tikinti müəssisələrinin yaradılmasının zəruriliyini nəzərə alaraq tikinti kompleksinin inhisarsızlaşdırılması və özəlləşdirilməsi tədbirlərinə başlanmışdır. Bu məqsədlə 1997-ci ilin dekabrında qəbul olunmuş fərmanla tikinti sahəsində fəaliyyət göstərən 9 dövlət şirkəti və konserni ləğv olunmuş, onların müəssisə və obyektləri özəlləşdirilmək üçün Dövlət Əmlak Komitəsinə verilmişdir.

Bütün bunlar göstərir ki, Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda həyata keçirilən iqtisadi islahatlarda dövlət mülkiyyətinin özəlləşdirilməsinin mühüm yeri vardır.

Özəlləşdirmə demək olar ki, iqtisadiyyatın bütün sahələrində geniş yayılmaqdadır. Bu isə öz növbəsində müstəqil Azərbaycan Respublikasında bazar iqtisadiyyatının sürətlə inkişaf etməsinə, ölkənin xarici iqtisadi əlaqələrinin dərinləşməsinə və iqtisadi səmərəliliyin yüksəldilməsinə zəmin yaradır.

## 4.2. Heydər Əliyev və aqrar islahatlar

Kənd təsərrüfatı iqtisadiyyatımızın böyük bir hissəsini təşkil edir. Azərbaycanda ümumi daxili məhsulun dörddə bir hissəsi bu sahədə yaradılır və əmək qabiliyyətli əhalinin üçdə bir hissəsindən çoxu burada çalışır. Aqrar sahə ölkənin ixracatında əhəmiyyətli paya malikdir. Respublika iqtisadiyyatının vəziyyəti, əhalimizin ərzaqla, kənd təsərrüfatı məhsulları ilə təmin edilməsi əsasən kənd təsərrüfatı işlərindən, istehsaldan, əldə olunan məhsullardan çox asılıdır. Respublika iqtisadiyyatının digər sahələrinin, o cümlədən sənayenin də bu məhsullara tələbatı böyükdür. Ona görə də aqrar sahə Heydər Əliyevin daim diqqət mərkəzində durmuşdur. O, kənd təsərrüfatı problemlərinin həllinə həsr olunmuş müşavirədəki nitqində demişdir: "...kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatında, bir tərəfdən böyük yer tutur,

digər tərəfdən isə iqtisadiyyatımıza həm mənfi, həm də müsbət təsir göstərə bilir. Sənayenin də bir hissəsi, ola bilsin, böyük bir hissəsi kənd təsərrüfatı məhsulları istehsalı ilə bağlı olduğuna görə kənd təsərrüfatının Azərbaycan iqtisadiyyatı üçün böyük əhəmiyyəti var"[1].

90-cı illərin əvvəllərindən başlayaraq ölkənin aqrar istehsal sahəsində yaranmış gərgin vəziyyət burada cəsarətli addımlar atmağı, radikal islahatlar aparmağı tələb edirdi. Lakin o dövrdə iqtidarda olan qüvvələrin bu barədə heç təsəvvürləri belə yox idi. Hətta Azərbaycan kəndlilərinin böyük əksəriyyəti üçün dolanışıq mənbəyi olan pambıqçılığa və tütünçülüyə qarşı əks-təbliğat kampaniyası başlanmışdı. 1993-cü ilin əvvəllərində o zamankı iqtidar aqrar sahədə radikal islahatlar aparmaq əvəzinə, keçmişə qayıtmağa - kolxoz və sovxozları saxlamaqla icarə üsulunun tətbiqinə də uğursuz cəhd göstərdi.

Lakin həmin dövrdə Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən bu diyarda aqrar islahatın həyata keçirilməsinin ilk addımları atıldı. Həmin məqsədlə Muxtar Respublikanın Ali Məclisinin sessiyasında aqrar islahata dair xüsusi qərarlar qəbul olundu. Ölkə başçısı kənd təsərrüfatının düşdüyü ağır vəziyyətdən çıxış yolunu bu sahədə köklü islahatlar aparılmasında görürdü. Muxtar Respublikanın Ali Məclisi sessiyasının qərarlarından biri zərərlə işləyən kolxoz və sovxozların ləğv olunması və onların bazasında özəl təsərrüfatlar yaradılması

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 445.

haqqında, ikinci qərar isə gəlirlə işləyən kolxoz və sovxozlarda heyvandarlığın özəlləşdirilməsi və onun əsasında şəxsi təsərrüfatlar yaradılması haqqında idi.

Heydər Əliyevin təklifi ilə Muxtar Respublikanın Nazirlər Kabineti kənd təsərrüfatı sahəsində islahatların həyata keçirilməsi ilə bağlı təkliflər hazırladı. İslahatların aparılması üçün tərkibinə rəhbər işçilərin, mütəxəssis və alimlərin, bilavasitə aqrar sahədə çalışan adamların daxil olduğu komissiyalar yaradıldı və islahatların həyata keçirilməsinə dair proqram hazırlanmağa başlanıldı.

Göstərilən qərarlara uyğun olaraq bir neçə dağ kəndində aqrar islahatlar aparıldı. Azərbaycanda ilk belə kompleks tədbir Culfa rayonunun "Azərbaycan" sovxozunda həyata keçirildi. Həmin sovxozun bazasında 4 kəndli (fermer) təsərrüfatı, 10 şəxsi təsərrüfat yaradıldı, 783,7 hektar suvarılan və dəmyə əkin sahələri, biçənək kəndlilərin mülkiyyətinə verildi, 221 baş mal-qara, tövlələr və digər əmlak özəlləşdirildi. Yeni yaranan özəl qurumlara xidmət göstərmək məqsədi ilə kənd təsərrüfatı maşınları və mexanizmləri bazasında texniki xidmət müəssisələri yaradıldı. Bu təcrübə rayonun ucqar təsərrüfatlarında tətbiq edildi və Culfa rayonunun bütün təsərrüfatlarında islahatlar kompleks şəkildə həyata keçirilməyə başlandı.

İqtisadiyyatımızın bazar münasibətlərinə keçirildiyi indiki şəraitdə Heydər Əliyev aqrar sahədə islahatların digər sahələrə nisbətən daha tez aparılmasını dəfələrlə məsləhət görmüş, bu məqsədin reallaşması üçün çox əmək və vaxt

sərf etmişdir. Son 2-3 il ərzində onun rəhbərliyi altında aqrar sahədə mülkiyyət formasının dəyişdirilməsi və idarəetmənin təkmilləşdirilməsi üzrə bir sıra ciddi tədbirlər hazırlanmış və həyata keçirilmişdir.

Heydər Əliyevin iqtisadi məntiqi kənd təsərrüfatını iqtisadiyyatın digər sahələri üçün baza hesab etməklə, kənd təsərrüfatının strukturunun təkmilləşdirilməsi, Azərbaycanın xammal ixrac edən ölkədən son məhsul istehsal və ixrac edən ölkəyə çevrilməsi üçün yolların dəqiqləşdirilməsini əsas sayır.

Kənd təsərrüfatına belə üstünlük verilməsi bu sahənin təbiətinə dərin bələd olmaqdan, buradakı zəngin milli sərvətlərimizi layiqincə qiymətləndirməkdən və onlardan səmərəli istifadənin əhəmiyyətini başa düşməkdən, aqrar bölmənin təkcə iqtisadi deyil, həm də sosial dəyərini dəqiq müəyyənləşdirməkdən irəli gəlir.

Heydər Əliyev Azərbaycana ikinci dəfə rəhbərliyə başladığı dövrdə iqtisadiyyatımızın düçar olduğu böhran aqrar sahədə özünü xüsusilə güclü göstərirdi. O, həmin böhranın səbəblərindən danışarkən demişdir: "Kənd təsərrüfatında, ümumiyyətlə, iqtisadiyyatımızda bu böhranın səbəbləri çoxdur. Biri də odur ki, biz əvvəlki iqtisadi sistemdən, iqtisadiyyatın təşkili və idarə edilməsi ilə bağlı köhnə prinsiplərdən yenisinə keçirik. Bu keçid dövrü uzanmış, həmin mərhələdə lazımi tədbirlərin görülməsi ləngimiş və köhnə sistem üzrə aparılan işlərin səviyyəsi də aşağı düşmüşdür. Səmərə verə biləcək yeni sistem isə hələ ya-

ranmamışdır. Bu, kənd təsərrüfatında da özünü göstərir. Uzun illər kənd təsərrüfatı istehsalının bazası kolxoz və sovxozlar olmuşdur. İstehsalın təşkilinin bu formalarının səmərəsizliyi barədə son illər çox danışıqlar, müzakirələr getmişdir. Bazar iqtisadiyyatına, sərbəst iqtisadiyyata keçilməsi ilə kənddə, kənd təsərrüfatı istehsalı formalarında da dəyişikliklər meydana gəlmişdir. Ancaq təəssüf ki, bu sahədə də məsələlər çox uzanmış, tədbirlər çox ləng görülmüşdür. Bütün bunlar isə kənd təsərrüfatı istehsalının azalmasına gətirib çıxarmışdır. Lakin səbəb təkcə bu deyildir. Nizam-intizamın pozulması, dağıdıcı proseslərin çox geniş yayılması, iqtisadiyyata münasibətin zəifləməsi, cürbəcür mənfi meyllərin ortaya çıxması və xüsusən müharibə şəraiti iqtisadiyyatın son dərəcə tənəzzülə uğramasına səbəb olmuşdur və bu, kənd təsərrüfatında da öz əksini tapmışdır"[1].

Aqrar islahatların zəruriliyi və onların aparılmasında yol verilən nöqsanlar barədə Heydər Əliyev 1994-cü il martın 4-də Prezident sarayında kənd təsərrüfatı problemlərinin həllinə həsr olunmuş müşavirədəki nitqində belə demişdir: "İqtisadiyyatla bu qədər ehtiyatsız davranmaq olmaz. Belə münasibət iqtisadiyyatı dağılmış vəziyyətə gətirib çıxarıb. Yaxud kolxoz və sovxozlara münasibətdə, fermer təsərrüfatlarının, icarə prinsiplərinin tətbiq olunması, kiçik müəssisələrin yaradılması sahəsində də lazımi tədbirlər görülməyib...

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 486-487.

Bəs kənd təsərrüfatında hansı islahatlar aparılıb? İqtisadi islahatların bu gün hansı nəticələri haqqında danışmaq mümkündür? Heç biri yoxdur. Ancaq danışıq, yazı-pozu, məqalə, mübahisə, seminar, cürbəcür konfranslar və s. həddindən artıq olub. Alimlər orada-burada yığışıblar, məruzələr ediblər, amma nəticəsi yoxdur. Nə etməli?

Natiqlərin bəziləri deyirlər ki, müharibə gedən ölkədə kolxoz və sovxoza dəymək olmaz və onu inkişaf etdirmək lazımdır. Bir çoxlarının fikrincə isə şəxsi təsərrüfata keçmək lazımdır. Amma onun yollarını da aydın görmürlər. Bilinmir ki, xüsusi təsərrüfata necə keçmək olar. Hesab edirəm ki, biz artıq sözdən işə keçməliyik. Düzgün başa düşün, bu sistemi dağıtmaq fikrində deyiləm, ancaq kənd təsərrüfatı sahəsində iqtisadi islahatlar yeganə yolumuzdur. Bəs bu islahatları necə, hansı müddətdə keçirmək lazımdır? Bu barədə düşünmək, proqram yaratmaq lazımdır. İndiki halda biz ortada qalmışıq- nə o yanlıq, nə də bu yanlıq bir iş görülmür. Əgər intizamı möhkəmlətmək üçün inzibati-amirlik üsulu tələb olunursa, o artıq yoxdur. İqtisadi səmərəlilik prinsiplərini deyirsinizsə, o da tətbiq olunmayıb.

Belə qeyri-müəyyən vəziyyətdə yaşamaq mümkün deyil"[1].

Hazırda kənd təsərrüfatının inkişafı əsasən iki problem məsələnin həllindən çox asılıdır. Bunlardan birincisi, torpaqların özəlləşdirilməsi, fiziki və hüquqi şəxslərin

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir» c. 1, səh. 451-452.

torpaqdan istifadə hüquqlarının rəsmiləşdirilməsidir. Bu sahədə mövcud olan çətinliklərin aradan qaldırılması üçün hüquqi şəxslərin dövlət qeydiyyatı üzrə bölgə şöbələrinin yaradılması haqqında ölkə Prezidentinin imzaladığı fərman yeni yaradılan yerli sahibkarların və fermer təsərrüfatlarının qeydiyyatdan keçmə prinsiplərinin tətbiqini nəzərəçarpacaq dərəcədə sürətləndirdi.

İkincisi isə kənddə fermerlərin marağına uyğun bank-kredit sisteminin yaradılmasıdır. Kənddə bank-kredit sisteminin yaradılması və onun idarə olunmasında fermerlərin müvafiq vəsaitləri ilə bilavasitə iştirakı təmin edilməlidir. Heydər Əliyevin tapşırığı ilə Avropa Birliyi ilə Azərbaycan hökuməti arasında imzalanmış memorandumda və kredit sxeminin tətbiqi sənədində Azərbaycan Respublikasında özəl bölmədəki fermerlərin vəsaitinin qıtlığını nəzərə alaraq, həmin sənədlərdə göstərilən 30 faiz əvəzinə, özəl təsərrüfatların kredit prosesində öz vəsaitləri hesabına 10 faiz və 30 faizlə iştirakına nail olunmuşdur.

Göstərilən problemin qismən həlli üçün hökumət Prezidentin tövsiyələrinə əsasən xarici sərmayələri bu sahəyə cəlb etmək məqsədi ilə bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. 1996-cı ilin noyabrında Beynəlxalq İnkişaf Assosiasiyası və Beynəlxalq Kənd Təsərrüfatı İnkişaf Fondu (İFAT) ilə aparılmış danışıqlar nəticəsində Naxçıvan Muxtar Respublikasında, Bərdə, Ucar, Lənkəran, Xaçmaz, Salyan rayonlarında 6 nümunəvi özəl kənd təsərrüfatı müəssisəsinin yaradılması layihəsinin tətbiqi üçün 28 milyon ABŞ dolları məbləğində kreditin ayrılması məsələsi həll edilmiş və layi-

hənin tətbiqinə başlanmışdır. Salyan və Xaçmaz rayonlarında bu işlər praktiki olaraq həyata keçirilir.

Heydər Əliyevin aqrar islahatların uğurla həyata keçirilməsi üzrə bütöv bir məntiqə əsaslanan iqtisadi baxışlar toplusu mövcuddur. Onun fikrincə, "bu islahatların keçirilməsi üçün ilk növbədə, komissiya yaradılmalıdır. Həmin komissiyaya təkcə vəzifəli şəxslər deyil, səriştəli adamlar, mütəxəssislər, alimlər, bilavasitə bu sahədə çalışan adamlar daxil olmalıdır. Komissiya kənd təsərrüfatında islahatlar keçirilməsinə dair qısa müddətdə proqram hazırlamalıdır. Həmin proqram bir günlük, bir aylıq olmamalıdır. Biz bilməliyik ki, hər növbəti rübdə nə etməliyik... Bir sözlə, kənd təsərrüfatında iqtisadi islahatlar həyata keçirilməlidir. Şübhəsiz ki, bu işlər görülərkən güclü kolxoz və sovxozlar fəaliyyətini davam etdirməli və bundan ötrü şərait yaradılmalıdır"[1]. Aqrar sahədə islahatların aparılması ilə bağlı məsələləri hərtərəfli götür-qoy etmək üçün ölkə Prezidenti Heydər Əliyevin rəhbərliyi altında bir neçə ümumrespublika əhəmiyyətli müşavirə, konfrans və yığıncaq keçirilmişdir.

1994-cü ildə Çin Xalq Respublikasının, İsrailin,Rusiya Federasiyasının, Qazaxıstan Respublikasının aqrar sahə üzrə iqtisadçı alimlərinin, rəhbər işçilərinin və mütəxəssislərinin iştirakı ilə Milli Məclisdə "Aqrar islahatların aparılması təcrübəsinə dair" beynəlxalq konfrans keçirilmişdir. Daha sonra - 1994-cü il dekabrın 23-də "Aqrar islahatların gedişi", 1995-ci il avqustun 25-də "Respublikada kənd təsərrüfatı

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 452.

işlərinin gedişi və islahatların aparılması vəziyyəti", 1996-cı il iyunun 24-də "Respublikada aqrar islahatın gedişi vəziyyəti və torpaq islahatı haqqında qanun layihəsinin müzakirəsi" mövzuları üzrə toplantılarda, 1996-cı il yanvarın 8-də, aprelin 2-də, mayın 4-də, iyulun 12-də və 18-19-da bilavasitə Prezidentin yanında keçirilən yığıncaqlarda və digər toplantılarda ölkədə iqtisadi islahatların aparılmasının prinsipləri, formaları və mərhələləri müəyyən olunmuşdur.

Bir sıra xarici ölkələrin, o cümlədən Fransanın, İngiltərənin, Almaniyanın, Albaniyanın, Hollandiyanın, Türkiyənin, Türkmənistanın, Çin Xalq Respublikasının, İranın və digər ölkələrin kənd təsərrüfatının idarə olunmasına dair tarixi təcrübələri öyrənilmiş, həmin ölkələrin nümayəndələri respublikaya dəvət olunmuş, burada geniş fikir mübadiləsi aparılmışdır.

Kənd təsərrüfatında iqtisadi islahatlar barədə müxtəlif, çox vaxt da bir-birilə ziddiyyət təşkil edən fikirlərə H.Əliyev belə cavab verir: "... iqtisadiyyatın bütün sahələrində olduğu kimi, kənd təsərrüfatında da nicat yolumuz, perspektivimiz, gələcəyimiz iqtisadi islahatların aparılmasındadır. Kənd təsərrüfatı sahəsində iqtisadi islahatlar aparılması strateji yolumuzdur və biz bu yolla da getməliyik"[1].

Heydər Əliyev iqtisadi baxışının ana xəttini islahatların, o cümlədən kənd təsərrüfatında sosial yönümünün gücləndirilməsi təşkil edir. Ölkə başçısının fikrincə, birinin varlanması digərinin kasıblaşmasına gətirib çıxarmamalıdır.

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 2, səh. 33.

Yəni islahatlar xalqımızın ümumi rifahının yüksəldilməsi üçün həyata keçirilməlidir.

O, göstərir ki, əks təqdirdə, islahatlar səmərəsiz ola bilər və xalq da bunu qəbul etməz.

Aqrar islahatlara çox sistemli və dərin məntiqlə yanaşan Heydər Əliyev öz çıxışlarında bu işə ilk növbədə heyvandarlıqdan başlamağı dəfələrlə tövsiyə etmişdir. Təkcə 1994-cü ildə o, həmin məsələyə 3 dəfə - 18 avqust, 22 sentyabr və 9 dekabr tarixli çıxışlarında toxunmuşdur. Məsələn, avqustun 18-də respublikanın kənd təsərrüfatında 1994-cü ilin birinci yarısının yekunlarına və islahatların keçirilməsi vəziyyətinə həsr olunmuş müşavirədəki çıxışında aqrar islahatlardan danışarkən demişdir ki, islahatları birinci növbədə heyvandarlıq sahəsində aparmalıyıq. Dekabrın 9-da respublika Ali Sovetində "Aqrar islahat: problemlər və onların həlli yolları" mövzusunda beynəlxalq konfransdakı çıxışında isə bu məsələ belə qoyulur: "...əgər ictimai bölmədə olan və az məhsul verən mal-qaranın əksər hissəsi, bəlkə də hamısı özəlləşdirilsə, biz heç bir şey itirməyəcəyik, əksinə, məhsuldarlıq artacaqdır"[1].

Respublikada ictimai bölmədə heyvandarlıqda yaranmış ağır vəziyyət nəzərə alınaraq dövlət başçısının tapşırığı ilə heyvandarlığın özəlləşdirilməsinə başlanılmış və hazırda bu proses başa çatmaq ərəfəsindədir. Belə ki, bu gün mövcud olan qaramalın 98,9 faizi, davarın isə 95,4 faizi xüsusi bölməyə məxsusdur. Hazırda respublikada 1781,8 min baş

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 2, səh. 585.

qaramal və 5 milyon başa yaxın davar mövcuddur. Heyvandarlığın özəlləşdirilməsi ilə əlaqədar iri komplekslərin sökülüb dağılmasının qarşısını almaq, onlardan özəlləşdirmə yolu ilə səmərəli istifadə etmək sahəsində məqsədyönlü iş aparılır.

Heydər Əliyev aqrar islahatlara həmişə yaradıcı yanaşır; onun fikrincə, hərə öz rayonunun xüsusiyyətini nəzərə alaraq iş görməlidir. Uzun illərin rəhbərlik təcrübəsi belə qənaətə gəlməyə imkan verir ki, rayonlar təkcə torpaq sahəsinə görə deyil, kənd təsərrüfatı istehsalının istiqamətlərinə görə, iqlim şəraitinə görə də çox fərqlənir və aqrar islahatlar aparılarkən bunlar mütləq nəzərə alınmalıdır.

Respublikamız tutduğu strateji yolu davam etdirərək, Heydər Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın bütün sahələrində islahatların hazırlanması və həyata keçirilməsi prosesi ilə məşğuldur. 1994-cü ildən başlayaraq bu sahədə əməli təbdirlərin həyata keçirilməsinə başlanıbdır. Bu tədbirləri həyata keçirmək üçün zəruri qanunlar, digər normativ hüquqi aktlar, sənədlər hazırlamaq lazım gəlmişdir.

1994-cü il dekabrın 23-də keçirilmiş respublika müşavirəsində irəli sürülmüş təkliflər, mülahizələr və tənqidi qeydlərlə əlaqədar "Aqrar islahatın əsasları haqqında" və "Kolxoz və sovxozların islahatı haqqında" Azərbaycan Respublikasının qanun layihələrinin işlənməsi üçün 1994-cü il dekabrın 25-də Prezidentin sərəncamı ilə komissiya yaradılmışdır.

Komissiyaya tapşırılmışdır ki, bir həftə müddətində

bütün təklifləri, mülahizələri və tənqidi qeydləri təhlil etsin və onlardan istifadə edərək "Aqrar islahatın əsasları haqqında" və "Kolxoz və sovxozların islahatı haqqında" Azərbaycan Respublikasının qanun layihələrini işləyib Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

Həm ölkə daxilində və həm də xarici ölkələrdə toplanmış təcrübələr aqrar islahatın həyata keçirilməsi üçün hüquqi bazanın yaradılmasından ötrü əsas olmuşdur. 1995-ci il fevralın 18-də "Aqrar islahatın əsasları haqqında" və "Sovxoz və kolxozların islahatı haqqında" qanunlar qəbul edildikdən sonra aqrar islahatın aparılması işində müəyyən aydınlıq yaranmışdır.

Bu qanunlarda aqrar sahədə mülkiyyət münasibətlərinin əsaslı surətdə yenidən qurulması, yeni təsərrüfat formalarının yaradılması, iqtisadiyyatın sərbəstləşməsi, bütün mülkiyyət formalarında bərabər iqtisadi mühitin formalaşması və digər prinsipial məsələlər əksini tapmışdır.

1995-ci il martın 2-də "Dövlət Aqrar İslahat Komissiyasının yaradılması haqqında" fərman imzalandı. "Sovxoz və kolxozların islahatı haqqında" Azərbaycan Respublikası qanununun 5-ci maddəsi rəhbər tutularaq bu komissiya Azərbaycan Respublikasında sovxoz, kolxoz və digər kənd təsərrüfatı müəssisələrinin islahatını aparmaq məqsədi ilə yaradılmışdır. Fərmanda Dövlət Aqrar İslahat Komissiyasına tapşırılır ki:

- aqrar islahat Dövlət Proqramının layihəsini 30 gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- aqrar islahatlarla bağlı qanunların tətbiqi üçün təlimatları, tövsiyələri və digər zəruri sənədləri 30 gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- dövlət mülkiyyətində saxlanılan obyektlərin siyahısını 60 gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

Beləliklə, Dövlət Aqrar İslahat Komissiyası, Naxçıvan Muxtar Respublikası Aqrar İslahat Komissiyası, rayon və yerli aqrar islahat komissiyaları yaradılıb fəaliyyətə başladı. Komissiyaların fəaliyyətini tənzimləyən əsasnamələr hazırlanıb təsdiq edildi və yerlərə çatdırıldı.

Zaqatala və Xızı rayonlarının təsərrüfatlarında islahata başlanıldı. Bu gün artıq həmin rayonların bütün ictimai təsərrüfatları ləğv edilmiş, onların torpaq və əmlakı özəlləşdirilərək minlərlə kəndli (fermer) təsərrüfatı, digər özəl qurumlar, habelə texniki xidmət müəssisələri yaradılıb fəaliyyətə başlamışdır. Həmin rayonların təcrübəsi öyrənilərək digər rayonlarda, xüsusən Tovuz, Neftçala,Cəlilabad, İmişli və s. rayonlarda islahatın təşkili və həyata keçirilməsində müvəffəqiyyətlə istifadə edilir.

Lakin aqrar islahatın həyata keçirilməsi mühüm sənəd olan "Torpaq islahatı haqqında" qanun layihəsi ətrafında gedən mübahisələr üzündən ləngiyirdi. Müxtəlif fikirlər mövcud idi: torpaqları kimlərə verməli - kənd təsərrüfatında işləyənlərəmi, kənddə yaşayan yetkinlik yaşına çatmışlaramı, yoxsa yaşından, peşəsindən, cinsindən asılı olmayaraq bütün

kənd əhalisinə? Belə mürəkkəb vəziyyətdə möhtərəm Prezidentimiz çox müdrik bir qərar qəbul etdi: torpaq kənddə yaşayan bütün əhaliyə bərabər paylarla əvəzsiz verilməlidir.

Nəhayət, üçillik gərgin əməkdən sonra 1996-cı il iyulun 16-da mühüm siyasi, iqtisadi və sosial əhəmiyyət kəsb edən "Torpaq islahatı haqqında" qanun qəbul edildi. Aqrar islahatın kompleks şəkildə həyata keçirilməsini təmin etmək məqsədi ilə "Kooperasiya haqqında", "Meliorasiya və irriqasiya haqqında", "Müəssisələr haqqında" və sair qanunlar da qəbul edildi. Bu qanunların icrasının təmin edilməsi, həmçinin torpaq və əmlakın bölüşdürülərək özəlləşdirilməsi, yeni özəl qurumlar yaradılması, onların dövlət qeydiyyatına götürülməsi və s. barədə onlarla qərar, əsasnamə, qayda və digər zəruri normativ sənədlər hazırlanaraq icra üçün islahat komissiyalarına göndərilmişdir.

Aqrar islahatın ardıcıl, kompleks və sistemli aparılmasını təmin etmək üçün ölkə Prezidentinin tapşırığına əsasən "Aqrar islahatın Dövlət Proqramı" hazırlanmış, respublika, rayon və yerli aqrar islahat komissiyalarının əsasnamələri təsdiq olunmuş, kolxoz və sovxozların kəndli-fermer təsərrüfatlarına, istehsal kooperativlərinə, səhmdar cəmiyyətlərinə, payçı təsərrüfatlara və kiçik müəssisələrə çevrilməsinə dair tövsiyələr, təlimatlar və nizamnamələr hazırlanıb istifadə üçün yerlərə çatdırılmışdır.

"Torpaq islahatı haqqında" Azərbaycan Respublikası qanununun icrası ilə əlaqədar "Azərbaycan Respublikası

Ədliyyə Nazirliyinin hüquqi şəxslərin dövlət qeydiyyatı üzrə bölgə şöbələri haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Özəlləşdirilən dövlət müəssisələrinin və obyektlərinin yerləşdiyi torpaq sahələrinin istifadə edilməsi barədə", "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin pambıqtəmizləmə zavodlarının özəlləşdirilməsi haqqında" Prezidentin verdiyi fərmanlar nəticəsində aqrar islahatlar daha məqsədyönlü xarakter almış və daha da sürətlənmişdir.

1996-cı il avqustun 13-də Prezident "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə" fərman imzaladı. Həmin sənəddə tələb olunur ki, torpaq islahatının və bütövlükdə aqrar islahatın müvafiq qanunvericilik aktlarına uyğun həyata keçirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin, digər mərkəzi və yerli icra hakimiyyəti orqanlarının əsas vəzifələrindən hesab edilsin.

Fərmanda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılır:

- vətəndaşların hüquqlarını və qanunvericiliyə ciddi surətdə riayət olunmasını təmin etmək üçün torpaq islahatının keçirilməsi zamanı vətəndaşların hüquqlarının qorunmasının, torpaq islahatı haqqında qanunvericiliyin vəzifəli şəxslər və vətəndaşlar tərəfindən pozulmasına görə məsuliyyətin, torpaqların istifadəsi və qorunması sahəsində dövlət nəzarətinin gücləndirilməsi zəruriliyi nəzərə alınsın;

- üç ay müddətində "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası qanunundan irəli gələn "Dövlət tor-

paqları haqqında", "Bələdiyyə torpaqları haqqında", "İpoteka haqqında" Azərbaycan Respublikası qanunlarının layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- iki ay müddətində "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası qanununun tətbiqi ilə bağlı olan torpaqların normativ qiymətlərinin müəyyən edilməsi haqqında Əsasnaməni, torpaq islahatı ilə əlaqədar yerquruluşu işlərinin aparılması qaydalarını, kənd təsərrüfatına yararsız və ya azyararlı torpaqların kənd təsərrüfatı məqsədləri üçün istifadəsində güzəştlər edilməsi haqqında Əsasnaməni, yay və qış otlaqlarının bölünməsi və istifadəsi Qaydalarını hazırlayıb təsdiq etsin.

Azərbaycan Respublikasının Dövlət Aqrar İslahat Komissiyasına tapşırılır ki, iki ay müddətində müvafiq əsasnamələrin və qaydaların layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

"Aqrar islahatların həyata keçirilməsini təmin edən bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" 1997-ci il 10 yanvar tarixli fərmanla Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyasının hazırladığı aşağıdakı normativ hüquqi aktlar təsdiq edilmişdir:

- sovxoz, kolxoz və digər kənd təsərrüfatı müəssisələrinin özəlləşdiriləcək torpaqlarının kompleks yerquruluşu layihələrinin hazırlanması və təsdiq edilməsi haqqında Əsasnamə;

- sovxoz, kolxoz və digər kənd təsərrüfatı müəssisələ-

rinin özəlləşdiriləcək torpaqlarının keyfiyyəti nəzərə alınmaqla torpaq paylarının müəyyən edilməsi haqqında Əsasnamə;

- vətəndaşların qanuni istifadəsindəki (fərdi yaşayış evlərinin, həyatyanı sahələrin, fərdi, kollektiv və kooperativ bağların, dövlət bağçılıq təsərrüfatının idarəçiliyindəki bağların) torpaqların onların mülkiyyətinə verilməsi haqqında Əsasnamə;

- sovxoz, kolxoz və digər kənd təsərrüfatı müəssisələrinin torpaqlarının özəlləşdirilməsi (xüsusi hallar nəzərə alınmaqla) haqqında Əsasnamə;

- torpağa mülkiyyət və istifadə hüququna dair sənədlərin hazırlanması, qeydiyyatı və verilməsi haqqında Əsasnamə;

- yardımçı kənd təsərrüfatı üçün sovxoz və kolxozların ərazisindən nazirliklərə, komitələrə, birliklərə, müəssisələrə, idarələrə və təşkilatlara verilmiş torpaqların onların istifadəsində saxlanılması, yaxud bütövlükdə və ya qismən əvvəlki istifadəçilərinə qaytarılması qaydaları;

- torpaqların alqı-satqısı qaydaları;

- kənd təsərrüfatı müəssisələrində əmlakın bölünməsi və onun bir hissəsinin bələdiyyə mülkiyyətinə verilməsi qaydaları.

Bütövlükdə aqrar islahatlara Heydər Əliyevin baxışı bilavasitə onun tövsiyəsi və rəhbərliyi ilə hazırlanmış "Aqrar islahatın əsasları haqqında" qanunda öz əksini tapmışdır. "Aqrar islahatın əsasları haqqında" və "Kolxoz və sovxoz-

ların islahatı haqqında" Azərbaycan Respublikasının qanun layihələri ilə əlaqədar 1994-cü il noyabrın 5-də keçirilmiş respublika müşavirəsində Prezident həmin qanunun zəruriliyindən danışarkən demişdir: "İqtisadi islahatların keçirilməsi üçün xüsusi bir qanunun qəbul olunması zəruridir. Ola bilər, bu qanun əvvəllər qəbul edilmiş qanunların bəzi müddəalarını özündə əks etdirsin. Ancaq əvvəl qəbul edilmiş qanunlar ayrı-ayrı sahələrə aid idi: Torpaq məcəlləsi, kəndli (fermer) təsərrüfatı haqqında və s. qanunlardır. Bunların hər biri aqrar bölmədə islahatların keçirilməsinə, şübhəsiz ki, şərait yaradır. Amma bizə ümumi bir proqram lazımdır. Bu proqram, haqqında söhbət gedən qanunda öz əksini tapmalıdır. Ona görə də belə bir qanunu mütləq qəbul etməliyik"[1].

Onu da qeyd etmək lazımdır ki, həm bu qanunun, həm də aqrar islahatlara dair hazırlanmış digər qanunların layihələri Heydər Əliyevin dərin məntiqli iqtisadi prizmasından keçmiş, cilalanmış və son nəticədə MDB ölkələri arasında, biz deyərdik ki, islahat baxımından ən cəsarətli qanunlar qəbul edilmişdir.

Bu gün iqtisadiyyatımızda, o cümlədən aqrar sahədə yaranmaqda olan sabitləşmənin əsasını müəyyən mənada elə bu qanunlarda axtarmaq lazımdır. Məsələn, "Aqrar islahatın əsasları haqqında" qanunun 1-ci maddəsində göstərilmişdir ki, islahatın məqsədi aqrar bölməni böhrandan çıxarmaq, iqtisadiyyatı sabitləşdirmək, əhalinin sosial-iqtisadi

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 2, səh. 494.

vəziyyətini yaxşılaşdırmaqdır. Bu məqsədə çatmaq üçün torpaq və əmlak üzərində yeni mülkiyyət münasibətlərinin formalaşdırılması, bazar iqtisadiyyatına uyğun istehsal və infrastruktur sahələrində müxtəlif növlü təsərrüfatların yaradılması və inkişafı ilə istehsal münasibətlərinin dəyişdirilməsi və təkmilləşdirilməsi mühüm vəzifələr kimi qarşıya qoyulmuşdur.

Hələ 1994-cü il noyabrın 5-də Prezident sarayında respublikanın kənd təsərrüfatında aparılan islahatların vəziyyətinə həsr olunmuş müşavirədəki yekun sözündə Heydər Əliyev demişdir ki, gərək kənd təsərrüfatı ilə məşğul olan adam torpağın sahibi olsun. Heydər Əliyev torpağı Azərbaycan Respublikasının sərvətlərindən ən qiymətlisi hesab edir. O, bu barədə danışarkən 1997-ci il aprelin 16-da ölkəmizdə iqtisadi islahatların gedişinə, habelə kənd təsərrüfatında cari işlərin vəziyyətinin müzakirəsinə həsr olunmuş müşavirədə göstərir: "... qiymətinə görə torpağa bərabər sərvət yoxdur. Çünki bu, daimi sərvətdir. Bizim yeraltı sərvətlərimiz vardır. Onların müəyyən qədər miqdarı var və müəyyən dövr istifadə edildikdən sonra onlar tükənir. Cürbəcür məsələlər var - yararlıdır, işləyir, öz ömrünü sürüb qurtarır. Amma torpaq, təbiət, daimidir. Ona görə də torpaq islahatı deyəndə bu məsələ barəsində nə qədər yüksək hissiyyatlarla düşünmək lazımdır...

Torpaq çox mürəkkəb bir amildir. Ona görə də torpağın bölünməsi, onun xüsusi mülkiyyətə verilməsi və torpaqdan səmərəli istifadə edilməsi məsələsi kompleks surətdə həll olunmalıdır. "Torpaq islahatı haqqında" qanunun həyata ke-

çirilməsi ilə əlaqədar görülən işləri mən qiymətləndirirəm. Amma hesab edirəm ki, hələ yerli hakimiyyət, kənd təsərrüfatı orqanları da, Kənd Təsərrüfatı Nazirliyi də və bizim Dövlət Aqrar İslahat Komissiyası da bu sahədə istənilən səviyyədə iş görmürlər...

Böyük bir torpaq sahələrinin bölünməsi, şəxsi mülkiyyətə verilməsi və xüsusən ondan istifadə olunması çox mühüm məsələdir. Çünki böyük torpaq sahələrinin təkcə şəxsi mülkiyyətə verilməsi ilə iş bitmir, eyni zamanda su mənbələrindən, irriqasiya, su sistemindən, texnikadan istifadə edilməsi, kənd təsərrüfatı servisi məsələsi - bunlar hamısı kompleks surətdə həll olunmalıdır. Yenə də deyirəm, iş təkcə torpağı bölüb hərənin payını özünə verməkdə deyildir. Bizim vəzifəmiz onu, birincisi, ədalətli bölməkdən ibarətdir. Yəni heç kəs vəzifəsindən sui-istifadə etməsin, ədalətsizlik olunmasın, çünki biz qərar qəbul etmişik, "Torpaq islahatı haqqında" qanunda da var - kənddə yaşayan hər bir vətəndaş torpağın sahibkarıdır. Demək, ona məxsus olan torpaq ona çatmalıdır. Burada ədalət prinsipi gözlənilməlidir və yerli hakimiyyət orqanları buna başları ilə cavabdehdir.

Ancaq bununla yanaşı, torpaqdan səmərəli istifadə olunması üçün şərait yaradılmalıdır. Torpağı xüsusi mülkiyyətə verməkdə bizim əsas məqsədimiz torpaqdan istifadənin səmərəliliyini, torpağın məhsuldarlığını artırmaqdır.

Torpaq şəxsi mülkiyyətdə olanda həmin torpağın sahibi onu göz bəbəyi kimi qoruyacaqdır. Ancaq məsələ təkcə

onun qorunmasında deyildir. Gərək torpağın sahibinə bütün şərait yaradılsın ki, o, bu torpaqdan səmərəli istifadə edə bilsin"[1].

Ümumiyyətlə, Heydər Əliyev anlamında torpaq islahatı xalqın mülkiyyəti olan torpağı təmənnasız olaraq sahibinə - əkinçiyə çatdırmaqdır.

1997-ci il fevralın 8-də Prezident "Torpaqdan və təbii sərvətlərdən səmərəli istifadə olunmasına və onların mühafizəsinə dair Dövlət Proqramının hazırlanması haqqında" sərəncam verdi. Bu sərəncamla Azərbaycan Respublikasında torpaqdan və təbii ehtiyatlardan istifadənin səmərəliliyini artırmaq, ətraf mühitin mühafizəsini təşkil etmək, ölkədə ekoloji tarazlığın pozulmasının qarşısını almaq üçün kompleks tədbirlərin hazırlanıb həyata keçirilməsini təmin etmək məqsədi ilə qərara alınmışdır:

- Azərbaycan Respublikasında torpaqdan və təbii sərvətlərdən səmərəli istifadə olunmasına və onların mühafizəsinə dair Dövlət Proqramı hazırlansın;

- bu proqramın hazırlanması məqsədi ilə Dövlət Komissiyası yaradılsın.

Sərəncamda Dövlət Komissiyasına tapşırılmışdır ki:

- Dövlət Proqramının əsas istiqamətlərini, onun hazırlanmasında iştirak edəcək idarə və təşkilatların vəzifələrini 20 gün müddətində müəyyənləşdirib təsdiq etsin;

---

[1] «Azərbaycan» qəzeti, 18 aprel 1997-ci il.

-1997-ci il oktyabr ayının 1-dək Dövlət Proqramını hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

Məlum olduğu kimi, aqrar islahatın hüquqi əsasını təşkil edən mükəmməl və radikal qanunların tətbiqi ilə əlaqədar Prezident 1997-ci il yanvarın 10-da bir sıra normativ hüquqi aktlar qəbul etmişdir. "Sovxoz və kolxozların islahatı haqqında" qanuna uyğun olaraq, kənd təsərrüfatı müəssisələrində əmlakın bölünməsi və onun bir hissəsinin bələdiyyə mülkiyyətinə verilməsi qaydalarına əsasən əmlak payı alacaq subyektlər, hər bir payçının əmək töhfəsinə əsasən düşən pay və təsərrüfatın borcları müəyyənləşdirilmişdir. Bütün bu proseslər həmin qaydalara uyğun olaraq yerli aqrar islahat komissiyaları tərəfindən həyata keçirilir. Demək olar ki, bütün hazırlıq işləri başa çatmış, kolxoz və sovxozların əmlakından paylar verilməyə başlanmışdır.

"Torpaq islahatı haqqında" qanunun qəbul olunması ilə əlaqədar aqrar islahatın Dövlət Proqramı bu qanunun müddəalarına uyğunlaşdırılmış və aidiyyəti üzrə təqdim edilmişdir. Qanuna uyğun olaraq hər bir təsərrüfat və rayon üzrə dövlət mülkiyyətində saxlanılan, bələdiyyə mülkiyyətinə verilən və özəlləşdirilərək xüsusi mülkiyyətə veriləcək torpaqlar müəyyən edilmiş, keyfiyyət göstəricilərinə görə dürüstləşdirilmiş, iqtisadi cəhətdən qiymətləndirilmişdir. Respublikanın əksər rayonlarında yerli aqrar islahat komissiyaları tərəfindən torpaq payı alacaq təqribən 3,5 milyon vətəndaşın hər bir kolxoz və sovxoz üzrə siyahısı və orta hesabla hər bir adama düşən torpaq payı əsasən müəyyən edilmişdir.

1998-ci ilin əvvəlinə 1200 kolxoz və sovxozun fəaliyyətinə xitam verilmiş, onlardan 500-dən çoxunun baş yerquruluşu layihələri tərtib olunmuş, 50 min ailəyə torpaq hüququna dair dövlət aktı və əmlak payı verilmişdir. Aqrar sahədə əmlakın özəlləşdirilməsi istiqamətində də işlər geniş vüsət almaqdadır. Artıq 26,7 min yük avtomobilindən 9,3 mini və ya 35 faizi, 31,3 min traktordan 10,9 mini və ya 34,8 faizi, kombaynların 40-45 faizi özəlləşdirilmişdir.

1997-ci ilin son aylarından başlayaraq emal və kənd təsərrüfatına xidmət sahələrində özəlləşdirmə sürətlənmişdir. Həmin ilin sonuna artıq 130 emal müəssisəsinin yarısı, 296 xidmət müəssisəsinin isə 59,1 faizi özəlləşmişdir.

Təəssüflə qeyd etmək lazımdır ki, bu sahədə işlər son vaxtlaradək çox ləng getmiş, həmin funksiyaları və torpaq islahatını həyata keçirmək üçün yaradılan Dövlət Torpaq Komitəsi nəinki üzərinə düşən vəzifəni yerinə yetirməmiş, hətta öz hərəkətləri ilə xalq arasında bu idarəetmə qurumu haqqında mənfi ictimai rəy formalaşdırmışdır.

Respublikamızda 1995-1997-ci illərdə Dövlət Torpaq Komitəsi tərəfindən hüquqi və fiziki torpaq istifadəçilərinin rəsmi dövlət sənədləri ilə təmin olunması təşkil edilməmiş və bu sahədə fəaliyyət göstərən, komitənin tabeliyində olan institutun işinə yarıtmaz nəzarət edilmişdir. Məhz bunun nəticəsində yeni təsərrüfat formalarının əksəriyyəti torpaqdan istifadə və mülkiyyət hüququna dair hüquqi akt almadan torpaqdan istifadə etmişdir.

Torpaq islahatının həyata keçirilməsi ilə əlaqədar məlum

formanın verilməsindən uzun müddət keçməsinə baxmayaraq, komitənin rəhbərliyi möhkəmləndirilənədək torpaq islahatı aparılacaq təsərrüfatlarda baş sxemlər və yerquruluşu layihələri qeyri-qənaətbəxş və keyfiyyətsiz hazırlanmışdır. Komitənin rəhbərliyi öz işini günün tələbləri səviyyəsində qurmamış, təcrübəli mütəxəssislərin gücündən tam istifadə edə bilməmiş və onları bu vacib məsələlərin yerinə yetirilməsinə düzgün istiqamətləndirməmişdir. Torpaq islahatlarının sürətlə həyata keçirilməsi zəruri olduğu halda, mütəxəssislərin az bir qismi bu işə cəlb edilmişdir.

Komitədə şikayət və ərizələrə baxılması və onların icrası vəziyyəti yoxlanarkən aşkarlanmışdır ki, burada tərtib edilən məktubların məzmunu, yuxarı orqanlara göndərilən cavablar bir çox hallarda anlaşılmaz, mücərrəd ifadələrdən ibarət olmuş və real vəziyyəti əks etdirməmişdir.

Respublikada yararlı torpaq sahələrinin ayrı-ayrı vətəndaşlar tərəfindən kütləvi surətdə zəbt olunması və yerli orqanların buna şərait yaratması hallarına qarşı kəskin mübarizə aparılmamış, bəzi rayon torpaq şöbələri haqqında yüngül tənbeh, cəza tədbirləri görülməklə kifayətlənilmişdir. Nəzarətsizlik üzündən yerli torpaq şöbələrində arxayınçılıq yaranmış və nəticədə minlərlə hektar yararlı torpaq, qiymətli təsərrüfat sahəsi öz təyinatından çıxarılmışdır.

Bütün növ torpaqlardan istifadəyə dövlət nəzarətinin həyata keçirilməsi, torpaq-əkin sahələrinin mühafizəsi məsələlərinin yerinə yetirilməsi unudulmuş, dövlət nəzarəti adı altında həyata keçirilən "yoxlamalar" müəmmalı məqsədlər güdmüşdür.

1997-ci il iyulun 1-nə respublikamızda 27800-dən artıq yeni özəl təsərrüfat (kəndli-fermer təsərrüfatı), 19300-dən artıq kənd təsrrüfatı kooperativi, kiçik müəssisə, kollektiv, birgə müəssisə və s. yaradılmış, lakin onların əksəriyyətinə torpağa mülkiyyət hüququna dair sənəd hazırlanıb verilməmişdir. Ona görə də xüsusi mülkiyyət qurumlu təsərrüfatların xeyli hissəsi maliyyə-kredit, bank əməliyyatlarını həyata keçirə bilmir, təsərrüfatlarını işlək, qapalı dövriyyəli istehsal qurumuna çevirə bilmir.

Dövlət Torpaq Komitəsində uzun illər hökm sürmüş qeyri-sağlam mühitin, işə yarıtmaz və laqeyd münasibətin nəticəsində ölkə əhalisi arasında aqrar islahat haqqında mənfi ictimai rəy formalaşmış, kəndli-əkinçi münasibətlərinin normal inkişafına əngəl törədilmişdir. Təəssüf doğuran haldır ki, torpaq islahatının keçirilməsinə dövlət səviyyəsində səlahiyyət verilmiş şəxslərin taleyüklü bu məsələyə qeyri-ciddi yanaşması, vəzifələrindən açıq-aşkar sui-istifadə etməsi halları təsərrüfat üzvləri, kənd adamları arasında inamsızlıq yaratmış, onların torpağa, halal zəhmətə olan münasibətlərini soyutmuşdur.

Aqrar islahatların gedişinin indiki mərhələsində aşağıdakı ümumi nəticələr qeyd olunmalıdır:

- birincisi, artıq kənd təsərüfatında bazar iqtisadiyyatına uyğun struktur dəyişiklikləri baş verir;

- ikincisi, məhsul istehsalının artırılması və torpaqdan səmərəli istifadə imkanları artır. Kənd təsərrüfatında böhranın qarşısı alınmış, irəliləyişə zəmin yaradılmışdır;

- üçüncüsü, əhalinin müstəqil fəaliyyətə və sərbəst təsərrüfatçılığa meyli və səriştəsi güclənir;

- dördüncüsü, islahatın ilkin mərhələsində dünya təcrübəsinə meyl artdığı halda, artıq respublikanın təbii-iqtisadi şəraitinə və adət-ənənələrinə uyğun təsərrüfatçılıq formalaşmağa başlamış, daxili imkanlardan istifadə xüsusi istiqamət almışdır;

- beşincisi, mülkiyyətçilərin dünya standartlarının tələblərinə uyğun ixrac üçün məhsul istehsal etmək, daxili bazarı qorumaq meylləri artır;

- altıncısı, kənd təsərrüfatı müəssisələrinin dövlət banklarına borcu 1996-cı il yanvarın 1-i ilə müqayisədə 1997-ci il iyulun 1-i üçün 138 milyard manat azalmışdır;

- yeddincisi, respublikanın kənd təsərrüfatı məhsulları üzrə idxal-ixrac balansında müsbət dəyişikliklər baş vermişdir. 1996-cı ilin 11 ayında ümumən 327,2 milyon ABŞ dolları həcmində kənd təsərrüfatı məhsulları idxal, 76,7 milyon dollar həcmində ixrac edilmişdisə, 1997-ci ilin müvafiq dövründə idxal 135 milyon dollar, ixrac isə 151 milyon dollar olmuşdur. Başqa sözlə, əvvəlki illə müqayisədə idxal 2,6 dəfə azalmış, ixrac isə 2 dəfədən çox artmışdır. Xarici ticarətdə müsbət balans əsas etibarilə buğdanın, meyvə-tərəvəzin və onlardan hazırlanan konservlərin, ət və süd məhsullarının respublikaya idxalının azalması, bununla yanaşı, mahlıcın, tütünün, şərabların, meyvə-tərəvəz konservlərinin, qoz, fındıq və şabalıdın respublikadan ixracının artması hesabına yaranmışdır. Çay emalı üzrə

müştərək müəssisələrin yaradılması bu məhsulu da ixrac etməyə imkan vermişdir.

Heydər Əliyevin rəhbərliyi altında aqrar islahatlar sahəsində aparılan çoxcəhətli işlərdən biri də beynəlxalq əlaqələrin genişlənməsidir. Prezidentin 1996-cı il 19 sentyabr tarixli fərmanına uyğun olaraq Beynəlxalq Kənd Təsərrüfatı İnkişaf Fondu ilə birlikdə 6 rayonda: Bərdə, Ucar, Lənkəran, Xaçmaz, Salyan rayonlarında və Naxçıvan MR-in Şərur rayonunda nümunəvi özəl kənd təsərrüfatı müəssisələrinin yaradılmasına başlanmışdır.

1998-ci il martın 1-nə respublikada 22705 kəndli (fermer) təsərrüfatı yaradılmış və bunlara 155 min hektar torpaq sahəsi verilmişdir ki, bu da 1996-cı ilin əvvəli ilə müqayisədə müvafiq surətdə 5,5 və 3,0 dəfə çoxdur. 1994-cü il yanvarın 1-nə respublikada cəmi 440 kəndli (fermer) təsərrüfatı olmuşdur.

Bundan əlavə, respublikada 1879 kənd təsərrüfatı istehsalı kooperativi, 1981 kiçik müəssisə, 6567 kollektiv müəssisə yaradılaraq fəaliyyətə başlamışdır.

Aparılan islahat nəticəsində kənd təsərrüfatı istehsalı ilə məşğul olan təsərrüfatların sayı əvvəlki illərə nisbətən xeyli artmışdır. 1997-ci il oktyabrın 1-nə respublika üzrə kənd təsərrüfatı istehsalı ilə məşğul olan 33,7 min müxtəlif təşkilati-hüquqi formalı təsərrüfat, o cümlədən 21,6 min kəndli (fermer) təsərrüfatı olmuşdur ki, bunun da 32,3 mini və yaxud 96 faizi özəl qurumlardır. 1997-ci ilin əvvəlindən bəri 563 kolxoz, sovxoz və təsərrüfatlararası müəssisə ləğv

edilərək onların yerinə 14,5 min yeni təsərrüfat forması yaradılmışdır. 1997-ci il oktyabrın əvvəlinə olan məlumata görə kənd təsərrüfatına xidmət göstərən 253 mexanikləşdirilmiş dəstə (aqroservis müəssisəsi) fəaliyyət göstərir.

İctimai təsərrüfatlara məxsus mal-qaranın özəlləşdirilməsi prosesi əsasən başa çatdırılmışdır. 1998-ci ilin əvvəlinə bütün qaramalın cəmi 1,1 faizi, davarın isə 4,6 faizi dövlət təsərrüfatlarında qalmışdır. Heyvandarlıqda aparılan islahatlar mal-qaranın sayının 1990-cı ildən başlayaraq ilbəil sürətlə azalmasının qarşısını almışdır. 1996-cı il yanvarın 1-i ilə müqayisədə 1998-ci il yanvarın 1-nə qaramalın sayı 146 min baş və ya 8,7 faiz, davarın sayı isə 551 min baş və ya 11,9 faiz artmışdır. Həmin dövrdə ət istehsalında 6,5 faiz, süd istehsalında 14,3 faiz, yun istehsalında 0,4 faiz artım olmuşdur.

Bütün bunlar son 2-3 ildə respublikamızda yaranmış ət-süd məhsulları bolluğunda özünü aydın göstərir.

1996-cı ilin 11 ayında respublikaya 104,7 milyon ABŞ dolları həcmində heyvandarlıq məhsulları gətirilmişdisə, 1997-ci ilin müvafiq dövründə bu rəqəm cəmi 32,8 milyon ABŞ dolları həcmində olmuş və ya üç dəfə azalmışdır. Digər tərəfdən, idxal edilən məhsulların qiyməti nəzərəçarpacaq dərəcədə aşağı düşmüşdür. Belə ki, idxal olunan ət məhsullarının hər tonunun qiyməti 1996-cı ildəki 1205 ABŞ dollarından 716 dollara və ya 40,6 faiz, süd məhsullarının hər tonunun qiyməti 1949 dollardan 986,5 dollara və ya 49,4 faiz aşağı düşmüşdür.

Bütün bunlarla bərabər, respublikanın əksər rayonlarında islahatın həyata keçirilməsi üçün hazırlıq işi lazımi səviyyədə görülməmişdir. Torpaq və əmlak pay almaq hüququ olanlar arasında düzgün bölüşdürülmür, əmlakın qiymətləndirilməsində bəzən bilməyərəkdən səhvlərə yol verilir, çox zaman ümumi əmlakın dəyəri düzgün müəyyənləşdirilmir, əksər hallarda işçilərin son beş ildə əmək haqlarını indeksləşdirərkən hesablama əməliyyatları düzgün aparılmır.

Etiraf olunmalıdır ki, həqiqətən bir çox rayonların sovxoz və kolxozlarında aparılan islahatın aşkarlığı təmin edilmir, torpağın və əmlakın bölgüsündə ədalətsizliyə yol verilir, bazar iqtisadiyyatına keçid problemlərinin həllinə heç də hər yerdə düzgün münasibət bəslənmir. Bununla belə, islahat nəticəsində torpaq və əmlak paylarını alan vətəndaşlara yeni təsərrüfat formalarının seçilməsində təsərrüfat rəhbərləri tərəfindən bəzən təzyiq göstərilir, onlar qorxudulur, "xidmət işini qura bilməyəcəkləri", "məhsullarının satışının təşkilində çətinliklərlə rastlaşacaqları" bəhanə gətirilərək, payı bəlli təsərrüfat formasına üstünlük verməyə cəhd göstərilir.

Ümumiyyətlə, aqrar islahatın ləng getməsi səbəblərindən danışarkən Heydər Əliyev, ilk növbədə, bunları əsas götürür: mövcud potensialdan səmərəli istifadə olunmaması; məqsədli maliyyələşdirmə sisteminin yaradılmaması; torpaq üzərində xüsusi mülkiyyətin bərqərar olmaması və istehsal edilən məhsula sahiblik və s. məsələlərdə yekdil rəyin olmaması; aqrar sahədə əməyin stimullaşdırılmasının təkmil mexanizminin yoxluğu; tədarük edilən məhsulun haqqının

vaxtında ödənilməməsi; maliyyə-kredit, vergi sistemindəki qeyri-çeviklik; ixrac edilən məhsulun dəyərinin respublikaya vaxtında və tam gətirilməməsi; islahatın həyata keçirilməsində yol verilən sistemsizlik, astagəllik və s.

Bütün bunlara baxmayaraq, ölkədə aqrar islahatın həyata keçirilməsi üçün yaradılan hüquqi baza, görülən işlər, əldə olunmuş müsbət nəticələr, bu işə adamların psixoloji cəhətdən hazırlanması, yaradılmış daxili sabitlik və xarici ölkələrlə formalaşmağa başlayan hərtərəfli xoş münasibətlər bunu söyləməyə əsas verir ki, Azərbaycan kəndində yeni sahibkarlar və mülkiyyətçilər əmələ gələcək, milli iqtisadiyyatın formalaşmasında aqrar bölmə yenə də aparıcı sahəyə çevriləcəkdir.

1997-ci il iyulun 19-da keçirilən respublika müşavirəsində Prezident Heydər Əliyev yekun sözündə demişdir: "İndi açıq-aydın görünür ki, Azərbaycanda iqtisadi islahatlar ağıllı, səriştəli, təmkinli, planlı, ardıcıl surətdə həyata keçirilir və bunlar öz nəticəsini verir"[1].

## 4.3. Maliyyə, vergi və bank sisteminin təkmilləşdirilməsi

İqtisadiyyatın inkişafı iqtisadi münasibətlərin tərkib hissəsi olan maliyyə münasibətlərinin səviyyəsindən çox asılıdır. Başqa sözlə, güclü maliyyə-bank sisteminin yaradıl-

[1] «Azərbaycan» qəzeti, 23 iyul 1997-ci il.

ması iqtisadi sistemin gücləndirilməsində müstəsna əhəmiyyətə malikdir. Heydər Əliyev hakimiyyətə gələn dövrdə ölkə iqtisadiyyatını bürümüş dərin iqtisadi böhran maliyyə, vergi və bank sistemində özünü daha qabarıq göstərirdi. Digər tərəfdən isə belə bir vəziyyət sosial-iqtisadi həyatda gərginliyin hərəkətverici qüvvəsi kimi çıxış edirdi.

Həmin dövrdə maliyyə sahəsində böhranı dərinləşdirən bir çox səbəblər mövcud idi. Bunlara əsas etibarı ilə pul-kredit siyasətindəki ciddi qüsurlar, dövlət müəssisə və təşkilatlarının maliyyə və kredit ehtiyatlarından səmərəsiz istifadə olunması, onların əsassız surətdə qeyri-dövlət strukturlarına axıdılması, bank və vergi sistemindəki nöqsanlar və korrupsiya, qiymət siyasətinin həyata keçirilməsinin, əmək haqqının və valyuta bazarının tənzimlənməsinin dəqiq mexanizminin olmaması aid edilə bilər.

Maliyyə-bank sistemində hökm sürən böhran nəticəsində manatın alıcılıq qabiliyyəti aşağı düşmüş və bu da əhalinin həyat səviyyəsinə öz mənfi təsirini göstərmişdi.

1992-ci ildə dövriyyəyə buraxılmış manatın həcmi 1,9 milyard manat təşkil etdiyi halda, pərakəndə qiymətlər indeksinin artması hesabına həmin pul kütləsinin real dəyəri 0,187 milyard manat və ya 9,8 faiz, 1993-cü ildə bu göstəricilər müvafiq surətdə 65,4 və 5,31 milyard manat və ya 8,1 faiz, 1994-cü ildə 492 və 27,9 milyard manat və ya 5,8 faiz təşkil etmişdir.

Pul tədavülünü yalnız 1995-ci ildə nisbətən nizamlamaq mümkün oldu. İnflyasiyanın aşağı salınması nəticəsində

1995-ci ildə dövriyyəyə buraxılan 950,1 milyard manatın real dəyəri 186,3 milyard manat və ya 19,6 faiz oldu. 1996-cı ildə Heydər Əliyevin maliyyə-kredit sisteminin təkmilləşdirilməsinə dair tövsiyələrinin həyata keçirilməsi sayəsində illik inflyasiyanın kəskin aşağı salınması hesabına dövriyyəyə buraxılan nominal pul kütləsinin yalnız cüzi bir hissəsi inflyasiyaya məruz qaldı və həmin il dövriyyəyə buraxılan 1204,9 milyard manatın real alıcılıq qabiliyyəti 1012,5 milyard manat və ya 84 faiz təşkil etdi. 1997-ci ildə isə dövriyyəyə buraxılan manatın nominal və real dəyərləri arasında fərq daha da azaldı.

1992-ci ildə əhalinin real pul gəliri nominal göstəricinin cəmi 9,6 faizini (0,9 və 9,4 milyard manat), 1993-cü ildə - 8,1 faizini (11 və 135,5 milyard manat), 1994-cü ildə - 5,7 faizini (68,9 və 1215,9 milyard manat) təşkil etdiyi halda, bu göstərici 1995-ci ildə artıq 19,6 faiz (1314 və 6702 milyard manat), 1996-cı ildə isə daha yüksək - 84,0 faiz (7176 və 8540 milyard manat) olmuşdur.

Ölkədə maliyyə intizamını zəiflədən əsas səbəblərdən biri də iqtisadiyyatda qarşılıqlı hesablaşmalarda yaranmış arzuolunmaz vəziyyət idi.

Son illər ölkədə qarşılıqlı hesablaşmalarda yaranmış vəziyyət istehsalın həcminin aşağı düşməsinə, müəssisə və təşkilatların əksəriyyətinin maliyyə vəziyyətinin ağırlaşmasına və dövlət büdcəsinə daxil olan vəsaitlərin azalmasına gətirib çıxarmışdı.

Nəticədə sosial proqramların maliyyələşdirilməsi çətin-

ləşmiş, pensiyaların, müavinətlərin və əmək haqlarının vaxtlı-vaxtında ödənilməsi sahəsində gərginlik yaranmışdı.

Maliyyə-vergi və bank sistemində yaranmış vəziyyətin ağırlığını nəzərə alan Heydər Əliyev 1993-cü il noyabrın 19-da (Prezident seçkilərindən cəmi bir neçə gün sonra) bank-maliyyə, tədiyə sistemlərinin və idxal-ixrac əməliyyatlarının vəziyyətinə və onu yaxşılaşdırmaq sahəsində vəzifələrə həsr olunmuş ümumrespublika müşavirəsi keçirmişdir. O, müşavirədəki çıxışında demişdir: "Gündən-günə artan inflyasiya, emissiyanın daim davam etməsi maliyyə sistemimizi ağırlaşdırır. Bu da iqtisadiyyatımızın zəifləməsi ilə əlaqədardır... Maliyyə vəziyyətimizin pisləşməsi və istehsalın azalması bir-biri ilə bağlı problemlərdir"[1].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev düçar olduğumuz müharibənin onun iş vaxtının böyük bir hissəsini almasına baxmayaraq, iqtisadiyyatın, o cümlədən maliyyə problemlərinin həllinə xüsusi diqqət yetirmiş və müntəzəm olaraq bu problemlərin həlli ilə məşğul olmuşdur. Bu mənada iqtisadiyyatda maliyyə vəziyyətinin sabitləşməsini təmin edəcək antiinflyasiya tədbirləri sistemini özündə əks etdirən "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" 1994-cü il iyunun 15-də imzalanmış fərman müstəsna əhəmiyyət kəsb edir.

İqtisadiyyatda qarşılıqlı hesablaşmalarda yaranmış vəziy-

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 258.

yətin aradan qaldırılması və maliyyə intizamının möhkəmləndirilməsi məqsədi ilə bir sıra konkret təkliflərin həyata keçirilməsini nəzərdə tutan "İqtisadiyyatda qarşılıqlı hesablaşmalarda yaranmış vəziyyətin aradan qaldırılması və maliyyə intizamının möhkəmləndirilməsi tədbirləri haqqında" 1996-cı il 24 sentyabr tarixli fərman da iqtisadiyyatımızın böhrandan çıxması istiqamətində atılan mühüm addım idi.

Bu fərmanda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılmışdı ki, müvafiq mərkəzi icra hakimiyyəti orqanları və müvəkkil banklarla birlikdə:

1996-cı il dekabrın 1-dək mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların 1996-cı il oktyabrın 1-nə olan vəziyyətə görə ödəmə sənədləri üzrə qarşılıqlı borclarının əvəzləşdirilməsini həyata keçirsin;

1996-cı il oktyabrın 1-nə olan qarşılıqlı borcların əvəzləşdirilməsini, büdcəyə borclar və büdcədən borclar əhatə edilməklə, əlavə kredit resursları və büdcə maliyyələşməsi cəlb etmədən aparsın;

1996-cı il yanvarın 1-dək olan qarşılıqlı borcların büdcəyə olan borclarla əvəzləşdirilməsi məbləğləri 1996-cı ilin dövlət büdcəsi xərclərinin maliyyələşdirilməsinə aid edilməsin.

Bununla yanaşı təşkilatların kredit və faiz borclarının ödənilməsində stimul yaratmaq məqsədi ilə fərmanda bir sıra güzəştlər də nəzərdə tutulurdu:

- güzəşt dövründə ödənilən borclar üzrə faiz borclarının məbləği 30 faiz dərhal azaldılır;

- 1996-cı ilin IV rübündə və 1997-ci ilin I yarısında ödənən borclara qalan faiz borclarının məbləği 75 faiz, 1997-ci ilin II yarısında ödənən borclara faiz borclarının məbləği 50 faiz, 1998-ci ilin I yarısında ödənən borclara faiz borclarının məbləği 25 faiz həcmində azaldılır.

Fərmanda stimullaşdırıcı tədbirlərlə yanaşı resurslar üzərində nəzarəti gücləndirən istiqamətlərə də xüsusi fikir verilir. Məsələn, müvafiq büdcə maliyyələşməsi açılmadan büdcə təşkilatları tərəfindən malların (işlərin, xidmətlərin) satın alınması qadağan olunur.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Milli Bankına, səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan banklara tapşırılmışdı ki, 1996-cı il noyabrın 1-dən müəssisə, idarə və təşkilatlar arasında hesablaşmaların akkreditiv və qabaqcadan ödəmə sisteminə keçirilməsini təmin etsinlər.

Heydər Əliyev vergi sahəsində yığılıb qalmış problemlərin həllini maliyyə sabitliyinin əldə edilməsində mühüm amil hesab edir. O, deyir: "Maliyyə işimizin, ümumiyyətlə, iqtisadiyyatımızın sağlamlaşması üçün əsas şərtlərdən biri vergi sistemində qayda yaradılmasıdır... Əgər biz sərbəst iqtisadiyyata yol veririksə, müvafiq qanunlar qəbul etməklə vergi sistemini möhkəmləndirməliyik. Mənə elə gəlir ki, bu, iqtisadiyyatımız üçün, maliyyə vəziyyətimizin yaxşılaşması üçün əsas yollardan biridir"[1].

Son dövrlərə qədər ölkəni bürümüş şiddətli inflyasiya dalğası hamının xatirindədir. Yalnız Heydər Əliyevin rəh-

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 259.

bərliyi və ciddi nəzarəti altında keçirilən təşkilati-iqtisadi tədbirlər sistemi sayəsində həm iqtisadiyyatımız, həm də cəmiyyətimiz bu ciddi və təhlükəli bəladan xilas ola bildi.

Belə tədbirlərdən danışarkən, ilk növbədə, aşağıdakıları qeyd etmək zəruridir:

- qiymətlərin inflyasiyanın sürətinə uyğun şəkildə dəyişdirilməsi;

- azmaaşlı və yüksəkmaaşlı işçi kateqoriyalarının əmək haqları arasında kəskin fərq yaranmasının qarşısını almaq məqsədi ilə fəhlə və qulluqçuların əməyinin ödənilməsinin vahid tarif cədvəlində müvafiq dəyişikliklər edilməsi;

- respublika büdcəsi vəsaiti hesabına maliyyələşdirilən obyektlərin tikintisinin müvəqqəti dayandırılması;

- dövlət müəssisələrinə və təşkilatlarına güzəştli kreditlər verilməsinə yol verilməməsi;

- mərkəzi dövlət idarəetmə orqanlarının sayını, habelə onların işçilərinin say tərkibini və inzibati-idarəetmə xərclərini, o cümlədən xidməti minik avtomobillərinin sayını ixtisar hesabına azaltmaq üçün həmin orqanların strukturunun təkmilləşdirilməsi;

- dövlət müəssisə və təşkilatlarının vəsaitinin xeyriyyəçilik məqsədləri üçün istifadəsinə ciddi nəzarət mexanizminin tətbiq edilməsi;

- dövlət müəssisələrinin və təşkilatlarının mənfəətindən əmək haqqı üçün istifadə olunması normasının son həddinin müəyyənləşdirilməsi;

- büdcənin kəsirini qismən doldurmaq məqsədi ilə lazımi miqdarda dövlət qiymətli kağızlarının buraxılmasının və satılmasının təmin edilməsi;

- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi tərəfindən inhisarçı dövlət müəssisələrində qiymətqoyma üzərində nəzarətin gücləndirilməsi.

Bu tədbirlər dövlət müəssisə və təşkilatlarının maliyyə və kredit ehtiyatlarından səmərəsiz istifadə olunmasının, onların əsassız surətdə qeyri-dövlət strukturlarına axıdılmasının qarşısını alaraq qiymət siyasətinin həyata keçirilməsinə, əmək haqqının və valyuta bazarının tənzimlənməsinə zəmin yaratmışdır.

Hakimiyyətə qayıtdığı ilk dövrlərdən Heydər Əliyev ölkənin valyuta resurslarının yaranması, qorunması və səmərəli istifadəsi probleminə xüsusi fikir vermişdir. O, 1993-cü il 19 noyabr tarixli çıxışında demişdir: "Eyni zamanda Vahid Valyuta Fondu yaradılmalıdır... Valyuta imkanlarımız mərkəzləşdirilməlidir. Valyutadan istifadə olunması, valyuta gətirən malların ixracı mərkəzləşdirilməlidir və bunların hamısı ümumi iqtisadiyyatımızın inkişafına, respublikamızın ağır vəziyyətdən çıxmasına yönəldilməlidir"[1].

Respublikanın ixracat potensialından və valyuta vəsaitindən istifadənin səmərəliliyini artırmaq, bu sahədə vahid

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 264-265.

dövlət siyasəti yeritmək məqsədi ilə 1993-cü il noyabrın 30-da "Azərbaycan Respublikası Vahid Valyuta Fondunun işinin təkmilləşdirilməsi haqqında" fərman imzalandı. 1992-ci il 15 iyun tarixli fərmana əsasən yaradılmış Azərbaycan Respublikası Vahid Valyuta Fondunun idarə olunması həmin fərmanla Azərbaycan Respublikası Prezidentinin sərəncamına verildi.

Vahid Valyuta Fonduna vəsaitin daxil olmasının və ondan istifadənin səmərəli təşkili məqsədi ilə 1994-cü il 25 aprel tarixli fərmanla bu fondun yaradılması və ondan istifadə olunması qaydaları təsdiq edildi.

Bazar münasibətlərinin artıq ölkəmizdə bərqərar olmasının başlanmasını nəzərə alan Heydər Əliyev bir müddət sonra, 1995-ci il fevralın 28-də "Azərbaycan Respublikasında valyuta tənzimlənməsinin sərbəstləşdirilməsi haqqında" fərman verdi. Bu fərmanda qərara alındı ki, Azərbaycan Respublikasının valyuta ehtiyatlarının idarə edilməsi Azərbaycan Respublikasının Milli Bankına həvalə olunmaqla, Azərbaycan Respublikasının Vahid Valyuta Fondu 1995-ci il martın 10-dan ləğv edilsin və onun vəsaitinin qalıqları Milli Bankın valyuta ehtiyatlarına köçürülsün.

Eyni zamanda Azərbaycan Respublikasının Milli Bankına təklif edildi ki, dövlətin ən zəruri tələbatını ödəmək, manatın məzənnəsini sabitləşdirmək üçün kifayət qədər valyuta ehtiyatlarının yaradılmasını təmin etsin. Bu məqsədlə Azərbaycan Respublikasının rezidentlərinin (hüquqi şəxslərinin və hüquqi şəxs olmayan müəssisə və təşkilat-

larının) xarici iqtisadi və ticarət əməliyyatlarından əldə etdikləri valyuta vəsaitinin satışı normativini və rejimini, habelə valyuta ehtiyatlarından istifadə edilməsi qaydalarını təsdiq etsin.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırıldı ki, Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının xarici firmalarla birgə işlənməsindən Azərbaycan Respublikasına çatacaq bonusdan 60 milyon ABŞ dolları məbləğində vəsaiti Azərbaycan Respublikası Milli Bankının valyuta ehtiyatlarının artırılmasına yönəltsin.

Fərmanda habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Azərbaycan Respublikasının Milli Bankına və müvəkkil banklara tapşırıldı ki, respublikada hesablaşmaların təkmilləşdirilməsini, ödəmələrdə böhranın aradan qaldırılmasını və təsərrüfat subyektləri arasında maliyyə öhdəliklərinin vaxtında yerinə yetirilməsini təmin edən tədbirlər həyata keçirsinlər.

Heydər Əliyev maliyyə sağlamlaşmasının mühüm qolu - kredit resurslarından səmərəli istifadə olunmasına xüsusi diqqət yetirmiş və bu sahədə subyektivliyə, əliəyriliyə və korrupsiyaya qarşı çıxmışdır. Məsələn, o, "Avropa İqtisadi Birliyindən məqsədli kredit alınması haqqında" 1994-cü il 28 iyun tarixli fərmanında Nazirlər Kabinetindən tələb edir ki, Avropa İqtisadi Birliyi tərəfindən Azərbaycan Respublikasına ayrılmış 68 milyon ekyü məbləğində məqsədli kreditin alınması üçün sazişin bağlanmasını və müvafiq ərzaq məhsullarının və dərman preparatlarının respublikaya

gətirilməsini təmin etmək məqsədi ilə sazişin vaxtında yerinə yetirilməsini və ayrılmış məhsulların tender əsasında alınmasını təmin etmək üçün lazımi tədbirlər həyata keçirsin.

Maliyyə böhranını aradan qaldırmaq və mövcud pozuntuların qarşısını almaq üçün mühüm tədbirlərdən biri də 1995-ci il 4 oktyabr tarixli fərmanla dövlət xəzinədarlığının yaradılmasıdır.

Azərbaycan Respublikasında dövlətə məxsus maliyyə ehtiyatlarının vahid mərkəzdən idarə olunmasını təmin etmək, bu vəsaitlərin daxil olması və xərclənməsi üçün daha çevik nəzarət mexanizmini yaratmaq, dövlət borclarının, zəmanətlərin və alınmış kreditlərin uçotunu yaxşılaşdırmaq və respublikada qiymətli kağızlar bazarının formalaşmasını sürətləndirmək məqsədi ilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Baş Dövlət Xəzinədarlığı, Naxçıvan Muxtar Respublikasında, respublikanın şəhər və rayonlarında onun ərazi orqanları yaradılmışdır.

Eyni zamanda Heydər Əliyev digər təşkilati tədbirlər həyata keçirməklə artıq mövcud olan dövlət qurumlarının da funksiya, səlahiyyət və vəzifələrini yeni iqtisadi mühitə uyğunlaşdırmağı islahatlar, o cümlədən maliyyə-vergi və bank sistemində çox mühüm amil hesab edirdi. Bu mənada Azərbaycan Respublikasında müəyyən olunmuş maliyyə siyasətinin həyata keçirilməsinin və dövlətin maliyyə ehtiyatlarının vahid mərkəzdən idarə olunmasının təmin edilməsi, bu vəsaitlərin daxil olması və xərclənməsi üçün

daha çevik nəzarət mexanizminin yaradılması, maliyyənin təşkilinə rəhbərliyin, həmçinin dövlət borclarının, zəmanətlərin və alınmış kreditlərin uçotunun təkmilləşdirilməsi və respublikada qiymətli kağızlar bazarının formalaşdırılması məqsədi ilə "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə"nin təsdiq olunması barədə 1996-cı il 19 dekabr tarixli fərman xüsusi qeyd olunmalıdır.

Maliyyə-kredit sahəsində həyata keçirilməsi Heydər Əliyev tərəfindən tövsiyə olunan təşkilati tədbirlərdən Azərbaycan Respublikasında aqrar kredit kassalarının yaradılmasını, sosial-iqtisadi inkişaf proqnozunun və dövlət büdcəsi layihələrinin kompleksliyinin təmin edilməsini, bəzi istehlak mallarının istehsalının, saxlanılmasının, idxalının və satışının tənzimlənməsini və s. göstərmək olar.

1996-cı il iyunun 14-də Prezident "Azərbaycan Respublikasında aqrar kredit kassalarının yaradılması haqqında" fərman imzalamışdır. Aqrar islahatların keçirilməsinin sürətləndirilməsi zəruriliyini nəzərə alaraq aqrar-sənaye sahəsində yaranan sahibkarlıq qurumlarının öz vəsaitinin, habelə mərkəzləşdirilmiş investisiyaların cəlb edilməsi hesabına səmərəli kreditləşdirmə sistemini - aqrar kredit kassalarını yaratmaq məqsədi ilə qərara alınmışdır ki, Prezident yanında Təşkilat Komitəsi yaradılsın; nəzərə alınsın ki, kassaların yaradılması və nizamnamə kapitalının formalaşması Avropa Komissiyası ilə Azərbaycan Respublikası Hökuməti arasında imzalanmış memoranduma əsasən yaradılmış Şərik (Partnyor) Fondunun və Avropa İttifaqı Komissiyasının TASİS proqramının maddi və texniki köməyi ilə həyata keçiriləcəkdir.

Ölkə iqtisadiyyatının böhran halına gəlməsində Milli Bank başda olmaqla, bankların necə "mühüm" rol oynadıqları heç kimə sirr deyildir. Onların fəaliyyətində mövcud olan çox böyük qüsurlar respublikanın maliyyə vəziyyətini pisləşdirmiş, maliyyə-kredit resurslarından qeyri-səmərəli istifadə olunmasına şərait yaratmışdır. Qeyd olunduğu kimi, maliyyə sistemində yaranmış böhranın mühüm səbəblərindən biri 1992-1994-cü illərdə respublikanın bank sistemində ciddi çatışmazlıqların olması idi. Belə ki, Milli Bank onun qarşısında qoyulan, iqtisadiyyatın normal inkişafına xidmət edən vəzifələri- pul-kredit siyasətinin həyata keçirilməsi, bankların fəaliyyətinin tənzimlənməsi, milli valyutanın sabitliyinin təmin edilməsi kimi vəzifələri lazımınca yerinə yetirə bilmirdi.

Kredit resursları üçün uçot dərəcələrinin çevik dəyişdirilməsi, qiymətli kağızlar bazarında əməliyyatlar vasitəsi ilə antiinflyasiya aləti kimi iqtisadiyyata müsbət təsir edilməsi, səhmlərinin nəzarət zərfi dövlətin ixtiyarında olan bankların müxbir hesablarına keçirilməsi və digər mühüm tədbirlər Milli Bank tərəfindən yarıtmaz həyata keçirilirdi.

Milli Bank respublikada pul dövriyyəsini tənzimləmək iqtidarında olmadığından, pul tədavülündə qeyri-normal hallar əmələ gəlmişdir. Pul dövriyyəsində nağd və qeyri-nağd pul arasında qeyri-normal nisbət formalaşmış, iqtisadiyyatın kommersiya bölməsində qeyri-rəsmi pul dövriyyəsi yaranmış, qeyri-nağd pulun dönərliyi mücərrədləşmiş və nəticədə tədavüldə olan nağd pulun müntəzəm çatışmaması adi hal almışdır. Bütün bunlar isə öz növbəsində ixracat

müəssisələrinin maliyyə vəziyyətinin kəskin pisləşməsinə, respublikadan kapital axınına, valyuta gəlirinin azalmasına gətirib çıxarmışdır.

1993-cü ildə bankların kassasına 28,6 milyard manat daxil olduğu halda, onların kassasından 2,4 dəfə artıq - 67,4 milyard manat verilmişdi ki, bu da güclü emissiyaya səbəb olmuşdur. Emissiyanın kassa xərcindəki xüsusi çəkisi 1992-ci ildə 57,6 faizə çatmışdır.

Belə yarıtmaz hal 1994-cü ildə də davam etmişdir. Belə ki, həmin ildə bankın kassa xərcləri daxilolmalara nisbətən 2,3 dəfə artmışdır. Kassa planında əmələ gələn bu uyğunsuzluq emissiyanın artmasına səbəb olmuşdur. Bu dövrdə emissiya-kassa xərcləri və gəlirləri arasındakı fərq 252,8 milyard manat olmuşdur ki, bu da bankın kassa xərclərinin 57,6 faizini təşkil etməklə, 1993-cü ilin emissiyasının xüsusi çəkisinə bərabərdir.

Bank-maliyyə sistemində yol verilən nöqsanlar cəmiyyət üçün çox arzuolunmaz problemin - pul dövriyyəsinin pozulmasına və nağd pul çatışmazlığına gətirib çıxarmışdır. Dövriyyədə hətta lazım olduğundan artıq manatın olmasına baxmayaraq onun banklara qayıtması müşgül işə çevrilmişdir.

Bunu nəzərə alaraq əhali ilə nağd pul hesablaşmalarının aparılmasında qayda-qanun yaradılması, ticarət və xidmət müəssisələrinə daxil olan pul vəsaitinin uçotunun təkmilləşdirilməsi, onların gəlirlərinin vergidən yayınmasının qarşısının alınması və respublikada pul dövriyyəsinin yaxşı-

laşdırılması məqsədi ilə Heydər Əliyev 1994-cü il fevralın 5-də "Azərbaycan Respublikasında pul dövriyyəsinin yaxşılaşdırılması üzrə əlavə tədbirlər haqqında" fərman imzaladı. Həmin fərmanda mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün hüquqi şəxslər tərəfindən ticarət əməliyyatları aparılan və xidmət göstərilən hallarda nağd pul hesablaşmalarının nəzarət -kassa aparatlarının tətbiqi ilə həyata keçirilməsi tələb olunurdu.

Bu qüsurlar sırasında bank kreditlərinin faizlərinin müəyyən olunması sahəsində yol verilmiş "astagəlliyin" respublikaya vurduğu ziyan hələ tam dəqiqliyi ilə müəyyənləşdirilməlidir. Məlumdur ki, pulun alıcılıq qabiliyyətinə təsir edən digər amil kreditlər üzrə faiz dərəcəsinin dəyişməsidir. Real faiz dərəcəsi yüksək olduqda digər şərtlər dəyişmirsə, dövriyyədə olan pula tələbat azalır və əksinə, faiz dərəcəsi aşağı düşdükdə pula olan tələbat artır. Bu da dövriyyəyə əlavə pul kütləsinin buraxılmasına və 1992-1994-cü illərdə olduğu kimi, manatın alıcılıq qabiliyyətinin aşağı düşməsinə, habelə digər mənfi hallara gətirib çıxarır. Bu barədə Heydər Əliyev özü 1993-cü il 19 noyabr tarixli çıxışında demişdir: "Maliyyə işlərimizi lazımi səviyyəyə qaldırmaq üçün, zənnimcə, bank kreditlərinin faizini artırmaq lazımdır. Kreditlərin faizində nə üçün belə fərq olduğunu başa düşə bilmirəm. Burada dedilər ki, Rusiyada bank kreditlərinin faizi təqribən 200 faiz, Azərbaycanda isə 50 faizdir... İndi əsas məqsədimiz istehsalı artırmaqdır. Bundan ötrü isə müəyyən vasitələrdən istifadə edilməlidir. Həmin vasitələrdən biri vergi sistemidirsə,

digəri bank krediti faizlərinin qaldırılmasıdır. Rusiya ilə müqayisədə kredit faizlərində belə yüksək fərqin olması sui-istifadə üçün geniş imkan açır. Bu imkanı özümüz yaradaraq həmin adamlara vermişik. İndi isə deyirik ki, maliyyə vəziyyətimiz nə üçün belə ağırdır" [1].

Bütün bunları nəzərə alan Heydər Əliyev 1994-cü il 15 iyun tarixli fərmanında aşağıdakı tədbirlərin həyata keçirilməsini Milli Banka təklif etmişdir:

- ehtiyat vəsait barəsində səhmdar-kommersiya və kommersiya bankları qarşısında qoyulan tələbləri sərtləşdirsin və inflyasiyanın artım sürətinə uyğun olaraq hər kvartal mərkəzləşdirilmiş kredit ehtiyatları üçün uçot dərəcələrini nəzərdən keçirib dəyişdirsin;

- kredit hesabına müəssisə və təşkilatların bir-birinə olan borclarının qarşılıqlı surətdə silinməsinə yol verməsin;

- hesabında valyuta vəsaiti olan müəssisə və təşkilatlara kredit buraxılmasına son qoymaq üçün tədbirlər görsün;

- manatın məzənnəsinin sabitləşməsini və Bakı Banklararası Valyuta Birjasının nizamlı işini təmin etmək üçün lazımi tədbirləri həyata keçirsin. Bu məqsədlə Azərbaycan Respublikasının Milli Bankına icazə verilsin ki, Banklararası Valyuta Birjasında təmkinli müdaxilə üçün Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Sabitləşdirmə Fondunun vəsaitindən istifadə etsin;

- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi,

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 260

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Baş Dövlət Vergi Müfəttişliyi ilə birlikdə depozitlər üçün stimullaşdırıcı faiz dərəcələri müəyyən etmək və pul tədavülü sahəsində kommersiya sektorunun fəaliyyətini tənzimləmək yolu ilə pul tədavülünün sabitləşməsi və pul emissiyasının azalması üçün tədbirlər görsün.

Dövlətin maliyyə ehtiyatlarından istifadə olunmasının səmərəliliyini yüksəltmək məqsədi ilə dövlət müəssisələrinə və təşkilatlarına təklif edilirdi ki, onlara bütün kredit-hesablaşma və kassa xidmətlərini səhmlərinin nəzarət zərfi dövlətin ixtiyarında olan səhmdar-kommersiya banklarına keçirsinlər.

Güclü maliyyə potensialına malik bankların olması çox vacibdir. Onlar ölkənin sosial-iqtisadi inkişafına maliyyə təminatı yaratmaqla, iqtisadi islahatların reallaşmasında böyük rol oynaya bilərlər. Lakin ölkənin sosial-iqtisadi həyatında bankların rolu və əhəmiyyəti nə qədər çox olsa da, o, mahiyyətcə iqtisadiyyatın xidmətçisidir.

Yəni bankların başlıca vəzifəsi ölkənin iqtisadi inkişafına xidmət etməkdir. Yeridilən iqtisadi siyasət bankları iqtisadiyyatın tələblərini ödəməyə deyil, iqtisadiyyatı bankların xidmətçisinə çevirməyə istiqamətlənərsə, ağır nəticələr verə bilər.

Təəssüf ki, son dövrlərə kimi vəziyyət Azərbaycanda məhz belə idi. Bunu nəzərə alan Heydər Əliyev bu sahəyə xüsusi diqqət yetirərək müsbət nəticələrə nail oldu.

Hazırda maliyyə-bank sistemində islahatlar davam etdi-

rilir. Bu barədə, o, 1997-ci ilin yanvarında Parisdə Fransa Ticarət- Sənaye Palatasında keçirilən görüşdə belə demişdir: "...bu sahədə islahatlar aparırıq. Bu isə mərkəzi bank ilə Maliyyə Nazirliyi arasında daha sivilizasiyalı münasibətlər yaradılmasını tələb edir. Onu nəzərdə tuturam ki, biz mərkəzi banka tam müstəqillik və xüsusən beynəlxalq bankımıza tam müstəqillik verilməsi xətti götürmüşük. Bank-maliyyə sistemi beynəlxalq bank-maliyyə sisteminin standartlarını özündə getdikcə daha geniş tətbiq edəcəkdir.

Biz sosialist maliyyə-bank sistemindən miras qalmış nə varsa, hamısından tamamilə imtina etmişik. Aydın başa düşürük ki, ölkəmizin dünya iqtisadiyyatında layiqli yer tutması və dünya iqtisadiyyatı ilə tam inteqrasiyaya nail olması üçün bizim bank-maliyyə sistemini beynəlxalq standartlara üyğunlaşdırmaq lazımdır. Biz bu istiqamətdə az iş görməmişik və bundan sonra da bu yolla gedəcəyik. Odur ki, qoy bu məsələ nə sizdə, nə də başqalarında heç bir narahatlıq doğurmasın"[1].

Dövlət vəsaitindən daha səmərəli istifadə edilməsi daim Heydər Əliyevin diqqət mərkəzində duran problemlərdəndir. Onun bir sıra fərmanlarında bu sahədə konkret təklif, tapşırıq və tövsiyələr verilmiş, onların həyata keçirilməsi nəzarətə götürülmüşdür. Buna "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" (15.06.94), "1996-cı ilin birinci yarısında ölkənin iqtisadi inkişafının yekunları və

[1] «Azərbaycan» qəzeti, 18 yanvar 1997-ci il.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qarşısında duran başlıca vəzifələr haqqında" (25.07.96), "Əmək haqqının məhsulun maya dəyərinə daxil edilməsində mövcud məhdudiyyətlərin aradan qaldırılması haqqında" (15.08.96), "Büdcə təşkilatları tərəfindən malların (işlərin və xidmətlərin) satın alınması haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" (19.12.96) fərman və sərəncamları misal göstərmək olar. Məsələn, sonuncu sənəd Azərbaycan Respublikasında büdcə təşkilatları tərəfindən satınalmanın maksimum səmərəliliyinin və qənaətliliyinin təmin edilməsi, malgöndərənlərin satınalmada iştirakının genişləndirilməsi və marağının artırılması, bütün malgöndərənlərə münasibətin eyni cür və ədalətli olmasının təmin edilməsi, malların istehsalının genişləndirilməsi yolu ilə ölkə iqtisadiyyatının inkişaf etdirilməsi məqsədi ilə imzalanmışdır.

Ümumiyyətlə, Heydər Əliyev siyasətinin strateji məqsədi ondan ibarətdir ki, Azərbaycanın maliyyə sistemi müasir beynəlxalq standartlara tam müvafiq olsun, dünya maliyyə mərkəzləri və bankları ilə əlaqə yarada bilsin.

Onun iqtisadi baxışlarında qiymətqoyma problemi özünü tam aydınlığı ilə göstərdi. Qiymətlərin artırılması və tənzimlənməsi Heydər Əliyevə miras qalmış ağır iqtisadi yükün bir hissəsi idi. O, 1993-cü il noyabrın 24-də Prezident sarayında respublikanın sosial-iqtisadi problemlərinə həsr olunmuş müşavirədəki çıxışında bu barədə belə deyir: "İqtisadiyyatı böhran vəziyyətinə düşən respublikada əhalinin təchizatı üçün zəruri olan məhsulların qiymətləri vaxtında tənzimlənməli idi. Müstəqil Azərbaycan Respub-

likası başqa ölkələrlə qonşuluqda yaşayır. İqtisadi və insani əlaqələr geniş və hərtərəfli olduğuna görə bu ölkələrdə əhalinin təchizatı üçün lazımi məhsulların qiymətlərinin bir səviyyədə olmaması mənfi hallar yaranmasına səbəb olur, iqtisadiyyatımızın vəziyyətinə təsir edir.

Respublikada maliyyə-kredit vəziyyətinin ağırlaşmasını, inflyasiyanın kəskinləşməsini nəzərə alaraq, bəzi məhsulların qiymətləri, şübhəsiz ki, hələ xeyli əvvəl tənzimlənməli, əhalinin bu məhsullarla təchizatı üçün lazımi tədbirlər görülməli idi. Çörəyin və çörək məmulatının qiymətlərinin artırılması ilin əvvəlində meydana çıxmış problemdir. Ancaq bəzi subyektiv səbəblər üzündən bu məsələ həll olunmamışdır. Sonrakı dövrdə bu problem dəfələrlə qaldırılsa da, müəyyən səbəblərə görə həllini tapmamışdır. Bu səbəblər də aydındır: müharibə şəraitində olan respublikamızda qaçqınların sayı həddən çoxdur, onların vəziyyəti ağırdır. Rayonların bir qismi işğal olunduğuna görə iqtisadiyyata böyük zərbə dəymişdir. Bu da adamların həyat səviyyəsinin aşağı düşməsi ilə nəticələnmişdir.

Yaşayış üçün ən zəruri olan çörəyin və çörək məmulatının qiymətlərini artırmağın məqsədəuyğunluğu həmişə çox böyük şübhə yaratmış, tərəddüdlərə səbəb olmuşdur. Ancaq bizim maliyyə vəziyyətimiz getdikcə ağırlaşdığına və maliyyə-kredit prosesləri çətinləşdiyinə görə bu məsələləri noyabrın 19-da geniş müzakirə etdik. Müşavirədə ciddi təkliflər verildi, qiymətlərin qaldırılmasının zəruriliyi qeyd edildi. Ona görə də iki gün bundan əvvəl bu məsələ öz həllini tapdı.

Yanacaq məhsullarının qiymətlərinin qaldırılması da zərurətdən doğan haldır. Yanacaq məhsulları istehsalı ilə məşğul olan təşkilatlar bu barədə dəfələrlə təkliflər vermişlər.

Biz bu addımları atarkən bilirdik ki, müəyyən çətinliklər yaranacaq. Ancaq iqtisadçılar, bütün rəhbər təşkilatlar bu barədə eyni fikirdə olublar. Bu addım Azərbaycanın iqtisadiyyatının, maliyyə-kredit vəziyyətinin müəyyən qədər sağlamlaşmasına kömək edəcəkdir"[1].

Bütün bunları nəzərə alan Azərbaycan Prezidenti 1993-cü il noyabrın 22-də "Çörəyin və çörək məmulatlarının qiymətlərinin tənzimlənməsi və əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman imzaladı.

Çörəyin qiymətinin maya dəyərindən dəfələrlə aşağı olması çörəkbişirmə müəssisələrinin ziyanla işləməsinə səbəb olmuş və çörəkdən qənaətlə istifadə etməyə marağı xeyli zəiflətmişdi. Bu, respublikanın kifayət qədər taxıl məhsulları istehsal etmədiyi, iqtisadi böhran və miqyası genişlənməkdə olan müharibə şəraitində əhalinin çörəklə və çörək məmulatları ilə təminatında gərgin vəziyyət yaradırdı.

Respublikada əhalinin çörək və çörək məmulatları ilə təminatını yaxşılaşdırmaq və dövlət büdcəsindən çörək üçün verilən dotasiyanı məqsədyönlü şəkildə əhalinin aztəminatlı

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 266-267.

təbəqələrinin sosial müdafiəsinə yönəltmək məqsədi ilə bir sıra qətiyyətli tədbirlər həyata keçirildi.

İqtisadiyyat üçün taleyüklü problem olan qiymətqoyma haqda Heydər Əliyev yuxarıda adı çəkilən müşavirədəki çıxışında demişdir: "Maliyyə vəziyyətimiz ağır olduğuna görə, -bunu bir neçə gün bundan qabaq araşdırdıq, - biz qiymətləri artırmağa məcburuq. İndi qiymətlərin artması ilə əlaqədar gərginlik, çətinliklər yaranıbdır. Ancaq bu addım atılmalı idi, biz bu addımı atmışıq. Burada deyildi, mən bir də qeyd etmək istəyirəm ki, bu qiymətlər ilin əvvəlində, bəlkə də keçən ilin axırında artırılmalı və aybaay indeksləşdirmədən istifadə olunmalı idi. Onda ola bilər ki, birdən-birə belə sərt fərq hiss olunmazdı. Bu fürsət əldən gedibdir. İlin əvvəlindən bu işi görməli olan adamlar ya təcrübəsizlikdən, ya da qəsdən bu işlərlə məşğul olmayıblar. Mən qeyd etdim ki, biz burada işə başladığımız dövrdə bu məsələlər meydana çıxarkən respublikanın həm müharibə şəraitini, həm daxili ictimai-siyasi şəraitini nəzərə alaraq həmin məsələlərin həllinə hələ hazır deyildik. İndi isə bu məsələlərin həyata keçirilməsi zəruridir. Bu, labüd bir qərardır və qəbul olunubdur"[1].

Elə Heydər Əliyevin rəhbərliyi altında aparılan işin nəticəsidir ki, bizdə qiymətlər, ən əvvəl, zəruri malların, ərzaq məhsullarının qiymətləri sabitdir. Azərbaycanda əmək haqqının artımı qiymətlərin artımını, hətta müəyyən dərəcədə qabaqlayır. Halbuki iki il əvvəl bizdə inflyasiya astronomik

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 269.

rəqəmlərlə ifadə edilirdi. Əgər 1994-cü ildə inflyasiyanın təxminən 1.700 faiz olduğunu nəzərə alsaq, 1996-cı ildən bəri iqtisadiyyatımızda necə böyük müsbət dəyişikliklər baş verdiyi tam aydın olar.

Milli valyutamızın -manatın məzənnəsi Amerika dolları ilə nisbətdə xeyli möhkəmlənmiş və sabitləşmişdir. Son illər ərzində inflyasiya kəskin surətdə azalaraq, hər ay bir faizdən də az olmuşdur.

Sonrakı dövrdə ölkədə həyata keçirilən sərt pul-kredit siyasəti, bir sıra iqtisadi-təşkilati tədbirlər pulun dövretmə sürətini artırmağa və emissiyanın azaldılmasına zəmin yaratdı. Belə ki, əgər 1993-1994-cü illərdə dövriyyəyə buraxılan pul kütləsinin yalnız 42-43 faizi bankların kassasına qayıdırdısa, bu göstərici 1995-ci ildə 85,8 faiz, 1996-cı ildə 93,1 faiz, 1997-ci ilin 8 ayında 97,5 faiz təşkil etmişdir. Bunun da nəticəsində 1995-ci ildə emissiya nisbətən azalmışdır; 1996-cı ildə emissiyanın dövriyyədə xüsusi çəkisi 1995-ci ildəki 14,3 faizdən 7,1 faizə, 1997-ci ilin 8 ayında isə 3,2 faizə enmişdir.

Manatın sabitliyini saxlamaq üçün lazım olan dönərli valyutanın əldə edilməsinə imkan verməyən səbəblərdən biri də idxalın ixraca nisbətən çox olması idi. 1994-cü ildə ixracın həcmi 636,8 milyon ABŞ dolları olduğu halda, idxalın həcmi 777,9 milyon ABŞ dolları təşkil etmişdir. Beləliklə, 1994-cü ilin ixrac-idxal əməliyyatlarında 141,1 milyon ABŞ dolları qədər mənfi saldo yaranmışdır. Bu hal 1995-1996-cı illərdə də özünü göstərmiş, həmin illərdə

idxal-ixrac balansının kəsiri müvafiq olaraq 120,2 və 329,4 milyon ABŞ dolları təşkil etmişdir. Ölkə rəhbərliyinin səyi nəticəsində yalnız 1997-ci ildə xarici ticarətin liberallaşdırılmasının dərinləşməsi və 1997-ci il yanvarın 1-dən etibarən ixrac mallarının gömrük rüsumundan azad edilməsi hesabına 21,8 milyon ABŞ dolları məbləğində müsbət saldo yaranmışdır.

1994-cü ildən respublikamızda sərt pul-kredit siyasəti yeridilməyə başlandı və onun müsbət nəticələri artıq 1995-ci ildə hiss edildi. İnflyasiyanın səviyyəsi aşağı salındı, 1996-cı ildə onun səviyyəsi ayda 2 faizdən, 1997-ci ildə isə 1 faizdən çox olmadı. Əsassız kredit emissiyasına son qoyuldu və inflyasiyanın zəifləməsi ilə əlaqədar Milli Bankın mərkəzləşdirilmiş kreditləri üzrə uçot dərəcələri sürətlə aşağı düşərək 1996-cı ilin sonunda 20 faizə endi. Kredit faizləri kredit bazarında tələb və təklifin təsiri nəzərə alınmaqla müstəqil müəyyən edilməyə başlandı. Büdcə kəsirinin bank kreditləri vasitəsilə örtülməsi praktikasına son qoyulmaqla büdcə kəsirinin inflyasiya yaratmaq təhlükəsi aradan qaldırıldı. Büdcə kəsirinin ümumi daxili məhsulda (ÜDM) xüsusi çəkisinin 3 faizdən aşağı salınması müstəqil Azərbaycan Respublikasının ən böyük nailiyyətlərindən biridir.

Sosial yönümlü bazar iqtisadiyyatına keçid şəraitində eyni zamanda sərt büdcə və pul-kredit siyasəti yeridilmişdir. Ölkə iqtisadiyyatında baş verən müsbət irəliləyişlər nəticəsində 1997-ci ildə dövlət büdcəsinə 2525 milyard manat vəsait daxil olmuşdur ki, bu da təsdiq edilmiş rəqəmlərdən 0,6 faiz çoxdur.

dədir. Təkcə 1997-ci ilin birinci yarısında bu sahədən, yəni neft sazişinin həyata keçirilməsi ilə məşğul olan təşkilatların gördükləri işlərdən, orada çalışanların əmək haqqından büdcəyə 60 milyard manat vəsait daxil olmuşdur.

Respublikada vergi ödəyicisi olan digər xarici investisiyalı müəssisələrin sayı 1996-cı illə müqayisədə 1997-ci ildə xeyli çoxalmış, onların büdcəyə ödədikləri vergilərin məbləği 2,6 dəfə artaraq 241 milyard manata çatmışdır.

Qeyri-dövlət müəssisələrindən daxil olan vergilərin həcmi 1997-ci ildə 246 milyard manat artaraq 490 milyard manat və ya ümumi mədaxildə 23 faiz təşkil etmişdir.

Son illər respublika Prezidentinin rəhbərliyi altında vergi sisteminin təkmilləşdirilməsi, uçotdan yayınmanın qarşısının alınması, ödəyicilərin maliyyə vəziyyətinin yaxşılaşdırılması sahəsində də bir sıra işlər görülmüşdür.

"Müəssisələrin və təşkilatların mənfəət vergisi haqqında" qanun layihəsi tamamilə yenidən işlənib hazırlanmış, 1997-ci il yanvarın 1-dən qüvvəyə minmişdir. Bu qanunla, iqtisadi səmərəsi olmayan bütün vergi güzəştləri ləğv edilmiş, verginin dərəcəsi 35 faizdən 32 faizə endirilmişdir.

Ödəyicilərin məsuliyyətini artırmaq məqsədi ilə bəzi qanunvericilik aktlarında, o cümlədən İnzibati hüquqpozmalar haqqında Məcəllədə, Cinayət Məcəlləsində və "Dövlət vergi xidməti haqqında" qanunda bir sıra dəyişikliklər edilmişdir. Eyni zamanda ödəyicilərin maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün vergilərin vaxtında ödənilməməsinə görə penyanın miqdarı 0,2 faizdən 0,1 faizə

endirilmişdir. 1997-ci il yanvarın 1-nə olan borclara 1999-cu il yanvarın 1-dək möhlət verilmişdir. Büdcəyə hesablanan cari vergilərin vaxtında və tam ödənilməsinə stimul yaratmaq məqsədi ilə 1997-1998-ci illərdə öhdəliklərini yerinə yetirənlərə 1996-cı ildən qalmış borclar üzrə 50 faiz güzəşt verilməsi də həmin qanunvericilikdə nəzərdə tutulmuşdur.

Tədiyəçilərin tam uçota alınmasını, gəlirlərin vergidən yayınması qarşısının alınmasını təmin etmək məqsədi ilə onlara 1997-ci il aprelin 1-dən identifikasiya nömrələri verilməsinə başlanmışdır. Bu nömrələrin verilməsi müəssisələrin bank və gömrük əməliyyatlarına, habelə müəssisələrarası əməliyyatlara nəzarəti gücləndirməyə imkan verəcək, göstərilən sənədlərdə identifikasiya nömrələri əks olunmadığı hallarda həmin sənədlərin icrası əlaqədar orqanlar tərəfindən dayandırılacaqdır.

Ölkədə son zamanlar yaradılmış maliyyə sabitliyindən iqtisadi dirçəliş üçün bəhrələnmək və əlverişli investisiya iqlimini bərqərar etmək üçün kredit sistemini güzəştli istiqamətə yönəltmək, ixracatı aktivləşdirmək lazımdır. Bu tədbirlər sistemli şəkildə həyata keçirilməli və əldə olunmuş maliyyə sabitliyinə xələl gətirməməlidir.

Digər tərəfdən qeyd edək ki, makroiqtisadi tənzimləmədən mikroiqtisadi idarəetmə mexanizminə keçmək, keçid dövründə qeyri-real olan kəsirsiz büdcə siyasətindən imtina etmək, istehsalın və işgüzarlığın artırılması üçün vergi, kredit və gömrük sisteminin münasib formalarını müəy-

yönləşdirmək, müəssisələr üçün güzəştli amortizasiya siyasətini həyata keçirmək, valyuta ehtiyatlarından istifadə edilməsində güzəştlərə geniş yer vermək də əsas şərtlərdən biridir.

Minimum istehlak səbətinə daxil edilən məhsullar və xidmətlər üçün əlavə gəlir vergisini azaltmaq lazımdır.

Büdcənin sağlamlaşması üçün səmərəli yollardan biri vergi intizamının gücləndirilməsidir.

Respublikada kredit bazarını qaydaya salmaq üçün ən əvvəl Milli Bankın güclü nəzarət sistemi yaradılmalıdır. Əks təqdirdə, kreditlər istehsalın inkişafına deyil, ticarət-vasitəçilik əməliyyatlarına sərf olunacaqdır. Bu vəziyyət hazırda nəzərə çarpır və bunun nəticəsində mənimsənilən külli miqdarda maliyyə vəsaitləri müxtəlif siyasi-mafioz qruplaşmaların fəaliyyətinə xidmət edir. Sənaye-İnvestisiya Səhmdar Kommersiya Bankında 1997-ci ilin sonlarında aşkar olunmuş ciddi maliyyə pozuntuları buna əyani sübutdur. Belə yaramaz ünsürlərə qarşı daim mübarizə aparan ölkə Prezidenti hələ 1994-cü il martın 30-da keçirilən müşavirədə demişdir: "Biz bütün sahələrdə qayda-qanunun möhkəmlənməsinə nail olmalıyıq. Nizam-intizamı, qayda-qanunu pozan şəxslərə qarşı ciddi tədbirlər görülməlidir. Hamımız bilməliyik ki, demokratik hüquqi dövlət, cəmiyyət eyni zamanda intizam, hörmət və ehtiram, dövlətin qanunlarına lazımınca əməl olunmasını tələb edir"[1].

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 492.

*V FƏSİL*

# AZƏRBAYCAN İQTİSADİYYATINDA XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN ROLU

## 5.1. Heydər Əliyevin iqtisadi strategiyasında xarici iqtisadi əlaqələrin yeri

Dünya iqtisadiyyatına inteqrasiya və Azərbaycanın digər ölkələrlə əməkdaşlığı Heydər Əliyevin iqtisadi strategiyasının əsas istiqamətlərindəndir. Bu mənada onun belə bir fikri inkarolunmazdır ki, ölkələrin iqtisadi sahədə bir-biri ilə düzgün qurulmuş ikitərəfli əməkdaşlığı, bir tərəfdən bu əlaqələrdə iştirak edən hər bir dövlət üçün mənfəətlidirsə, digər tərəfdən iqtisadi inteqrasiya bütövlükdə dünya iqtisadiyyatının inkişafının yeganə yoludur. Hələ 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin iclasındakı çıxışında Heydər Əliyev göstərmişdir ki, Azərbaycan Respublikası demokratik dövlət kimi, bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmalıdır.

Heydər Əliyevin iqtisadi strategiyası Azərbaycan Respublikasının xarici iqtisadi siyasətinin əsas prinsiplərinin və xarici iqtisadi əlaqələrin inkişafının milli iqtisadi maraqların gözlənilməsinə təminat verən dövlət proqramı əsasında həyata keçirilməsini məqsədəuyğun hesab edir.

Bu proqramda bir tərəfdən xarici investisiyaların cəlb edilməsi, onların Azərbaycan Respublikasının ərazisində

ümumdövlət siyasətinə uyğun yerləşdirilməsi tələb olunursa, digər tərəfdən respublikanın ixracat potensialının inkişaf etdirilməsi, milli ixracatçıların əlaqələndirilməsi və onların maraqlarının müdafiə olunması ön plana çəkilir.

Belə bir sistemli yanaşmanın konkret həlli yolları kimi dünya mal və xidmət bazarlarının konyukturasının təhlilini aparmaq və inkişaf təmayülünü proqnozlaşdırmaq, xarici dövlətlər və beynəlxalq təşkilatlarla valyuta-kredit münasibətlərinin tənzimlənməsi mexanizmini təkmilləşdirmək, ixrac layihələrini kreditləşdirmək və sığortalamaq, Azərbaycan Respublikasının xarici ödəniş-borc münasibətlərini və valyuta daxilolmalarını tənzimləmək, sənaye və elm tutumlu məhsulların ixracını dövlət tərəfindən stimullaşdırmaq, daxili bazarın müdafiəsini təmin etmək, xarici ticarət fəaliyyətinin ayrı-ayrı növlərini - sərhədyanı ticarət, azad iqtisadi zona və s. inkişaf etdirmək, xarici ticarət və tədiyə balanslarının proqnozunu işləyib hazırlamaq, xarici dövlətlərdə beynəlxalq iqtisadi-ticarət, əməkdaşlıq təşkilatlarında Azərbaycan Respublikasının ticarət nümayəndəliklərini yaratmaq, sərgilər və iqtisadi-ticarət yarmarkaları təşkil etmək, xarici iqtisadi əlaqələr üzrə informasiya sistemini yaratmaq, xarici iqtisadi əlaqələrə dair məlumat-izahat və reklam işi aparmaq, xarici iqtisadi fəaliyyət sahəsində mütəxəssislər hazırlamaq, bəzi müəssisələrin idarə olunmasını xarici şirkətlərə vermək, dünya maliyyə mərkəzləri ilə fəal əməkdaşlıq etmək müəyyən olunmuşdur.

Görülən tədbirlər artıq öz müsbət nəticələrini göstərmişdir. Məsələn, son vaxtlar dünyanın maliyyə mərkəzləri

Azərbaycanda bazar iqtisadiyyatı prinsiplərinin real surətdə həyata keçirildiyinə, iqtisadi islahatlar, o cümlədən özəlləşdirmə aparmağa səy göstərildiyinə əmin olublar. Avropa Yenidənqurma və İnkişaf Bankının, Avropa İttifaqının ölkəmizə münasibəti nəzərəçarpacaq dərəcədə yaxşılaşmışdır. Bunun nəticəsində Dünya Bankı da, Beynəlxalq Valyuta Fondu da, Avropa Yenidənqurma və İnkişaf Bankı da həm iqtisadiyyatımızda struktur dəyişiklikləri etmək üçün reabilitasiya kreditləri, həm də respublikamızda su və enerji təchizatı sahələrində nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün kreditlər ayırıblar. Ümumən son dörd il üçün respublikamıza ayrılmış kreditlərin həcmi təqribən 420 milyon dollardır.

Xarici iqtisadi əlaqələrin inkişafını təmin edən əsas amillərdən biri bu sahədəki normativ hüquqi aktların beynəlxalq hüquq qaydalarına uyğunluğunun təmin edilməsidir. Bu istiqamətdə Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə və tövsiyələri əsasında çox iş görülmüşdür. Məsələn, onun fərmanlarına uyğun olaraq qiymətlərin, xarici ticarətin sərbəstləşdirilməsinə dair tədbirlər həyata keçirilmiş və ölkəmizə xarici kapitalın cəlb olunması, Azərbaycanla xarici ölkələr arasında sərbəst mal mübadiləsinin həyata keçirilməsi üçün bir sıra işlər görülmüşdür.

Ümumiyyətlə, xarici ölkələrlə əməkdaşlığın inkişaf etdirilməsi üçün əlverişli iqtisadi imkanlar yaradılması daim Heydər Əliyevin diqqət mərkəzindədir. Bu barədə 1995-ci il noyabrın 29-da Londonda "Azərbaycanda investisiya imkanları" mövzusunda beynəlxalq konfransın açılışı mə-

rasimindəki çıxışında o özü belə demişdir: "Biz öz əməli tədbirlərimizlə xüsusi sahibkarlığı və təbii ki, müvafiq xarici tərəfdaşlarımızla birgə xüsusi sahibkarlığı da təşviq edir və bundan ötrü əlverişli imkanlar yaradırıq. Maliyyə, valyuta-kredit sistemimizdə, vergi sistemimizdə həyata keçirdiyimiz tədbirlər də buna kömək edir və bütün bunlar qəbul etdiyimiz Konstitusiyada öz əksini tapdığına görə daha çox kömək edəcəkdir".

Həmin konfransdakı yekun sözündə Heydər Əliyev bu fikirləri daha geniş açıqlayaraq konfrans iştirakçılarında Azərbaycan iqtisadiyyatına böyük maraq doğurmuşdur:

"Azərbaycanda sərmayələrin müdafiəsi haqqında qanun var. Lakin bu gün biz bildiririk ki, mən sizi əmin edirəm ki, sərmayələrin müdafiəsinin bütün sistemini təkmilləşdirmək üçün bütün işləri görəcəyik. Əgər bu qanuna hər hansı dəyişikliklər, əlavələr etmək lazım gələrsə, biz bunun qarşısında da dayanmayacağıq, yəni sərmayələrin, xarici sərmayələrin müdafiəsi üçün möhkəm, sabit, uzunmüddətli qanunverici əsas və təminat yaradan əlavə tədbirlər görəcəyik. Əmin ola bilərsiniz ki, Respublika Prezidenti kimi mən sizə verdiyim vədlərin həyata keçirilməsinin gedişinə şəxsən nəzarət edəcəyəm.

Bu yaxınlarda mən sərmayələrin idarə edilməsi üçün xüsusi milli agentlik yaradılması haqqında fərman vermişəm. Bu milli agentlik Azərbaycanda sərmayə qoyuluşu prosesini təşkil və idarə etmək üçün kifayət qədər tam səlahiyyətlərə malikdir...




Prezıdent Heydər Əliyevin Londonda Adam Smit İnstitutunda çıxışı.



Prezident Heydər Əliyevin ABŞ-ın maliyyə naziri Robert Rubin ilə görüşü.



Prezident Heydər Əliyevin dünya bankının prezidenti Ceyms Vilfinson ilə görüşü



Prezident Heydər Əliyevin "Çikaqo klubda" Amerika maliyyə və bank qurumlarının rəhbərləri ilə görüşü.



Prezident Heydər Əliyev "Çıraq -1" platformasında.



Prezident Heydər Əliyev Bakıda "Sibank"ın yeni ofisinin açılışı mərasimində



Prezident Heydər Əliyev və Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəl İstanbulda "Koç Holdinq" qrupunun rəhbərləri və "Arçelik" şirkəti zavodunun işçiləri ilə görüşdə



Prezident Heydər Əliyevə Qars şəhər bələdiyyəsinin, Türk sənətçiləri və iş adamları vakfının mükafatlarının verilməsi mərasimində.



Prezident Heydər Əliyevin ABŞ konqresi nümayəndələr Palatası maliyyələşdirmə komitəsinin sədri Robert Livinqstonla görüşü.



Prezident Heydər Əliyev və İtalyanın Baş naziri Roman Prodi "Cigi" sarayında
Azərbaycan-İtaliya sənədlərinin imzalanması mərasimində.



Prezident Heydər Əliyev Dübəndi neft terminalının rəsmi açılışı mərasimində




Prezident Heydər Əliyev, Gürcüstan prezidenti Eduard Şevardnadze,
Türkiyə Baş naziri Məs'ud Yılmaz,
Rusiya Baş nazirinin müavini Boris Nemtsov ilkin neftin çıxarılması mərasimində.

Biz, əvvəla, vergi qanunvericiliyini, vergi sistemini qaydaya salmaq üçün, ikincisi, səhmdarlara maksimum faydalı, güzəştli vergi şəraiti yaratmaq üçün hər şey edəcəyik...

Azərbaycana sərmayələr qoyulmasını stimullaşdıra biləcək daha sərfəli, güzəştli vergi dərəcələri və ya vergi həcmləri yaratmaq üçün köklü tədbirlər görəcəyik".

Göründüyü kimi, Heydər Əliyev xarici investorları Azərbaycanla əməkdaşlığa dəvət etməklə yanaşı, bundan ötrü hər cür şərait yaradılmasını, xarici investorların, Azərbaycanda işləmək istəyən hər hansı biznesmenin fəaliyyətinin ən əlverişli şəkildə təmin edilməsi üçün müvafiq hüquqi zəmin yaradılmasını və kifayət qədər güzəştlər verilməsini daim diqqət mərkəzində saxlayır. Elə ona görə də indi Azərbaycan MDB məkanında olan dövlətlər sırasında xarici investisiyanın cəlb olunmasına görə öncül yerlərdən birini tutur.

Xarici iqtisadi əlaqələrin səmərəliliyinin artırılması Heydər Əliyev tərəfindən öncül istiqamətlərdən biri kimi qiymətləndirilmişdir.

Bu mənada "Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında" 1994-cü il 5 aprel tarixli fərman xüsusi əhəmiyyət kəsb edir.

Həmin fərmana əsasən strateji əhəmiyyətli malların respublikadan bütün hüquqi şəxslər tərəfindən ixrac olunmasına icazə verilmiş, eyni zamanda Azərbaycan Respublikasının Vahid Valyuta Fondunun formalaşmasını təmin etmək məqsədi ilə strateji əhəmiyyətli malların sərbəst dönərli

valyutaya minimum satış həcmləri və belə mallara olan daxili tələbatın həcmləri təsdiq edilmişdir.

Fərmanda olan belə bir müddəa da xüsusi qeyd edilməlidir ki, strateji əhəmiyyətli malların göstərilmiş həcmlərdən az olmayaraq sərbəst dönərli valyutaya satışına və göstərilmiş həcmlərdə respublikanın daxili tələbatının ödənilməsinə bilavasitə istehsalçılar məsuliyyət daşıyırlar.

Fərman qəbul olunan dövr üçün çox mühüm və aktual olan məsələ - respublikada istehsal olunan məhsulun sərbəst dönərli valyutaya satışının yalnız onların haqlarının qabaqcadan ödənilməsi, yaxud geri çağırılmayan akkreditiv açılması yolu ilə həyata keçirilməsi də öz həllini bu sənəddə tapmışdır.

Qiymətqoymada subyektivliyi və ondan doğan mənfi halları aradan qaldırmaq məqsədi ilə fərmanda dövlət müəssisə və təşkilatlarına tapşırılmışdır ki, istehsal etdikləri məhsulların bazar qiymətlərinin formalaşmasını təmin etmək üçün onların satışını, bir qayda olaraq, tender əsasında və ya respublikanın əmtəə birjaları vasitəsi ilə həyata keçirsinlər.

Azərbaycan Respublikasında xarici iqtisadi əlaqələrə nəzarət üzrə Dövlət Komissiyasının yaradılması da bu fərmanda qərara alınmışdır.

Onu da qeyd etmək lazımdır ki, bu fərman imzalanmamışdan xeyli əvvəl xarici iqtisadi əlaqələrimizdə ciddi qüsurlar olduğunu dəfələrlə göstərən Heydər Əliyev xəbərdarlıq edirdi: "İqtisadi əlaqələrimizin təşkilində, qurulma-

sında qüsurlar, səhvlər vardır. Bütün bunlar isə respublikada sosial gərginliyi artırır, adamların həyat səviyyəsinin aşağı düşməsinə səbəb olur və iqtisadi, maliyyə imkanlarımızı çox məhdudlaşdırır...

Respublikada istehsal olunan bir sıra məhsulların xaricə satılması, əvəzində lazımi mallar alınması və ölkəmizin ehtiyaclarının təmin olunması əsas məsələlərdən biridir. Ancaq bu sahədə də qarışıqlıq, qanun pozuntuları vardır. Bəzən ayrı-ayrı qrupların, dairələrin mənafeyi ümumrespublika, ümumxalq mənafeyindən üstün tutulur. Ona görə də biz bu sahədə istənilən nəticəni əldə edə bilmirik"[1].

Onsuz da istehsal həcminin kəskin surətdə aşağı düşdüyü həmin dövrlərdə həm sənaye, həm də kənd təsərrüfatı məhsullarının milyardlarla dəyəri olan böyük hissəsi başqa ölkələrə göndərilmiş, lakin haqqı ödənilməmişdir. Ayrı-ayrı qruplar belə vəziyyətdən istifadə edərək xalqın, dövlətin vəsaitini mənimsəyib, müvafiq dövlət orqanları isə bu işdə düzgün mövqe tutmamışlar.

Bütün bunların qarşısını almaq üçün 1994-cü il iyunun 28-də Prezident "Xarici ölkələrə məhsul satışının təmin edilməsi sahəsində nəzarətin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" fərman verdi.

Bu fərmanda qeyd olunurdu ki, torpaqlarımızın azadlığı uğrunda gedən və böyük maddi ehtiyatlar tələb edən müharibə nəticəsində respublikanın düşdüyü ağır iqtisadi vəziyyətə, bunun nəticəsində valyutaya yaranmış ehtiyaca

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 257.

baxmayaraq məhsulların xarici ölkələrə satışında respublikanın bütün müəssisə və təşkilatlarına tam sərbəstlik verildiyi bir şəraitdə bir sıra təsərrüfat rəhbərləri onların sərəncamlarında olan məhsulların valyutaya satışı ilə məşğul olmur, "Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 5 aprel tarixli 125 nömrəli fərmanının icrasını təmin etmir, məhsul satışının təşkilində dözülməz dərəcədə süründürməçiliyə yol verir, onun səmərəli aparılması üçün müvafiq birjaların imkanlarından istifadə etmirlər. Əksinə, yaranmış məqamdan öz çirkin niyyətləri üçün istifadə edən müəyyən cinayətkar qruplar şəxsi mənafelərini üstün tutub həmin fərmanın icrasına əngəllər törədir, ixracatın artmasının qarşısında süni maneələr yaradır, rüşvətxorluq və korrupsiya ilə məşğul olurlar.

Məhsul satışı üzrə müqavilələrin bağlanmasının uzadılması, onların yerinə yetirilməsinə süni maneələr törədilməsi respublikanın iqtisadiyyatına sarsıdıcı zərbə vurur, onun tələbatını ödəmək üçün lazım olan valyuta ehtiyatlarının yaradılmasına imkan vermir. Xüsusilə xarici ölkələrə satılması nəzərdə tutulmuş kənd təsərrüfatı məhsullarının böyük həcminin anbarlarda saxlanılaraq uzun müddət satılmaması əlavə xərclərə, onların keyfiyyətinin aşağı düşməsinə və külli miqdarda valyuta itkisinə səbəb olur.

Bütün bunları nəzərə alaraq, respublikanın ixracat potensialından istifadə sahəsində mənfi halları aşkara çıxarıb aradan qaldırmaq, ondan səmərəli istifadəni təmin etmək üçün Azərbaycan Respublikası Prezidenti yanında xarici

ölkələrə məhsul satışının təmin olunmasına nəzarət üzrə fövqəladə komissiya yaradıldı.

Xarici iqtisadi əlaqələri daha da təkmilləşdirmək üçün Heydər Əliyevin müvafiq fərman və göstərişləri ilə bir sıra əlavə təşkilati-iqtisadi tədbirlər də həyata keçirilmişdir. Bunlara misal olaraq Avropa İttifaqı Komissiyası yanında (Brüssel şəhərində) Azərbaycan Respublikası nümayəndəliyinin fəaliyyətinin təmin edilməsini (Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 4 avqust tarixli sərəncamı), xarici investisiyaların və texniki yardım proqramlarının əlaqələndirilməsi və layihələrinin hazırlanması üzrə Milli Agentliyin yaradılmasını (1995-ci il 24 noyabr tarixli fərman), Azərbaycan Respublikasının xarici ticarətdə mənafelərinin təmin edilməsi, daxili bazarın qorunması və xarici ticarət əməliyyatlarının daha səmərəli, müasir tələblərə uyğun olaraq həyata keçirilməsinə şərait yaradılması kimi vacib problemlərin həllinə yönəlmiş xarici ticarətin tənzimlənməsi qaydalarını (1996-cı il 6 avqust tarixli fərman) və s. göstərmək olar.

Bütün bunlarla yanaşı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin iştirak etdiyi beynəlxalq iqtisadi forum və konfranslarda onun dərin məzmunlu, inandırıcı və sağlam iqtisadi məntiqə əsaslanan çıxışları, görüş və müsahibələri Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin inkişafında çox önəmli rol oynamışdır.

Bu mənada 1995-ci il noyabrın 29-da Londonda Adam Smit İnstitutu kimi məşhur olan Elm və İqtisadiyyat Mər-

kəzində öz işinə başlayan "Azərbaycanda investisiya imkanları" mövzusunda beynəlxalq konfrans xüsusi qeyd edilməlidir.

Azərbaycan dövlətinin iqtisadi inkişafında mühüm rol oynayan bu beynəlxalq konfrans-sərgiyə dünyanın 20-dən çox ölkəsindən 300-dən artıq iş adamı gəlmişdi. Onlar Azərbaycan haqqında obyektiv informasiya almaq, ən əsası isə ölkəmizə investisiya qoymağın imkanlarını öyrənmək, respublikamızla sıx əlaqələr qurmaq istəyirdilər.

Konfransda Azərbaycan - Britaniya Ticarət-Sənaye Palatasının yaradılması barədə birgə bəyannamə imzalandı. Böyük Britaniya, ABŞ, Fransa, Rusiya, Türkiyə, İsveçrə, Hollandiya, Norveç, İtaliya, Almaniya, Belçika,Latviya, Ukrayna, Hindistan, Birləşmiş Ərəb Əmirlikləri, Avstriya, Yunanıstan, Yaponiya, Çin və digər ölkələrin ən nüfuzlu şirkətlərinin iştirak etdiyi bu konfransda Azərbaycanla əməkdaşlıq məsələləri geniş müzakirə olundu.

Konfransın əhəmiyyətindən danışarkən Heydər Əliyev öz yekun sözündə demişdir: "Biz hesab edirik ki, konfrans Azərbaycan üçün, respublikamızın gələcəyi üçün artıq öz rolunu oynamışdır və onun respublikamız üçün bəhrələri də, konkret əməli nəticələri də, şübhəsiz, olacaqdır. Özü də yaxın gələcəkdə! Bizim üçün vacib olan budur ki, bu gün Azərbaycanın siyasi baxımdan, sosial baxımdan, ictimai baxımdan, iqtisadi baxımdan nə demək olduğunu bu konfrans vasitəsi ilə bütün dünyaya, dünya biznesinə, dünya iqtisadiyyatına, dünyanın işgüzar dairələrinə nümayiş etdir-

dik. Onların bizimlə fəal əməkdaşlığı üçün Azərbaycanın nə kimi potensiala malik olduğunu nümayiş etdirə bildik. Biz qarşılıqlı surətdə fayda, gəlir götürmək üçün respublikamıza fəal surətdə sərmayələr qoymaqdan ötrü imkanlarımızı nümayiş etdirə bildik".

İsveçrənin Davos şəhərində keçirilən Ümumdünya iqtisadi forumunda (1995-ci ilin yanvarı) Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin iştirakı və gərgin işi respublikamızın xarici iqtisadi əməkdaşlıq tarixində çox parlaq bir səhifədir.

Davos forumunda Heydər Əliyevin iştirakı Azərbaycanı dünya miqyasında daha yaxşı tanıtmağa aparan yolun bir mərhələsidir. Bu, eyni zamanda Azərbaycanın potensialını bir daha bütün dünyaya tanıtmaq və bu potensialdan dünya iqtisadiyyatı ilə birgə istifadə etmək üçün çox əhəmiyyətli olmuşdur.

Digər beynəlxalq görüşlərdə olduğu kimi, Davos forumunda da Azərbaycan Prezidenti öz cəsarətli və diplomatik çıxışları ilə dünya ictimaiyyətinin diqqətini Azərbaycana yönəltməyə nail olmuşdur. Buna parlaq misal olaraq Heydər Əliyevin forumda BVF-ə münasibətini açıqlamasıdır.

Dövlət başçısı Beynəlxalq Valyuta Fonduna bəzi iddialarımız olduğunu nəzərə çarpdırdı. Məsələ burasındadır ki, həmin vaxta kimi BVF Azərbaycandan başqa, keçmiş İttifaq respublikalarının hamısına kreditlər ayırmışdı. Heydər Əliyev qeyd etdi ki, buna görə də BVF Azərbaycan ilə əməkdaş-

ləğv edilməlidir. Müşavirədə qeyd olundu ki, indiyədək fiziki şəxslərin respublikaya gətirdikləri məhsullara vergi qoyulmamışdır. Nəticədə idxal hüquqi şəxslərin deyil, fiziki şəxslərin adı ilə aparılır. Bu isə vergidən yayınmağa imkan yaradır. Belə şəraitdə daxili valyuta bazarını normal hala salmaq, milli valyutanın sabitliyini təmin etmək çox çətindir. Bir sözlə, həmin dövrdə mövcud olan gömrük siyasəti bütünlükdə respublikanın iqtisadi siyasətinə çox böyük zərər vururdu və iqtisadiyyatın tənəzzülünə şərait yaradırdı.

Bütün bunları nəzərə alan Heydər Əliyevin fikrincə, elə gömrük orqanı yaratmalıyıq ki, o, xarici iqtisadi əlaqələrimizdə öz yerini tutsun, iqtisadiyyatımızın inkişafına xidmət etsin, xarici əlaqələrdə, bütün başqa əlaqələrdə müstəqil Azərbaycanın nüfuzunu təmin etsin.

Bu vəzifələrə nail olmaq üçün isə məqsədyönlü, dərin məzmunlu və nəinki bu günümüz, habelə gələcəyimiz üçün yararlı gömrük siyasəti yeridilməsi tələb olunurdu.

Müzakirənin nəticəsi olaraq Prezident 1995-ci il yanvarın 9-da "Azərbaycan Respublikası Gömrük Komitəsinin işi haqqında" fərman verdi və gömrük işinin Azərbaycan Respublikası iqtisadiyyatının dirçəlməsində rolunu artırmaq üçün konkret tələblər qoydu. Bu tələblər gömrük işi sahəsində qazanılan nəticələrin əsası oldu.

Azərbaycan iqtisadiyyatının taleyi müəyyən mənada xarici investisiyaların respublikaya axını sürətindən asılıdır. Milli iqtisadiyyatda gedən tənəzzül, 1992-1994-cü illərdə inflyasiyanın tüğyan etməsi, torpaqlarımıza edilən təcavüz,

daxili ehtiyatların tükənməsi və digər amillər bu asılılığı daha da artırır. Digər tərəfdən isə 1993-1994-cü illərdə baş verən siyasi hadisələr bu prosesin sürətini aşağı salırdı.

Son illərdə - 1995-1996-cı illərdə ölkədə bərqərar olmuş siyasi və maliyyə sabitliyi, neft sazişinin sürətlə həyata keçirilməsi, Sumqayıt azad iqtisadi zonasının formalaşmasına başlanması xarici kapitalın milli iqtisadiyyata axını üçün böyük zəmin yaratmışdır.

Qeyd edək ki, dünya iqtisadiyyatında əksər ölkələr əlverişli iqtisadi və hüquqi baza yaratmaqla, birbaşa xarici investisiyaları öz ölkələrinə cəlb etmək istəyirlər.

Heydər Əliyevin iqtisadi strategiyasının öncül istiqamətlərindən olan xarici iqtisadi əlaqələrin genişlənməsi son illərdə ölkədə yaradılan birgə müəssisələrin timsalında özünü göstərir.

Son zamanlar Azərbaycana xarici kapitalın axını nisbətən sürətlənmiş və onun tərkibində inkişaf etmiş ölkələrin şirkətlərinin sayı nisbətən çoxalmışdır.

1997-ci ilin sentyabr ayı üçün ölkədə fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin sayı 1030 olmuşdur. Onlardan 490-ı birgə müəssisə (BM), 399-u tam xarici investisiyalı müəssisə, 141-i isə xarici ölkə şirkətlərinin filial və nümayəndəlikləridir. BM-də Türkiyənin iştirakı ilə təşkil olunanların xüsusi çəkisi 49,0, İran - 11,2, Rusiya - 10,6, Almaniya - 5,5, Amerika -4,3, Böyük Britaniya - 3,3, İsveçrə və Birləşmiş Ərəb Əmirliklərinin iştirakı ilə təşkil olunanların xüsusi çəkisi 1,6 faizdir.

Tam xarici investisiyalı müəssisələrin 192-si və ya 48,1 faizi Türkiyəni, 45-i (11,3 faizi) İranı, 29-u (7,3 faizi) Birləşmiş Ərəb Əmirliklərini, 27-si (6,8 faizi) Rusiyanı, 21-i (5,3 faizi) ABŞ-ı, 18-i (4,5 faizi) Böyük Britaniyanı, 9-u (2,3 faizi) Almaniyanı, 8-i (2,0 faizi) Ukraynanı təmsil edir və s. Bu müəssisələrin bir çoxu neft sazişinə xidmət məqsədi ilə yaradılmışdır.

Xarici investisiyalı şirkətlərin Azərbaycan Respublikasında artım dinamikası milli iqtisadiyyatda baş verən bir çox maraqlı hadisələri izah edə bilər.

*24-cü cədvəl*

Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin inkişaf dinamikası

| Müəssisələr | 1991 | 1993 | 1995 | 1996 | 1997 (yanvar-sentyabr) |
|---|---|---|---|---|---|
| Cəmi sayı | 62 | 357 | 307 | 717 | 1030 |
| Onlardan:<br>1. BM-lər, sayı | 55 | 254 | 148 | 444 | 490 |
| 2. Tam xarici investisiyalı müəssisələr, sayı | 7 | 103 | 159 | 273 | 309 |

Tam xarici investisiyalı və birgə müəssisələrin ölkələr üzrə strukturu və yaranma dinamikası milli kapital bazarında hansı ölkənin daha səmərəli fəaliyyəti haqqında ilkin informasiya verə bilir.

1991-1997-ci illər üçün xarici kapitalın investisiya fəallığı haqqında informasiya ölkələrin Azərbaycanın kapital bazarında inamını əks etdirə bilər. Aşağıdakı cədvəl xarici ölkələrin Azərbaycanda BM-lərin illər üzrə yaranma dinamikasını əks etdirir.

*25-ci cədvəl*

Xarici ölkələrin Azərbaycanda investisiya fəallığı

*(müəssisələrin sayına görə, faizlə)*

| Ölkələr | 1991 | 1993 | 1995 | 1996 | 1997 |
|---|---|---|---|---|---|
| Cəmi | 100 | 100 | 100 | 100 | 100 |
| o cümlədən: | | | | | |
| Türkiyə | 47,3 | 39,4 | 45,3 | 45,5 | 44,1 |
| İran | 7,3 | 27,5 | 10,1 | 12,7 | 10,0 |
| Rusiya | – | 10,6 | 11,5 | 9,3 | 9,4 |
| ABŞ | 5,4 | 6,7 | 2,7 | 4,7 | 5,6 |
| İngiltərə | 3,6 | 1,6 | 3,4 | 3,2 | 5,3 |
| Almaniya | 5,4 | 2,4 | 4,7 | 4,0 | 4,1 |

Qeyd edək ki, inkişaf etmiş ölkələrin kapitalları Azərbaycanda öz layiqli yerini tutduqca, ölkəmizin kapital bazarında zəif və ancaq alver üçün fəaliyyət göstərən bir çox BM-lər aradan çıxacaqdır.

BM-dən fərqli olaraq tam xarici investisiyalı müəssisələr ancaq 1993-cü ildən başlayaraq Azərbaycanda yaradılmağa

başladı. Burada əsas fəallığı Türkiyə, İran, Rusiya, ABŞ və İngiltərə investorları göstərirlər. İngiltərənin kapitalı ilə açılan müəssisələr, ilk növbədə, neft sazişinə xidmət etmək üçündür.

Ölkələr üzrə birbaşa kapitalın ümumi mənzərəsinin təhlili göstərir ki, Avropa ölkələrinin investisiya niyyətləri hələlik ehtiyatlı xarakter daşıyır və gələcəkdə onların yüksək fəallığı gözlənilir. Son zamanlar Almaniyanın Azərbaycan bazarına göstərdiyi maraq buna sübutdur. Azərbaycan rəhbərliyinin bu ölkəyə səfəri zamanı əhəmiyyətli sazişlər bağlanmışdır və onlar Almaniya kapitalının ölkəmizə axınını təmin edəcəkdir. Bunu ABŞ və Yaponiya kimi inkişaf etmiş ölkələrə də şamil etmək olar.

Başqa sözlə, Azərbaycan bazarı ciddi və işgüzar investorları cəlb etməkdədir.

Son zamanlar xarici investisiyalı müəssisələr istehsal istiqamətli fəaliyyətlə məşğul olmaq imkanları əldə etmişlər. Maliyyə sabitliyinin bərqərar olması, sivilizasiyalı ölkələrdə olduğu kimi valyuta bazarının tənzimlənməsi xarici investisiyalı müəssisələrin fəallaşmasına səbəb olmuşdur. Lakin bu, digər sistemli islahatlar addımının atılması ilə çox bağlı olacaqdır. Buna ilk növbədə özəlləşdirmə prosesinin daha da genişlənməsi təkan verə bilər.

Xarici ekspertlərin rəyinə görə xarici investisiyaların axınını daha da gücləndirmək üçün aşağıdakı şərtlər yerinə yetirilməlidir: Heydər Əliyev iqtidarının ölkədə nail olduğu siyasi və iqtisadi sabitlik daha da dərinləşməli, iqtisadi

infrastruktur bazar iqtisadiyyatının tələblərinə tam uyğunlaşdırılmalı, xarici investisiyaların qorunması üçün mükəmməl və ziddiyyətsiz müddəaları olan qanunlar zərfi qəbul olunmalı və nəhayət, xarici sərmayədarlara respublikadakı sosial-iqtisadi vəziyyət haqqında, islahatların gedişi və işgüzarlıq fəaliyyəti haqqında keyfiyyətli və operativ informasiya verilməlidir. Qeyd edək ki, bazarın həcmi, təbii ehtiyatların mövcudluğu və keyfiyyəti və nəhayət, əmək ehtiyatlarının yüksək keyfiyyəti (həm də həddən artıq ucuzluğu) kimi xarici investorları Azərbaycan bazarına cəlb edən aparıcı amillər xarici iqtisadi siyasətimizdə öz layiqli yerini tutmalı və həlledici rol oynamalıdır.

Heydər Əliyevin xarici ölkələrin dövlət başçıları və iş adamları ilə keçirdiyi çoxsaylı görüşləri Azərbaycan üçün vacib olan bu məsələlərin həllində mühüm əhəmiyyət kəsb edir.

## 5.2. Heydər Əliyevin ABŞ-a rəsmi səfərinin Azərbaycan iqtisadiyyatında tarixi rolu

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ Prezidenti Bill Klintonun dəvəti ilə Birləşmiş Ştatlara ilk rəsmi səfəri öz dövlət müstəqilliyini böyük əzmkarlıqla dünya ictimaiyyətinə nümayiş etdirən və bu məqsəd uğrunda müdrik rəhbərinin uzaqgörən siyasətindən bəhrələnərək ardıcıl mübarizə aparan gənc dövlətimiz üçün bir

sıra mühüm məqsədlərə nail olmaq baxımından çox önəmli olmuşdur.

Qlobal baxımdan götürdükdə, bu tarixi səfərin əsas məqsədi hazırda dünyanın ən güclü dövləti olan və dünya siyasi mühitində əvəzolunmaz təsir gücünə malik ABŞ ilə tarixdə ilk dəfə ikitərəfli əlaqələri inkişaf etdirmək idi. Bu mənada bir tərəfdən Azərbaycan və ABŞ arasında əməkdaşlıq üzrə normativ hüquqi əsasların yaranması, digər tərəfdən isə ölkəmiz üçün çox vacib əhəmiyyət kəsb edən bir sıra konkret iqtisadi-siyasi problemlərin həll edilməsi səfər zamanı qarşıya məqsəd qoyulmuşdur.

ABŞ-da rəsmi səfərdə olarkən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev çox gərgin iş rejimi şəraitində müstəsna dərəcədə səmərəli, faydalı görüşlər keçirmiş, danışıqlar aparmışdır. Əlbəttə, səfərin zirvə görüşü Azərbaycan - Amerika münasibətləri baxımından tarixi bir görüş - 1997-ci il avqustun 1-də Ağ evdə ABŞ prezidenti Bill Klinton ilə keçirilən görüş olmuşdur.

Ümumiyyətlə, 12 gün çəkən səfər müddətində Heydər Əliyev 100-ə qədər görüş keçirmiş və bunlara 150 saat vaxt sərf etmişdir! Səfər zamanı Azərbaycan dövləti başçısının aşağıda sadalanan görüşləri daha yaddaqalan olmuşdur:

*Nyu-Yorkda:*

1) "Britiş Petroleum" Şirkətinin vitse-prezidenti ilə;

2) BMT-nin Baş katibi Kofi Annan ilə;

3) "Nyu-York Tayms" qəzeti redaksiya heyətinin üzvləri ilə;

4) BMT Təhlükəsizlik Şurasının üzvü olan dövlətlərin bu beynəlxalq təşkilatdakı səfirləri ilə;

5) "Kissincer Assoşieyted" təşkilatının sədri Henri Kissincer ilə;

6) ABŞ-dakı əsas Yəhudi İcmaları Prezidentləri Konfransı Təşkilatının rəhbərləri ilə;

7) Amerika-Azərbaycan Ticarət-Sənaye Palatasının və Beynəlxalq Anlaşma Təşkilatı İşgüzar Şurasının üzvləri ilə;

8) BMT-də akkreditə olunmuş səfirlərlə;

9) Azərbaycanda fəaliyyət göstərən humanitar təşkilatların nümayəndələri ilə;

10) Amerikanın "Filadelfiya İnkuayrer" və "Cornel of Kommers" qəzetlərinin müxbirləri ilə (Nyu-Yorkdan Vaşinqtona uçarkən təyyarədə);

*Vaşinqtonda:*

11) ABŞ paytaxtında yaşayan Azərbaycan icmasının nümayəndələri ilə;

12) ABŞ-ın müdafiə naziri Uilyam Kohen ilə;

13) ABŞ-ın maliyyə naziri Robert Rubin ilə;

14) ABŞ-ın energetika naziri Federiko Penya ilə;

15) ABŞ-ın Ticarət Nazirliyində Amerikanın işgüzar dairələrinin nümayəndələri ilə;

16) ABŞ-ın Dövlət katibi xanım Madlen Olbrayt ilə;

17) "Vaşinqton Tayms" qəzetinin redaksiya heyəti ilə;

*Çikaqoda:*

18) "Çikaqo tribyun" qəzetinin redaksiya heyəti ilə;

19) "AMOKO" Korporasiyası Direktorlar Şurasının üzvləri ilə;

20) "AMOKO" Korporasiyasının, "Motorolla" Şirkətinin və digər şirkətlərin rəhbərləri ilə;

21) "Bleyer Haus" iqamətgahında politoloqlar, siyasi xadimlər və mətbuat işçiləri ilə;

22) ABŞ-ın "Hallibörtn" Korporasiyasının prezidenti, Amerika-Azərbaycan Ticarət-Sənaye Palatasının fəxri məsləhətçisi Riçard Çeyni ilə;

23) Vaşinqtondakı Corctaun Universitetində;

24) ABŞ Konqresinin Beynəlxalq Əlaqələr Komitəsinin sədri Bencamin Gilman və komitənin üzvləri ilə;

25) ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nyut Qinqriç və Palatada respublikaçılar partiyasının təşkilatçı rəhbərləri ilə;

26) Senator Robert Börd ilə;

27) Konqresmen Piter Kinq ilə;

28) ABŞ Konqresi Nümayəndələr Palatası Maliyyələşdirmə Komitəsinin sədri Robert Livinqston ilə;

29) ABŞ Konqresi Nümayəndələr Palatası Yardımçı Komitəsinin sədri Sonni Kallahan və digər konqresmenlərlə;

30) Senator Sem Braunbək ilə;

31) ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvləri ilə;

32) ABŞ Konqresində jurnalistlərlə;

33) ABŞ Dövlət katibinin birinci müavini, ATƏT-in Minsk konfransının həmsədri Stroub Talbott və Minsk qrupunun həmsədri Linn Pasko ilə;

34) Amerika "Eksimbankı"nın prezidenti Ceyms Harman ilə;

35) Dünya Bankının prezidenti Ceyms Vulfinson ilə;

36) NATO-nun Baş katibi Xavyer Solana ilə;

37) Amerikanın "İnstityuşnl investor" jurnalının redaktoru Stiven Kuink və jurnalın sərmayəçisi Sisel Moren ilə;

38) "Uoll-strit cornal" qəzetinin əməkdaşları ilə;

39) ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Uilyam Riçardson ilə;

40) "Bi-Pi-Amerika" Şirkətinin rəhbərləri ilə;

41) Hyustonun meri Robert Lanyer ilə;

42) "Hyuston kronikl" qəzetinin baş redaktoru Ceyms Hovard ilə;

43) Amerikanın "Oyl ənd Qaz" ("Neft və qaz") jurnalı xəbərlər redaksiyasının baş redaktoru Riçard Uitli ilə;

44) ABŞ-ın Stenford Universitetinin professoru xanım Elizabet Şervud ilə;

45) ABŞ-ın "Frontera Resurses" Şirkətinin prezidenti Uilyam Uayt ilə;

46) "Şevron" Şirkətinin prezidenti Riçard Matske ilə;

47) "Con Vinq ənd Çarli Uilson" Şirkətinin prezidentləri Con Vinq və Çarli Uilson ilə;

48) "Pennzoyl" Şirkətinin prezidenti Ceyms Peyt ilə;

49) ABŞ-ın "Yunokal" Şirkətinin prezidenti Con Ayml ilə;

50) ABŞ-ın "Konoko" Şirkətinin prezidenti Arqu Dunxam ilə;

51) Hyuston-Bakı Assosiasiyasının nümayəndələri ilə;

52) ABŞ-ın "Eksson" Şirkətinin prezidenti Terri Kunts ilə;

53) ABŞ-ın "ARKO" Şirkətinin prezidenti Mayk Boblinlə;

54) ABŞ-ın "Teksako" Şirkətinin vitse-prezidenti Robert Blek ilə;

55) "Şell" Şirkətinin prezidenti Filip Kerroll ilə;

56) ABŞ-ın "Mobil" Şirkətinin prezidenti Bill Skolins ilə;

57) Amerikanın görkəmli ictimai-siyasi xadimi Qreq Laflin ilə;

58) Hyustondakı Qan Mərkəzində;

59) Hyustondakı Tibb Mərkəzində dünya şöhrətli ürək cərrahı professor Mişel Debeyki ilə;

60) Texas uşaq xəstəxanasında;

61) "Həyat" Korporasiyasının təsisçiləri ilə;

62) "Çikaqo Tribyun" qəzetinin redaksiya heyəti ilə;

63) ABŞ-ın "FMS" Şirkətinin vitse-prezidenti Mak Klanq ilə;

64) ABŞ-ın "AMOKO" Korporasiyasının direktorlar şurasının sədri Lourens Fuller ilə;

65) ABŞ-ın "Katerpiller" Şirkəti Direktorlar Şurasının sədri Donald Fayts və "Motorolla" Şirkəti Direktorlar Şurasının keçmiş sədri Robert Gelvin ilə;

66) Amerikadakı Azərbaycan Mədəniyyət Cəmiyyətinin nümayəndələri ilə;

67) Çikaqoda "911" təcili yardım mərkəzində;

68) "Motorolla" Beynəlxalq Şəbəkələr Sisteminin rəhbərləri ilə;

69) Amerika-Avrasiya Sənaye-Ticarət Palatasının sədri Yelena Teplitskaya ilə;

70) Çikaqo Əmtəə-Xammal Birjasında.

Belə bir sual doğur: Görəsən 2-3 il bundan öncə ABŞ-a Azərbaycan Prezidentinin rəsmi səfəri belə uğur qazana bilərdimi?

Qəti demək olar ki, yox! Çünki ölkə başçımızın böyük zəhmət və iradə hesabına hərəkətə gətirdiyi Azərbaycan təbliğat maşını bütün dünyada, o cümlədən ABŞ-da ölkəmizə, xalqımıza qarşı münasibəti kökündən dəyişmişdir, uğrunda mübarizə apardığımız haqq işini indi nəinki dostlarımız və bitərəf ölkələr, hətta bizə düşmən və ya qeyri-obyektiv mövqedə duranlar da etiraf etməyə məcburdurlar. Buna misal olaraq aşağıdakı fikirləri göstərmək yerinə düşərdi.

Erməni siyasətçisi Şahnazaryan deyir: "Bu gün Ermənistan faktiki olaraq siyasi cəhətdən təcrid edilib, biz bütün məsələlərdə Azərbaycana uduzmuşuq. Azərbaycanın gözəl təşkil olunmuş təbliğatı qələbələr çalır. Heydər Əliyev bütün görüşlərdə, beynəlxalq forumlarda, çıxışlarında, xarici səfərlərində artıq dünyanın beyninə yeridib ki, Ermənistan təcavüzkardır, Azərbaycan haqlıdır, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz bir hissəsidir, ona görə biz olduqca çətin vəziyyətdəyik".

Azərbaycan əleyhinə 907-ci bəndin qəbul edilməsində ermənilərin ən böyük dəstəkçisi olmuş görkəmli demokrat konqresmen Li Hamilton yazır: "Baxmayaraq ki, mən bu bəndi dəstəkləmişəm, lakin keçən illər onu sübut edir ki, bu səhv idi, Azərbaycana qarşı siyasətimiz düzgün olmayıbdır. Konqres onu aradan götürməli, Azərbaycanla əlaqələr normal vəziyyətə düşməlidir. Amerika Azərbaycanı həm demokratiya quruculuğunda, həm iqtisadiyyatın qurulmasında, həm də onun regiondakı mütərəqqi rolunu dəstəkləməlidir".

Əlbəttə, belə fikir və əqidə "inqilabları" Prezident Heydər Əliyevin dərin strateji və taktiki mənalı siyasi gedişlərinə əsaslanan son illərdəki uğurlu xarici siyasətimizin bəhrəsi kimi qiymətləndirilməlidir. Bu uğurlar isə çox çətin bir vəziyyətdə əldə edilmişdir. Belə ki, əvvəlki iqtidarların "fəaliyyəti" nəticəsində Azərbaycan dünya siyasəti meydanında kürəyi yerdə olmaq vəziyyətinə düşmüşdü. Azərbaycan dünya tərəfindən pislənən, əleyhinə 907-ci bənd qəbul olunan, torpaqlarının 20 faizi işğal edilən, gah İslam

fundamentalizmində, gah da irticaçılıqda təqsirləndirilən mənfi imicə malik bir ölkədən qısa müddət ərzində siyasət meydanında ayağa qalxmış və demokratiyanı, bazar iqtisadiyyatını dəstəkləyən bir ölkə kimi hamı tərəfindən qəbul olunmuşdur.

Səfər zamanı imzalanmış 5 mühüm sənəddə - Amerika-Azərbaycan münasibətləri haqqında Birgə Bəyanatda, Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında sərmayə qoyuluşunun qarşılıqlı qorunması və təşviq edilməsi haqqında Müqavilədə, Birləşmiş Ştatlar ilə Azərbaycan arasında müdafiə və hərbi sahələrdəki gələcək münasibətlər barədə Birgə Bəyanatda, Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında energetikanın inkişafı üzrə ikitərəfli dialoq yaradılması niyyətləri haqqında Bəyanatda, layihələrin təşviqinə dair Baş Sazişdə öz əksini tapmış ölkələrarası qarşılıqlı münasibətlərin inkişaf istiqamətləri hər iki tərəfin marağına tam uyğundur. Həmin sənədlər dövlət müstəqilliyimizin möhkəmləndirilməsinə, milli təhlükəsizliyimizin təmin olunmasına və respublikamızın sosial-iqtisadi tərəqqisinə xidmət edəcəkdir. "Şevron", "Eksson", "AMOKO" və "Mobil" kimi tanınmış neft şirkətləri ilə neft hasilatına dair bağlanmış 4 yeni saziş Azərbaycana investisiya axınını gücləndirməklə yanaşı ölkələr arasında iqtisadi əlaqələri daha da genişləndirəcəkdir.

"Amerika-Azərbaycan münasibətləri haqqında Birgə Bəyanat"da deyilir ki, Prezident Bill Klinton Birləşmiş Ştatlar və Azərbaycan arasında əlaqələrin regionda sülhün,

sabitliyin və rifahın təmin edilməsi üçün vacib olduğunu qeyd edərək ABŞ-ın Azərbaycanın müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü və demokratik inkişafını dəstəklədiyini təsdiq edir.

İqtisadi baxımdan böyük əhəmiyyət kəsb edən odur ki, bəyanatda Prezident Klinton son illərdə Azərbaycanın demokratiya və bazar iqtisadiyyatı yolu ilə gedən müstəqil bir dövlət kimi möhkəmlənməsində, iqtisadi islahatların aparılmasında və böyük inkişaf əldə olunmasında Prezident Heydər Əliyevin nailiyyətlərini yüksək qiymətləndirir.

Azərbaycanın iqtisadi islahatlar proqramına sadiqliyi, o cümlədən Dünya Bankı və Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlıq nəticəsində daha geniş və sürətli özəlləşdirməyə nail olmaq üçün bu istiqamətdə Heydər Əliyevin rəhbərliyi altında ölkədə həyata keçirilən kompleks tədbirlər bazar əlaqələrinə əsaslanan iqtisadiyyata uğurlu keçidin əsasıdır. Hər iki prezident razılığa gəlmişlər ki, demokratiya, iqtisadi islahatlar və insan hüquqlarına riayət edilməsi Azərbaycanda davamlı sabitliyin təmin olunmasında əhəmiyyətli rol oynayır. Prezident Klinton Prezident Əliyevin bazar iqtisadiyyatına, qanunun aliliyinə və siyasi plüralizmə, azad və ədalətli seçkilər keçirilməsinə sadiqliyini məmnunluqla qarşılamışdır.

Hər iki Prezident ikitərəfli ticarətin və sərmayələrin artması da daxil olmaqla, genişlənən iqtisadi və kommersiya əlaqələrini dəstəkləmişdir. Xəzər dənizinin enerji ehtiyatlarının sürətli inkişafının vacibliyi vurğulanmış və Azər-

baycanın neft və qaz ehtiyatlarının emalı və nəqlində Amerika neft şirkətlərinin geniş iştirakı xüsusi qeyd edilmişdir. Prezidentlər enerji siyasəti və kommersiya məsələləri üzrə rəsmi dialoqun yaradılmasını alqışlamışlar. Onlar Avropa-Asiya nəqliyyat dəhlizinin Azərbaycanın və bütövlükdə regionun iqtisadi gələcəyi üçün həyati əhəmiyyəti haqqında razılığa gəlmişlər. Hər iki Prezident Azərbaycan və ABŞ hökumətləri arasında sərmayə qoyuluşunun qarşılıqlı qorunması və təşviq edilməsi haqqında müqavilənin və layihələrin təşviqinə dair Baş Sazişin imzalanmasını alqışlamışlar. Birləşmiş Ştatlar Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasını, o cümlədən adətən yeni qəbul edilən üzvlərə tətbiq olunan kommersiya şərtləri daxilində ümumdünya ticarət təşkilatına üzvlük üçün müraciətinin təmin edilməsini təşviq etmişdir.

Birgə Bəyanatın əhəmiyyətindən danışarkən göstərmək lazımdır ki, bəyanat doğrudan da tarixi əhəmiyyət kəsb edir və ABŞ-Azərbaycan arasındakı əlaqələrin normativ hüquqi əsasını yaradır, Azərbaycan Respublikasının müstəqiliyini daha da möhkəmləndirmək və tərəqqi əldə etmək üçün böyük imkanlar açır.

Prezident Bill Klinton öz bəyanatında dedi ki, Amerika Azərbaycanın çox güclü müstəqil bir dövlət qurmaq səylərini dəstəkləyir. Azərbaycanın uğuru bizim üçün çox vacibdir. Azərbaycan Avropa, Asiya və Orta Şərq arasında strateji mövqedə yerləşir. O, Orta Asiyaya çıxış yoludur. Onun zəngin təbii ehtiyatları var. Özünə inamlı və suveren Azərbaycan münaqişələr içərisində olan regionda sabitliyi

artıra, habelə Şərq ilə Qərb arasında ticarət üçün təhlükəsiz yolu təmin edə, öz enerji ehtiyatlarının dünya bazarlarına çevik və etibarlı nəqli üçün imkan yarada bilər.

Amerika Prezidenti öz bəyanatında bildirdi ki, Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan müstəqillik yolunda üzləşdiyi çətinlikləri dəf etməkdə əhəmiyyətli irəliləyişlər qazanıbdır. Birləşmiş Ştatlar bu irəliləyişin davam etməsini istəyir.

O, bildirdi ki, Xəzər hövzəsi neft və qaz hasilatı üçün həyati əhəmiyyət kəsb edən regiondur və qarşıdakı illər ərzində enerji ehtiyatlarının istifadəsinə və nəqlinə dair qəbul olunan qərarlar gələcək nəsillərə böyük təsir göstərəcəkdir.

Klinton dedi ki, ikitərəfli sərmayələr haqqında müqavilə iki ölkə arasında ticarət və sərmayələr üçün daha yaxşı əsas yaradacaq, qarşılıqlı iqtisadi əlaqələrimizi genişləndirəcəkdir.

Səfər zamanı Azərbaycana, o cümlədən onun iqtisadiyyatına olan böyük marağı ABŞ-ın energetika naziri Federiko Penya belə ifadə etmişdir:

"Zənnimcə, dövlətlərimiz arasında yaxın dostluq və strateji tərəfdaşlıq münasibətlərinin daha da dərinləşdirilməsinə böyük ehtiyac vardır. Bildiyiniz kimi, enerji, təhlükəsizlik və bir çox başqa sahələrdə ölkələrimiz arasında geniş əməkdaşlıq üçün böyük imkanlar vardır. Bütün bu imkanlar və əməkdaşlığımız ölkələrimizin sülhə və əmin-

amanlığa nail olmaq barədə ümumi mənafeyinə və məqsədinə xidmət edir.

Bizim məqsədimiz enerji məhsuldarlığını artırmaqla dövlətlərimizin iqtisadi gücünün möhkəmləndirilməsinə xidmət etməkdir. Bizim məqsədimiz ətraf mühitin çirklənməsinin qarşısını almaq və dövlətimizin, dünya ölkələrinin enerji təminatının müxtəlif yollarla ödənilməsini həyata keçirməkdən ibarətdir. Mən əminəm ki, Amerika və Azərbaycan hökumətləri, habelə özəl bölmədən olan dostlarımız səylərini birləşdirərək eyni məqsədlərə nail olmaq üçün birgə fəaliyyət göstərəcəklər.

Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsinə, dirçəldilməsinə, ölkənizin enerji sənayesinin və digər sahələrinin çiçəklənməsinə Amerika şirkətləri həqiqi töhfə vermək niyyətindədirlər. Azərbaycana sərmayə qoymaq Amerika Birləşmiş Ştatları üçün üstün sahələrdən biridir".

Ölkəmizə bu cür maraq Azərbaycanda iqtisadi islahatların və demokratiyanın genişləndirilməsi sahəsində aparılan işlər barədə Prezident Heydər Əliyev tərəfindən ABŞ ictimaiyyəti geniş məlumatlandırıldıqdan sonra yaranmışdır. Səfər zamanı dövlətimizin başçısı dəfələrlə bu barədə dərin məzmunlu, inandırıcı bəyanatlar vermiş, çoxsaylı suallara aydınlıq gətirmişdir.

"AMOKO" Korporasiyasının iqamətgahında Amerika-Avropa-Asiya Ticarət Palatasının ölkə başçımızın şərəfinə təşkil etdiyi ziyafətdə Heydər Əliyev demişdir: "Bu gün mən sizin qarşınızda çıxış edərkən bəyan edirəm ki, Azər-

baycan öz iqtisadiyyatını bundan sonra da bazar iqtisadiyyatı yolu ilə aparacaqdır. Azərbaycanda başqa iqtisadiyyat bərpa ola bilməz... İqtisadi cəhətdən bizim yolumuz bazar iqtisadiyyatı yaratmaq, bazar iqtisadiyyatı yolu ilə getmək, insanlara sərbəstlik verməkdir.

Biz insanlara sərbəstlik veririk və bundan sonra bunu daha da genişləndirəcəyik. İqtisadiyyatımızı canlandırmaq, bazar iqtisadiyyatını tətbiq edib inkişaf etdirmək üçün, şübhəsiz ki, xarici investisiyanın Azərbaycana gəlməsinə çalışırıq və sevindirici haldır ki, biz artıq bunun şahidiyik. Bu gün burada deyildi, ABŞ şirkətləri Azərbaycana bu yaxınlarda bir milyard dollara yaxın sərmayə qoyulmasını başa çatdıracaqlar. Ancaq imzalanmış müqavilələr Amerika şirkətlərinin Azərbaycana təqribən 10 milyard dollar investisiya qoymasını nəzərdə tutur.

Məsələ təkcə neft yataqlarının işlənməsi ilə bitmir... Biz Mərkəzi Asiyadan Xəzər dənizi, Azərbaycan və Qara dəniz vasitəsi ilə Avropaya yeni nəqliyyat dəhlizi açmışıq və o artıq işləyir. Bu, qədim İpək yolunu bərpa etmək deməkdir. Bu yolla Mərkəzi Asiyadan Avropanın ən kənar ölkələrinə, eyni zamanda əksinə, Avropadan Mərkəzi Asiyaya yüklər daşınır. Biz bu sahədə çox işlər görmüşük və nəqliyyat dəhlizini bundan sonra da inkişaf etdirəcəyik...

Gələcəkdə ümumən Mərkəzi Asiyadan Avropaya, Qərbə ən əlverişli yol məhz Xəzər dənizindən, Azərbaycandan keçən yoldur. Biz bu yolun gələcəkdə daha da genişlənməsinə tərəfdarıq və öz tərəfimizdən lazımi tədbirlər görəcəyik"[1].

---

[1] «Azərbaycan» qəzeti, 6 avqust 1997-ci il.

Amerika - Azərbaycan Ticarət-Sənaye Palatasının və Beynəlxalq Anlaşma Təşkilatı işgüzar şurasının üzvləri ilə görüş zamanı ölkə başçımız respublikamızda aparılan islahatların dönməzliyindən bəhs edərək demişdir: "Biz Azərbaycanın iqtisadi göstəricilərini keçmiş Sovetlər İttifaqına mənsub olmuş, indi Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin iqtisadiyyatının inkişafı ilə adətən müqayisə edirik və güman edirəm ki, bu, doğrudur. Bu ölkələrin içərisində iqtisadi islahatların keçirilməsində ən irəlidə gedəni Rusiyadır. Ona görə də mən bir neçə müqayisələr etmək istəyirəm. Biz 1996-cı ildə "Torpaq islahatı haqqında" qanun qəbul etmişik, torpağın şəxsi mülkiyyətə verilməsini qərara almışıq. İndi torpaq şəxsi mülkiyyətə verilir və bu da öz gözəl nəticələrini göstərir. Aqrar sektorda heyvandarlıq tam özəlləşdirilibdir. Bunların nəticəsində keçən il Azərbaycanda istehsal olunan bütün kənd təsərrüfatı məhsullarının 80 faizini özəl sektor veribdir.

Bu ayın əvvəlində mən Moskvada, Rusiyada rəsmi səfərdə idim. Rusiyada torpağı şəxsi mülkiyyətə verməyiblər və bu qərarı qəbul edə bilmirlər, kolxozların, sovxozların əksəriyyəti mövcuddur. Onlar keçmiş sovet sistemindən uzaqlaşa bilməyiblər. Mən orada islahatın tərəfdarı olan çox adamlarla, rəhbər şəxslərlə görüşəndə torpağın şəxsi mülkiyyətə verilməsi haqqında qəbul etdiyimiz qanun və onun əməli nəticələri haqqında danışarkən onlar heyran olduqlarını bildirdilər".

Vaşinqtondakı Corctaun Universitetində görüşdə Heydər Əliyev demişdir: "Azərbaycan bazar iqtisadiyyatı yolu ilə

gedərək islahatlar aparır, bu sahədə böyük nailiyyətlər əldə edir. Özəlləşdirmə proqramı geniş həyata keçirilir. "Torpaq islahatı haqqında" qanun həyata keçirilərək torpağın şəxsi mülkiyyətə verilməsi təmin olunubdur. Azərbaycanda təşəbbüskarlığa və şəxsi mülkiyyətçiliyə, sahibkarlığa çox geniş imkanlar verilibdir.

Bütün bu proseslərdə Azərbaycanın qapısı dünya ölkələrinə açılıb, dünya ölkələrinin Azərbaycana gəlməsi, investisiya qoyması üçün çox gözəl şərait yaradılıbdır. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu şərait Azərbaycana güclü xarici sərmayənin gəlməsini təmin edibdir. Siz bunu məhz Amerikanın böyük neft şirkətlərinin 1994-cü ildən başlayaraq əməli iş görməsinin timsalında görə bilərsiniz və bu işlər hələ davam edir. Ancaq Amerikanın təkcə neft şirkətləri yox, bir çox başqa böyük şirkətləri də Azərbaycanda müştərək iş görür, respublikamıza sərmayə qoyurlar".

Səfər zamanı Heydər Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycanda xarici investorların sərmayələrinin qorunması üçün çox dəyərli qanunlar, o cümlədən xarici sərmayələrə immunitet haqqında və xarici sərmayədarların gəlirlərinin repotriasiya olunması haqqında qanun qəbul etmişik. Azərbaycana investisiya qoyan hər bir fiziki və yaxud hüquqi şəxs respublikamızda qanunların dəyişilməsindən asılı olmayaraq on il müddətində investisiyanı qoyduğu şərtlərlə işləyə bilər.

Bunlar hamısı Azərbaycanda bir tərəfdən, iqtisadiyyatı

liberallaşdırıb, sərbəstləşdirib, azad sahibkarlığa, təşəbbüskarlığa böyük imkanlar yaradıbdır, ikinci tərəfdən Azərbaycana xarici investisiyaların gəlməsi üçün çox əlverişli şərait yaradıbdır.

Azərbaycandakı özəlləşdirmədə hər bir xarici fiziki, yaxud hüquqi şəxs iştirak edə bilər. Bunun üçün heç bir maneçilik yoxdur.

Heydər Əliyev bunları ətraflı şərh edərkən onu əsas götürürdü ki, Azərbaycana sərmayə qoymaq istəyən hər bir amerikalı Azərbaycanı geniş mənada dərk etməli, onun iqtisadi, siyasi və struktur mənzərəsinə dərindən bələd olmalıdır.

Səfər zamanı Heydər Əliyev daim Azərbaycan gerçəkliyini nəinki rəsmi dövlət adamlarına çatdırmış, hətta verdiyi çoxsaylı müsahibələrdə geniş ictimayyətdə Azərbaycana böyük maraq oyanması üçün çox inandırıcı fikirlər söyləmişdir.

Azərbaycanın Prezidenti Heydər Əliyevin ABŞ-a səfəri böyük uğurla keçmişdir. Qafqaz regionunda yeni dövrün başlanğıcı kimi qiymətləndirilən bu tarixi səfərdə əldə edilən nəticələr dövlət başçımızın rəhbərliyi altında dörd il müddətində aparılan hazırlıq nəticəsində mümkün olmuşdur.

ABŞ - Azərbaycan münasibətlərində dönüş 1996-cı ilin yanvarından etibarən özünü göstərməyə başladı. 1994-1995-ci illərdə respublika Prezidenti Heydər Əliyevin BMT Baş Məclisinin illik sessiyaları və yubileyində iştirak etmək üçün

ABŞ-a səfərləri və səfərlər zamanı ABŞ Prezidenti B.Klinton, bir sıra nüfuzlu konqresmen və senatorlarla, habelə ABŞ-dakı Azərbaycan icmasının nümayəndələri ilə görüşləri, iki ölkə arasındakı parlamentlərarası əlaqələrin genişlənməsi, Azərbaycanın islahatlar yolu ilə irəliləməsi, ABŞ siyasi xadimləri və iş adamlarının respublikamıza səfərləri, ABŞ neft kompaniyalarının neft kontraktlarında iştirakı və s. amillər Azərbaycana münasibətin əsaslı şəkildə dəyişməsini şərtləndirən amillər idi.

Azərbaycan - Amerika əlaqələri indi möhkəm dostluq və əməkdaşlıq təməlinə söykənir. Bu əlaqələrin əsası isə qədim Naxçıvan torpağı ilə bağlıdır. Daha doğrusu, dünya şöhrətli siyasətçimiz Heydər Əliyevin adı ilə bağlıdır. O, Naxçıvanda Ali Məclisin sədri işləyərkən dostluq və əməkdaşlıq təməlinə söykənən əlaqələrin başlanğıcını qoyub. 1993-cü ilin yanvar ayında Ermənistan tərəfindən iqtisadi blokadaya alınmış Naxçıvan Muxtar Respublikasına Heydər Əliyevin məktubu əsasında ABŞ Prezidenti Bill Klintonun göstərişi ilə birbaşa yardım göstərilməsini bütün Azərbaycan xalqı, o cümlədən naxçıvanlılar hələ də minnətdarlıqla xatırlayırlar. Belə bir tədbir Azadlığı Müdafiə Aktına əlavə edilmiş 907-ci maddənin qüvvədə olduğu bir vaxtda həyata keçirilmişdi.

Hyuston - Bakı Qardaşlaşmış Şəhərlər Assosiasiyası da 25 il bundan əvvəl, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə təşkil olunmuşdur. Bu assosiasiya Bakı və Hyuston şəhərlərinin əhalisini bir-biri ilə dostlaşdırmaq və onların əlaqələrini daha da genişləndirmək məqsədi ilə yaradılmışdır.

H. Əliyev özü bu barədə ABŞ-a səfəri zamanı demişdir: "Məhz o vaxt, o illərdə biz Bakı ilə Hyuston qardaşlaşması haqqında qərar qəbul etmişdik. Mən həddindən artıq sevinirəm ki, 25 il bundan öncə atdığımız addım indi nəinki Bakı ilə Hyustonu, hətta Azərbaycan ilə Amerika Birləşmiş Ştatlarını bu qədər yaxınlaşdırıbdır. Azərbaycanı Texasla, Hyustonla bu qədər sıx dostluq əlaqələrinə gətirib çıxarıbdır. Bunlar hamısı sevindirici haldır.

Mən sizinlə birlikdə fəxr edirəm ki, bu dostluğun, əlaqələrin, Hyuston-Azərbaycan, Hyuston-Bakı Dostluq Assosiasiyasının, Bakı və Hyuston şəhərlərinin qardaşlaşmasının təşəbbüskarlarından olmuşam və vaxtilə - 25 il bundan əvvəl Azərbaycan tərəfindən bu qərarı məhz mən qəbul etmişəm.

İnsan düşündükcə heyrətə gəlir. XX əsrin, sona çatan əsrin dörddə bir hissəsi - 25 il bizim dostluq və qardaşlıq əlaqələrimizin tarixidir. Mən çox xoşbəxtəm ki, 25 il bundan əvvəl Amerika ilə Azərbaycan arasında əlaqələr yaratmaq üçün Azərbaycanda belə bir addım atılıbdır və mən bunun təşkilatçısı olmuşam. Xoşbəxtəm ki, 25 il bundan sonra yaşayıb, bu günə çatıb, bu gün Azərbaycan Respublikasının, müstəqil Azərbaycanın Prezidenti olaraq buraya - Hyustona gəlib bu hadisənin 25 illik yubileyini sizinlə birlikdə qeyd edirəm.

İndi bunun üçün imkanlar genişlənibdir. Amerika Birləşmiş Ştatlarının böyük neft şirkətləri, onların da hamısının mərkəzi buradadır, Hyustondadır. ABŞ-ın şirkətləri Azər-

baycan ilə uzunmüddətli iş görmək üçün müqavilələr imzalamışlar. Bizim bu işlərimiz, deyə bilərəm ki, XXI əsrin axırınadək davam edəcəkdir. Hesab edirəm ki, bu böyük neft şirkətləri Hyuston - Bakı, Hyuston - Azərbaycan, Texas - Azərbaycan əlaqələrinin inkişaf etməsi üçün öz paylarını verməli və öz xidmətlərini göstərməlidirlər.

Azərbaycan - Amerika əlaqələrində iqtisadi əlaqələr xüsusi yer tutur. Bu sahədə Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında son illərdə ciddi addımlar atılmışdır. Bəlkə də heç vaxt Amerika Birləşmiş Ştatları iqtisadi cəhətdən Azərbaycanda bu qədər təmsil olunmayıbdır.

Birinci növbədə, Amerika Birləşmiş Ştatları şirkətlərinin Azərbaycanın neft və qaz yataqlarından, enerji ehtiyatlarından, o cümlədən Xəzər dənizinin enerji ehtiyatlarından istifadə olunmasında iştirakı mühüm yer tutur. 1994-cü ilin sentyabrında imzalanmış ilk böyük neft müqaviləsində - "Əsrin müqaviləsi" adlanmış müqavilədə Amerika Birləşmiş Ştatlarının çox böyük hissəsi var və Amerikanın "AMOKO", "Pennzoyl", "Yunokal", "MakDermott" şirkətləri bu konsorsiumun əsasını təşkil etmişlər. Sonra bu konsorsiuma "Eksson" Şirkəti də qoşulmuşdur. Beləliklə, bu konsorsiumda olan şirkətlərin əksəriyyətini Amerika şirkətləri təşkil etmişdir.

Azərbaycanda olan bütün xarici ölkə şirkətlərinin miqdarına nisbətdə Amerika Birləşmiş Ştatları cəmi beş faiz təşkil edir ki, bu da Amerika kimi böyük bir dövlət üçün məqsədəuyğun deyildir".

Eyni zamanda Heydər Əliyev dəfələrlə Azərbaycanın im-

kanları haqqında çox geniş məlumat vermiş, mövcud imkanlarımızı açıqlamışdır. O, ABŞ iş adamlarının nəzərinə çatdırmışdır ki, kimya, maşınqayırma sənayesində, kənd təsərrüfatı məhsullarının emalı, toxuculuq, metallurgiya sahələrində və bir çox başqa sahələrdə, o cümlədən infrastruktur, telekommunikasiya, nəqliyyat sahələrində Azərbaycanda çox iş görmək olar.

Bu gün tam yəqinliklə demək olar ki, ABŞ-ın Azərbaycan siyasətində baş verən dəyişikliklər ilk növbədə respublika rəhbərliyinin "neft diplomatiyası" yolu ilə əldə etdiyi nailiyyətlərlə bağlıdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dərindən və hərtərəfli düşünülmüş müdrik siyasəti, xarici sərmayələrin cəlb olunması sahəsinə onun şəxsən rəhbərlik etməsi nəticəsində Azərbaycan yenidən dünyanın ən böyük neft mərkəzi şöhrətini qazanır. Amerika şirkətlərinin mövqelərinin möhkəmlənməsi və sərmayələrinin durmadan artması ilə bir çox cəhətdən bağlı olan bu siyasət səfər zamanı ABŞ Prezidenti tərəfindən bir daha yüksək qiymətləndirilmişdir.

Azərbaycan Xəzər dənizinin Azərbaycan sektorunda neft və qaz yataqlarının və perspektiv strukturlarının birgə kəşfiyyatına və işlənməsinə dair doqquz iri saziş imzalamışdır. Bu sazişlərdə 12 ölkənin bütün dünyada məşhur olan 20 iri neft şirkəti iştirak edir. Amerikanın neft şirkətləri 6 sazişin iştirakçısıdır, həm də onların sərmayə qoyulmasında iştirakı böyük məbləğlə ifadə olunur, ümumi sərmayələrin 30 faizindən 50 faizə qədərini təşkil edir.

Ümumiyyətlə, imzalanmış sazişlərdə sərmayələrin həcminə görə ABŞ şirkətləri xarici şirkətlər arasında birinci yeri tutur və neft yataqlarının mənimsənilməsinə qoyulacaq təqribən 30 milyard dolların 8 milyard dollardan çoxu Amerika şirkətlərinin payına düşür. Hazırda bütün layihələrin həyata keçirilməsində, infrastruktur yaradılmasında, material, avadanlıq göndərilməsində və xidmətlər göstərilməsində əsas tərəfdaşlarımızla yanaşı Amerikanın təqribən 100 şirkəti də iştirak edir.

Məlumdur ki, Azərbaycanın təbii sərvətləri təkcə neft və qazdan ibarət deyildir. Azərbaycanın zəngin dəmir filizi, alunit, qurğuşun və sink yataqları, eyni zamanda zəngin qızıl, mis və gümüş yataqları var. Bu sərvətlərdən səmərəli istifadə edilməsi daim Heydər Əliyevin diqqət mərkəzində olmuşdur.

Ölkə Prezidenti 1997-ci il avqustun 21-də demişdir: "Təxminən 50-ci illərdən başlayaraq Azərbaycanın əlvan metal yataqlarından istifadə olunmasına ciddi fikir verilib və bu sahədə bir çox kəşfiyyat işləri aparılıbdır. Kəşfiyyat işləri Azərbaycanın bir sıra bölgələrində əlvan metallardan qızıl, gümüş və mis yataqlarının mövcud olduğunu aşkar edibdir. Təəssüflər olsun ki, həmin yataqlar kəşf ediləndən sonra bunların istifadə olunması barəsində uzun müddət lazımi tədbirlər görülməyibdir...

Son illər biz müstəqil dövlət kimi, Azərbaycanın bütün sərvətlərinin müəyyən edilməsi və onlardan istifadə olunması planlarının təşkili işlərinə ciddi fikir veririk. Bununla

əlaqədar Azərbaycanın qızıl, gümüş və mis yataqlarına xarici şirkətlərin marağı da artıbdır"[1].

1995-ci ildən aparılan tədqiqatlar, təhlillər, müzakirələr nəticəsində məlum olmuşdur ki, Azərbaycanın ərazisində olan bir qrup qızıl, mis və gümüş yataqlarının ətraflı kəşfiyyatının, işlənməsinin və nəticədə sənaye işləri aparılmasının vaxtı çatıbdır və indiki imkanlarımızla, öz vəsaitimizlə bu yataqlardan müstəqil istifadə etmək imkanına malik deyilik. Ona görə də bu yataqların Amerika Birləşmiş Ştatlarının şirkəti ilə müştərək istifadə edilməsinin və həmin məqsədlə müvafiq saziş imzalamağın məqsədəuyğunluğu ortaya çıxmışdır.

Həmin yataqlardan təxminən 400 ton qızıl, 2500 ton gümüş, 1,5 milyon ton mis hasil etmək nəzərdə tutulubdur. Azərbaycan üçün çox dəyərli olan bu sazişin həyata keçirilməsi üçün ümumi sərmayə təxminən 500 milyon dollar həcmində nəzərdə tutulur. Hasilatın pay bölgüsünə görə gəlirin təxminən 80 faizi Azərbaycana məxsus olacaqdır.

Sazişin xüsusiyyəti bir də ondan ibarətdir ki, bu yataqlar Azərbaycanın müxtəlif bölgələrində yerləşir, onun ərazisinin bir çox hissəsini əhatə edir, işlər bu bölgələrdə həyata keçiriləcəkdir. Paytaxtda, Bakının ətrafında, Abşeron yarımadasında həyata keçirilən neft müqavilələrindən fərqli bu işlər Azərbaycan ərazisinin, demək olar, müxtəlif hissələrində görüləcəkdir. Bu da Azərbaycanın ayrı-ayrı bölgə-

[1] «Azərbaycan» qəzeti, 22 avqust 1997-ci il.

lərində yeni iş yerlərinin açılması deməkdir. Sazişə görə işlərin görülməsinə təxminən 10 min adam cəlb ediləcək və bunların 90 faizini yerli əhali təşkil edəcəkdir.

Heydər Əliyev Amerika Birləşmiş Ştatlarında olarkən bütün görüşlərdə bildirmişdi ki, Azərbaycanın iqtisadi imkanları təkcə neft və qaz sənayesi, yaxud neft-qaz yataqları ilə məhdudlaşmır. Azərbaycanın təbii sərvətləri və iqtisadi imkanları çoxdur. Ona görə də Amerika Birləşmiş Ştatlarının şirkətləri başqa sahələrdə də Azərbaycanla əməkdaşlıq edə bilərlər.

İmzalanmış saziş onu sübut edir ki, doğrudan da Azərbaycanın belə imkanları var və ölkəmizin iqtisadiyyatının bir çox başqa sahələrinə güclü investisiya qoymaq mümkündür. Amerika Birləşmiş Ştatlarının çox mühüm bir şirkətinin Azərbaycanın əlvan metal yataqlarına böyük həcmdə investisiya qoyması bunu sübut edir.

Heydər Əliyevin Amerika səfərindən az sonra Azərbaycanda Amerika şirkəti ilə Azərbaycan şirkəti arasında belə böyük bir sazişin imzalanması ölkə Prezidentinin imzaladığı sazişlərə sadiq olduğunu və eyni zamanda verdiyi bəyanatların həyata keçirilməsinin təminatçısı kimi beynəlxalq aləmdə öz imicinin yüksəldiyini bütün dünyaya bir daha sübut etmişdir.

Heydər Əliyevin ABŞ-a səfəri zamanı həmin dövlətin yüksək vəzifəli şəxslərinin onun iqtisadi və siyasi fəaliyyəti haqda söylədikləri fikirlər xüsusi diqqətə layiqdir.

ABŞ Prezidenti Bill Klinton ölkəmizdə qısa müddətdə iqtisadiyyatın dirçəldilməsini, islahatların uğurla aparılmasını,

özəlləşdirmə sahəsində geniş tədbirlərin həyata keçirilməsini təqdirəlayiq hal hesab etdi. O bildirdi ki, Prezident Heydər Əliyevin gördüyü bu işlər Azərbaycanın çiçəklənməsinə, inkişaf etmiş bir dövlətə çevrilməsinə çox böyük fayda verəcəkdir.

Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənməsində yaxından iştirak edən ABŞ şirkətlərinə yaradılan şəraitə və onlara göstərilən diqqətə görə Prezident Heydər Əliyevə minnətdarlığını bildirən cənab Bill Klinton respublikamızın dünya birliyi ilə bağlılığının daha da sıxlaşdırılması sahəsində görülən işləri yüksək qiymətləndirdi, dövlətimizin başçısının uzaqgörən siyasəti nəticəsində Azərbaycanın tezliklə daha böyük uğurlar qazanacağına əmin olduğunu söylədi.

ABŞ-ın Dövlət katibi xanım Madlen Olbrayt dövlətimizin başçısının ABŞ-a rəsmi səfərinin çox uğurlu keçdiyini söylədi.

Prezident Klintonun Prezident Əliyevlə görüşündən məmnun qaldığını bildirən Dövlət katibi xüsusi olaraq vurğuladı ki, onun bu vəzifədə olduğu dövrdə ABŞ-da Heydər Əliyev qədər yüksək səviyyədə qarşılanan və uğurlu səfər edən ikinci prezident hələ ki, görməyibdir.

Müstəqilliyinin qorunub saxlanması, Azərbaycanda demokratik hüquqi dövlət quruculuğu və radikal iqtisadi islahatlar aparılması, iqtisadiyyatın bazar münasibətləri prinsipləri əsasında inkişaf etdirilməsi, beynəlxalq təşkilatlar, xüsusilə fövqəlmilli maliyyə təsisatları - Dünya Bankı,

Beynəlxalq Valyuta Fondu ilə Azərbaycan arasında çox uğurlu əməkdaşlığın genişləndirilməsi, Azərbaycanın tərəqqisi naminə xarici sərmayələrin cəlb edilməsi, iqtisadiyyatın inteqrasiyası, Xəzərin enerji ehtiyatlarının Qərbin aparıcı neft şirkətləri ilə birgə işlənməsi sahəsində Prezident Heydər Əliyevin qazandığı nailiyyətləri çox yüksək qiymətləndirdiyini bildirdi.

ABŞ-ın BMT yanında daimi nümayəndəsi Uilyam Riçardson:

"Siz ABŞ-ın böyük dostu, islahatçısınız. Sizin ölkənin böyük gələcəyi var və biz ölkənizlə sıx əlaqə yaratmaq istəyirik".

Müşavir Yan Kapitski:

"Azərbaycan Prezidenti Heydər Əliyevlə müxtəlif tədbirlərdə bir neçə dəfə görüşüb söhbət etmək şərəfi mənə də nəsib olmuşdur. Mən bu görüşlərin hər birində Prezident Heydər Əliyevin Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında təkcə iqtisadiyyat sahəsində deyil, eləcə də başqa sahələrdə çox güclü münasibətlər yaratmağa nə qədər sadiq olduğuna valeh olmuşam.

Biz Prezident Heydər Əliyevin Xəzər dənizindən, Qafqazdan keçərək, Mərkəzi Asiyadan Qara Dənizə, Qərb ölkələrinə çəkilən və ürəyi Bakı olan yeni İpək yolu yaradılmasına, bunun reallığa çevrilməsinə sadiqliyini və bu məqsədə nail olmaq üçün göstərdiyi ciddi səyləri yüksək qiymətləndiririk və onu alqışlayırıq".

Səfir Riçard Kozlariç:

"Səfirlər gördükləri başqa işlərlə yanaşı, akkreditə olunduqları ölkələrin prezidentləri barədə dedikləri xoş sözlərə görə də əmək haqqı alırlar. Amma mən xoşa gəlmək üçün atılan diplomatik addımdan kənara çıxaraq, Azərbaycan ilə tanış olmayanlara üz tutub demək istəyirəm ki, Azərbaycana xarici şirkətlərin bu qədər maraq göstərməsinin əsas səbəbi məhz Prezident Heydər Əliyevin xarici sərmayədarlara verdiyi dəstək və göstərdiyi himayədarlıqdır.

Sizlərdən çoxunuz Prezident Heydər Əliyevin xarici sərmayədarlara nə qədər böyük himayədarlıq etdiyinin şahidi olub. Üç il bundan əvvəl Bakıda barmaqla sayılan Amerika şirkətlərinin sayı indi 70-i ötmüşdür. Bu şirkətlərin Bakıda nümayəndəliklərinin açılmasının, Azərbaycan ilə müştərək iş görmələrinin səbəbi Prezident Heydər Əliyevin ölkədə xarici şirkətlər üçün yaratdığı əlverişli şərait və respublikaya sərmayələrin cəlb olunması üçün yeritdiyi uğurlu siyasətdir".

Ölkəmizin başçısının rəhbərliyi ilə müstəqil respublikamızın dünya birliyində özünə layiq yer tutmağa başlamasından razılıqla bəhs edən cənab Henri Kissincer bazar münasibətləri yolunu seçmiş Azərbaycanda demokratik, hüquqi dövlət qurulması və islahatların həyata keçirilməsi sahəsində görülən işləri böyük maraqla izlədiyini nəzərə çarpdırdı. O, əmin olduğunu bildirdi ki, Heydər Əliyevin uzaqgörən siyasəti xalqı və ölkəni firavanlığa, sürətli inkişafa gətirib çıxaracaqdır.

Səfir Riçard Armitac:

"Cənab Prezident Heydər Əliyev, Siz çox böyük cəsarət, qətiyyət göstərərək Azərbaycanda yeni demokratik dövlət quruculuğu yolunu tutmusunuz. Biz səylərinizi alqışlayırıq və Sizin bu mühüm işinizə ürəkdən dəstək veririk".

"AMOKO" Korporasiyası Direktorlar Şurasının sədri Lourens Fuller:

"Sizin Prezident olduqca görkəmli və uzaqgörən siyasi xadimdir. Onun rəhbərliyi altında sizin gözəl ölkənizdə həyat tərzi daha firavan olacaq, ölkəniz daha da inkişaf edəcəkdir.

"AMOKO" Azərbaycana gələn xarici şirkətlərin öncüllərindən biridir. Oraya gələndən sonra şirkətin neft sahəsindəki fəaliyyətindən, eləcə də ölkənizin ictimai həyatında iştirakından razıyıq. İnanıram ki, bu əməkdaşlıqdan həm şirkətin özü, həm də Azərbaycan xalqı faydalanacaqdır".

Vaşinqtondakı Corctaun Universitetində görüş iştirakçıları:

"Prezident Heydər Əliyevin çıxışı çox gözəl, çox əla idi. O, çox açıq, səmimi danışdı. Heydər Əliyev cənablarının suallara verdiyi cavablar məni valeh etdi. Heydər Əliyev özü çox valehedici bir siyasi xadimdir. Sizin Prezidentinizin bölgədəki liderliyi özünü açıq-aşkar göstərir. Həm də onu deyim ki, sizin Prezidentiniz çox nurlu bir insandır";

"Heydər Əliyev cənabları Azərbaycan və onun ətrafında olan ölkələr barədə əsl həqiqəti söylədi. Onun çıxışı çox

heyrətamiz idi. Mənim zənnimcə, bu , çox dərin məzmunlu bir çıxış idi. Çıxışda bir çox məsələlər təhlil edildi";

"Mənim zənnimcə, Heydər Əliyev cənabları çox əla çıxış etdi. Onun bu ziyarəti nəticəsində biz artıq müşahidə edirik ki, Amerika Birləşmiş Ştatlarında Azərbaycan barədə siyasət dəyişməkdədir. Amerikada bu sahədə daha çox tarazlı bir siyasət yeridilməyə başlanıbdır. Azərbaycanın ABŞ üçün nə dərəcədə əhəmiyyətli bir ölkə olduğunu artıq burada dərk etməyə başlayıblar. Hətta mən Amerikanın Azərbaycanda strateji maraqları olduğunu bildirmək istəmirdim. Hesab edirəm ki, Prezident Heydər Əliyevin uzun müddətdən bəri gözlənilən bu ziyarəti nəticəsində Azərbaycan-Amerika münasibətləri yeni bir təkan alacaqdır";

"Prezident Heydər Əliyevin çıxışı çox əla idi. Mənə elə gəlir ki, amerikalılar onu çox gözəl başa düşürdülər. Çünki Prezident danışanda öz fikirlərini çox inandırıcı şəkildə çatdırırdı. O, çox səmimi danışırdı. Mən əminəm ki, Heydər Əliyev cənablarının bu cür səmimi çıxış etməsi ölkələrimiz arasındakı münasibətlərdə çox böyük dəyişikliklərə gətirib çıxaracaqdır və siz bunun gözəl nəticələrini görəcəksiniz";

"Prezident Heydər Əliyev heyrətamiz dərəcədə gözəl bir çıxış etdi. O, bir çox məsələləri düz kökündən vururdu. Heydər Əliyev cənabları öz çıxışında Azərbaycan ilə Amerika arasındakı münasibətlərin əhəmiyyətindən, respublikanızın ABŞ üçün nə qədər mühüm rola malik olmasından ətraflı bəhs etdi. Mənə ən çox təsir edən bu

oldu ki, o, vaxtilə keçmiş sistemdə yaşamasına baxmayaraq, bazar iqtisadiyyatına, demokratiyaya, insan hüquqlarının qorunmasına nə qədər sadiq olduğunu açıq bəyan etdi, bunu çox inandırıcı şəkildə çatdırdı";

"Corctaun Universitetinin kollektivi çox məmnun qaldı ki, fikir mübadiləsi aparmaq üçün elə bir imkan qazandı. Prezident Heydər Əliyev heyrətamiz dərəcədə gözəl bir iş gördü, çıxışında özünün və Azərbaycanın mövqelərini açıqladı.

Heydər Əliyev cənablarına çox çətin suallar verildi, amma o, sualların hamısına səmimiyyətlə cavab verdi. Zənnimcə, bu görüş Prezident Heydər Əliyevin ABŞ-a ilk rəsmi səfərinin ən dəyərli hadisələrindən biri olacaqdır".

"Şell" Şirkətinin prezidenti Filip Kerroll:

"Görkəmli dövlət xadimi Heydər Əliyev 1970-1980-ci illərdə respublikaya başçılıq edərkən Azərbaycan böyük iqtisadi yüksəlişə nail olmuş, kommunist sisteminin daxili zəifliyinə baxmayaraq, Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda sənaye məhsulunun həcmi iki dəfə, milli gəlir 150 faiz artmışdı. Həmin illərdə Azərbaycan bütün sovet ölkəsində neft və qaz avadanlığı istehsalının mərkəzinə çevrilmişdi".

Ümumiyyətlə, səfərin əhəmiyyətini belə qiymətləndirmək olar ki, bu səfər iki dövlətin başçılarının dialoqu mövcud Amerika-Azərbaycan siyasi və iqtisadi münasibətlərini və əlaqələrini tamamilə yeni keyfiyyət səviyyəsinə qaldırmışdır.

Azərbaycan-ABŞ arasında həqiqi, qarşılıqlı surətdə faydalı münasibətlərin və sıx əməkdaşlığın genişləndirilməsi üçün çox böyük imkanların reallaşmasına şərait yaratmaqla, ticarət, investisiyaların artırılması, Avrasiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsi, Xəzər bölgəsinin zəngin neft və qaz ehtiyatlarının uzunmüddətli, birgə və səmərəli işlənməsi yeni iş yerlərinin açılması, insanların gəlirlərinin yüksəldilməsi, onların maddi rifahının yaxşılaşdırılması, iri kapital qoyuluşlarının həyata keçirilməsi və hər iki ölkənin iqtisadiyyatının inkişaf etməsi ilə nəticələnəcəkdir.

Demək olar ki, XXI əsr tamamilə Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında, xüsusən Azərbaycanın Xəzər dənizi hövzəsinin enerji ehtiyatlarından istifadə edilməsində çox məhsuldar və çox böyük tərəqqi nümayiş etdirən bir dövr olacaqdır.

ABŞ-a səfər zamanı nəzərdə tutulmuş tarixi əhəmiyyət daşıyan tədbirlərin reallaşdırılması məqsədi ilə Bakıya döndükdən sonra Azərbaycan Respublikası Prezidenti "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında partnyorluq münasibətlərinin genişləndirilməsi haqqında" sərəncam imzaladı. Bu sərəncamda bir daha təsbit olunur ki, 1997-ci il avqustun 1-də Vaşinqtonda iki ölkənin başçıları arasında keçirilmiş görüş zamanı siyasət, təhlükəsizlik, iqtisadiyyat və ticarət sahələrində ikitərəfli əlaqələrin möhkəmləndirilməsi əsasında Birləşmiş Ştatlar ilə Azərbaycan Respublikası arasında partnyorluq münasibətlərinin genişləndirilməsi məqsədəuyğun hesab edilmişdir. Demokratiyaya, insan hüquqlarına riayət olunmasının, iqtisadi isla-

hatların aparılmasının Azərbaycanda dövlət quruculuğunun sarsılmaz əsaslarını təşkil etməsi və ancaq bu yolla ölkədə ümumbəşəri dəyərlərə əsaslanan vətəndaş cəmiyyətinin qurulmasının mümkünlüyü xüsusi vurğulanmış, Azərbaycanın müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün və demokratik inkişafının Birləşmiş Ştatlar tərəfindən dəstəkləndiyi təsdiq edilmişdir. 1992-ci ilin oktyabr ayında qəbul olunmuş "Azadlığı müdafiə aktı"nın 907-ci maddəsinin iki ölkə arasında əməkdaşlığı məhdudlaşdırdığı qeyd edilmiş və bu maddənin ləğv olunması Amerika Birləşmiş Ştatlarının Prezidenti tərəfindən qətiyyətlə dəstəklənmişdir. Xəzər dənizinin enerji ehtiyatlarının mənimsənilməsində, neft və qaz ehtiyatlarının emalı və nəqlində Amerika neft şirkətlərinin geniş iştirakı, ölkələr arasında enerji siyasəti və kommersiya məsələləri üzrə rəsmi dialoqun yaradılması yüksək qiymətləndirilmişdir. Eyni zamanda elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsi məsələləri də diqqət mərkəzində olmuşdur.

Sərəncamda səfər zamanı imzalanmış birgə bəyanatların, müqavilə və sazişlərin hər iki dövlətin maraqlarına tamamilə uyğun olduğu, iqtisadi əlaqələrin daha da genişlənməsinə və respublikamızın tərəqqisinə xidmət edəcəyi qeyd olunmuşdur.

Sənəddə bir sıra konkret önəmli tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulmuş və Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında əməkdaşlıq əlaqələrinin genişlənməsi üzrə tədbirlər proqramı təsdiq edilmişdir.

## 5.3. Neft: problemlər və perspektivlər

Heydər Əliyev Azərbaycanda neft sənayesinin inkişafına həmişə xüsusi diqqət yetirmiş, sahənin problemlərinin həllinə böyük qayğı göstərmişdir. Ölkə iqtisadiyyatının bu əsas sahəsinə həsr olunmuş çoxsaylı çıxış və müsahibələrində o, neft sənayesinin inkişafına təminat verən tədbirlər kompleksini açıqlamış və onların həyata keçirilməsi üçün şərait yaratmışdır.

70-ci illərdə Heydər Əliyevin rəhbərliyi altında neft sahəsinin köklü modernləşdirilməsi üzrə genişmiqyaslı işlər aparılmışdır. Məhz bu dövrdə onun rəhbərliyi və bilavasitə iştirakı ilə sənayenin ən mühüm sahələrindən birinə - neft sənayesinə əhəmiyyətli kapital qoyuluşu həyata keçirilmişdir. Vaxtı ilə Heydər Əliyev uzaqgörənliyinin bəhrəsi kimi reallaşan neft sənayesinin inkişafı Azərbaycanın iqtisadi və enerji müstəqilliyini müəyyənləşdirirdi. Həmin dövrdə neftin ilkin emalı üzrə güclü ELOU-AVT-6 qurğuları, katalitik riforminq, katalitik krekinq, yavaş kokslaşdırma qurğuları, yağ istehsalatı və s. istismarı buraxıldı. Bu dövrdə əslində Azərbaycanın neftayırma və neft-kimya sənayesi dirçəlməyə başladı. O illərdə yaradılmış infrastruktur 22 milyon ton, yəni indi emal edildiyindən demək olar ki, 2,5 dəfə çox neft emal etməyə qadir idi.

Keçmiş iqtidarın səriştəsiz sosial-iqtisadi siyasəti nəticəsində qısa müddətdə xalq təsərrüfatının inkişafı, demək olar ki, dayanmış, respublikanın iqtisadi vəziyyəti son

dərəcə pisləşmişdi. Belə ki, 1991-ci ilə nisbətən 1993-cü ildə ölkədə milli gəlir istehsalı 40 faiz azalmaqla işsizlik, inflyasiya, hərc-mərclik hökm sürməkdə idi. Şübhəsiz ki, bu faktlar respublikada iqtisadi siyasətin düzgün qurulmamasından bir daha xəbər verirdi. Belə bir ağır şəraitdə ölkənin iqtisadi siyasətini, birinci növbədə, respublikada tarixən mövcud olan maddi sərvətlərdən, istehsal potensialından tam və səmərəli istifadə olunması istiqamətinə yönəltmək əvəzinə, əhalini alğı-satqı ilə məşğul olmağa çağırırdılar.

Son dərəcə ağır vəziyyətdə xalqın təklifi ilə rəhbərliyə gələn Heydər Əliyev respublikada hökm sürən və getdikcə dərinləşməkdə olan iqtisadi və sosial böhranın qarşısını almaq üçün qısa müddətdə bir sıra mühüm yenidənqurma işləri ilə yanaşı, təsirli tədbirlər görməli oldu. Azərbaycanda müvəffəqiyyətlə həyata keçirilən iqtisadi islahatlar sistemində ölkəmizin və hətta bütün dünyamızın tarixi sərvəti hesab edilən neft-qaz sənayesinin inkişafına dair ağıllı sosial-iqtisadi siyasət Azərbaycan iqtisadiyyatının dirçəldilməsinin barometri kimi qiymətləndirilməlidir. Məsələn, o göstərir ki, hazırkı keçid dövründə bir sıra problemlər, o cümlədən dərin dəniz yataqlarının işlənməsi ilə əlaqədar qarşıya çıxan məsələlər vaxtında həll edilməli, quyuların qazılmasının və neft çıxarılmasının etibarlılığını və təhlükəsizliyini təmin edən müasir texnika və texnologiyaların tətbiqinə diqqət gücləndirilməli, sahəyə iri kapital qoyuluşu artırılmalı, neftin dünya bazarına çıxarılmasının etibarlı və sərfəli yolu axtarılmalıdır.

Ümumiyyətlə isə neft sahəsi problemlərinin həlli yollarını Heydər Əliyev aşağıdakılarda görür:

- iqtisadi və istehsal imkanlarının məcmusundan daha tam və səmərəli istifadə;

- sahənin inkişafına dair uzunmüddətli proqnozların, məqsədli kompleks elmi-texniki, iqtisadi və sosial proqramların işlənib hazırlanması;

- istehsalın səmərəliliyinin yüksəldilməsi, enerjiyə və material ehtiyatlarına qənaət siyasətinin həyata keçirilməsi, müəssisələr və təşkilatlar arasında əlverişli istehsal-texnoloji və təsərrüfat əlaqələrinin təmin edilməsi;

- mövcud müəssisələrin genişləndirilməsi, yenidən qurulması, onların yeni texnika ilə təchiz edilməsi üçün investisiya sahəsində vahid strategiyanın işlənib hazırlanması və həyata keçirilməsi;

- mütərəqqi tikinti vasitələrindən, texnoloji proseslərdən istifadə edilməklə geoloji-kəşfiyyat işlərinin aparılması, yataqların istismarının səmərəliliyinin yüksəldilməsi, neft və qaz buruqlarının tikintisinin sürətləndirilməsi, həmçinin yerin təkindən istifadə və ətraf mühitin mühafizəsi üzrə bütün tələblərə əməl olunmaqla yataqların istismara hazırlanmasının keyfiyyət və sürətinin artırılması;

- neft avadanlığının, sənaye və məişət texnikasının, cihaz, alət, ehtiyat hissələrinin və digər vasitələrin istehsalı;

- xarici şirkətlərlə iqtisadi-ticarət, elmi-texniki əməkdaşlığın inkişaf etdirilməsi;

- təsərrüfatçılıq üsullarının və formalarının təkmilləşdirilməsi, istehsal və elm kollektivlərinin daha səmərəli qarşılıqlı fəaliyyət göstərməsi, informasiya və hesablama mərkəzinin təşkil olunması, istehsal proseslərinin avtomatlaşdırılması və müasir rabitə texnikası vasitələrindən istifadə olunması işlərinin görülməsi;

- kadr siyasətinin həyata keçirilməsi, respublikada və xaricdə kadrların hazırlanmasının və ixtisasının artırılmasının təşkili.

Azərbaycanın məşhur neft ustası, texnika elmləri doktoru, professor, Dövlət mükafatı laureatı Bəhmən Hacıyev xatırlayır:

"1974-cü ildə Əzizbəyov rayonunda partiya konfransı keçirilirdi. Konfransda mən tənqidi ruhda çıxış etdim və bildirdim ki, biz dənizin dayaz yerində yerləşən yataqlardan istifadə edir, lakin Xəzərin dərin qatlarında olan laylara lazımi qədər fikir vermirik. Konfransda iştirak edən Heydər Əliyev bu təklifə xüsusi diqqətlə yanaşdı və həmin perspektivli yataqların istismarı məsələlərini öyrənməyi tapşırdı ("əsrin kontraktı"nın bağlanmasından düz 20 il əvvəl! - *müəllif*). Əgər o zaman Heydər Əliyevin uzaqgörənliyi olmasaydı, indi bu nəhəng miqyaslı kontraktın bağlanması mümkün olmazdı.

Görülmüş tədbirlər nəticəsində böyük dərinliklər üçün blokların layihələşdirilməsi və hazırlanmasına başlanıldı. Artıq 1977-ci ildə Xəzərdə, suyun dərinliyi 80 metrdən artıq olan yerdə neft güclü fontan vurdu. Sonrakı işlər

"Azəri", "Çıraq", "Günəşli" kimi böyük neft yataqlarındakı mövcud neft ehtiyatının qiymətləndirilməsini mümkünləşdirdi"[1].

Heydər Əliyev iqtisadi baxışlarında öncül yerlərdən birini tutan xarici əlaqələrin ölkəmizin mənafeyi baxımından gücləndirilməsi neft sənayesində, daha dəqiq desək, "əsrin kontraktı" adlanan sazişdə özünü bariz nümayiş etdirir.

Sazişin hazırlanması şəraitindən danışarkən Heydər Əliyev belə deyir: "Bakıya gəldikdən sonra bir çox məsələ ilə yanaşı, Qərbin neft şirkətləri ilə aparılan danışıqlarla da maraqlandım. Məlum oldu ki, hazırlanmış layihələr Azərbaycanın mənafeyinə müəyyən qədər zərər vurur. Ona görə də mən bu danışıqları dayandırdım. Sizə deyim ki, bunun özü də çox böyük cəsarət tələb edirdi. Çünki Qərb şirkətləri üç il idi ki, Azərbaycanda fəaliyyət göstərirdilər. Danışıqlar aparılmış, layihələr hazırlanmışdı. Mən danışıqları dayandırarkən mötəbər dairələrin bir çoxundan narazılıq eşitdim. Lakin bunların cavabında dedim: Azərbaycanın neft yataqları xalqımızın ən böyük milli sərvətidir və ondan bu gün də, gələcəkdə də çox ehtiyatla istifadə etmək lazımdır. Düşünmək lazımdır ki, bizim sərvətimiz təkcə bugünkü nəsillər üçün deyil, nəvə-nəticələrimiz, gələcək nəsillərimiz üçün də gərəkdir. Ona görə də bu məsələyə səthi yanaşmaq olmaz.

Buna görə də mən məsuliyyəti öz üzərimə götürərək danışıqları, müqavilələrin bağlanmasını dayandırdım. Neft sənayesində çalışan alimləri, mühəndisləri, bir sözlə,

[1] «Azərbaycan» qəzeti, 7 yanvar 1995-ci il.

mütəxəssisləri cəlb etdim - qoy bir daha götür-qoy etsinlər ki, biz hansı şərtlərlə neft müqavilələrinin bağlanmasına gedə bilərik. Şərtlər elə olmalıdır ki, bu gün də, on il, iyirmi, otuz, qırx il sonra da Azərbaycanın mənafeyinə zərər gətirməsin"[1].

Heydər Əliyev Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıtdıqdan dərhal sonra, özünün 1993-cü il 2 iyul tarixli bəyanatında demişdir: "Dünya dövlətləri ilə bərabərhüquqlu və qarşılıqlı faydalanma prinsipləri əsasında başlanmış iqtisadi əməkdaşlıq davam etdiriləcək, ayrı-ayrı xarici şirkətlərlə imzalanması nəzərdə tutulmuş bütün müqavilələrlə bağlı götürülmüş öhdəliklər sivilizasiya normaları çərçivəsində yerinə yetiriləcəkdir"[2].

Bəs Heydər Əliyev neft sazişlərini necə görmək istəyirdi?:

- neft sazişləri bütün Azərbaycan xalqının sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasını, vətəndaşların maddi rifahının yüksəldilməsini təmin etməlidir;

- bu sazişlər təkcə bugünkü nəsillərin yox, gələcək nəsillərimizin də mənafeyinə uyğun olmalıdır;

- Azərbaycan bu sərvətin sahibi kimi, maksimum mənfəət əldə etməli və onun milli mənafeyi təmin olunmalıdır;

- neft sazişləri Azərbaycanın təkcə neft sənayesinin yox, bütün iqtisadiyyatının inkişafına zəmin yaratmalıdır;

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 2, səh. 155.

[2] *Yenə orada* c. 1, səh. 15.

- sazişlər güclü, yüksək texnika və texnologiyaya malik xarici neft şirkətləri ilə bağlanmalıdır.

Respublikanın dəniz neft və qaz yataqlarının kəşfində və işlənməsində xarici neft şirkətlərinin iştirakını bütün maraqlı tərəflərin, ən əsası isə Azərbaycan Respublikasının mənafeləri nəzərə alınmaqla reallaşdırmaq üçün Heydər Əliyev tərəfindən bir neçə fərman və sərəncam imzalanmışdır. Bu mənada "Azərbaycan Respublikasında dəniz neft və qaz yataqlarının işlənməsinin sürətləndirilməsi haqqında" 1994-cü il 4 fevral tarixli sərəncam xüsusi qeyd olunmalıdır. Həmin sərəncamda xarici neft şirkətləri ("AMOKO", "Britiş Petroleum", "Statoyl", "Pennzoyl", "Remko", "Yunokal", "MakDermott", "Türk Neft Şirkəti") ilə aparılan danışıqların əsas istiqamətləri barədə ARDNŞ-nin təklifləri bəyənilməklə, ona yuxarıda adları çəkilən neft şirkətləri ilə birlikdə "Azəri" və "Çıraq" yataqlarının kəşfinə və işlənməsinə dair danışıqların aparılması, müqavilənin hazırlanması və bağlanması səlahiyyəti verildi. Bundan əlavə, ARDNŞ-ə tapşırıldı ki, iki həftə müddətində "Günəşli" yatağında neft hasilatının sabitləşdirilməsi proqramını hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin. 1994-cü il sentyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti "Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barəsində" fərman imzaladı. Fərmanda qeyd olunur ki, "Azərbaycanda dəniz neft və qaz yataqlarının işlənməsinin sürətləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 4 fevral tarixli sə-

roncamında ifadə edilmiş prinsiplərə uyğun olaraq Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti "AMOKO Kaspian Si Petroleum ltd", "Bi-Pi Eksploreyşn (Kaspian Si) ltd", "Den Norske Stats Olyeselskap a.s.", "LUKoyl" Səhmdar Cəmiyyəti, "MakDermott Azərbaycan ink", "Pennzoyl Kaspian Korporeyşn", "Remko Xəzər Enerci ltd", " Türkiye Petrolleri a.o.", "Yunokal Xəzər ltd" şirkətlərinin daxil olduqları xarici neft şirkətləri konsorsiumu ilə Xəzər dənizinin Azərbaycan sektorunda "Çıraq", "Azəri" yataqlarının, habelə "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi haqqında sazişin bağlanması barəsində üç ildən artıq davam edən danışıqları başa çatdırmışdır. Həmin yataqların neft ehtiyatı 500 milyon tondan artıq qiymətləndirilir.

Dövlət Neft Şirkətinin Azərbaycan Respublikası Prezidentinə təqdim etdiyi məruzədə hazırlanmış sazişin layihəsi Azərbaycan Respublikası üçün iqtisadi cəhətdən səmərəli və münasib variant kimi səciyyələndirilir. Qeyd edilir ki, yataqların işlənməsi üçün lazım olan investisiyaların 80 faizi konsorsium tərəfindən qoyulacaq, saziş qüvvəyə mindikdən sonra ilk neft 18 ay ərzində çıxarılacaq, neft hasilatına əsas yataqlarda 48 aydan gec olmayaraq başlanacaq və Azərbaycan neftinin beynəlxalq bazara səmərəli yolla çıxmasını təmin edən neft kəmərinin tikintisi isə 54 ay ərzində başa çatdırılacaqdır. Sazişə görə Azərbaycan neft yataqlarının istismarına nəzarət və istismarın idarə edilməsi hüquqlarını özündə saxlayır.

Bu prosesdə Azərbaycanın gəliri üç mənbədən alına-

caqdır: təbii ehtiyatların mülkiyyətçisi hüququndan irəli gələn gəlirlər; yataqların işlənməsinə investisiya qoyuluşlarında iştirak ilə bağlı gəlirlər; respublika büdcəsinə konsorsiumun gəlirinin dörddə bir hissəsi məbləğində vergi ayırmaları. Bunlar hamısı gəlirli neftin 80 faizinin Azərbaycana çatmasını təmin edəcəkdir. Əlavə olaraq neft ilə birgə çıxan və ehtiyatları 55 milyard kubmetr həcmində qiymətləndirilən səmt qazı da Azərbaycanın mülkiyyətini təşkil edəcəkdir. Konsorsiumla bağlanan sazişin əhatə etdiyi sahədə 90 milyard kubmetr həcmində qiymətləndirilən azad qaz yataqlarının istismarı Azərbaycanın müstəsna səlahiyyətində saxlanılır və bu da sazişin iqtisadi səmərəsini daha da artırır.

Neft yataqlarının birgə işlənməsi 30 il müddətinə nəzərdə tutulmuşdur. Bu, XXI əsrin astanasında Azərbaycan Respublikasında xalqın iqtisadi və sosial rifahının təməlini qoyacaq, real nəticələr isə yaxın illər ərzində əldə ediləcəkdir. Bazar iqtisadiyyatına keçid şəraitində on milyardlarla valyuta mədaxili bütün iqtisadiyyatın və hər şeydən əvvəl neft sənayesinin elmi və istehsal-texniki bazasının keyfiyyətcə yeniləşməsini təmin edəcəkdir. Uzun müddət durğunluq vəziyyətində olmuş neft-maşınqayırma, neft emalı və neft-kimya sənayesinə yeni təkan veriləcəkdir, bu da ümumi iqtisadi göstəricilərin artımı ilə yanaşı, kadr potensialının möhkəmlənməsinə kömək edəcək, yeni iş yerlərinin yaradılmasına imkan verəcəkdir. Azərbaycan sənayesi suyun dərinliklərində olan karbohidrogen yataqlarının istismarı sahəsində qabaqcıl xarici təcrübəyə yiyə-

lənəcəkdir, bu da gələcəkdə belə yataqlardan müstəqil istifadə etməyə imkan verəcəkdir.

Əldə edilən mənfəət Azərbaycan iqtisadiyyatının bir çox sahələrində yüksək texnologiyalara keçilməsini təmin edəcək, o cümlədən infrastrukturun yeniləşdirilməsinə imkan verəcəkdir. İri neft şirkətlərinin Azərbaycan Respublikasında uğurlu işi xaricdə dövlətimizə etimadı möhkəmləndirəcək və şübhəsiz ki, yeni xarici investisiyaların cəlb edilməsinə zəmin yaradacaqdır.

Qərb neft şirkətlərinin hamısı Azərbaycanın neft sənayesinə yüksək maraq göstərir. Əlbəttə, belə bir meyl iqtisadiyyatın bu sahəsinin çox perspektivli olmasından irəli gəlir. 1994-cü ilin sentyabrından indiyədək doqquz mühüm neft sazişi imzalanmışdır. Onlardan birincisi "Britiş Petroleum", "AMOKO", "LUKoyl", "Yunokal", "Pennzoyl", "Statoyl", "MakDermott", "Remko", "Türk Petrolleri", "Delta" şirkətlərinin iştirak etdiyi və sonradan "Eksson" şirkətinin qoşulduğu neft konsorsiumu ilə bağlanmış sazişdir. İkinci neft sazişi "Qarabağ" neft yatağı üzrə "Pennzoyl", ACİP, "LUKoyl", "LUKacip" şirkətlərinin iştirakı ilə imzalanmışdır. Üçüncü neft sazişi perspektivli "Şahdəniz" neft yatağının istismarı ilə bağlıdır. Bu sazişdə "Britiş Petroleum", "Statoyl", "Elf Petroleum", "LUKoyl", "Türk Petrolleri" və İranın OİİK şirkətləri iştirak edirlər. Dördüncü saziş "Əşrəfi" və "Dan ulduzu" yataqlarının istismarına dair "AMOKO", "Yunokal", "İtoçu", "Delta" neft şirkətləri ilə, beşinci saziş isə "Lənkəran-dəniz" və "Talış-dəniz" yataqlarının birgə işlənməsi ilə əlaqədar 1997-ci ilin yanvar

ayında Parisdə "Elf- Akiten" və "Total" şirkətləri ilə imzalanmışdır.

Azərbaycanın neft sənayesinə xarici şirkətlərin hələlik qoyduğu 1 milyard dollarlıq sərmayə onu göstərir ki, biz doğru yoldayıq. Yaxın gələcəkdə bir neçə milyard dollarlıq sərmayə qoyuluşu gözlənilir. Bu da ölkənin sosial və iqtisadi problemlərinin həllinə kömək edəcək, respublikamızın müstəqilliyinin daha da möhkəmlənməsini təmin edəcək, xalqımızın demokratik yolla inkişafına təkan verəcəkdir. Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən neft sazişlərinin əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Bu mənada Heydər Əliyev özü belə deyir: "...müqavilənin ən əsas cəhəti ondan ibarətdir ki, Azərbaycan öz müstəqilliyini bir daha bütün dünyada sübut edir"[1].

Ümumiyyətlə, sazişlərin bağlanması ilə Azərbaycanda ictimai-siyasi sabitliyin yaradılması arasında qarşılıqlı məntiqi əlaqə mövcuddur.

Bu sazişlər əməli surətdə həyata keçirilməsəydi, Azərbaycan Respublikasında indi mövcud olan ictimai-siyasi sabitlik əldə olunmasaydı, demokratik dəyişikliklər, dövlətimizin, iqtisadiyyatımızın, cəmiyyətimizin demokratikləşməsi prosesi getməsəydi dünyanın belə böyük, çox mötəbər neft şirkətləri və başqa şirkətlər Azərbaycana bu qədər maraq göstərməzdilər.

Neft sazişlərinin əhəmiyyətindən danışarkən ən azı aşağıdakıları qeyd etmək vacibdir:

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 2, səh. 295.

.54-21

- sazişlər Azərbaycan Respublikasında xalqın iqtisadi və sosial rifahının yüksəldilməsi üçün real və uzunmüddətli zəmin yaradır;

- xarici ölkələrin Azərbaycana investisiya qoymalarına böyük imkanlar açılır;

- Azərbaycan dünya iqtisadiyyatı üçün açıq ölkə kimi tanınmış, onun dünya iqtisadiyyatına inteqrasiyası reallaşmış və daha da güclənmişdir;

- bazar iqtisadiyyatı prinsiplərinin ölkədə inkişafına şərait yaranmışdır;

- Azərbaycan özünün həm ictimai-siyasi həyatında, həm də iqtisadiyyatında demokratik respublika kimi bütün dünyada tanınmışdır;

- Azərbaycan iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitlik bütün dünyaya bəyan olmuşdur;

- Azərbaycan Respublikasının demokratik və hüquqi dövlət olması dünya ölkələri tərəfindən qəbul olunmuşdur və xaricdə dövlətimizə etimad möhkəmlənmişdir;

- Azərbaycanın tamamilə müstəqil dövlət olduğu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğu bütün dünyaya nümayiş etdirilmişdir;

- dünya ölkələrinin neftlə bağlı olmayan digər şirkətlərinin də Azərbaycana marağı artmışdır;

- mövcud iqtisadi potensialımızdan daha səmərəli istifadə olunacaq, uzun müddət durğunluq vəziyyətində olmuş neft-

maşınqayırma, neft emalı və neft-kimya sənayesi yeni inkişaf dövrünə qədəm qoyacaq və sənayemizin bütün sahələri tam gücü ilə işləyəcək;

- neft sənayemizdə elmi və istehsal-texniki baza, texnika və texnologiya inkişaf edəcək;

- yeni iş yerlərinin yaradılmasında, işçi qüvvəsinin hazırlanmasında, kadr potensialının möhkəmləndirilməsində və istifadə edilməsində müsbət nəticələr əldə olunacaqdır.

İlkin neftin emalı probleminin həlli Azərbaycanın gələcəyi üçün həm iqtisadi, həm də siyasi əhəmiyyətə malik olacaq, respublikaya pul kütləsi axınını sürətləndirəcək, mənfəəti artıracaq, ölkənin təkcə neft-qaz bölməsinə deyil, həm də xalq təsərrüfatının digər sahələrinə xarici investorların marağını xeyli gücləndirəcəkdir.

Neft sazişinin imzalanmağa hazırlanması ilə bağlı brifinqdəki bəyanatında Heydər Əliyev onun Azərbaycan üçün əhəmiyyətindən bəhs edərkən demişdir: "...Qərb neft şirkətlərinin Azərbaycan Respublikasına gəlməsi, Azərbaycan Dövlət Neft Şirkəti ilə müştərək iş aparması iqtisadiyyatımızda böyük dəyişikliklər əmələ gətirəcəkdir. Birinci dəyişiklik bundan ibarətdir ki, bununla biz xarici ölkələrin Azərbaycanda investisiya qoymasına böyük yol açırıq. Heç də az investisiya qoyulmayacaq, - onun məbləği 7,4 milyard dollar olacaqdır. Bu çox böyük məbləğdir.

Azərbaycanın azad iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə getməsi üçün, dünya iqtisadiyyatına sıx bağlanması üçün bu sənədin çox böyük əhəmiyyəti var. Söhbət onun həm siyasi,

həm də iqtisadi əhəmiyyətindən gedir. Azərbaycan özünün həm ictimai-siyasi həyatında, həm də iqtisadiyyatında bir demokratik respublika kimi bütün dünya miqyasında daha çox tanınacaq və bu, öz əksini əməli surətdə tapacaqdır"[1].

Xarici şirkətlərlə imzalanmış neft kontraktlarının fəaliyyətə başlaması bir çox problemlərin respublikanın ümummilli mənafeləri baxımından həllinə və ölkənin beynəlxalq münasibətlər sahəsində mövqelərinin möhkəmlənməsinə əlverişli zəmin yaradacaqdır. Bu baxımdan ən önəmli cəhətlərdən biri odur ki, neft kontraktlarının bağlanması, yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan dövlətinin müstəqilliyini təsdiq edən ən mühüm amillərdən biridir. Digər tərəfdən, inkişaf etmiş ölkələrin birgə sahibkarlıq fəaliyyətinə cəlb edilməsi beynəlxalq münasibətlər sistemində böyük təsir imkanlarına malik olan supergüclərin respublikada iqtisadi mənafelərinin yaradılmasına gətirib çıxarır ki, bu da Azərbaycanın dövlət müstəqilliyinin təminatı (əks təqdirdə, həmin ölkələr böyük maddi itkilərə məruz qala bilərlər), ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığının mühafizəsi və s. baxımdan son dərəcə aktual məsələdir.

Digər tərəfdən neft kontraktlarının Azərbaycan üçün sosial-iqtisadi baxımdan əlverişli olduğunu bir sıra faktlar təsdiq edir.

Belə ki, bütün sazişlər üzrə əldə ediləcək gəlirdə Azərbaycanın payı 75-80 faiz həddindədir. Ayrı-ayrı kontraktlardan

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 2, səh. 230-231.

respublikanın götürəcəyi gəlirlər iqtisadi səmərənin miqyası haqqında daha aydın təsəvvür yaradır.

Məsələn, "Əsrin müqaviləsi" üzrə bonusla birlikdə Azərbaycanın gəlir payı real qiymətlərlə 20 milyard dollar, inflyasiya nəzərə alınmaqla 30 ildən sonra 77,5 milyard dollar, "Qarabağ" üzrə müvafiq olaraq 8,6 milyard dollar və 21,5 milyard dollar, "Şahdəniz" üzrə 17,3 milyard dollar və 43,2 milyard dollar təşkil edəcəkdir.

Neftin xarici tərəfdaşlarla birgə çıxarılması həm neftçıxarma, neft-kimya, neft maşınqayırma sənayesinin, həm də iqtisadiyyatın digər sahələrinin yeni texnologiya və "nou-hau" əsasında inkişafına və modernləşdirilməsinə gətirib çıxarmaqla, respublikanın milli iqtisadiyyatına güclü təsir göstərəcəkdir.

Ümumiyyətlə, Azərbaycanda böyük tarixi əhəmiyyət kəsb edən müqavilələr respublikanın iqtisadi və sosial inkişafında təsirli rol onayacaqdır. Apardığımız araşdırmalar sübut edir ki, dünya şöhrətli neft şirkətləri arasında həyata keçirilən iki və üçtərəfli sazişlər birinci növbədə respublikamızda məşğulluq probleminin həllinə müsbət təsir göstərir. Belə ki, neft-qaz yataqlarından istifadə üçün sazişlərdə nəzərdə tutulmuş böyük məbləğdə investisiya qoyuluşu nəticəsində həyata keçiriləcək işlərdə çalışacaq fəhlə və mühəndislərin 80-100 faizini Azərbaycan vətəndaşları təşkil edəcəkdir. Yaxın gələcəkdə - 2000-2001-ci illərdə neft hasilatının həyata keçirilməsi və onun nəzərdə tutulmuş sazişlərə tam uyğun olaraq reallaşdırılması milli iqtisadiyyatımızın dirçəldilməsində və inkişafında misilsiz rol oynamalıdır. Neft və sair yeraltı və yerüstü sərvətlərdən

müştərək və səmərəli istifadə nəticəsində iqtisadiyyatımızın strukturunda əsaslı keyfiyyət dəyişiklikləri gözlənilir. Belə ki, respublikamıza gətirilən böyük məbləğdə investisiyalar iqtisadi inkişafımızın mühüm bazası kimi bütövlükdə ölkədə sosial infrastrukturun əsaslı surətdə təkmilləşməsinə səbəb olacaqdır. Konkret halda maddi və qeyri-maddi istehsal sahələrində çalışanların əmək şəraitinin, onların sosial vəziyyətinin yaxşılaşmasına səbəb olacaqdır.

Bu barədə Heydər Əliyev Xəzər dənizinin Azərbaycan sektorunda xarici şirkətlərlə birgə işlənən neft yataqlarından ilkin neftin çıxarılması münasibəti ilə 1997-ci il noyabrın 12-də Respublika sarayında keçirilən təntənəli mərasimdə demişdir: "Bizi sevindirən hal odur ki, bu işlərin həyata keçirilməsində xaricdən cəlb olunan yüksək dərəcəli mütəxəssislərin sayı get- gedə azalır. Azərbaycan Respublikasının özündən olan mütəxəssislərin sayı artır. Bu da təbiidir. Çünki Azərbaycan neft sənayesi sahəsində böyük elmi-texniki potensiala malikdir. Azərbaycanın bu potensialından istifadə etmək lazımdır. Bu, iqtisadi nöqteyi-nəzərdən daha da səmərəlidir...

Bizim imzaladığımız müqavilələrin hamısı təxminən 30 il müddətinə bağlanıbdır. Ancaq mən güman edirəm ki, bu müqavilələr 30 il yox, ondan da çox illər işləyəcəkdir. Mən hesab edirəm ki, Azərbaycan Respublikasının dünyanın böyük neft şirkətləri ilə imzaladığı müqavilələr XXI əsrdə həm Azərbaycan üçün, həm də Azərbaycanla müştərək iş görən şirkətlər, ölkələr üçün çox əhəmiyyətli sənədlərdir. Biz böyük, xoşbəxt gələcəyin astanasında durmuşuq. Biz bunun təməl

daşını, əsasını qoymuşuq. Bugünkü təntənəli mərasim də məhz buna həsr olunmuşdur. Ona görə də mən həm Azərbaycan xalqına, həm də Xəzəryanı bütün ölkələrin xalqlarına, Xəzərin ehtiyatlarından istifadə etmək istəyən bütün ölkələrə, şirkətlərə bu böyük işlərin XXI əsrdə də uğurla getməsini arzulayıram"[1].

Hesablamalar göstərir ki, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarından 30 il ərzində 511 milyon ton neft və 55 milyard kubmetr qaz çıxarılacaq. Çıxarılan qazın hamısı ehtiyacların ödənilməsi üçün respublikada qalacaq. Neft isə müqavilə iştirakçıları arasında bölünəcək. Xam neftin satışından Azərbaycan ildə 1 milyard dollar əldə edəcək.

Belə vəsaitin əldə olunması bir tərəfdən neftin daha dərin emalı üçün yeni istehsal obyektlərinin yaranmasına və yüksək keyfiyyətli neft məhsullarının xarici bazarlara çıxarılmasına, zavodların yenidən qurulmasına, onların məhsuldarlığının yüksəlməsinə imkan yaradacaq, digər tərəfdən isə yeni yataqların işlənməsinə və köhnə yataqlarda olan neft ehtiyatının sürətlə çıxarılmasına imkan yaradacaq. Təkcə Abşeron yarımadasında bu ehtiyat 80 milyon ton təşkil edir.

Sazişlərin bağlanmasının neft və qaz sənayesinin dərin böhran keçirdiyi bir şəraitdə həyata keçirilməsi xüsusi vurğulanmalı və Heydər Əliyevin uzaqgörən strateji siyasətinin nəticəsi kimi qiymətləndirilməlidir.

İqtisadi əlaqələrin qırılması, uzunmüddətli müharibə, 90-cı illərin əvvəllərində bir-birinin ardınca hakimiyyətə gələn siyasi

---

[1] «Azərbaycan» qəzeti, 14 noyabr 1997-ci il.

rəhbərlərin acizliyi, təsərrüfat başçılarının səriştəsizliyi və bunun nəticəsində ölkədə yaranmış hərc-mərclik, laqeydlik, özbaşınalıq, əsas fondların və istehsal vasitələrinin dağıdılması neft sənayesinin böhran vəziyyətini daha da dərinləşdirmişdi. İstər dənizdə, istərsə də quruda kəşfiyyat və istismar qazmasının həcmi azalmış, hidrotexniki qurğuların, dəniz donanmasının, avtonəqliyyatın, sualtı və yerüstü boru kəmərlərinin texniki vəziyyəti həddindən artıq pisləşmiş, sahənin bir çox təcrübəli kadrları itirilmiş, nəticədə neft və qaz hasilatının səviyyəsi ilbəil aşağı enmişdi.

90-cı illərin əvvəllərində neft və qaz sənayemizin əsas sahələrində vəzifələrə gəlmiş, bu sahələrlə heç bir əlaqəsi olmayan adamların müxtəlif müəssisələri, binaları, sexləri sağa-sola paylaması, avadanlığı, avtomaşınları, dəzgahları satması və digər qanunsuzluqlar dərin kök salmışdı.

1988-1989-cu illərdən, xüsusən 1990-cı ildən başlayaraq ayrı-ayrı adamlar istehsal formaları, kiçik müəssisələr yaradılması, Azərbaycanın iqtisadiyyatının yüksəldilməsi, onun səmərəliliyinin artırılması adı altında iqtisadiyyatın çox hissəsini, o cümlədən neft sənayesini dağıtmışlar. Bunun hesabına ayrı-ayrı adamlar həddindən artıq varlanmış, bütövlükdə neft sənayemiz isə bərbad vəziyyətə düşmüşdü.

Yalnız Heydər Əliyevin qayıdışından sonra bu sahədə vəziyyət dəyişməyə başlamışdır.

Heydər Əliyev 1995-ci il sentyabrın 20-də "Neft-qaz sənayemizin problemləri, perspektivləri və vəzifələri" mövzusunda keçirdiyi müşavirədə demişdir: "Dövlət Neft

Şirkəti istehsal etdiyi neft məhsullarının böyük bir hissəsini ixrac edir, xarici ölkələrə satır, valyuta qazanır. Ancaq ixrac edilən neftdən gələn gəlirdən necə istifadə olunur? Doğrusu, bu barədə mənim dəqiq məlumatım yoxdur. Mən bunu Natiq Əliyevə bir neçə dəfə demişəm. Bu gün də görüşdən əvvəl dedim. O mənə deyir ki, biz bunu xərcləyirik, öz daxili işlərimizə yönəldirik. Ancaq mənim məlumatım yoxdur ki, nə cür xərclənir, nə təhər xərclənir. Hər halda bizim ixracdan gələn gəlirimizin əsas mənbələrindən biri neft məhsullarıdır. Bu məhsulları biz satırıq. Amma gələn gəlirdən nə cür, nə təhər istifadə olunur, buna nə qədər nəzarət var, bu pullar hara gedir - mən bir prezident kimi bunu bilmirəm.

Tələb edirəm ki, həm 1993-cü ildə, həm 1994-cü ildə, həm də bu ilin doqquz ayında xaricə satılmış bütün neft məhsullarının haraya, nə qədər, hansı qiymətə satılması, ondan nə qədər gəlir gəlməsi, bu gəlirin haraya istifadə olunması, nə nəticə verməsi barədə Dövlət Neft Şirkəti mənə yazılı hesabat versin".

Respublikada istehsal olunan qazın paylanmasında və satışında olan ciddi nöqsanlar da Heydər Əliyevi bərk narahat edirdi. Elə həmin müşavirədə o deyir: "Çıxarılan qazın bir çox hissəsi dağıdılır, ayrı-ayrı yerlərə satılır. Mənə gələn məlumatlardan görünür ki, bizim Dövlət Qaz Şirkətində çox hərc-mərclik var. Onlar qazı Gürcüstana, oradan da Ermənistana satırlar. Həm də təkcə qazı yox. Məndə olan məlumatlara görə, buradan neft məhsullarını da xəlvətcə Qazax tərəfdən keçirirlər və Gürcüstan adı ilə Ermənistana da gedir. Türkmənistandan qazın alınmasında da cürbəcür qanunsuz və

iqtisadiyyatımıza zərbə vuran hərəkətlər olubdur. Bu siqnallar da mənə gəlib çatıbdır. Mən elə bilirəm ki, qaz almaq üçün çox çalışan adamlar heç də hesab etmirlər ki, doğrudan da biz qışda qazsız yaşaya bilməyəcəyik. Ona görə ki, istəyirlər bu işdə yenə əllərini qızdırsınlar.

Bilirsiniz, xalqın bu ağır vəziyyətində, insanların kasıb yaşadıqları bir dövrdə xalqın malını oğurlayıb, mənimsəyib zənginləşməkdən ləyaqətsiz hərəkət ola bilməz. Ayrı-ayrı insanlar ləyaqətini itiriblər, xalq haqqında düşünmək əvəzinə, millət haqqında düşünmək əvəzinə, respublikanın iqtisadiyyatını normal vəziyyətə salmaq əvəzinə tutduğu vəzifədə hərə özü üçün xüsusi bir gəlir götürmək istəyir".

Düçar olduğumuz ağır iqtisadi vəziyyətdə yanacaq-energetika resurslarından qeyri-səmərəli istifadə edilməsi Heydər Əliyevin ciddi narazılığına səbəb olurdu: "Əgər bu zavodların, fabriklərin bir çoxu işləmirsə, yaxud da ki, istehsal gücünün cəmi 20-30 faizi səviyyəsində işləyirsə, bu elektrik enerjisi hara gedir? Bunu bir araşdıran varmı? Yoxdur axı!

Ayrı-ayrı müəssisə rəhbərləri, şirkət rəhbərləri axı, vicdanla işləməlidirlər. Bu, yağı malı deyil, dövlətin malıdır. Bu, bizim xalqın sərvətidir. Əgər sənin zavodun bu il öz istehsal gücünün 20 faizi səviyyəsində işləyirsə, demək, sən 20 faiz elektrik enerjisi alacaqsan, 20 faiz də neft, yaxud qaz məhsulları ala bilərsən. Sənə bundan artıq lazım deyil. Əgər artıq gəlirsə, demək, harasa havayı gedir, harasa dağıdılır, oğurlanır".

Heydər Əliyev açıq-aşkar bəyan edir ki, "neft bəzi rəhbərlərin əlində yalnız kommersiya vasitəsinə çevrilib, belələri

ancaq öz mənfəətlərini güdür. Bu, Azərbaycan xalqına xəyanətdir. Biz buna dözə bilmərik"[1].

1995-ci ilin noyabrında Azərbaycan Respublikasının Xəzər dənizindəki sektorunda olan "Qarabağ" perspektiv strukturunun müştərək istifadə edilməsi üçün ikinci bir saziş imzalanmışdır. İndi bu saziş də işləyir, həyata keçirilir. Xəzərin Azərbaycan sektorunda olan "Şahdəniz" perspektiv sahəsinin müştərək işlənməsi üçün 1996-cı il iyunun 4-də üçüncü saziş imzalanıbdır.

1996-cı il dekabrın 14-də dördüncü neft sazişi imzalanmışdır. Bu saziş Xəzərin Azərbaycan sektorundakı "Əşrəfi" və "Dan ulduzu" perspektiv strukturlarının müştərək istifadə edilməsinə aiddir. Bu zəngin neft yataqları Azərbaycan Respublikasının alimləri, geoloqları, neftçiləri, mütəxəssisləri tərəfindən hələ 1970-ci illərdə kəşf olunmuş, açılmışdır. Bundan sonra həmin yataqlardan istifadə üçün bəzi cəhdlər göstərilmişdir. 1982-1985-ci illərdə həmin yataqlardan istifadə üçün müəyyən addımlar atılmış, ancaq bu məsələ o vaxt başa çatdırıla bilməmişdir.

"Əşrəfi" və "Dan ulduzu" neft yataqlarından istifadə üçün 1992-ci ildə Amerika Birləşmiş Ştatlarının "AMOKO" və "Yunokal" şirkətləri ilə danışıqlar başlanmışdır. 1996-cı ildə bu işlər son mərhələyə çatmışdır. Yataqlardan müştərək istifadə olunması, məsələnin konkret həlli üçün 1996-cı ildə həm Azərbaycan Dövlət Neft Şirkəti, həm də Amerika Birləşmiş Ştatlarının "AMOKO" və "Yunokal" neft şirkətləri

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 85.

tərəfindən təkliflər irəli sürülmüşdür. Bu təkliflərin səmərəliliyi, Azərbaycan Respublikası üçün faydası, əhəmiyyəti və bütün iqtisadi, texniki göstəriciləri bir neçə dəfə müzakirə edilmiş, təhlil olunmuşdur.

Bütün bunlardan sonra Heydər Əliyev bu təklifləri bəyənmiş, "Əşrəfi" və "Dan ulduzu" neft yataqlarında bundan sonra iş görmək, bu yataqlardan istifadəyə əməli surətdə başlamaq barədə Azərbaycan Dövlət Neft Şirkətinin verdiyi təklif əsasında sərəncam imzalamış, danışıqların son mərhələsinin həyata keçirilməsi üçün respublika Dövlət Neft Şirkətinə səlahiyyətlər vermişdir.

Bunların nəticəsində Azərbaycan Dövlət Neft Şirkəti Amerika Birləşmiş Ştatlarının "AMOKO" və "Yunokal" şirkətləri ilə birlikdə "Əşrəfi" və "Dan ulduzu" neft yataqlarından istifadə üçün sazişin layihəsini hazırlayıb təqdim etmişdir. Bu layihəyə baxıldıqdan sonra bütün göstəricilərinə görə onun respublikamız üçün səmərəli olduğunu nəzərə alaraq Heydər Əliyev bu sazişin imzalanması barədə qərar qəbul etmişdir.

Son mərhələdə bu yataqlara başqa neft şirkətləri də maraq göstəriblər. Yaponiya Azərbaycan iqtisadiyyatına son illər günü-gündən daha çox maraq göstərir. Yaponiya şirkətləri Azərbaycana gələrək respublikamızın imkanlarını öyrəniblər və ölkəmizlə müştərək iş görmək haqqında bir neçə təklif irəli sürüblər. Yaponiyanın böyük "İtoçu" Şirkəti Azərbaycan Respublikasının neft və qaz yataqlarına maraq göstərmiş və bunun üçün ciddi addımlar atmışdır.

"İtoçu" Şirkətinin ABŞ-ın "Pennzoyl" və "MakDermott"

şirkətləri ilə apardığı danışıqlar nəticəsində o, 1996-cı ildə bizim əvvəl imzaladığımız neft sazişlərinə daxil olmuşdur. Heydər Əliyev bunu bəyənib və buna razılıq vermişdir. İndi "Əşrəfi" və "Dan ulduzu" neft yataqlarının işlənməsi ilə əlaqədar aparılan danışıqlar prosesində Yaponiyanın "İtoçu" Şirkəti bu neft yataqlarında da müəyyən pay almaq və həmin sazişin iştirakçısı olmaq barədə Azərbaycana müraciət etmişdir. Bu müraciət qəbul edilib və indi Yaponiyanın "İtoçu" Şirkəti də sazişin tərəfidir.

Bildiyiniz kimi, Səudiyyə Ərəbistanının "Delta" Şirkəti Amerika Birləşmiş Ştatlarının "Yunokal" Şirkəti ilə daim əməkdaşlıq edir. 1994-cü ildə imzalanmış neft sazişində "Delta" Şirkətinin də müvafiq payı var. "Delta" Şirkəti "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarından istifadə üçün hazırlanan neft sazişində də iştirak edir və onun burada da payı var. Beləliklə, "Əşrəfi" və "Dan ulduzu" neft yataqlarının müştərək kəşfi, işlənməsi və hasilatın pay bölgüsü üçün hazırlanmış saziş Azərbaycan Dövlət Neft Şirkəti ilə Amerika Birləşmiş Ştatlarının "AMOKO", "Yunokal", Yaponiyanın "İtoçu" və Səudiyyə Ərəbistanının "Delta" şirkətləri tərəfindən yaradılmış konsorsium ilə bağlanır.

Xəzərin Azərbaycan sektorundakı "Əşrəfi" və "Dan ulduzu" neft yataqlarından proqnozlara görə 150 milyon ton neft çıxarmaq mümkün olacaqdır. Bu sazişi həyata keçirməkdən ötrü hazırlanmış layihənin yerinə yetirilməsi üçün təxminən iki milyard Amerika dolları sərmayə qoyulması nəzərdə tutulur. Həmin sərmayə Azərbaycanla neft sazişi imzalayan şirkətlər tərəfindən qoyulacaqdır. Sazişin müddəti 25 ildir.

Heydər Əliyev dənizdəki neft yataqları ilə bərabər, quruda da neft çıxarılmasına diqqəti gücləndirməyi daim tövsiyə etmişdir. Heç də təsadüfi deyildir ki, ARDNŞ-nin birinci vitse-prezidenti İlham Əliyev 1997-ci il fevralın 10-12-də ABŞ-ın Hyuston şəhərində Kembric Enerji Tədqiqatlar Assosiasiyasının enerji problemlərinə aid keçirdiyi beynəlxalq konfransda demişdir: "Hazırda quruda neft istehsalını inkişaf etdirməyə xüsusi maraq göstəririk. Dənizdəki neft yataqlarına sərmayə qoyuluşu ilə əlaqədar heç bir problem yoxdur və şirkətlərin çoxu bu sahəyə meyllidir. Azərbaycan isə ilk növbədə yüksək inkişaf etmiş beynəlxalq şirkətlərlə birgə işləmək arzusundadır və bu səbəbdən də kiçik və orta səviyyəli şirkətlərin dənizdəki sahələrdə işləmək imkanı çox azdır. Biz belə şirkətləri məhz qurudakı sahələrdə əməkdaşlıq etməyə dəvət edirik.

Mən sizi əmin edirəm ki, Azərbaycan dövləti əməkdaşlıq etmək istəyən hər bir şirkətin fəaliyyəti üçün lazımi şərait yaradacaqdır və bu əməkdaşlıq hər iki tərəf üçün faydalı əsaslar üzərində qurulacaqdır".

Azərbaycan-Amerika Ticarət-Sənaye Palatasının 1997-ci il fevralın 18-də Vaşinqtonda təşkil etdiyi "Azərbaycan: kommunizmdən demokratiyaya neft ilə inkişafda" mövzusunda konfrans dünyanın bu ən nüfuzlu dövlətinin ölkəmizə göstərdiyi böyük marağın daha bir təsdiqinə çevrildi. Konfransda respublikamızı Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyev təmsil edirdi. ABŞ-ın 400-dən çox şirkətinin nümayəndələrinin iştirak etdiyi bu konfransda Azərbaycanın siyasi və iqtisadi problemləri ətraflı müzakirə edildi. İştirakçılar xarici şirkətlərin respublikamızdakı fəaliyyəti

ilə yaxından tanış oldular və ölkəmizdə əcnəbi sərmayədarlar üçün yaradılmış geniş imkanlar barədə dolğun məlumat aldılar.

Neft sazişləri Azərbaycan üçün öz real nəticələrini verməkdədir. Neft sektoruna sərmayə qoyulması iqtisadiyyatın digər sahə və bölmələrinin də investisiyaya cəlb olunmasına zəmin yaradır. Buna əyani sübut olaraq aşağıdakı faktları göstərmək olar.

İqtisadiyyatın digər sahələrinin inkişafına 1994-cü ildə cəmi 15 milyon, 1995-ci ildə də 15 milyon, 1996-cı ildə 103 milyon, 1997-ci ildə isə təxminən 300 milyon dollar xarici sərmayə yönəldilib. Tenderlərdə qalib gələn Azərbaycanın podratçı təşkilatları əcnəbi şirkət və firmaların sifarişi ilə 1996-cı ildə demək olar ki, 60 milyon dollarlıq, 1997-ci ildə isə 110 milyon dollardan artıq vəsait həcmində iş görmüşlər. 10 minlərlə vətəndaşımız neft sektorunun çoxsaylı obyektlərində və sənayemizin digər müəssisələrində, nəqliyyatda, otellərdə, supermarketlərdə, ticarət mərkəzlərində, əcnəbi firma və şirkətlərin nümayəndəliklərində çalışır. Onların əmək haqqı respublika üzrə orta göstəricidən xeyli yüksəkdir.

1997-ci il oktyabrın 25-də Azərbaycan neftinin şimal marşrutu ilə nəqlinə başlanmışdır. Bu əlamətdar hadisə respublika Prezidenti Heydər Əliyevin rəhbərliyi altında bir sıra xarici ölkələrin nüfuzlu neft şirkətləri ilə imzalanmış sazişlərin, Azərbaycan neftinin dünya bazarına çıxarılması sahəsində dövlətimizin başçısının gördüyü işlərin nəticəsidir.

Müstəqil Azərbaycan dövlətinin, xalqımızın həyatında tarixi hadisə baş vermişdir: Xəzərin Azərbaycan sektorunda dənizin

dərin sahəsində yerləşən, 1994-cü il sentyabrın 20-də imzalanmış və dünyada "əsrin müqaviləsi" kimi çox məşhur olan sazişə əsasən xarici neft şirkətləri konsorsiumu ilə müştərək işlənən "Çıraq" yatağından ilk neft çıxarılmışdır. Bu, Azərbaycan Prezidenti Heydər Əliyevin uzaqgörən siyasətinin, Xəzərin neft sənayesi tarixində ilk beynəlxalq konsorsiumda öz səylərini birləşdirmiş bir çox ölkələrin neft şirkətləri ilə müstəqil Azərbaycan Respublikasının birgə fəaliyyətinin əməli nəticəsidir.

Bu nailiyyət dövlət başçımızın diplomatik aləmdə xüsusi yeri və şəxsi nüfuzu sayəsində xarici neft şirkətləri ilə imzalanan və "əsrin müqaviləsi" kimi tarixə düşən bir razılaşmadan əldə olunan ümummilli nailiyyətdir.

Neft kontraktlarında Heydər Əliyevin rolu və uzaqgörən siyasəti 1997-ci il noyabrın 12-də keçirilən təntənəli mərasimində Gürcüstan Prezidenti E.Şevardnadze tərəfindən layiqincə qiymətləndirilmişdir: "Prezident Heydər Əliyev bu yolla öz xalqına xas təmkin və cəsarətlə gedir. "Əsrin müqaviləsi" ideyasının yaranmasından tutmuş ilkin neftin nəqlinədək bu müqavilənin əslində bütün təfərrüatına yaxşı bələd olduğuma görə, Prezident Əliyevə göstərdiyi müdriklik və uzaqgörənlik üçün xüsusi minnətdarlığımı ifadə etmək istəyirəm. Bu müdriklik və uzaqgörənlik olmasaydı, belə nəhəng layihə çətin ki, reallaşardı".

*VI FƏSİL*

# İSLAHATLAR ƏHALİNİN RİFAHINI YÜKSƏLTMƏYİN RƏHNİDİR

## 6.1. İqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı mübarizə

Heydər Əliyevin iqtisadi konsepsiyasının mühüm istiqamətlərindən biri də ölkə iqtisadiyyatının mövcud potensialının dağıdılmasına qarşı kompleks tədbirlərin işlənib hazırlanması və onların tətbiqi yolu ilə cəmiyyətdə sağlam sosial-iqtisadi, mənəvi-psixoloji və siyasi mühitin formalaşdırılmasına nail olmaqdır.

Təəssüflə qeyd etmək lazımdır ki, ölkəni bürümüş böhranda naşı "iqtidarların" hakimiyyətinin acı nəticəsi olaraq son vaxtlaradək dövlətin iqtisadi, siyasi əsaslarının təhlükəsizliyi, vətəndaşların həyatı, səhhəti və mülkiyyət hüquqları əleyhinə yönəldilən və əsasən mütəşəkkil cinayətkar dəstələr, qanunsuz silahlı birləşmələr və digər cinayətkar ünsürlər tərəfindən törədilən cinayətlərin, o cümlədən terror aktları, təxribat, qəsdən adam öldürmə, banditizm, silahın, döyüş sursatının və partlayıcı maddələrin talanması və digər yollarla ələ keçirilməsi kimi cinayətlərin, narkotik maddələrlə bağlı cinayətlərin, maliyyə-kredit fırıldaqlarının və iqtisadi xarakterli başqa cinayətlərin çoxalması müşahidə olunurdu. Cəmiyyətdə rüşvətxorluq və korrupsiya kimi

cinayətlərin geniş yayılması xüsusi narahatlıq doğururdu.

Belə bir fakta da diqqət yetirmək lazımdır ki, bazar münasibətlərinə geniş rəvac verilməyə başlandığı indiki şəraitdə iqtisadi cinayətkarlığın "ənənəvi" növləri ilə bərabər, yeni iqtisadi mühitdə öz inkişafını tapmış, əvvəllər az məlum olan iqtisadi cinayətlər təhlükəli səviyyəyə gəlib çatmışdı. Yalançı sahibkarlığa, qəsdən iflasa, qanunsuz kredit verməyə, kreditlərdən təyinatı üzrə istifadə etməməyə, valyuta vəsaitlərini xaricdən vaxtında və tam gətirməməyə, əmlakı zorakılıqla almağa (reketə), vergi ödənilməsindən boyun qaçırmağa və ya yayınmağa daha tez-tez rast gəlinməyə başlandı.

Bu barədə Heydər Əliyev ölkə Prezidenti seçiləndən az sonra, 1993-cü il dekabrın 8-də keçirilən müşavirədə çıxış edərək demişdir: "Respublikamız ağır bir dövr keçirir, iqtisadiyyat böhran vəziyyətindədir. Maliyyə bizim üçün əsaslı bir sahədir. Əgər bu sahədə işləyən şəxslər ayrı-ayrı kooperativlərin, assosiasiyaların, şirkətlərin mənafeyini, yaxud da onlarla əlaqəli olaraq öz şəxsi mənafelərini ölkənin, xalqın, dövlətin mənafeyindən üstün tutursa və cür-bəcür qeyri-qanuni yollarla gedirlərsə, bütün bunlar dəhşət doğurur və bir daha sübut edir ki, son illərdə respublika iqtisadiyyatının, çox mühüm sahə olan maliyyənin dağılmasının, böhran halına düşməsinin səbəbləri də birinci növbədə buradadır"[1].

Aparılan yoxlamalar nəticəsində vergi intizamının ciddi

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 274.

şəkildə pozulması faktları aşkar olunur. Belə ki, 1997-ci ilin altı ayında vergi xidməti orqanları tərəfindən müxtəlif mülkiyyət formalı 9049 müəssisə və təşkilatda vergi qanunvericiliyinə və dövlət qiymət intizamına əməl olunması ilə bağlı ilkin sənədlərlə yoxlamalar aparılmışdır. Həmin yoxlamalarda 5831 müəssisədə və ya yoxlanılan müəssisələrin 64,4 faizində qanun pozuntusu halları aşkar edilmişdir.

Bununla yanaşı vergi qanunvericiliyinin və dövlət qiymət intizamının pozulmasına yol vermiş müəssisə və təşkilatların 13378 nəfər vəzifəli şəxsi inzibati qaydada məsuliyyətə cəlb edilmiş, onlara 1 milyard 878 milyon manat məbləğində cərimə kəsilmiş və alınmışdır.

Təəssüf ki, nazirlik, komitə, şirkət və baş idarələrin zəif nəzarəti nəticəsində onların müəssisə və təşkilatlarında da qanun pozuntularına yol verilir. 1997-ci ilin birinci yarısında aparılan yoxlamalarla "Azərtikintimaterialsənaye" Dövlət Konserninin 12 müəssisəsində 424 milyon manat, "Azəriqaz" Səhmdar Cəmiyyətinin 9 müəssisəsində 5 milyard 800 milyon manat, Dövlət Əmlak Komitəsinin 40 müəssisəsində 681 milyon manat, Dövlət Neft Şirkətinin 46 müəssisəsində 581 milyon manat, keçmiş Ticarət Nazirliyinin 63 müəssisəsində 346 milyon manat, "Azəravtonəqliyyat" Dövlət Konserninin 16 müəssisəsində 421 milyon manat büdcəyə əlavə vəsait hesablanmışdır.

Xarici ölkələrə milyardlarla manat məbləğində mal göndərilib haqqı ödənilməməsi, ayrı-ayrı adamların belə vəziyyətdən istifadə edərək dövlətin, xalqın vəsaitini mə-

nimsəməsi, "məşhur" klirinq əməliyyatlarındakı "unutqanlıq", idxal əməliyyatlarından respublikaya gəlməli olan vəsaitlərin başqa ölkələrin banklarında "ilişib" qalması, bu məbləğin inflyasiya nəticəsində öz dəyərini itirməsi Heydər Əliyevin kəskin etirazını doğururdu. O, bununla əlaqədar demişdir: "Mən belə vəziyyəti, bununla əlaqədar heç bir izahatı qəbul edə bilmərəm"[1].

İxracatın artmasına qarşı süni maneələr yaradıldığını, bu sahədə rüşvətxorluq və korrupsiyanın artmasının ölkə iqtisadiyyatına sarsıdıcı təsir etdiyini və ölkəyə lazım olan valyuta ehtiyatlarının yaradılmasına imkan vermədiyini nəzərə alaraq ölkə başçısı 1994-cü il iyunun 28-də "Xarici ölkələrə məhsul satışının təmin edilməsi sahəsində nəzarətin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" fərman imzaladı.

İxracatda yaranmış böhranı aradan qaldırmaq üçün bir sıra iqtisadi-təşkilati və inzibati tədbirlər kompleksi nəzərdə tutan bu fərman xarici ölkələrə məhsul satışının səmərəliliyini artırmaq üçün çox mühüm rol oynadı və şəxsi mənafeyini üstün tutan bir sıra cinayətkar qrupların "fəaliyyət dairəsini" xeyli daraltmış oldu.

Heydər Əliyev təkcə iqtisadi korrupsiyanın mövcudluğunu açıqlamamış, həm də belə yaramaz vəziyyətin düzəldilməsi yollarını çox konkret və sistemli göstərmişdir. "Banklarımız... öz işlərini əsaslı surətdə yenidən qurmalıdırlar... Banklarımız gərək elə işləsinlər ki, respublikanın

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 259.

maliyyə vəziyyətinin sağlamlaşmasına, maliyyə-kredit məsələlərinin səmərəli şəkildə aparılmasına şərait yaratsınlar... Maliyyə Nazirliyi nəzarətçi kimi yox, bu proseslərin mərkəzində duran dövlət strukturu kimi fəaliyyət göstərməlidir... Barter əməliyyatları məhdudlaşdırılmalı, yalnız konkret hallar üçün aparılmalıdır"[1].

Belə ki, 1991, 1992-ci illərdə və 1993-cü ilin birinci yarısında, yəni 2 il yarım ərzində ümumi nəzarət qaydasında cəmi 400-ə qədər cinayət işi başlanılmışdısa, son 2 il yarım ərzində belə yoxlamaların nəticəsində 1102 cinayət işinə başlanılmış, 1995-ci ilin birinci yarısında isə 1993-cü ilin həmin dövrü ilə müqayisədə təxminən üç dəfə çox, 183-ə nisbətən 406 cinayət faktı aşkar edilmişdir.

1995-ci ildə respublika prokurorluğu tərəfindən aparılmış yoxlamalar nəticəsində müəyyənləşdirilmişdir ki, əhalinin çörək və çörək məhsulları ilə təminatına xidmət etməli olan müqavilələrin bağlanması və icrası zamanı ciddi qanun pozuntularına yol verilmiş, o cümlədən təkcə bir kontrakt üzrə ayrılmış vəsaitin 700 min ABŞ dollarına yaxın hissəsi sabiq baş nazir S. Hüseynovun himayədarlığı nəticəsində dağıdılaraq mənimsənilmişdir.

Heydər Əliyev 1992-1994-cü illərdə bəzi adamları - xalqın ac qalmasına məhəl qoymayıb, xarici firmalarla bağlaşmalardan özləri üçün faydalanmaq, mənfəət götürmək barədə düşünənləri lənətləyərək deyir: "İnanın ki, bütün bunları görüb eşidəndə insan dəhşətə gəlir. Bir tərəfdən,

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 259-260

elə adamlar var ki, çörək tapa bilmir, yaxud da çörək almağa pulu yoxdur. Digər tərəfdən isə bu işlə məşğul olan adamlar məsələni o tərəfə, bu tərəfə çəkir ki, görsün, bu bağlaşmanın imzalanmasından neçə min dollar götürəcəklər. Bu da həyatımızın reallığıdır"[1].

Çoxsaylı faktlar göstərir ki, Azərbaycanın iqtisadi vəziyyəti ağır olduğu halda, milyonlarla dollar məbləğində vəsait xarici şirkətlərin hesablarına keçirilib, əvəzində isə nə taxıl, nə də taxıl məhsulları gətirilibdir.

Taxıl Məhsulları Dövlət Şirkətinin sabiq rəhbərliyinin respublikaya guya taxıl məhsulları gətirilməsi məqsədi ilə Amerikanın "Hannover-Treydinq" və Hollandiyanın "Ci-Bi-Si" firmaları ilə bağladığı 1992-ci il 3 və 5 dekabr tarixli müqavilələrin icrasına yönəlmiş valyuta vəsaitinin 10,9 milyon ABŞ dolları məbləğində hissəsinin dağıdılaraq talan edilməsi kimi ciddi faktlar aşkar edilmişdir.

Neft konsorsiumuna daxil olan xarici neft şirkətləri tərəfindən verilən bonusun qanunsuz olaraq "İnpat-bank" İnvestisiya-Kommersiya Bankına daxil olması və bu vəsaitin 2 milyon ABŞ dolları məbləğində hissəsinin ayrı-ayrı şəxslərin maraq dairələrinə cavab verən sahələrə yönəldilməsi və israf edilməsi faktları üzə çıxarılmışdır.

Belə ki, xarici ölkələrdə bankın reklam edilməsi üçün 77.628 ABŞ dolları, məsləhət xidmətləri üçün 75.435 ABŞ dolları, ezamiyyə xərcləri üçün 80.380 ABŞ dolları, bir

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 2, səh. 33.

neçə tələbənin ABŞ-da təhsil alması üçün 120.294 ABŞ dolları, bankın əməkdaşlarının təhsili üçün 29.937 ABŞ dolları, müxtəlif sərgilərdə və biznes-forumlarda iştirak etmək üçün 30.207 ABŞ dolları xərclənmişdir. Bununla yanaşı, bankın vəzifəli şəxsləri öz adlarına 98.300 ABŞ dolları məbləğində nağd pul şəklində kredit götürmüş və qaytarmamışlar.

Aparılmış yoxlamaların təhlili göstərir ki, bir sıra dövlət qurumlarının istehsal zərurətlərinə ayrılmış xüsusilə külli miqdarda dövlət vəsaiti təyinatı üzrə istifadə edilmək əvəzinə, özəl bölmədə dövriyyəyə buraxılmışdır. Məsələn, "Metallurgiya" Dövlət Şirkətində aparılan yoxlamalar zamanı müəyyənləşdirilmişdir ki, şirkət öz müəssisələrinə 427 milyon rubl məbləğində pul vəsaiti ayırdığı halda, kommersiya qurumlarının istifadəsinə yönəltdiyi vəsaitin məbləği 1 milyard 805 milyon rubl və ya 4,3 dəfə çox olmuşdur.

Aşkar olunmuşdur ki, Bakı metropolitenindən vaqon təmiri adı altında köçürülmüş 4 milyard manatdan artıq büdcə vəsaiti özəl qurumlardan birinin ssuda borcunun bağlanmasına yönəldilmişdir.

Ən acınacaqlı hallardan biri də odur ki, yerlərdə müvafiq orqanların və təşkilatların rəhbərlərinin məsuliyyətsizliyi nəticəsində Qarabağ əlillərinin və şəhid ailələrinin bəziləri öz hüquqlarından tam istifadə edə bilmədiyi halda, bir sıra işbaz cinayətkar ünsürlər həmin şəxslərə dövlətin verdiyi imtiyazlardan saxta sənədlərlə geninə-boluna istifadə edir.

dövlət əmlakını talayır, başqa cinayətlərə yol verirlər.

Məsələn, müəyyən edilmişdir ki, Masallı rayonu əhalinin sosial müdafiəsi mərkəzinin sabiq baş mühasibi N. Ə. Hüseynov ayrı-ayrı şəxslərlə cinayət əlaqəsinə girib "Əlilin güzəşt hüququ haqqında" saxta vəsiqələri, eləcə də 1-ci və 2-ci qrup əlillər üçün nəqliyyatdan güzəştli istifadəyə dair saxta talon vəsiqələrini belə sənədləri əldə etmək hüququ olmayan ayrı-ayrı şəxslərə müxtəlif məbləğlərə satmış, həmin şəxslərin pulsuz təyyarə biletlərindən istifadə etmələri nəticəsində dövlətə on milyonlarla manat məbləğində ziyan vurulmuşdur.

Heydər Əliyev yuxarı dairələrdə korrupsiya və digər qanun pozuntularına qarşı daha amansız mövqedə dayanır. Bu barədə o, belə deyir: "Bəzi rəhbər vəzifəli şəxslər qanunları pozur və belə hesab edirlər ki, istədiklərini edə bilərlər. Çünki indiyə qədər etmişlər. Ancaq biz bunlara yol verməyəcəyik... Biz belə hallara dözə bilmərik, qətiyyən dözə bilmərik. Heç kəs fikirləşməsin ki, indiyədək elə işlər bağışlanmışdır, yaxud da kim isə qoçuluq etmişdir və qoçuluq davam edəcəkdir"[1].

Xalqın qanını sorub, şəxsən varlanmaqla məşğul olan vəzifəli şəxslərin ikrah hissi oyadan hərəkətləri ölkə Prezidentini həmişə narahat etmişdir. Təəssüf ki, belə hallara respublikamızda hələ də rast gəlinir. Rüşvətxorluq və korrupsiyanı cəmiyyətin bəlası hesab edən Heydər Əliyev hakimiyyət strukturunun yuxarı pillələrində özünə isti yuva

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 2, səh. 35.

salmış belələrinə qarşı xüsusilə kəskin mövqe tutur və göstərir ki, bunlarla mübarizə kəskinləşməsə, belə şəxslər, insanlar öz cəzalarını almasalar, vəzifələrindən kənar olunmasalar, biz ümumiyyətlə, cəmiyyətimizdə belə halların, bu bəlanın qarşısını ala bilmərik.

Heydər Əliyev vəzifəli şəxslər qarşısında məsələni çox qəti qoyur: "Bu ağır şəraitdə iqtisadiyyat sahəsində cinayət və oğurluq hallarının, iqtisadiyyatımızı cürbəcür yollarla dağıdan halların qarşısı qəti şəkildə alınmalıdır. Bütün bu halların qarşısını ən əvvəl, iqtisadiyyata rəhbərlik edən vəzifəli şəxslər almalıdırlar. Onların özləri bu sahədə nümunə olmalı və iqtisadiyyatda qanun-qaydanın saxlanmasına çalışmalı, cinayət hallarının meydana çıxmasına yol verməməlidirlər, cinayətkarlığa qarşı mübarizə aparmalıdırlar" [1].

Heydər Əliyev hələ Azərbaycana birinci dəfə rəhbər seçildiyi vaxtdan rüşvətxorluqla mübarizəni öz fəaliyyətinin əsası kimi qəbul etmişdi. O özü bunu 1997-ci il iyulun 19-da keçirilən müşavirədə belə xatırlayır: "1969-cu ilin iyul ayında mən Azərbaycana rəhbər seçilərkən Azərbaycanda bu cür hərc-mərclik çox idi. Mən isə ondan öncə işlədiyim vəzifədə bunların çoxunu yaxşı bilirdim. Məni təyin edəndə, çoxları məni tanımırdı, çünki işim elə idi ki, ictimaiyyətdə o qədər də məşhur adam deyildim. Fəallar tanıyırdı, amma geniş kütlələr o qədər tanımırdı. Yəni mən orada-burada çıxış etmirdim, televiziyada göstərmirdilər. Ona

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 2, səh. 120-121.

görə də mən bir müddət - təxminən bir ay bundan istifadə etdim, şəxsən özüm bu işlərlə məşğul oldum. Xatirinizdədir, o vaxt adamlar mənə bir ləqəb də qoymuşdular ki, "Mixaylo". Bir neçə əməliyyatı respublikanın başçısı kimi özüm keçirəndən sonra mənə dedilər ki, haradansa fotoşəkillərimi tapıblar, çoxaldırlar, satırlar və çox adamlara verirlər ki, məni görəndə tanısınlar. Çünki bəzən mağazalara gedirdim, nöqsanları aşkar edirdim, onlar tanımırdılar mən kiməm, ona görə də özlərini çox kobud aparırdılar və sonra da çox böyük bəlaya düşürdülər.

O vaxt, 28 il bundan öncə, mən bir eksperiment keçirdim. O vaxt bizim tanınmayan işçilərimiz, məxfi işçilər var idi. Onların bir-ikisinə tapşırdım ki, gedin Sabirabada, bir avtomaşın qarpız alın, gətirin bazara satmağa. Görək yolda bunu neçə yerdə saxlayacaqlar, nə qədər rüşvət alacaqlar. Gətirdilər, onlara da mən tapşırmışdım ki, gizli foto çəkirdilər. O vaxt televiziya, yəni bu video yox idi, fotoaparatla adamları gizli çəkirdilər. Sabirabaddan buraya gələnə qədər 7-8 yerdə onları saxlamışdılar - nə bilim, polis işçisidir, yol işçisidir, nədir. O vaxt polis deyildi, milis idi. Hamısı da rüşvət almışdılar. Bu şəkilləri gətirdilər, mən o vaxt daxili işlər nazirini çağırdım, şəkilləri qoydum stolun üstünə və tələb etdim ki, o adamlar cəzalandırılsın. Xatirinizdədir, o vaxt mən 5-6 aydan sonra Daxili İşlər Nazirliyinin bütün rəhbərliyini kənarlaşdırdım, hamısını - naziri də, müavinləri də işdən çıxartdım.

Yəni demək istəyirəm ki, bu, yeni bir şey deyil və heç kəs də bu gün deməsin ki, bu belə deyil. İndi Usubov

durub mənə desə ki, yox, bu belə deyil, belədir, mən heç yoxlamamışdan buna inanmaram. Çünki mən bunu 28 il bundan qabaq görmüşəm. Amma indi nizam-intizam ona nisbətən daha da zəifdir, onu da etiraf etmək lazımdır. O vaxt nizam-intizam bundan möhkəm idi"[1].

İndi də bazar iqtisadiyyatına keçid şəraitində yaranmış iqtisadi potensialın bir sıra oğru və əlioyri adamların əlinə keçməsi, xalqın əməyi ilə yaradılmış sərvətlərimizin həmin şəxslər tərəfindən mənimsənilməsi, rüşvətin və korrupsiyanın aradan tam qaldırılmaması möhtərəm Heydər Əliyevi bərk narahat edən sosial-iqtisadi və siyasi problem kimi həll olunmamış qalmaqdadır. Halbuki ölkə başçısı tərəfindən bu yaramaz hala qarşı müntəzəm mübarizə aparılır.

Rüşvətxorluğu yeni yaranan Azərbaycan dövləti üçün çox böyük bəla sayan Heydər Əliyev ayrı-ayrı rəhbər işçilərin öz şəxsi mənafelərini xalqın, dövlətin mənafeyindən üstün tutaraq cürbəcür qeyri-qanuni yollara getməsini, bir sıra müəammalı assosiasiya və şirkətləri "qəyyumluğa" götürməsini, şübhəli bağlaşmalar imzalamasını dəfələrlə öz çıxışlarında kəskin tənqid etmiş, belələrini düzgün yola çağırmışdır. Götürək elə əhalinin çörəklə təminatı məsələsini. "Bəzi adamlar xalqın ac qalmasına məhəl qoymayıb, bu bağlaşmalardan necə faydalanmaq, mənfəət götürmək barədə düşünürlər. İnanın ki, bütün bunları görüb eşidəndə insan dəhşətə gəlir"[2].

---

[1] «Azərbaycan» qəzeti, 23 iyul 1997-ci il.

[2] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 2, səh. 33

İqtisadiyyat sahəsində cinayət və oğurluq, rüşvətxorluq hallarının qarşısını almağı iqtisadiyyata rəhbərlik edən şəxslərdən tələb edən Heydər Əliyev onların özlərindən iqtisadiyyatda qanun-qayda yaratmağı, cinayətkarlığa qarşı mübarizə aparmağı tələb edir.

İnzibati, hüquq-mühafizə orqanlarının iqtisadi cinayətkarlığa qarşı zəif mübarizəsi dəfələrlə ölkə başçısının tənqidinə səbəb olmuş, o, hamını rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizəni gücləndirməyə çağırmışdır.

Heydər Əliyev hakimiyyətə qayıtdığı ilk vaxtlar dövlətin iqtisadi və siyasi əsaslarının təhlükəsizliyi, vətəndaşların mülkiyyət hüquqları əleyhinə cinayətlər, maliyyə-kredit fırıldaqları və iqtisadi xarakterli sair cinayətlər çoxalaraq cəmiyyət üçün təhlükəli bir səviyyəyə gəlib çıxmışdı.

Bunu nəzərə alan Heydər Əliyev təsirli tədbirlər gördü.

"Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" ölkə başçısının 1994-cü il avqustun 9-da verdiyi fərman bu cəhətdən xüsusi əhəmiyyət kəsb edirdi.

Fərmanda hüquq-mühafizə orqanlarının rəhbərlərinə tapşırılırdı ki, idarə, təşkilat və müəssisələrdə rüşvətxorluq faktlarının aşkarlanması, belə hallara yol vermiş vəzifəli şəxslərin qanuna müvafiq surətdə cəzalandırılması, rüşvətxorluq faktlarının qarşısının alınması üçün təsirli tədbirlər görsünlər. Bununla yanaşı Azərbaycan Respublikasının

məhkəmələrinə təklif edilirdi ki, rüşvətxorluq faktları ilə bağlı açıq və səyyar məhkəmə prosesləri təşkil etsinlər.

Prokurorluq, daxili işlər və milli təhlükəsizlik orqanlarına tapşırılırdı və məhkəmə orqanlarına təklif edilirdi ki, ağır cinayətlərin törədilməsində, habelə mütəşəkkil cinayətkar dəstələr tərəfindən törədilmiş cinayətlərlə əlaqəsi olan hüquqi və fiziki şəxslərin maliyyə-təsərrüfat fəaliyyəti, onların banklardakı əmanətləri və hesabları üzrə əməliyyatlar haqqında müvafiq orqanların vəzifəli şəxslərindən zəruri hallarda qanunvericiliklə müəyyənləşdirilmiş qaydada müvafiq sənədləri və məlumatları tələb edib alsınlar və belə tələblərin yerinə yetirilməsinə mane olan və ya bundan yayınan şəxslər barəsində qanunvericiliklə nəzərdə tutulmuş tədbirlər görsünlər.

Bu fərman qanunsuz kredit vermək, kreditlərdən təyinatı üzrə istifadə etməmək, valyuta vəsaitlərini xaricdən gətirməmək, vergi ödənilməsindən boyun qaçırmaq və ya yayınmaq kimi halların son illərdə nəzərə çarpacaq dərəcədə azalmasına gətirib çıxarmışdır. Cəmiyyət üçün belə təhlükəli əməllərə, iqtisadi korrupsiyaya, yalançı sahibkarlığa və qəsdən iflasa qarşı ölkə Prezidenti indinin özündə də ardıcıl mübarizə aparır.

Son vaxtlar heç kəs inkar edə bilməz ki, cəmiyyətimizdə nizam-intizam xeyli möhkəmlənmiş, mənəvi saflıq bərqərar olmağa başlamış, iqtisadi qurumları əldən salan müxtəlif səpkili reket halları nəzərəçarpacaq dərəcədə azalmışdır.

Müxtəlif nəzarət orqanlarının işini onlar tərəfindən apa-

rılan yoxlamaların sayına görə yox, bu yoxlamaların iqtisadiyyatımıza nə kimi xeyir verməsi baxımından qiymətləndirən Heydər Əliyev bazar iqtisadiyyatına uyğun nəzarət sisteminin yaradılmasını dövlət quruculuğu siyasətinin öncül istiqamətlərindən hesab edir.

Yoxlamalar zamanı rüşvət alınması, lüzumsuz nəzarət qurumlarının olması, vergidən yayınma hallarının genişlənməsi, banklarda baş alıb gedən rüşvətxorluq, maliyyə pozuntuları, iqtisadi pozuntularda korrupsiya halları vəzifəyə qayıtdığı ilk vaxtlardan Heydər Əliyevin tənqid obyekti olmuş və o, bir sıra kəsərli tədbirlər görmək məcburiyyətində qalmışdır.

Bu mənada Heydər Əliyevin 1996-cı il iyunun 17-də imzaladığı "İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" fərman xüsusi qeyd olunmalıdır.

Bu fərman cəmiyyətdə yaranmış gərginliyi aradan götürmək istiqamətində vaxtında atılmış bir addım idi. Fərmanda deyilir: "Son zamanlar iqtisadi fəaliyyətlə məşğul olan idarə, müəssisə, təşkilat və vətəndaşlardan əsassız keçirilən yoxlamalar haqqında çoxsaylı şikayət və müraciətlər daxil olur. Dövlət nəzarətini həyata keçirən orqanların bəzi vəzifəli şəxsləri tərəfindən belə yoxlamaların aparılması bir çox hallarda qeyri-qanuni varlanma məqsədi daşıyır və ümumilikdə respublikanın iqtisadi böhrandan çıxmasında subyektiv maneələr yaradır.

Keçmiş SSRİ dövründən miras qalan dövlət nəzarəti

mexanizmi müasir tələblərə cavab vermir və yoxlamalar zamanı vəzifəli şəxslərin öz hüquqlarından sui-istifadə etməsi üçün şərait yaradır, bu isə vətəndaşların haqlı narazılığına səbəb olur".

Heydər Əliyevin müdrikliyi ondadır ki, o, imzaladığı hər bir sənədin icrasını da diqqət mərkəzində saxlayır. O, 1997-ci il iyulun 19-da demişdir: "Əgər fərman verilib, bir müddət o fərmanın icrası nəzarət altında olandan sonra unuduldusa, yenə prokurorluq orada bir yoxlama aparır, polis burada bir yoxlama aparır, orada yoxlama aparır. Yoxlamanın nəticəsi də heç bir şey deyil. Yenə də bir nəticəsi olsa, bizim dövlətə, hökumətə xeyir gəlsə, deyərəm ki, bu yoxlama olsun. Axırda elə çıxır ki, ortada bir nəticə yoxdur. Belə yoxlamalar nə üçün lazımdır? Bundan şikayət edirlər. Xarici biznesmenlər, iş adamları da bundan şikayət edirlər və bizim öz iş adamlarımız da bundan şikayət edirlər, ümumiyyətlə, camaat bundan şikayət edir. Bilirsiniz, indi köhnə sistem yoxdur. Yeni bir sistemdir və yeni sistemi də biz təşkil edirik. Əgər bu sistemi təşkil edərkən bu adamı orada sıxacaqsan, burada sıxacaqsan, o da görəcəkdir ki, elə qazandığını ona verdi, buna verdi, özünə də bir şey qalmadı, nə üçün bu işlə məşğul olacaq? Bəlkə də o, işi görəndə haradasa bir az qanunu pozub. Bu, yaramaz, gərək o qanunu pozmasın. Ancaq o qanunun pozulmasından çox, əgər bir hüquq-mühafizə orqanının nümayəndəsi gedib onu sıxırsa, ondan rüşvət alırsa qanunu ikiqat pozur. Ona görə də mən tələb edirəm ki, bunlara son qoyulsun"[1].

[1] «Azərbaycan» qəzeti, 23 iyul 1997-ci il.

Heydər Əliyev daim aşılayır ki, bazar iqtisadiyyatı insanlara təşəbbüskarlıq göstərmək imkanı verir, hər bir kəsin var-dövlətə malik olmasına təminat yaradır. O eyni zamanda qeyd edir ki, bütün bunlar oğurluq, əyrilik, fırıldaq, başqasının, dövlətin, xalqın malını oğurlamaq yolu ilə deyil, qanun çərçivəsində, doğru -düzgün yolla, ədalət yolu ilə olmalıdır. Təəssüf ki, indiki mürəkkəb dövrdə bəzi adamlar, qruplar fürsətdən istifadə edərək dövlətin də, xalqın da malını oğurlamış, cürbəcür qanunsuz hərəkətlərlə sərvət toplamışlar və indi özlərini xalqın, cəmiyyətin yeni bir təbəqəsi sayırlar. Mən yenə də deyirəm: Biz sərbəst iqtisadiyyat yolu ilə gedərkən onun nəticələrini bilirik və bu da təbiidir. Ancaq gərək heç kəsə imkan yaranmasın ki, o, rüşvətxorluq, əliəyrilik, fırıldaq, dövlətin, xalqın malını oğurlamaq, mənimsəmək yolu ilə özünə sərvət toplasın. Bunların qarşısı alınmalıdır"[1].

Respublikada yeni iqtisadi münasibətlərin yaranması və inkişafı mülkiyyət formasından və təşkilati-hüquqi tabeliyindən asılı olmayaraq istehsal, xidmət və maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsi qaydalarının dəyişdirilməsini və yeni qanunvericiliklə tənzimlənməsini tələb edir.

İqtisadi münasibətlərin hazırkı səviyyəsinə uyğun müvafiq dövlət nəzarəti mexanizmi tətbiq etmək, həmin nəzarətin daha məqbul vasitələrini seçmək, bazar münasibətlərinin inkişafına mənfi təsir göstərəcək halların qarşısını almaq, vətəndaşların

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 493.

və hüquqi şəxslərin qanuni mənafelərini qorumaq məqsədi ilə kompleks tədbirlər keçirilir. İqtisadi qurumların yoxlanmasına üç aylıq moratorium qoyulması, Prezident Aparatında dövlət nəzarəti qurumunun yaradılması və təcrübəli kadrlarla komplektləşdirilməsi, inzibati-hüquq orqanlarında aparılan "təmizləmə" bu tədbirlərin həyata keçirilməsində ilk addımlar idi.

İqtisadi inkişafın cəmiyyətdəki nizam-intizamla birbaşa əlaqəsini dəfələrlə qeyd etmiş ölkə başçısı bu sahədə yol verilən nöqsanları tam açıqlığı ilə göstərmiş, bunun üçün məsuliyyət daşıyanları düzgün yola dəvət etmişdir.

Heydər Əliyev göstərir ki, həm iqtisadiyyatda mövcud imkanlardan səmərəli istifadə etməklə cəmiyyətdə dirçəlişə nail olmaq, həm də islahatları lazımi səviyyədə həyata keçirmək üçün hər yerdə və hər səviyyədə möhkəm nizam-intizam olmalıdır. Əks təqdirdə, iqtisadiyyatın dağılması davam edə bilər və əhali arasında narazılıq və işə etinasızlıq genişlənər.

Bir çox yerlərdə nizam-intizamın pozulması, adamların bir qisminin əxlaqının korlanması, bəzi rəhbər vəzifəli şəxslərin qanunları pozması halları ölkə başçısı tərəfindən dəfələrlə kəşkin tənqid edilmişdir.

Demokratik hüquqi dövlət quruculuğunu strateji siyasi xətt hesab etmək heç də baş verən mənfi hallara, nizam-intizamı, qayda-qanunu pozanlara göz yummaq demək deyildir. Əksinə, dövlət quruculuğunu həyata keçirərkən və iqtisadi islahatlara rəvac verərkən biz bütün sahələrdə qayda-qanunun möhkəmlənməsinə nail olmalıyıq. Bu fikir-

lərin müəllifi olan dövlət başçımız onu da göstərir ki, "demokratik hüquqi dövlət, cəmiyyət eyni zamanda intizam, hörmət və ehtiram, dövlətin qanunlarına lazımınca əməl olunmasını tələb edir"[1]. 1994-cü il martın 30-da söylədiyi bu fikirlərə Heydər Əliyev həmin il mayın 20-dəki çıxışında aşağıdakıları əlavə etmişdir: "Bazar iqtisadiyyatının, sərbəst iqtisadiyyatın ən böyük üstünlüyü ondan ibarətdir ki, burada... nizam-intizam, qanunlar var. Qanunsuz olaraq heç kəs heç nə edə bilmir. Əgər kimsə qanundankənar bir iş görürsə, dərhal onun biləyindən tuturlar. Buna görə də mən nizam-intizamın möhkəmləndirilməsini əsas şərt hesab edirəm"[2].

Hələ 3 il bundan öncə - 1994-cü il mayın 20-də ölkə başçısı nizam-intizamın möhkəmləndirilməsinə birinci növbədə dövlət orqanlarından başlamağın və hər bir dövlət orqanı işçisinin məsuliyyətini artırmağın zəruriliyini göstərmişdir.

Həmin çıxışda qeyd edilir: "...indi dövlət orqanında işləyən adam bu orqandan çox, öz şəxsi məsələləri ilə məşğuldur, özəl bölmə ilə əlaqə yaradır"[3].

Dövlət malından, dövlət vəsaitindən istifadə edərək özlərinə şəxsi strukturlar yaradanları, öz vəzifələrindən pərdə kimi istifadə edərək, onun vasitəsi ilə cürbəcür çirkin yollara gedib, dövlət qarşısında, xalq qarşısında məs-

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 492
[2] Yenə orada, səh. 573.
[3] Yenə orada, səh. 573

uliyyətini yaddan çıxarıb, öz cibini doldurmaqla məşğul olanları Heydər Əliyev çıxışlarında dəfələrlə tənqid və xəbərdar edir, bəyan edir ki, "Hamı qanun çərçivəsində işləməlidir. Qanunu pozan adamlar vəzifəsindən, keçmiş xidmətindən asılı olmayaraq cavab verməlidirlər"[1] və yaxud "... işə məsuliyyətsiz yanaşan nazirlər, şirkət, birlik, müəssisə rəhbərləri özləri üçün nəticə çıxarmalıdırlar. Onlar ya işdə dönüş yaratmalı, işə münasibətlərini dəyişdirməli, öz fəaliyyətində dövlətin mənafelərini üstün tutmalı və respublikamızın bu ağır böhran vəziyyətindən çıxmasına çalışmalıdırlar; ya da elə olmasa, biz onların haqqında lazımi ciddi tədbirlər görəcəyik"[2]. Düzgün yola gəlməyən belələrinin aqibəti isə göz qabağındadır.

Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında iqtisadi cinayətkarlığa qarşı mübarizə sahəsində bəzi tədbirlər haqqında" 1998-ci il 27 yanvar tarixli sərəncamı xüsusi qeyd olunmalıdır.

Bu sərəncam Azərbaycan xalqının mənəviyyatına mənfi təsir göstərən, tarixi adət-ənənələrinə zidd olan hallara yol verməmək, həmçinin iqtisadi sahədə cinayətkarlıqla mübarizənin gücləndirildiyi və bazar münasibətlərinin bərqərar olunduğu bir zamanda həmin sahədə müxtəlif əyintilərin qarşısını almaq məqsədi güdür.

Ölkə vətəndaşları tərəfindən yüksək qiymətləndirilən sərəncamda bazar münasibətlərindən irəli gələn yeni növ

---

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 1, səh. 573

[2] Yenə orada, səh. 35.

cinayətlərin cəmiyyətimizdə yuva salması və bu cinayətlər üçün bir sıra dövlət orqanları tərəfindən zəmin yaradılması açıqlanır və Azərbaycanda kazinoların, totalizatorların, pul uduşlu oyunlar keçirən obyektlərin və milli mənəviyyatımıza zidd əyləncə yerlərinin sayının çoxalması kəskin tənqid edilir. Qeyri-qanuni yollarla mənimsənilmiş pulların leqallaşdırılmasına və digər cinayətlərin törədilməsinə əlverişli şərait yaradan bu və digər halların qarşısını alınaq tədbirlərini nəzərdə tutan dövlət proqramının hazırlanması tələb olunan bu sərəncam Heydər Əliyevin korrupsiya və iqtisadi cinayətkarlığa qarşı amansız və ardıcıl mübariz olduğunu nəinki Azərbaycanda, habelə beynəlxalq aləmdə bir daha sübut etdi.

## 6.2. İqtisadi islahatların sosial yönümü Heydər Əliyevin iqtisadi strategiyasının əsas xüsusiyyətidir

Azərbaycanda milli ideologiyanın, sosial ədalətin və xalqımızın çoxəsrlik dövlətçilik ənənəsinin təsdiqi kimi, müstəqil dövlətimizin açıqladığı hüquqi, suveren dövlət qurmaq prinsiplərini özündə əks etdirən Azərbaycan Respublikası Konstitusiyasının 1995-ci il noyabrın 12-də ümumxalq referendumunda qəbul olunması dövlətçilik, vətəndaş cəmiyyətinin bərqərar olunması, vətəndaşların həyat səviyyəsinin ədalətli sosial-iqtisadi münasibətlərə uyğun olaraq təmin edilməsi baxımından böyük tarixi əhəmiyyətə malikdir.

Heydər Əliyev hakimiyyətinə miras qalmış dərin iqtisadi böhran və bir-birini əvəz edən hakimiyyət qurumlarının səriştəsiz fəaliyyəti cəmiyyətdə sosial-iqtisadi və siyasi-psixoloji gərginliyi son həddə çatdırmışdı. Digər tərəfdən, sosial və iqtisadi inkişafın vəhdətini nəzərdə tutan Heydər Əliyev iqtisadi konsepsiyasının, iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsini təmin etmək üçün nəzərdə tutulmuş antiinflyasiya tədbirlərinin Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən yarıtmaz yerinə yetirilməsi, iqtisadi islahatların gecikdirilməsi, idarəetmə sisteminin təkmilləşdirilməsində yol verilmiş səhlənkarlıq, enerji daşıyıcılarının, habelə çörəyin qiymətlərinin tənzimlənməsində olan ciddi nöqsanlar və bir sıra sahələrdə hökm sürən hərc-mərclik nəticəsində respublikada mənfi halların sayı çoxalmış və bütün iqtisadiyyatda böhranın dərinləşməsinə, inflyasiyanın davam etməsinə və sosial gərginliyin artmasına gətirib çıxarmışdı.

Öz populist sələflərindən fərqli olaraq Heydər Əliyev iqtisadi dirçəliş olmadan sosial inkişafın mümkünsüzlüyünü dəfələrlə bəyan etmişdir. Məsələn, o, "Delovoy mir" qəzetinin 1994-cü il 20 sentyabr tarixli sayında dərc olunmuş müsahibəsində deyir: "Sosial problemlər əsasən iqtisadi islahatların həyata keçirilməsi yolu ilə həll ediləcəkdir. Onun həyata keçirilməsi istehsalın həcmini qaldırmağa imkan verəcək, bu isə respublikanın iqtisadi və maliyyə vəziyyətini yaxşılaşdıracaqdır. Bütün bunlar tədricən həyat səviyyəsinin yaxşılaşmasına gətirib çıxaracaqdır"[1].

[1] *Heydər Əliyev.* «Müstəqilliyimiz əbədidir», c. 2, səh. 208.

1993-cü ilin iyun ayında vətəndaş müharibəsi həddində, parçalanma vəziyyətində olan Azərbaycan Respublikasında bu gün dünyəvi dəyərlərə söykənən müstəqil, demokratik, hüquqi dövlət quruculuğu işləri uğurla həyata keçirilir. Bu, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rəhbərliyi sayəsində ölkədə həyata keçirilən sosial-iqtisadi islahatlar hesabına qazanılmış nailiyyətdir.

Heydər Əliyev iqtisadiyyatın sosial yönümlü olmasını daim tövsiyə etmişdir. Son dövrlərdə bu öz real nəticələrini göstərməyə başlamışdır.

Bir fakt da ürəkaçandır ki, ötən illərdə əhalinin sosial təminatları üzrə borclar da artıq demək olar ki, aradan qaldırılmışdır. Məsələn, 1995-ci ilin yekunları müzakirə edilərkən deyilmişdi ki, 1995-ci ildən 1996-cı ilə sosial müdafiə fonduna büdcədən 160 milyard manata qədər borc qalıbdır və onun bir qismi də 1997-ci ilə keçibdir. Artıq 1997-ci ilin ortalarına büdcədən sosial müdafiə fonduna olan bütün borclar iyulun 1-də sıfır vəziyyətinə endirilmiş və bu borcların ödənilməsi üçün bütün tədbirlər görülmüşdür.

Son üç ildə respublikamızda əmək haqqı mütəmadi olaraq artmaqdadır. 1995-ci ildə respublika üzrə işçilərin orta aylıq nominal əmək haqqı 62,5 min manat, 1996-cı ildə 85 min manat, 1997-ci ildə isə 142 min manat olmuşdur.

Ölkədə real ödənclər konsepsiyası elan edilmiş və onun həyata keçirilməsi üçün əməli tədbirlər görülmüşdür.



Prezident Heydər Əliyev və ABŞ-ın energetika nazırı Federiko Penya




Prezident Heydər Əliyev, Gürcüstan prezidenti Eduard Şevardnadze və ABƏŞ-in prezidenti Terri Adams ılkin neftin çıxarılması münasibətilə təntənəli mərasimdə.



Prezident Heydər Əliyev, Murtuz Ələsgərov, Rəfael Allahverdiyev,
Əli Nağıyev  Bakı Əlillər evinin açılışında.



Prezident Heydər Əliyev Bakı elektrik maşınqayırma zavodunda. 16 oktyabr 1997-ci il.

Respublikada büdcə təşkilatlarında işləyən vətəndaşların əmək haqqının artırılması daim diqqət mərkəzində olmuşdur. 1996-cı ildən başlayaraq ölkə Prezidenti büdcədən maliyyələşdirilən ayrı-ayrı sahələrin işçilərinin əmək haqlarının artırılması barədə 10-a yaxın fərman və sərəncam vermişdir.

Lakin vəziyyətin belə müsbət dəyişməsi öz-özünə olmamış, ölkə Prezidenti Heydər Əliyev tərəfindən çox böyük əmək sərf olunmuş, əhalinin sosial müdafiəsini təmin etmək məqsədi ilə bir sıra qanun, fərman və sərəncamlar imzalanmış, onun birbaşa rəhbərliyi ilə kompleks tədbirlər işlənib hazırlanmış və həyata keçirilmişdir.

Konstitusiyamızın əsas təməl prinsiplərindən biri olan sosial ədalət prinsipinin, eləcə də Konstitusiyada təsbit edilən əmək hüququnun, istirahət hüququnun, sosial təminat hüququnun, azad sahibkarlıq hüququnun həyata keçirilməsi bazar münasibətlərinə keçid şəraitində çox böyük əhəmiyyət kəsb edir. Bu baxımdan əmək və sosial müdafiə sahəsində siyasətin həyata keçirilməsi məqsədi ilə respublikada qanunvericilik bazasının yaradılması üzrə məqsədyönlü iş aparılmışdır. Son illərdə bir sıra vacib qanunlar qəbul olunmuşdur. Bunlardan "Əməyin mühafizəsi haqqında", "Əhalinin məşğulluğu haqqında", "Məzuniyyətlər haqqında", "Vətəndaşların pensiya təminatı haqqında", "Əlillərin sosial müdafiəsi haqqında", "Kollektiv müqavilələr və sazişlər haqqında", "Fərdi əmək mübahisələrinin həlli haqqında", "Fərdi əmək müqavilələri (kontraktları) haqqında" Azərbaycan Respublikasının qanunları əhalinin sosial-əmək münasi-

bətlərinin bazar iqtisadiyyatı şəraitində nizamlanmasında, onların sosial müdafiəsinin gücləndirilməsində xüsusi əhəmiyyətə malikdir.

Qeyd edilməlidir ki, bu sahədə işlər davam etdirilir. Yaxın vaxtlarda "Əməyin ödənilməsi haqqında", "Kollektiv əmək mübahisələrinin həlli haqqında" qanunların və digər sosial əhəmiyyətli normativ hüquqi sənədlərin qəbul edilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Beynəlxalq Əmək Təşkilatının insan hüquqlarının qorunmasına yönəldilmiş əsas 57 konvensiyasına qoşulmuş və bununla da müstəqil demokratik dövlətçilikdə yeni sosial-əmək münasibətləri sisteminin təməlini ümumbəşəri normalara uyğun qurmuşdur. Bununla yanaşı əmək siyasəti, əmək haqqının ödənilməsi və bu sistemin təkmilləşdirilməsi sahəsində Almaniya, Belçika, Fransa, İngiltərə, İsveçrə, Türkiyə və sair inkişaf etmiş dövlətlərin təcrübəsindən geniş istifadə edilir.

"Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" (15 iyun 1994-cü il) və "Əhalinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" (24 oktyabr 1994-cü il) Prezidentin fərmanları sosial-iqtisadi əhəmiyyətinə görə xüsusi qeyd olunmalıdır. Bu fərmanlarda sosial və işləməyən pensiyaçılara, tələbələrə və texniki peşə məktəblərinin şagirdlərinə, adambaşına aylıq gəliri minimum əmək haqqının 2 mislindən az olan ailələrdə 16 yaşınadək uşaqlara pul kompensasiyası verilməsi, azmaaşlı və yüksəkmaaşlı

işçi kateqoriyalarının əmək haqları arasında kəskin fərq yaranmasının qarşısının alınması, fiziki və hüquqi şəxslərin ayrı-ayrı kateqoriyaları üçün vergi və qeyri-vergi imtiyazıları sistemindən əhalinin sosial cəhətdən az müdafiə olunan təbəqələrinə pul kompensasiyası siseteminə keçilməsi, əməyin ödənilməsinin minimum məbləğinin inflyasiya səviyyəsinə uyğunlaşdırılması və başqa vacib tədbirlər nəzərdə tutulurdu.

Həmin gərgin illərdə həyata keçirilən sosial müdafiə tədbirləri sırasında əməyin ödənilməsinin minimum məbləğinin artırılması öncül yer tuturdu.

Hakimiyyətə qayıtdıqdan cəmi 2 həftə sonra Heydər Əliyev "Fəhlə və qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman imzaladı (29 iyun 1993-cü il) və bu fərmanla 1993-cü il iyulun 1-dən etibarən Azərbaycan Respublikasında əməyin ödənilməsinin minimum məbləği ayda 500 manat müəyyən edildi. Əməyin ödənilməsinin minimum məbləğinin artırılmasını nəzərə alaraq büdcədən maliyyələşdirilən idarə, müəssisə və təşkilatlarda çalışan işçilərin (hərbi qulluqçular və idarəetmə orqanlarının işçiləri istisna olmaqla) əmək haqqı 1993-ci il iyulun 1-dən etibarən 70 faiz artırıldı.

Eyni zamanda pensiya, təqaüd və müavinətlərin minimum məbləğlərinin əməyin ödənilməsinin minimum məbləğinə uyğunlaşdırılması həyata keçirildi. Müəyyənləşdirildi ki, əmək haqqına əlavələr, mükafatlar və digər həvəsləndirici ödənişlər əməyin ödənilməsinin minimum məbləğinə daxil edilmir.

Bir qədər sonra (22.11.93) Heydər Əliyevin imzaladığı "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" fərmanla 1993-cü il noyabrın 15-dən etibarən Azərbaycan Respublikasında əməyin ödənilməsinin minimum məbləği ayda 900 manat, "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" fərmanla (15.06.94) 1994-cü il iyunun 1-dən 2000 manat, "Əhalinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" fərmanla (24.10.94) 1994-cü il oktyabrın 15-dən 4000 manat, "Azərbaycan Respublikasında əhalinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" fərmanla (06.02.95) isə 1995-ci il fevralın 1-dən 5500 manat məbləğində müəyyən edilmişdir.

Əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq sahəsində Heydər Əliyevin rəhbərliyi ilə ardıcıl aparılan dövlət siyasətinə uyğun olaraq təhsil, səhiyyə, mədəniyyət, incəsənət, kütləvi informasiya vasitələri, bədən tərbiyəsi və sosial təminat sistemlərində çalışan işçilərin sosial müdafiəsini təmin etmək məqsədi ilə 1996-cı il 23 sentyabr tarixli fərmanla Azərbaycan Respublikasının sosial sahələrində çalışan işçilərin əmək haqqı artırıldı.

Belə ki, 1996-cı il oktyabrın 1-dən büdcədən maliyyələşdirilən təhsil, səhiyyə, bədən tərbiyəsi, mədəniyyət, kütləvi informasiya vasitələri və sosail təminat müəssisə, idarə və təşkilatlarında çalışan işçilərin vahid tarif cədvəli

ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşları 40 faiz artırıldı və sosial sahələrdə çalışan işçilərin əmək haqlarının 1997-ci ildə əhəmiyyətli dərəcədə artırılması məqsədi ilə bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq bu sahələrdə struktur dəyişiklikləri aparılmasının sürətləndirilməsi məsələsi irəli sürüldü.

Azərbaycan Respublikası Elmlər Akademiyasının fəaliyyətinə dövlət qayğısını artırmaq, onun elmi potensialını qoruyub saxlamaq və işçiləri elmi tədqiqat işlərinin yüksək səviyyədə aparılmasına həvəsləndirmək məqsədi ilə "Azərbaycan Respublikasının Elmlər Akademiyası işçilərinin aylıq əmək haqlarının artırılması haqqında" 1996-ci il 31 yanvar tarixli sərəncamla onların aylıq vəzifə maaşları 50 faiz artırılmış və Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvlərinə 500 min manat, müxbir üzvlərinə 300 min manat məbləğində aylıq rütbə maaşları təyin edilmişdir.

"Azərbaycan Respublikası dövlət akademik və aparıcı teatrlarının, musiqi və rəqs kollektivlərinin sosial və maddi-texniki təminatının yaxşılaşdırılması haqqında" digər bir sərəncamla (31.01.97) Azərbaycan mədəniyyətinin inkişafında dövlət akademik və aparıcı teatrlarının, musiqi və rəqs kollektivlərinin rolunu nəzərə alaraq, onların maddi-texniki təminatını və işçilərin sosial vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı, Azərbaycan Dövlət Musiqili Komediya Teatrı, S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrı,

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, Azərbaycan Dövlət Kukla Teatrı, Bakı Bələdiyyə Teatrı, Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestri, Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri, F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, Azərbaycan Dövlət Rəqs Ansamblı, Azərbaycan Dövlət Xor Kapellası və Bakı Dövlət Sirki işçilərinin vəzifə maaşları 1997-ci il fevralın 1-dən dövlət büdcəsi hesabına 50 faiz artırılmışdır.

İstehlak qiymətlərinin artması şəraitində əhalinin aztəminatlı təbəqələrinin müdafiəsi və onların alıcılıq qabiliyyətinin aşağı düşməsinin qarşısının alanması Heydər Əliyevin daim diqqət mərkəzində duran problemlərdəndir. Bu məqsədlə ölkə başçısı "Əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" 1994-cü il noyabrın 21-də, "16 yaşınadək uşaqlara görə aztəminatlı ailələrə verilən pul kompensasiyalarının əhatə dairəsinin genişləndirilməsi haqqında" 1995-ci il yanvarın 27-də fərmanlar, "Aztəminatlı ailələrə verilən müavinətlərin artırılması haqqında" və "Aspirantlara, ali, orta ixtisas və texniki peşə məktəblərinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlər haqqında" 1996-cı il mayın 22-də sərəncamlar imzalamışdır.

Bu sərəncamlarla uşaq doğularkən, aztəminatlı ailələrin, müharibə əlillərinin və şəhid ailələrinin uşaqlarına, Azərbaycan Respublikasını erməni təcavüzündən müdafiə edərkən əlil olmuş şəxslərə, Böyük Vətən müharibəsi iştirakçılarına, həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, müharibə illərində arxa

cəbhədə çalışmış, fədakar əməyinə görə orden və medallarla təltif edilmiş vətəndaşlara, işləməyən pensiyaçılara yeni müavinətlər, qaçqın və köçkünlərə aylıq yemək xərcləri müəyyənləşdirilmişdir.

Dövlət büdcəsi hesabına təhsil alan aspirantlara, ali, orta ixtisas və texniki peşə məktəblərinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin əməyin ödənilməsinin minimum məbləği əsasında müəyyən edilmiş qaydasının ləğvi ilə əlaqədar olaraq onların verilməsi qaydasını təkmilləşdirmək məqsədi ilə və "Azərbaycan Respublikasının 1996-cı il dövlət büdcəsinin təsdiqi haqqında" Azərbaycan Respublikasının qanununa müvafiq olaraq dövlət büdcəsi hesabına təhsil alan aspirantlara, ali, orta ixtisas və texniki peşə məktəblərinin tələbələrinə və şagirdlərinə verilən aylıq təqaüdlərin miqdarı xeyli artırılmışdır.

Azərbaycan Respublikasının azadlığı, istiqlaliyyəti, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların, o cümlədən 1990-cı il 20 yanvar qırğınında həlak olanların ailələrinin sosial müdafiəsini yaxşılaşdırmaq məqsədi ilə Heydər Əliyev "Azərbaycan Respublikasının azadlığı, istiqlaliyyəti, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə birdəfəlik maliyyə yardımı verilməsi haqqında" (26.12.93), "Aztəminatlı ailələrə verilən müavinətlərin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 may 1996-cı il tarixli 315 nömrəli sərəncamına dəyişikliklər və əlavələr edilməsi barədə (18.11.96 və 17.01.97) sərəncamlar imzalamışdır.

Əlillərə qayğı Heydər Əliyevin sosial siyasətində mühüm yer tutur. Hazırda respublikamızda 240 minədək əlil vardır. Onların sosial müdafiəsinin gücləndirilməsi daim diqqət mərkəzində olmuşdur: bu məqsədlə "Əlillərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanununa zəruri dəyişikliklər edilmiş, ölkə Prezidenti bir sıra fərman və sərəncamlar vermişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində fəaliyyət göstərən Əlilləri Sosial Müdafiə Fondu tərəfindən onların sosial problemlərinin vaxtında həlli, zəruri yardım göstərilməsi, əlillərin sağlamlığının qorunması, tibbi bərpası, əmək qabiliyyətinin bərpası, əlillər üçün yeni iş yerlərinin yaradılması, onlar arasında mədəni-idman tədbirlərinin keçirilməsi, əlillərin beynəlxalq yarışlarda iştirakı, onların sanatoriya-kurort müalicəsi, pulsuz dərman preparatları ilə təmin edilməsi, MDB dövlətlərinə müalicəyə göndərilməsi, mənzil şəraitinin yaxşılaşdırılması, toy və yas mərasimlərinin keçirilməsi, yaradıcı əlillərin ümumrespublika sərgi - müsabiqəsinin təşkili, əlillərin bayram tədbirlərinin keçirilməsi və sair sahədə xeyli iş görülmüşdür. 1997-ci ildə bu məqsədlər üçün Fond tərəfindən 8 milyard manatdan çox vəsait xərclənmişdir.

1990-cı ildən yarımçıq qalmış bir yaşayış evinin indiki iqtisadi çətinliklər dövründə yüksək keyfiyyətlə tikilərək döyüşçü əlillərin istifadəsinə verilməsi onlara dövlət qayğısının əyani təzahürüdür. Tək ahıl vətəndaşlara da diqqət artırılmışdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində 10 internat və qocalar evi fəaliyyət göstərir, bu müəssisələrdə 1000-dən çox əmək və müharibə veteranı, əlil və kimsəsiz vətəndaş tamamilə dövlətin himayəsindədir.

İndi respublikamızda müasir avadanlıqla təchiz edilmiş 2 protez-ortopedik bərpa mərkəzi, Naxçıvan Muxtar Respublikasında protezləşdirmə emalatxanası fəaliyyət göstərir. Bu mərkəzlərdə təkcə respublikamızda yaşayanlara deyil, digər dövlətlərin vətəndaşlarına da xidmət göstərilir, yüksək keyfiyyətli protezlər, ortopedik məmulatlar, qoltuq ağacları və s. hazırlanır.

Heydər Əliyev müharibə əlillərinin qayğısına qalaraq "Azərbaycan Respublikasını Ermənistan təcavüzündən müdafiə edərkən əlil olmuş şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında" 1994-cü il avqustun 26-da fərman imzalamışdır. Əlillər üçün həlli vacib olan məsələlər həmin fərmanda öz əksini tapmışdır. Fərmanın 2-ci bəndində əlil arabalarının, protez və bərpa vasitələrinin alınması üçün 1,5 milyon ABŞ dolları, Qarabağ müharibəsi əlillərinə veriləcək avtomobillərin alınması üçün 2 milyard rubl, 3-cü bəndində Vətəni müdafiə edərkən əlil olmuş şəxslərin xaricdə müalicə edilməsi üçün respublika Səhiyyə Nazirliyinə 500 min ABŞ dolları, 4-cü bəndində Bakı Protez-Ortopedik Bərpa Mərkəzinin müalicə korpusunun tikintisini başa çatdırmaq üçün yüz milyon manat vəsait ayrılmışdır.

Son dövrlərdə, bilavasitə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında

Azərbaycan Respublikasında aztəminatlı əhalinin, o cümlədən əlillərin və ahıl vətəndaşların ünvanlı sosial müdafiəsini təmin etmək üçün bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

Belə ki, 1997-ci ilin iyulundan qeyri-vergi güzəştlərinin ləğvi ilə əlaqədar olaraq ahıl vətəndaşlara, Çernobıl əlillərinə, birinci və ikinci qrup əlillərə əlavə olaraq aylıq müavinətlər təyin edilmişdir.

Bütün bunlarla bərabər ardıcıl olaraq həyata keçirilən sosial-iqtisadi islahatlar vətəndaşların pensiya təminatının yaxşılaşdırılmasında xüsusi rol oynamışdır. 1993-1997-ci illər ərzində təkcə bu sahədə ölkə Prezidenti tərəfindən 30-dək fərman və sərəncam verilmiş, bir sıra qanunlar qəbul edilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən pensiya təminatı sistemində islahat konsepsiyası hazırlanmışdır. Bu konsepsiya respublikada üçpilləli pensiya təminatı sisteminin (I pillə - sosial pensiyalar, II pillə - sığorta ayırmalarına görə müəyyən edilən əmək kompensasiyası, III pillə - qeyri-dövlət pensiya təminatı) tətbiqini nəzərdə tutur. İlk mərhələdə (1997-1998-ci illərdə) pensiya təminatında mövcud uyğunsuzluğu, xüsusilə 1993-cü ilə qədər pensiyaya çıxmış şəxslərlə sonrakı dövrlərdə pensiyaya çıxanların pensiyaları arasındakı fərqi aradan qaldırmaq, habelə pensiyaların məbləğlərini respublikada müəyyənləşdirilmiş minimum əmək haqqına bağlılıqdan azad etmək, pensiya hesablanması üçün yeni, daha mütərəqqi mexanizm

tətbiq etmək üzrə artıq bütün işlər görülmüşdür. 1 milyon 134 min pensiyaçıdan 650 min nəfərinin pensiyası yenidən hesablanmış, nəticədə respublika üzrə orta aylıq pensiya məbləği 23 min manatdan 49 min manata çatdırılmışdır.

Qeyd etmək lazımdır ki, ölkədə iqtisadi islahatlar uğurla həyata keçirildiyindən vətəndaşlara pensiyaların vaxtında çatdırılması sahəsində Azərbaycan Respublikası hazırda keçmiş SSRİ məkanında olan dövlətlər arasında birinci yerdədir. İndi işləməyən pensiyaçılar öz pensiyalarını vaxtında alırlar. Halbuki 1996-cı ildə dövlətin pensiya və müavinət ödənişi üzrə vətəndaşlara 72 milyard manat borcu vardı.

Pensiya islahatının növbəti mərhələsində sığorta haqqı ödəyənlərin fərdi uçotunun aparılması, pensiya almaq hüququ olan şəxslərin baza məlumatlarının yaradılması, ayrı-ayrı sahələr üzrə qeyri-dövlət pensiya təminatı sisteminin yaradılması və əlaqələndirilməsi, pensiya təminatının idarəçilik formasının təkmilləşdirilməsi üzrə tədbirlər həyata keçiriləcəkdir.

Göstərilməlidir ki, Qafqaz respublikaları, o cümlədən Azərbaycan keçmiş dövrlərdən əmək ehtiyatları artıq olan ölkə olmuş və bu problem hazırda da mövcuddur. Son illərdə dövlətimizin ərazisinin bir hissəsinin Ermənistan tərəfindən işğal olunması və məcburi köçkünlərin yaranması ilə əlaqədar bu problem daha da kəskinləşmişdir - Azərbaycan işğal olunmuş ərazilərdə 300 minə qədər iş yerini itirmişdir.

Məlumdur ki, fəal sosial müdafiə əhalinin məşğulluğunun təmin olunmasını tələb edir.

Məşğulluq siyasətinin mühüm ünsürlərindən biri kimi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Əli Bayramlı şəhərlərində 21 000 nəfərdən artıq vətəndaşın iştirak etdiyi əmək yarmarkaları təşkil edilmiş və uğurla keçirilmişdir. Bu tədbirlər əhali tərəfindən böyük rəğbətlə qarşılanmış və 3300 nəfərdən çox işsiz münasib işlə təmin olunmuş, 300 nəfərdən çox yarmarka iştirakçısı işəgötürənlərin tələblərinə müvafiq peşə hazırlığı kurslarına cəlb edilmişdir. Hazırda əmək yarmarkalarının nəticələrinin təhlili əsasında TASİS proqramı ilə birlikdə, Bakı şəhərində daimi fəaliyyət göstərən əmək birjasının və ya işsizlər klubunun yaradılması istiqamətində işlər görülür.

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının köməyi ilə respublikada özünüməşğulluğun inkişafı layihəsi həyata keçirilir. Beynəlxalq Əmək Təşkilatının iştirakı ilə Bakı şəhərində, Naxçıvanda, Salyan və Ağdam rayonlarında qeyri-məşğul əhalinin özünüməşğulluğunun təmin olunması istiqamətində bir neçə konkret proqram həyata keçirilmiş və nəticədə 200 nəfər işsiz vətəndaş işlə təmin edilmişdir.

Bakı şəhərinin avtomobil dayanacaqlarında nəzarətçi peşəsi üzrə 1000 nəfərə yaxın işsiz vətəndaşın məşğulluğunun təmin edilməsi istiqamətində hazırlıq işləri görülür. Bu məqsədlə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi xüsusi proqram hazırlamış və müvafiq icra hakimiyyəti

orqanları ilə razılaşdırmışdır.

Qeyri-məşğul əhalinin özünüməşğulluğunun daha da inkişaf etdirilməsi məqsədi ilə digər tədbirlər də həyata keçirilmişdir.

Respublikada məşğulluq xidməti sisteminin inkişafı və təkmilləşdirilməsi son üç il ərzində Avropa İttifaqının TASİS proqramı çərçivəsində həyata keçirilir. Bu proqramla respublikadakı məşğulluq xidmətinin texniki təminatı, modernləşdirilməsi və kompüterləşdirilməsi nəzərdə tutulur. Proqram bu sahədə çalışan mütəxəssislərin peşə səviyyəsinin artırılmasını da təmin etməlidir.

Hazırda bu proqramın köməyi ilə məşğulluq xidmətinin mütəxəssislərinin Avropa ölkələrində təlim keçməsi təşkil edilmiş və məlumat-informasiya bazasının formalaşması, əhalinin məşğulluğu üzrə mövcud qanunvericiliyin təkmilləşdirilməsi sahəsində işlər aparılır. Proqramın həyata keçirilməsi respublikada yaranmış işsizlik probleminin həllinə müsbət təsir göstərəcək və ümumiyyətlə məşğulluq xidmətinin keyfiyyətini yüksəldəcəkdir.

Qeyd etmək lazımdır ki, sovet siyasi sisteminin və inzibati amirlik iqtisadiyyatının dağıdılmasından sonra ölkəmizdə kütləvi miqrasiyalar başlamışdır.

1988-1993-cü illərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü və keçmiş sovetlər birliyində baş verən millətlərarası münaqişə nəticəsində Azərbaycan Respublikasına yüz minlərlə qaçqın gəlmiş, 800 mindən çox vətəndaş işğal olunan ərazilərdən məcburi köçkün kimi digər rayonlara

pənah gətirmişdir. Keçid dövrünü yaşayan Azərbaycan Respublikası iqtisadiyyatında yaranmış vəziyyətlə əlaqədar xeyli işçi qüvvəsi ölkəmizdən xaricə, əsasən MDB üzvü olan ölkələrə işləməyə getmiş, Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşu, xüsusilə neft kontraktları ilə əlaqədar respublikamıza xeyli xarici işçi qüvvəsinin cəlb olunması və s. miqrasiya sahəsində vəziyyəti gərginləşdirmişdir.

Heydər Əliyevin rəhbərliyi ilə humanitar sahədə böhranın aradan qaldırılmasına, siyasi və makroiqtisadi sabitliyin yaranmasına, Azərbaycanın dünya birliyinə getdikcə güclənən inteqrasiyasına nail olunduğundan, respublikanın demoqrafik inkişafında xüsusi yer tutan miqrasiya proseslərinin tənzimlənməsi istiqamətində mühüm işlər görülməyə başlanmışdır - respublika Nazirlər Kabinetinin sərəncamı ilə Azərbaycanda miqrasiya proseslərinin tənzimlənməsi üzrə Vahid Dövlət Proqramının hazırlanması məqsədi ilə hökumət komissiyası yaradılmışdır.

Bu komissiya Beynəlxalq Miqrasiya Təşkilatı ilə əməkdaşlıqda qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün birgə proqram hazırlamışdır.

Azərbaycanın sosial, iqtisadi və mədəni inkişafının ümummilli strateji siyasətinə uyğun gənc nəslin tərbiyəsini Heydər Əliyev sosial siyasətin mühüm tərkib hissəsi hesab edir. Bu sahədə o, aşağıdakıları qarşıya məqsəd qoymuşdur:

- gənclərlə iş sahəsində cəmiyyətin demokratik inkişafı tələblərinə cavab verən milli siyasətin həyata keçirilməsi;

- gənclərin qüvvə və bacarıqlarının, yaradıcılıq imkanlarının milli dövlət quruculuğu vəzifələrinin yerinə yetirilməsinə, ölkədə həyata keçirilən islahatlar proqramının gerçəkləşdirilməsinə səfərbər olunması;

- gənclər arasında ümumbəşəri və milli dəyərlərin təbliğinin təmin edilməsi;

- gənclərin yüksək sosial, mənəvi və sağlam fiziki inkişafını təmin edən bütün fəaliyyət sahələrinin istiqamətləndirilməsi;

- gənclər arasında Azərbaycanın tarixi və mədəni irsini yaymaqla, onların vətənpərvərlik, Vətənə sədaqət, müstəqilliyimizin, dövlətçiliyimizin, torpağımızın müdafiəsinə daim hazır olmaq ruhunda tərbiyə edilməsi;

- gənclər arasında işsizliyin aradan qaldırılması üçün dövlət orqanlarının birgə fəaliyyət göstərməsi;

- aztəminatlı ailələrdəki uşaqların və yetim uşaqların sosial problemlərinin həllinə dair dövlət proqramının həyata keçirilməsi;

- bazar iqtisadiyyatı mühitində gənclərin sahibkarlığa cəlb edilməsi sahəsində dövlət idarəetmə orqanlarının işinin əlaqələndirilməsi;

- gənclər təşkilatlarının formalaşmasında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq iştirak edilməsi, onların fəaliyyətinin əlaqələndirilməsi;

- gənclərin problemləri ilə bağlı beynəlxalq tədbirlərin keçirilməsi;

- Azərbaycan Respublikasında bədən tərbiyəsi sahəsində milli proqramın həyata keçirilməsi;

- Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə əsaslanan sağlam həyat tərzinin əhali arasında yayılmasının təmin edilməsi.

Heydər Əliyev "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" 1996-cı il iyunun 22-də fərman imzaladı.

Elmi və mədəni tərəqqinin müstəqil Azərbaycanın gələcəyi üçün müstəsna əhəmiyyətini nəzərə alaraq istedadlı gənclərə Azərbaycan Respublikası Prezidentinin şəxsi himayəsini, onların yaradıcılıq potensialını inkişaf etdirmək üçün dövlət qayğısını təmin etmək məqsədi ilə ölkə başçısı aşağıdakıları qərara almışdı:

- Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı" təsis edilsin və gənc istedadların adları "Qızıl kitaba" Azərbaycan Respublikası Prezidentinin qərarı ilə yazılsın;

- Azərbaycan Respublikasının Prezidenti yanında "Gənc İstedadlar Fondu" təsis edilsin;

- "Qızıl kitab"a adları yazılmış gənc istedadlara təqdim etmək üçün xüsusi təqaüd təsis edilsin.

Heydər Əliyevin sosial siyasəti təkcə maddi aspektdən yox, həm də siyasi, psixoloji və hüquqi baxımdan çox böyük maraq doğurur. Bu cəhətdən N.M.Ağayevə Azərbaycan Respublikası Prezidenti Fondundan yardım göstərilməsi haqqında onun 1994-cü il 6 mart tarixli sərəncamı xüsusilə diqqətəlayiqdir. Keçmiş sovet dövlət sistemində

siyasi baxışlarına görə əsassız azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş və cəza müddətini çəkib qurtardıqdan sonra əməllərində cinayət tərkibi olmadığına görə bəraət almış Nadir Mirələkbər oğlu Ağayevin ağır maddi vəziyyətini nəzərə alaraq, humanizm və ədalətin bərpa olunması prinsiplərini rəhbər tutaraq Heydər Əliyev Ağayevə Azərbaycan Respublikası Prezidenti Fondunun vəsaitindən 160000 manat məbləğində yardım göstərilməsi barədə qərar vermişdir.

Nəzərdə tutulmuş sosial siyasətin reallaşması üçün Heydər Əliyev bir sıra vacib təşkilati tədbirlərin həyata keçirilməsini vacib hesab etmişdir.

Bu baxımdan dövlət müstəqilliyinə yenicə qədəm qoymuş Azərbaycan Respublikasında təhsil sisteminin sosial-iqtisadi problemlərini həll etmək və hərtərəfli inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək, yaranmış maliyyə çətinlikləri şəraitində bu sahəyə ümumxalq yardımını təşkil etmək məqsədi ilə 1995-ci il fevralın 14-də verilmiş fərmanla Azərbaycan Respublikasının Prezidenti yanında Təhsilin İnkişaf Fondunun yaradılmasını xüsusi göstərmək lazımdır.

Bir qədər sonra - həmin il martın 5-də Azərbaycan Respublikası əhalisi arasında sağlam həyat tərzinin təbliğ edilməsi və bədən tərbiyəsinin maddi-texniki bazasının inkişaf etdirilməsi, bu sahəyə ümumxalq yardımının təşkil olunması məqsədi ilə gənclərin idmana marağını artırmaq və Azərbaycan idmanının beynəlxalq miqyasa çıxması üçün

real zəmin yaratmaq zərurətini nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti yanında İdman Fondu yaradılması barədə fərman imzalanmışdır.

Cəlb olunduğumuz müharibə ucbatından ölkə əhalisinin böyük bir hissəsinin öz doğma ocağından uzaq düşməsini və yaranmış gərgin vəziyyəti nəzərə alaraq bir sıra xarici ölkələr Azərbaycana humanitar və texniki yardım göstərirlər.

Xarici dövlətlərdən və beynəlxalq təşkilatlardan Azərbaycan Respublikasına göndərilən humanitar yardımın qəbul edilməsi, uçotunun aparılması, saxlanması, bölüşdürülməsi və bu sahədə zəruri olan digər işlərin təşkil edilməsi məqsədi ilə Prezidentin 1995-ci il 15 yanvar tarixli sərəncamı ilə Respublika Komissiyası yaradılmışdır.

Komissiyanın 1995-ci il 9 mart tarixli sərəncamla təsdiq edilmiş Əsasnaməsində onun əsas vəzifələri kimi aşağıdakılar nəzərdə tutulmuşdur:

- Azərbaycan Respublikasına xarici dövlətlərdən və beynəlxalq təşkilatlardan daxil olan bütün humanitar və texniki yardım barəsində məlumatın toplanmasının, həmin yardımın qəbul olunmasının, uçotunun aparılmasının, saxlanılmasının və bölüşdürülməsinin, habelə təyinatı üzrə çatdırılmasının təşkil edilməsi;

- humanitar və texniki yardımın qəbul edilməsi, uçotunun aparılması, saxlanılması, bölüşdürülməsi və təyinatı üzrə çatdırılmasına dair təkliflərin işlənib hazırlanması və müvafiq səlahiyyətli dövlət orqanlarına təqdim edilməsi;

- humanitar və texniki yardımın qəbul edilməsi, uçotunun aparılması, saxlanılması və bölüşdürülməsi, habelə təyinatı üzrə çatdırılması sahələrində nəzarətin həyata keçirilməsi;

- humanitar və texniki yardım göstərilməsi sahəsində müvafiq dövlət orqanlarının və ictimai təşkilatların fəaliyyətinin əlaqələndirilməsi.

Vətəndaşların Azərbaycan Respublikasının Konstitusiyası ilə nəzərdə tutulmuş əmək hüquqlarının müdafiəsini təmin etmək və əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirmək məqsədi ilə respublika Prezidentinin 1997-ci il 27 yanvar tarixli fərmanı əsasında Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Şəraitinin Dövlət Ekspertizası Xidməti bazasında həmin nazirliyin nəzdində Dövlət Əmək Müfəttişliyinin və onun yerli orqanlarının yaradılması Heydər Əliyevin sosial problemlərə dərindən və kompleks yanaşmasını göstərir.

Dövlət Əmək Müfəttişliyinin yaradılması ilə işçilərin sosial müdafiəsi onların əmək hüquqlarının işəgötürənlər tərəfindən gözlənilməsinə dövlət tərəfindən nəzarət hüququ baxımından gücləndirilmişdir.

Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərən ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısının təzahürü kimi, "Azərbaycan Respublikasının ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısının artırılması haqqında" ölkə Prezidentinin 1997-ci il 10 noyabr və 1998-ci il 21 fevral tarixli fərmanları ictimaiyyət tərəfindən yüksək

rəğbətlə qarşılanmışdır. Bu fərmanlarla qocaman ədəbiyyat və incəsənət xadimləri üçün ayda bir milyon manat məbləğində ömürlük 50 fərdi təqaüd təyin olunmuşdur.

Azərbaycan Respublikasında əhalinin sosial müdafiəsi sahəsində əldə edilən nailiyyətlər Prezidentin müdrikliyinə söykənərək, onun rəhbərliyi ilə ölkədə aparılan sosial-iqtisadi islahatların yeganə düzgün islahatlar olduğunu göstərir.

Respublika iqtisadiyyatı yüksələn xətt üzrə addım-addım, inamla inkişaf etməkdədir. Bu, Heydər Əliyev xəttinin yeganə düzgün xətt olduğuna əyani sübutdur.

Bütün bunlar 1997-ci ildə Azərbaycan Respublikasının sosial inkişaf göstəricilərində bir daha təsdiqlənmişdir. Bu göstəricilərdən bəzilərinə nəzər salaq.

1997-ci ildə büdcədən maliyyələşdirilən təşkilatlarda işçilərin əmək haqları 50 faiz artırılmış, böyük qrup ədəbiyyat, incəsənət və elm xadimlərinə, habelə gənc istedadlara fərdi təqaüdlər tətbiq edilmişdir.

Həmin ildə əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsini təmin etmək üçün pensiya və müavinətlərin ödənilməsinə 842 milyard manat vəsait yönəldilmişdir. 1996-cı illə müqayisədə sosial müdafiə xərcləri 34 faiz artımışdır.

1997-ci il avqustun 1-dən pensiyaçıların böyük əksəriyyətinin (650 min nəfərdən çox) pensiyaları 2 dəfədən çox artırılmış və onun ödənilməsinə 120 milyard

manat sərf olunmuşdur. Eyni zamanda qeyri-vergi güzəştlərinin ləğvi ilə əlaqədar ahıl vətəndaşlara, əlillərə və sosial pensiyaçılara 25 milyard manat əlavə müavinət verilmişdir. Bütövlükdə, 1997-ci ildə işləməyən pensiyaçılara 348 milyard manat vəsait verilmişdir ki, bu da əvvəlki illə müqayisədə 77 milyard manat çoxdur.

1997-ci ildə vətəndaşların pensiya təminatının yaxşılaşdırılmasına yönəldilmiş islahatların həyata keçirilməsi nəticəsində ölkə üzrə orta aylıq pensiyanın məbləği 2,1 dəfə artırılmış, ötənilki 23 min manatdan 49 min manata çatdırılmışdır.

1997-ci ildə öz həllini tapmış sosial problemlərdən biri də Qarabağ və 20 Yanvar əlillərinin dövlət vəsaiti hesabına minik maşını ilə təmin edilməsidir. Bilavasitə Heydər Əliyevin qayğısı nəticəsində 240 ədəd "OKA" markalı maşın alınmışdır. Əlillər üçün Bakı şəhərində tikilib istifadəyə verilmiş 81 mənzilli yaşayış binası Prezidentin əlillərə göstərdiyi diqqətin bariz təzahürüdür.

Bütün bunlar bir daha göstərir ki, 1997-ci il Azərbaycan Respublikasının sosial-iqtisadi həyatında mühüm rol oynamaqla, görülən işlər və qazanılan müsbət nəticələr ölkəmizin gələcək yüksəlişi üçün əsaslı zəmin yaratmışdır. Artıq 1998-ci ilin yanvar ayında əldə olunmuş ilkin nəticələr (ümumi daxili məhsul - 10,1 faiz, sənaye - 0,8 faiz, kənd təsərrüfatı - 5 faiz, inflyasiya - 0,7 faiz artmışdır) iqtisadi islahatların dərinləşməsini və ölkənin bazar iqtisadiyyatı istiqamətində inamla irəliləməsini bir daha sübut edir.

Beləliklə, bazar iqtisadiyyatı yolunu seçmiş, islahatları uğurla, ardıcıl həyata keçirən Azərbaycan Respublikası bu gün sosial-iqtisadi inkişafın möhkəm təməlini yaratmaqla, güclü iqtisadi yüksəlişin astanasındadır.

Respublikada qabaqcıl dünya ölkələrinin təcrübə və nailiyyətlərindən bəhrələnməyə təşəbbüs getdikcə genişlənir və beynəlxalq əlaqələr sistemində iqtisadi əlaqələrdən (investisiya qoyuluşu, müştərək müəssisələrin yaradılması və fəaliyyəti, dünya təsərrüfatına inteqrasiya və s.) səmərəli istifadə edilir. İndi respublikamızın iqtisadi potensialından daha faydalı istifadə üçün xarici investisiyaların təkcə neft sənayesinə deyil, xalq təsərrüfatının digər aparıcı sahələrinə, xüsusilə aqrar sahəyə - kənd təsərrüfatı məhsullarının istehsalına, emalına yönəldilməsi son dərəcə əhəmiyyətli olardı. Belə ki, bu mühüm problemlərin birgə həlli daxili bazarın əsasən öz istehsalımız hesabına ödənilməsinə və tədricən idxalın azalmasına və ixracın artmasına səbəb ola bilər. Həmin tədbirlərin həyata keçirilməsində respublikamızın BVF, Dünya Bankı, Avropa Şurası, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər beynəlxalq təşkilat və şirkətlərlə genişlənməkdə olan əməkdaşlığı olduqca böyük rol oynayır.

Prezident Heydər Əliyevin ABŞ-a, Avropa ölkələrinə və Yaponiyaya ilk rəsmi səfərləri dünya iqtisadi birliyində respublikanın nüfuzunu xeyli artırmışdır. Azərbaycanın ictimai həyatının bütün sahələrində aparılan islahatlar dünya ölkələrinin təcrübəsindən öyrənməyi zərurətə çevirmişdir.

Tarixi hadisə - 1998-ci ilin fevralında Azərbaycan Prezidentinin Yaponiyaya səfəri və orada keçirilmiş yüksək səviyyəli görüşlər, tərəflər arasında imzalanan sənədlər xarici siyasətimizin məqsədyönlüyü baxımından müstəsna əhəmiyyət kəsb edir.

"Azərbaycan Respublikası ilə Yaponiya arasında əməkdaşlığın genişləndirilməsi tədbirləri haqqında" respublika Prezidentinin imzaladığı sərəncamda deyildiyi kimi, həmin sənədlər: dostluq və tərəfdaşlıq haqqında, ticarət və iqtisadi sahədə əməkdaşlıq haqqında Birgə bəyanatlar, Xəzər dənizinin Azərbaycan sektorundakı "Kürdaşı" blokunun birgə işlənilməsində pay verilməsi haqqında saziş, "Şimal" buxar-qaz elektrik stansiyasının tikintisi layihəsi haqqında kredit sazişi, Sumqayıt "Etilen-polietilen" zavodunda EP-300 qurğusunun yenidən qurulması layihəsinin maliyyələşdirilməsi haqqında kredit sazişi, Azərbaycanda ərzaq məhsulları istehsalının inkişaf etdirilməsi üçün əvəzsiz yardım (qrant) ayrılmasına dair notalar mübadiləsi Azərbaycana investisiya axınının güclənməsinə səbəb olacaqdır.

"Şimal" buxar-qaz elektrik stansiyasının tikintisi üçün ayrılmış 165 milyon ABŞ dolları məbləğində güzəştli kredit (illik 0,75 faiz haqla 10 il möhlət verilməklə 40 il müddətinə) və EP-300 qurğusunun yenidən qurulması üçün 94,4 milyon ABŞ dolları məbləğində güzəştli şərtlərlə ayrılmış vəsait (illik 2,5 faiz haqla 10 il müddətinə və kreditin həmin qurğuda istehsal olunacaq hazır məhsul hesabına ödənilməsi şərti ilə) ölkəmizin sənaye potensialının artmasına kömək edəcəkdir.

Bundan başqa, Yaponiya hökumətinin Azərbaycana ərzaq məhsulları istehsalının inkişafı üçün 3,2 milyon ABŞ dolları məbləğində qrant verməsi, tibbi ləvazimat və avadanlıq alınması üçün 2 milyon ABŞ dolları məbləğində əvəzsiz köməyi və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı vasitəsi ilə təmənnasız humanitar yardım etməsi təklifi səfərin konkret nəticələri kimi diqqətəlayiqdir.

Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müdrik və uzaqgörən dövlət siyasəti nəticəsində gündən-günə inkişaf edərək dünya ölkələri arasında öz layiqli yerini tutan müstəqil Azərbaycanın milli iqtisadiyyatının parlaq gələcəyindən xəbər verir.

# MÜNDƏRİCAT

Ön söz ........................................................................... 3

*I fəsil*

Azərbaycanın sosial-iqtisadi inkişafında Heydər Əliyevin rolu

1.1. 70-ci illərin əvvəllərində Azərbaycanda sosial-iqtisadi durum ........................................................ 13
1.2. 1970-1982-ci illərdə Azərbaycanda sosial-iqtisadi inkişaf meylləri və dinamikası ........................................ 19
1.2.1. İqtisadi artım və dinamik yüksəliş ........................... 19
1.2.2. Sosial inkişaf meylləri ............................................ 33
1.3. 70-ci illərdə Azərbaycanın milli iqtisadiyyatının formalaşması və inkişafı ................................................... 48

*II fəsil*

Heydər Əliyev Azərbaycanın milli mənafeyinin müdafiəçisidir

2.1. Heydər Əliyev siyasi və mənəvi təzyiq illərində .............. 73
2.2. Moskvada yüksək dövlət vəzifəsində işlədiyi dövrdə Heydər Əliyevin Azərbaycan iqtisadiyyatına qayğısı .... 93
2.3. Heydər Əliyevin Naxçıvan fəaliyyəti: Azərbaycanın sosial-iqtisadi tənəzzülü qarşısında ilk sipər ................. 103

*III fəsil*

Heydər Əliyevin iqtisadi inkişaf konsepsiyası

3.1. Azərbaycanda sosial-iqtisadi böhran, onun xüsusiyyətləri və nəticələri ................................................... 131
3.2. Heydər Əliyevin dövlət quruculuğu strategiyası və iqtisadi inkişaf konsepsiyası ........................................ 142

3.3. İqtisadi islahatların Heydər Əliyev metodologiyası ........ 175

*IV fəsil*
İqtisadi islahatların üstün istiqamətləri

4.1. Yeni mülkiyyət münasibətləri iqtisadi islahatların əsasıdır ........ 187
4.2. Heydər Əliyev və aqrar islahatlar ........ 201
4.3. Maliyyə, vergi və bank sisteminin təkmilləşdirilməsi ... 230

*V fəsil*
Azərbaycan iqtisadiyyatında xarici iqtisadi əlaqələrin rolu

5.1. Heydər Əliyevin iqtisadi strategiyasında xarici iqtisadi əlaqələrin yeri ........ 261
5.2. Heydər Əliyevin ABŞ-a rəsmi səfərinin Azərbaycan iqtisadiyyatında tarixi rolu ........ 279
5.3. Neft: problemlər və perspektivlər ........ 311

*VI fəsil*
İslahatlar əhalinin rifahını yüksəltməyin rəhnidir

6.1. İqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı mübarizə . 339
6.2. İqtisadi islahatların sosial yönümü Heydər Əliyevin iqtisadi strategiyasının əsas xüsusiyyətidir ........ 358

*Əli Teymur oğlu Nağıyev,*
*Vahid Tapdıq oğlu Novruzov,*
*Həsən Bəkir oğlu Allahverdiyev,*
*Əli Qənbərəli oğlu Əlirzayev*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN İQTİSADİYYATI

Bakı–Azərnəşr–1998

Redaktoru *T. Məmmədov*
Rəssamı *R. Əzizov*
Texniki redaktoru *Z. Nəcəfova*
Fotolar *R. Bağırovundur*

Formatı 60x88 1/16. Ofset kağızı 1.
Qarnitur «Tayms». Şərti cap vərəqi 23,94. Uçot-nəşr vərəqi 23.
Sifariş 54. Tirayı 550.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi.
Azərbaycan Dövlət Nəşriyyatı «Azərnəşr».
Bakı, 370005, H. Hacıyev küçəsi, 4.
«Şərq-Qərb» mətbəəsində cap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.